ZƏMİNƏ XINALI

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

*4*

*CİLDDƏ*

BAKI «TƏKNUR» 2014

ZƏMİNƏ XINALI

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

## III CİLD

BAKI «TƏKNUR» 2014

**Redaktor:** **Tariyel Abbaslı**
*filologiya üzrə fəlsəfə doktoru*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü*

**Zəminə Xınalı. Seçilmiş əsərləri. 4 cilddə, III cild,** Bakı «Təknur» nəşriyyatı, 2014, səh.???

***XX əsrin 70-ci illərində ədəbiyyata gəlmiş Zəminə Xınalı 24 kitabın müəllifidir. Şairənin oxuculara təqdim olunan bu kitabı, 4 cildlik «Seçilmiş əsərləri»nin III cildidir. Bu cildə şairənin H.Əliyevə həsr etdiyi "Hərbi məktəblərin banisi", 20 yanvara həsr olunmuş publisistik qeydləri, şairəyə həmkarlarının ithaf etdiyi şeirləri və ədəbiyyatşünas, alim T.Abbaslının Zəminə Xınalıya həsr etdiyi monoqrafiyası verilmişdir.***

***Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.***

**ISBN: 978-9952-445-06-7**

**© Zəminə Xınalı**

# HƏRBİ MƏKTƏBLƏRİN BANİSİ

***(Ümummilli Lider Heydər Əliyevə həsr olunur)***

Azərbaycan xalqı dərin kökləri olan zəngin tarixə və mədəniyyətə malikdir. Əcdadlarımızın qoyub getdiyi mənəvi xəzinəni öyrənmədən biz Azərbaycan mədəniyyəti, onun tarixi, inkişaf yolları haqqında böyüməkdə olan gənc nəsillərdə tam təsəvvür yarada bilmərik.

Gənclərimiz tarixi qəhrəmanlarımızla tanış olduqca onlara oxşamaq amalı, vətəni sevmək arzuları ilə yaşayırlar.

Zaman-zaman yeraltı və yerüstü sərvətilə və bir də əsrarəngiz təbiətilə yadellilərin gözlərini qamaşdıran Odlar diyarı Azərabaycan torpağı Ulu Öndər Heydər Əliyevin məharətinə güvənən oğullarımızın hünəri sayəsində varlığını qoruyub saxlaya bildi.

Qədirbilən xalqımızın fəxri, vüqarı, müstəqil Azərbaycanımızın şöhrətini göylərə qaldıran, fenomen zəkası,ağlı və müdrikliyi ilə dünyanı heyrətə salan Ulu Öndərimiz Heydər Əlirza oğlu Əliyev bu günümüzün və gələcək tariximizin şəxsiyyətidir.

Dahi sərkərdəmiz, Ulu Öndərimizin ad günü münasibətilə yazdığım "Heydər atamız"adlı şerə Azərbaycan Bəstəkarlar İttifaqının üzvü bəstəkar Azər Dadaşov mahnı bəstələmişdi. Ulu Ondərimizin 75 illik yubileyi ərəfəsində həmin mahnı xalq artisti Elxan Əhədzadənin ifasında oxunmuşdu. Mahnının mətni belədir:

***Azərbaycan adını,***
***Azərbaycan xalqını,***
***Dünyaya tanıtdıran,***
***Heydər atamız oldu.***

***Sinəndə köz də yansa,***
***Dilində söz də yansa,***
***Qarşında kim dayansa,***
***Yaşa, ey Odlar yurdu.***

***Tanrı sənə yetirib,***
***Heydər kimi bir oğlu.***
***Keşiyində dayanıb,***
***Basılmaz ,igid ordu.***

***Damarında türk qanı,***
***Axan Heydər özüdür.***
***Bütün türk dünyasında,***
***Atatürklə özüdür.***

Ümummilli liderimiz,Ulu Öndərimiz elə bir şəxsiyyətdir ki, tarix belə şəxsiyyətləri ancaq min ildə bir dəfə bəşəriyyətə bəxş edir.

Ulu Öndərimiz bütöv bir eradır,onun səksən illik ömür yolu qalibiyyət rəmzi,yenilməzlik simvoludur. Ulu Tanrının Azərbaycan xalqına bəxş etdiyi Öndərimiz böyük siyasi xadim, qüdrətli dövlət başçısı,həm mənsub olduğu xalqın xilaskarı,həm də müdrik ağsaqqalı idi. Bütün həyatını xalqının xoşbəxtliyinə həsr edən,ən çətin anlarda belə hadisələri ram etməyi bacaran,müstəqil ölkəmizin imzasını imzalar içərisində tanıdan Ulu Öndərimiz Tanrının bizə ən böyük töhfəsidir.

İyirminci yüzilliyin əvvəllərində:

***Kəssə hər kim tökülən qan izini,***
***Qurtaran dahi odur yer üzünü...***

- deyən ustad şairimiz Hüseyn Cavidin istəyini əsrin sonlarında gerçəkləşdirən Ulu Öndərimiz, gözüyaşlı ana-bacılarımızın da intizarına,fəryadına son qoydu. Deyirlər möcüzələr yalnız nağıllarda olur,ancaq Heydər Əliyev az bir müddət ərzində sözün həqiqi mənasında möcüzələr yaratdı, Azərbaycan vətəndaşlarının sabaha ünvanlanan ümidlərini özlərinə qaytardı. Elmin,səhiyyənin və mədəniyyətin böhranlı vəziyyətdən çıxarılması naminə gərəkli addımlar atdı. Ən başlıcası isə Milli ordumuzun döyüşkən ruhunu özünə qaytarmaq üçün onu yenidən qurmağa başladı.

“Mən Azərbaycan Milli ordusunun gücünə inanır, Azərbaycan əsgərinə güvənirəm” - deyən ümummilli liderimiz bu sahədə yetərincə işlər gördü.

O qanlı-qadalı illərdə ordu quruculuğunu uğurla davam etdirib,vətəni,ana torpağı qəlbən sevən igid əsgərlərimizə zəfər qazanmağın yollarını nişan verən Ali Baş Komandanımıza fəxarət hissiylə ünvanladığım bir şerimin xoş ovqatı ilə indiki çağlarımda da özümü ovundurur,şəhidliyin ağrı-acıları ilə üzləşən,taleyimə şəhid qadını olmaq şərəfi yazılan bir Azərbaycan vətəndaşı kimi, Azərbaycan ordusunun əsgəri kimi əzəmətli misralarıma üzümü təzədən söykəyirəm:

***Səni soraqlayırdı,***
***İllər boyu gözümüz.***
***Gəlişinlə təzədən,***
***Güldü bizim üzümüz.***
***Əzəmətin,vüqarın,***
***Fəxrim,iftixarımdır.***
***Hər mübarək addımın,***
***Əbədi baharımdır.***

*Andım,şərəfim,şanım,*
*Ali Baş Komandanım.*

*Durdun düşmən önündə,*
*Yenilməyən dağ kimi.*
*Barlısan,bəhərlisən,*
*Anamız torpaq kimi.*
*Ümman kimi güclüsən,*
*Ərşi titrədir səsin.*
*İsidir qəlbimizi,*
*Hərarətli nəfəsin.*
*Yaşa ürəyim,canım,*
*Ali Baş Komandanım.*

*Yollarına göz dikən,*
*Ellər səni oxşayır.*
*Adını əzizləyən,*
*Dillər səni oxşayır.*
*Səni bizə bəxş edib,*
*Bir xoş müjdə Allahım.*
*Gəlişinlə təzədən,*
*Çiçək açdı sabahım.*
*Sülh soraqlı ünvanım,*
*Ali Baş Komandanım.*

*Torpağı naxışlayan,*
*Qədəmlərin var olsun.*
*Ulu Tanrım həmişə,*
*Sənə arxa,yar olsun.*
*Müstəqil vətənimdə*

***Rəmzim ,simvolum mənim.***
***Sərkərdəm,xilaskarım,***
***Azadlıq yolum mənim.***
***Varlığına güvənir,***
***Anam Azərbaycanım.***
***Mənim dünya şöhrətli,***
***Ali Baş Komandanım.***

Ali Baş Komandanımız,Ulu Öndərimiz cəbhə bölgələrinə gedib soyuq səngərlərdə yurda keşik çəkən vətən oğulları ilə tez-tez görüşdüyündən, həmişə onlarla bir yerdə olduğundan, milli ordumuzun döyüşkən ruhunu, Azərbaycan əsgərinin qətiyyətini görən düşmənlərimiz geri çəkilməyə, məkrli planlarından əl çəkib danışıqlar masası arxasında əyləşməyə məcbur oldular.

Heydər Əliyev əzəmətinin işığına sığınanlardan biri də mən oldum. Mərhum prezidentimiz çətinlik qarşısında qalan xalqımıza yiyə durub milli ordumuzun qələbə əzmini özünə qaytardığı günlərdə aşağıdakı şerimi yazdım:

***Tükənməyən həvəsi var,***
***Dilində haqq kəlməsi var.***
***Hər könüldə müjdəsi var,***
***Qayıdıbdır yurda Heydər.***
***Dahi, müdrik, Ulu Öndər.***

***Ah-nalə çıxanda göyə,***
***Qayıtdı-burdayam deyə.***
***Son qoydu qəmə-qüssəyə,***
***Məlhəmdir hər dərdə Heydər.***
***Dahi, müdrik, Ulu Öndər.***

***Şölə saçan bir ocaqdır,***
***Sevgisi saçaq-saçaqdır.***
***Arxa,dayaq olacaqdır,***
***Hər ərənə,mərdə Heydər.***
***Dahi, müdrik,Ulu Öndər.***

***Hoydu,düzlən mənim ordum,***
***Deyin düşmən bağrı yardım.***
***Dilə gəlir ana yurdum,***
***Göydə Allah, yerdə Heydər.***
***Dahi ,müdrük,Ulu Öndər.***

Vətən candan əzizdir. Müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin davamçıları məhz vətən sevgisini əbədiyaşar, adı bəşər tarixində yaddaşlarda həkk olunan Ali Baş Komandanımızdan öyrəndilər və zaman-zaman da öyrənəcəklər.

Heydər Əliyev demişdir: - «Mən balaca bir evdə, zəhmətkeş ailəsində, bir yaz günü dünyaya göz açmışam. Anadan olanda yəqin ki, beş-on, uzağı otuz-qırx nəfər sevinib. İndi bəlkə də, bir qədər qeyri-təvazökar səsləndi, amma deməliyəm ki, anam məni bütövlükdə Azərbaycanımız üçün dünyaya gətirib. Doğma canım, varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm. »

Tarixi şəxsiyyət – Ulu Öndər Heydər Əliyev nəsillərin yaddaşında yaratdıqları və həyatda qoyub getdikləri tarixi abidələrlə əbədiləşdi.

Kiçik bir məmləkət, odlar diyarı Azərbaycanı bütün dünyaya tanıtdıran Heydər atamız oldu.

***Yadlara baş əyməyən,***
***Şah vüqarlı dağımsan.***
***Mənim bahar nəfəsli,***
***Varlığım,torpağımsan.***
***Dünyamızı dolaşan,***
***Üçrəngli bayrağımsan.***
***Hamı heyran qalıbdı,***
***Yurdumdakı büsata.***
***Alqış əzəmətinə,***
***Sağ ol,ay Heydər Ata!***

***Yenilməz ordumuzun,***
***Baş sərkərdəsi sənsən.***
***Vətənimin əbədi,***
***Ünvanı,səsi sənsən.***
***Gəlişinlə gör necə,***
***Nur vermisən həyata,***
***Arzuda,diləkdəsən,***
***Sağ ol,ay Heydər Ata!***

***Bir uzaq səfərdəsən,***
***Yolun haqqın yoludur.***
***Sənin əzəmətindən,***
***Dünyamız da halıdır.***
***Mübarək ismin,adın,***
***Vətənin simvoludur.***
***Üzümüzü tutmuşuq,***
***Biz bu müqəddəs ada,***
***Sağ ol,ellər atası,***
***Sağ ol,ay Heydər Ata!***

Onun məqsədyönlü və gərgin əməyinin, zəhmətinin sayəsində xalqımızda xoş gələcəyə, sabaha inam, vətənpərvərlik, torpağa, bayrağa, vətənə sevgi əzmi yarandı. Gənclərimizin milli ruhda, milli-mənəvi dəyərlər əsasında tərbiyələndirilməsini vacib sayan Heydər Əliyev göstərirdi ki, gənclərimiz tariximizi yaxşı bilməlidirlər, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz.

Bu müqəddəs yolda xalqımızı əsrdən-əsrə tarixi bir şəxsiyyət – Azərbaycan xalqının fəxri,vüqarı, Azərbaycan xalqının böyük oğlu, ölkənin müstəqilliyinin sükanını çətin fırtınalardan uğurla keçirən Heydər Əliyev oldu.

Müstəqilliyimizin baş memarı,azadlıq yolumuzun sönməz günəşi olan Ulu Öndərimiz milli ordumuzun qüdrətli və döyüşkən olması naminə önəmli addımlar atdı. Azərbaycan ordusu müstəqilliyimizin, doğma vətənimizin etibarlı keşikçisidir deyən ümummilli liderimiz öz vəzifə borcunu şərəflə yerinə yetirən,lazım gələrsə vətən yolunda şəhid olmağı bacaran Azərbaycan əsgəri və zabitlərinə ömrü boyu diqqət və qayğı göstərərək, vətənə layiqli xidmətlərinə görə onları ali hərbi rütbələrə,orden və medallara layiq gördü.

Ulu öndərimizin siyasi kursunu davam etdirən müstəqil Azərbaycan dövlətinin prezidenti möhtərəm İlham Əliyev də yurda keşik çəkən vətən övladlarından qayğısını əsirgəmir.

Azərbaycan xalqının dahi oğlu, Ulu Öndəri Heydər Əliyev Azərbaycan dövlətçiliyinin dünəni, bu günü, sabahı və ən ümdəsi parlaq hərb günəşidir. O, tarixin şanlı səhifələrini əməli və dönməz əqidəsi ilə yazdı, yaratdı və gələcək nəsillərə tükənməz xəzinə kimi ərməğan etdi. Ömrünü-gününü Azərbaycan xalqının bu günü, sabahı və gələcəyi naminə şam kimi əritdi. Onun ömür yolu xalqa, vətənə layiqli xidmətləri

ilə öz əksini tapdı.

Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin tarixi salnaməsinin yaradıcısıdır. Qısa bir müddət ərzində vətənimiz odlar diyarı Azərbaycanda hərb ocaqlarını yaratdı və böyüməkdə olan oğul balalarımıza atalıq qayğısı göstərərək hərbi təhsil almaqları üçün qollarından tutdu, həyatda düzgün, işıqlı yol göstərdi. Cəsarətli, məğrur olmağı, vətəni sevməyi, torpaqlarımızı qorumağı tövsiyyə etdi. Bax onda, xalqımızın bəxtinə gün doğdu, oğullarımız hərbin sirlərini ixtisaslı zabit kimi öyrəndilər.

Ulu Öndər – əbədi Ali Baş Komandanımız Heydər Əliyevin uzaqgörən daxili və xarici siyasəti sayəsində Azərbaycan iqtisadi, ictimai-siyasi, mənəvi-mədəni həyatın bütün sahələrində böyük ad qazanaraq bütün dünyada tanındı. H. Əliyev dühasına, ucalığına bütün dünya xalqları heyran qaldı. Ulu öndər öz mərdliyi, iradəsi və Tanrının bəxş etdiyi gücü və istedadı ilə dahilik zirvəsinə ucaldı. Əlçatmaz zirvələri fəth edən Ulu Öndər Heydər Əliyev belə demişdir:

- Görünür təbiətin özü mənə hansısa bir qüvvə verib. Xarakterim isə qüvvə və bacarığımı səfərbərliyə almağa vadar edir.

Xalqın birliyinin sarsılmazlığından, mətinliyindən iftixar edən Ulu Öndərimiz Heydər Əliyev demişdir:

- Gəlin hamımız əl-ələ verək müstəqil Azərbaycanı, böyük Azərbaycan xalqının binasını, möhtəşəm binanı birlikdə gözəl tikək.

Heydər Əliyev halal əməyinə tapınıb, halal çörək qazanan ailədə dünyaya göz açdığından sadə zəhmət adamlarının, şəhid övladlarının, kimsəsizlərin, bilikli,bacarıqlı, hər bir Azərbaycan vətəndaşının dayağı idi.

Vətənimizin neçə-neçə oğul və qızlarının vətəndə və vətəndən kənarda ali təhsil almaları üçün qollarından tutub, həyat yollarında düzgün yol göstərib Heydər Atamız – Ulu Öndərimiz!

Xalqımızın fəxri, səcdəgahı sönməyən günəş kimi qibləgahımız, ümid yerimiz idi Heydər Atamız, Ulu Öndərimiz, Hərb Günəşimiz!

Dahilər dahisi Heydər Əliyev dönə-dönə belə demişdi: - «Mən həyatımın qalan hissəsini də öz xalqıma həsr edəcəyəm» və «Heç bir qüvvə Azərbaycanın müstəqilliyini əlindən ala bilməz, bundan sonra heç bir qüvvə Azərbaycanın dövlətçiliyini məhv edə bilməz».

Uca dağ qədər vüqarlı, əlçatmaz səma qədər ucalardan uca Heydər Atamız, Ulu Öndərimiz, Hərb Günəşimiz, əbədi liderimiz millətini beynəlxalq cəmiyyətdə təmsil edən yeganə dövlət xadimi idi. Azərbaycan tarixinin şanlı səhifələrinin banisi idi.

Bu barədə Ulu Öndər Heydər Əliyev belə demişdir:

- Xalqla ordunun birliyi həm xalqın qüdrətini, həm ölkənin qüdrətini artırır, həm də ordunu daha da qüvvətli edir. Hər bir dövlətin qüdrətini ordu ilə xalqın vəhdəti, birliyi təşkil edir.

Heydər Əliyev hər zaman qurdu,yaratdı, yaratdığı ucalıqlar içərisində əbədiləşdi. O, Azərbaycan xalqının ər oğullarının qorxmaz, cəsarətli, mətin yetişməsi üçün kişilik,mərdlik ocaqları yaratdı.

Hər bir evdə, hər bir eldə, hər bir obada atalar, analar oğullarını hərbi geyimdə gördükdə Heydər Əliyevə minnətdar oldular.

Heydər Əliyev çətin bir zamanda böyük əziyyətlər baha-

sına yaratdığı hərb ocaqlarında təhsil alan Azərbaycan övladlarının hər birini öz övladı qədər sevdi və onlara baxıb fəxr edirdi.

O, Azərbaycan xalqına vətən, torpaq, bayraq sevgisi ilə yanaşı qürurlu, möhkəm və iradəli olmağı öyrətdi.

Xalqın yolunda min bir əziyyətə qatlaşan Heydər Əliyev bu yolda yorulmadı. Hər kəsin qolundan tutdu, hər bir Azərbaycan vətəndaşına dayaq oldu.

«Ordunun yaradılması torpaqlarımızın müdafiəsinin və Azərbaycanın ərazi bütövlüyünün əsas şərtlərindən biridir» – deyərək Ulu Öndər Heydər Əliyev atalarını vətən yolunda itirmiş vətən oğullarının hərbi məktəblərdə oxuduqları illər ərzində onlara dayaq oldu və atalıq qayğısını əsirgəmədi.

Ulu Öndərin qüdrəti qarşısında mənfur düşmənlərin aciz qaldıqlarını görən hər kəsin ürəyinə Heydər Əliyev sevgisi hopdu.

Heydər Əliyev belə demişdir:

- Orduya qayğı, hörmət cəmiyyətin, xalqın şərəfli vəzifəsidir.

Hərbi hissələrdə, ön cəbhələrdə əsgəri xidmətdə qulluq edən vətən oğullarına Ali Baş Komandan dəfələrlə şəxsən özü qiymətli hədiyyələr bağışlamışdı.

Müdrik kəlamların banisi Heydər Əliyev həmişə deyirdi:

- «Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var. Hər bir peşə şərəflidir. Ancaq vətəni qorumaq peşəsi hər bir peşədən üstündür, şərəflidir».

Bu gün ordu quruculuğunda mətin oğulların vətənə sədaqət andı, şücaəti, nizam-intizamı, işğal altında olan torpaqlarımızın azad olunacağı gündən xəbər verir.

Ordumuzun mətinləşməsi heç də öz-özünə yaranmadı.

Ordu quruculuğunun banisi Ali Baş Komandan, əbədiyaşar liderimiz H.Əliyevin bu sahədəki şərəfli xidməti bütün dünyaya bəllidir.

Heydər Əliyev tarixin şanlı səhifələrini polad iradəsilə yazdı. Orduya, təhsilə, mədəniyyətə dövlət qayğısı gənc nəslin vətənə gərəkli böyüməsi üçün zəmin yaratdı.

Bu böyük insan yaradıcı insanlara hər zaman qayğı göstərmişdir. Dahi şəxsiyyətlərin ev muzeylərinin yaradılmasına xüsusi diqqət yetirmiş və hər bir muzeyin açılışında iştirak etmiş və geniş məzmunlu nitqlər söyləmişdir.

Səməd Vurğunun, Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin, Üzeyir Hacıbəyovun, Cəfər Cabbarlının, Bülbülün, Məmməd Səid Ordubadinin, Nəriman Nərimanovun, maestro Niyazinin xatirə muzeylərinin yaradılmasında və bu muzeylərdəki mədəni irsimizin bu günə qədər gəlib çatması Heydər Əliyevin zəhməti sayəsində mümkün olmuşdur.

Heydər Əliyev hər zaman Azərbaycan xalqı ilə fəxr edərək belə demişdir:

- «Mənim həyatımın məqsədi və mənası Azərbaycan, Azərbaycan xalqıdır, Azərbaycan vətəndaşıdır. Əgər mən buna nail ola bilsəm ən xoşbəxt adam kimi həyatımı başa çatdıracam. Buna nail olmağa çalışıram və çalışacam».

Sənət adamlarını və insan ömrünü,əməyini qiymətləndirən Ulu Öndər Heydər Əliyev hər bir vətənini sevən, ürəyində bayraq, torpaq, millət sevgisi olan Azərbaycan övladı ilə fəxr edirdi.

Heydər Əliyev Mehdi Hüseynzadə haqqında kəlamlarının birində belə demişdir:

- «Azərbaycan xalqının igid oğlu, adı dillər əzbəri olan partizan, kəşfiyyatçı, Sovet Ittifaqı Qəhrəmanı Mehdi Hüsey-

nzadənin Bakıda ucaldılmış abidəsi vətənimizi qorumaq üçün canından keçmiş qəhrəmanlara ümumxalq hörmət və məhəbbətinin parlaq ifadəsidir».

İkinci Dünya Müharibəsində, hərbi münaqişələrdə, Çexoslovakiya, Macarıstan, Əfqanıstan hadisələrində, 20 Yanvar 1990-cı il qırğınında, torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə, Qarabağ müharibəsində həlak olmuş, itkin düşmüş, aldığı yaralardan vəfat etmiş vətən övladlarının, Azərbaycanın şanlı oğul və qızlarının əziz xatirəsinə həsr olunmuş Azərbaycan Respublikasının xatirə kitabı da Ulu Öndər H. Əliyevin təşəbbüsü ilə nəfis tərtibatda çap olunmuş və bu gün hər bir evdə, eldə, obada yetişməkdə olan gənc nəslin hərbi vətənpərvərlik ruhunda böyüməsində böyük və əvəzedilməz bir mənbədir.

Torpaq uğrunda canlarından keçən hər bir vətən övladının məzarı müqəddəsdir. Məhz buna görə də H.Əliyev müqəddəs şəhidlər xiyabanının ziyarətgaha çevrilməsini və abadlaşdırılmasını daim diqqət mərkəzində saxlamışdır.

Qanlı müharibədə şəhidlik zirvəsinə ucalmış hər bir vətən övladının müqəddəs adlarını yaddaşlarda həkk etdirən, hünər və rəşadətlərini gələcək nəsillərə yetirən Heydər Əliyev oldu.

«Torpaq uğrunda ölən varsa, vətəndir». Əzəli və əbədi yurd sevgisi, vətən məhəbbətilə döyüşlərə atılan vətən övladlarının adını ehtiramla yad etmək üçün «Xatirə» kitabını vərəqləyərkən təsadüfən 294-cü səhifəni açdım və həyat yoldaşımın adını oxudum, soyuq qış gecəsinin qaranlığında sanki mənzilimdə günəş doğdu, gözlərimə inanmadım, dönüb-dönüb təkrarən bir də oxudum. Sanki «Xatirə» kitabı dil açıb mənimlə danışırdı. Kitabı oxuyarkən kədər hissi ilə

yanaşı ürəyimdən qürur hissi də keçdi. Kitab mənə çox şeylər dedi. Hörmətli yazıçı-publisist Nahid Hacızadənin dili ilə desək:

- «Sahili bilinməyən ürək yanğısı, böyük qürur duyğusu, vətənpərvərlik coşqusu da!.. »

Əllərimi Tanrı dərgahına açıb gecənin qaranlığında məni öz müqəddəs amalları ilə sevindirən Ulu öndərimizə Tanrıdan rəhmət dilədim. Hər zaman kimsəsizlərə, tənhalara dayaq olan Öndərim! Ruhun qarşısında baş əyirəm, Ulu Öndərim!

Bu gün yoxluğunla barışa bilməyən hər bir Azərbaycan övladı müqəddəs məzarın qarşısında baş əyir:

***Azəri yurdunun gələcəyinin,***
***Qurub yaradanı Heydər Əliyev.***
***Şanlı məktəblərin, hərb ocağının,***
***Parlayan günəşi Heydər Əliyev.***

***Əbədi məşəl tək yanan ocağın,***
***Azəri yurdunu nura bələyər.***
***Tanrı dərgahında adın müqəddəs,***
***Məzarın önündə hər kəs baş əyər.***

Müstəqil Azərbaycan dövlətinin əbədiliyinin təmin olunmasının, dünya azərbaycanlılarının bir amal ətrafında birləşməsi kimi tarixi bir missiyanın da banisi Heydər Əliyevdir.

«Azərbaycanın Avropa şurasına üzv qəbul edilməsi», «İpək yolunun bərpası», «Əsrin müqaviləsi», «Neft kontraktının imzalanması» -bütün bunlar hamısı Heydər Əliyevin əməyinin bəhrəsidir. Ən əsası o, odlar diyarı Azərbaycanda böyüməkdə olan gənc nəslin gələcək günlərinin firavan ola-

cağından,xoşbəxt yaşamasından xəbər verir.

Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə vətənimizin əsrlərə bərabər tərəqqisinə, bütün dünyada məşhurlaşaraq, özünə layiqli yer tutmasına nail olan qüdrətli Ulu Öndər Heydər Əliyev şəxsiyyəti bizlər və dünya durduqca yetişməkdə olan gənc nəsillər üçün əbədi günəş qədər müqəddəs və əzizdir.

Heydər Əliyev nəhəng tarixi şəxsiyyət, görkəmli siyasi xadim, Azərbaycanın qeyrət və müdriklik simvoludur. Ali Hərbi Məktəblərdə təhsil alan kursantlar Heydər Əliyev ideyalarının davamçısı, Ali Baş Komandan cənab İlham Əliyevin ordumuza göstərdiyi misilsiz qayğıdan İlhamlanaraq, Ulu Öndərimizin etimadını doğrultmağa çalışırlar.

Heydər Əliyev qüdrətli ordu quruculuğunu praktiki şəkildə gerçəkləşdirməklə yanaşı həm də onun siyasi-ideoloji bazasını, mənəvi-əxlaqi bünövrəsini, strateji istiqamətlərini müəyyənləşdirdi, elmi-nəzəri sahədə ən dəyərli işlər gördü. Bax elə ona görə də əbədiyaşar prezidentimizin müdrikliyinin, parlaq zəkasının, saf əməllərinin və arzularının davamçıları olmaq bizim üzərimizə düşür.

Ulu Öndər Heydər Əliyev Azərbaycanı ən çətin sınaqlardan, dəhşətli faciələrdən öz ömrü bahasına xilas etdi. Ən əsası Milli Ordumuzun inkişafını təmin etdi. Formalaşmış nizam-intizamlı ordunun başında qüdrətli sərkərdə, güclü bir şəxsiyyət, Ulu Öndər, yenilməz liderimiz H. Əliyev durdu. Belə bir ordunun sıralarında xidmət etmək, vətənə övladlıq borcunu ödəmək üçün can atanların, orduda könüllü xidmət etmək istəyənlərin sayı günbəgün artdı.

Bu müqəddəs yolun yolçuları vətən torpağını azad etməyə qadir əsgər kimi Heydər Əliyev dühasında yetişdilər.

Heydər Əliyevin parlaq zəkası ordu quruculuğunda böyük irəliləyişlər,xalqda orduya qarşı möhkəm inam və sevgi yaratdı.

Onun əməyi sayəsində orduda yaranan hər bir uğur, yenilik, güclü nizam-intizam bizim hər birimizin qəlbində böyük iftixar hissi yaratdı. Ali Baş Komandan hər zaman bir vəzifə olaraq tövsiyyə edirdi ki, Azərbaycanın güclü ordusunu yaratmaq ümumxalq işi olmalıdır. Yəni hər kəs cəmiyyətdə tutduğu mövqeyindən, mənsubiyyətindən asılı olmayaraq ordu quruculuğuna layiqli töhfəsini verməlidir.

Heydər Əliyev Azərbaycan torpağında, Azərbaycan xalqının parlaq günəşi kimi öz nurundan hər kəsə pay, vətənsevərlərin qoluna güc verdi. Ulu Öndərə – El atasına, gücü-qüdrəti isə göydə Ulu Tanrı, yerdə xalqın sevgisi bəxş etmişdi.

Heydər Əliyevi Ulu Tanrı dünyaya adi bəşər övladı kimi deyil, Azərbaycan xalqının xilaskarı kimi göndərmişdi. Xalqımız ən çətin və məşəqqətli günlərində Ulu Öndərimizdən kömək dilədi. H. Əliyev xalqa kömək əlini uzatdı və insanları dəhşətli uçurumlardan xilas etdi. O, Azərbaycan dövlətçiliyinin yaradıcısı, dövlət müstəqilliyimizin, ərazi bütövlüyümüzün, demokratik dəyərlərimizin qarantı, xilaskarlıq, quruculuq missiyasını gerçəkləşdirən bəşər tarixində yeganə tarixi şəxsiyyətdir. Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun güclənməsi, dünyanın tanınmış siyasətçilərinin Azərbaycana münasibəti, onun qiymətləndirilməsi – bütün bunlar xalqımızın böyük oğlu Heydər Əliyevin Azərbaycan xalqı qarşısında qızıl hərflərlə tarixin yaddaşında həkk olunacaq xidmətləridir.

Azərbaycan dövlətçiliyinin yaradıcısı və xilaskarı Heydər

Əliyev Azərbaycan xalqını daim xoşbəxt, firavan görmək arzusu ilə çalışırdı. Zülmət qaranlıqdan xalqı işıqlı yola çıxaran Heydər Əliyev yolu bizim əbədi və tarixi yolumuzdur.

Heydər Əliyev irsini qoruyub saxlamaq, onun ideyalarını həyata keçirmək bütün Azərbaycan xalqının borcudur. Bu gün fərdi əsgəri keyfiyyətlərinə malik olan, ordu-millət ənənələrini yaşadan Azərbaycan ordusu H. Əliyev ideyalarından ruhlanaraq Qafqazda qüdrətli Azərbaycan ordusuna çevriləcəkdir. Müstəqilliyimizin və ərazi bütövlüyümüzün əbədi qoruyucusu – Azərbaycan ordusu Heydər Əliyevin qurub-yaratdığı ordudur.

Müstəqil dövlətimizin atributlarından olan Silahlı Qüvvələrimiz haqqında Heydər Əliyev demişdir:

- «Bizim ordumuz bu gün Azərbaycanın müstəqilliyinə yönəldilmiş hər hansı bir qəsdə layiqli cavab verməyə hazırdır».

Bəli,zəngin, qüvvətli və müstəqil Azərbaycan ordusu xalqımızın qürur mənbəyi olacaqdır. Vətənin müdafiəsində dayanan şanlı vətən oğulları sizin vəzifəniz çətin olduğu qədər də müqəddəsdir.

Əzəmətli hərb ocaqlarının banisi Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin ordusunu güclü dövlətlərin orduları səviyyəsinə çıxartdı. Bu gün isə ordumuzun Ali Baş Komandanı İlham Əliyev Heydər Əliyev ideyalarını uğurla həyata keçirərək Azərbaycan Ordusunun daha da qüdrətli olması üçün əlindən gələni edir. Bəli – «Ot kökü üstündə bitər» - deyib babalarımız. H. Əliyev yadigarı hörmətli prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyev xalq tərəfindən sevilir və bu sevginin məhəbbəti nəticəsidir ki, orduda sağlam qüvvələr yaranır və daim yaranacaqdır. Ali Baş Komandan, Ulu

Öndərimizin davamçısı İlham Əliyevin H. Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin, Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinin buraxılış mərasimlərində iştirakı ölkəmizdə ümumxalq bayramı kimi qeyd olunmuşdu. Burada sadə zəhmət adamlarından tutmuş ən yüksək vəzifəli ziyalıların övladları H. Əliyevin qurub-yaratdığı hərb ocaqlarının məzunları olurdular. Burada -bu böyük mərasimdə hər kəs sevinirdi. Həmin gün Xəzərin sərin mehi sanki isti yay günlərinə öz xəfifliyi ilə təbiətin əsrarəngiz gözəlliyini gətirmişdi. Sanki həmin gün leytenantlarımızın çiyinlərindəki ulduzlar qızılı rəngini Ulu Tanrı dərgahından və Heydər Əliyev ruhundan nur alaraq bərq vururdu.

Həmin gün hər şey gözəl idi. Valideynlərin üzlərindəki sevinc hissi də, H. Əliyev portretində üzünün cizgiləri də. Gənc leytenantlar yaraşıqlı hərbi formada əllərində müqəddəs üçrəngli bayraqla geniş yaşıl çəmənliyi xatırladan meydana daxil olanda hər kəsin sevincdən gözləri yaşardı. Bu həm sevincdən, həm də kədərdən idi.

Sevinirdilər ona görə ki, Ulu Öndərimiz qısa bir müddət ərzində nizam-intizamlı ordu yaratdı, hərbi məktəblər yaratdı. Bir də savadlı zabitlər yetişdirən hərb ocağının banisi – xalqın atası, Ulu Öndər, dahilər dahisi, müdrik komandanın 2005-ci ilin buraxılış mərasimindəki cismani yoxluğunun kədəri var idi hər kəsin gözlərində.

Hərdən də boylanıb baxırdılar yüksək tribunaya, onun səsi ucalardan, Tanrı dərgahından duyulurdu. Sanki günəş şəfəqlərinə qərq olunmuş Heydər Əliyev ruhu bizi ucalığa səsləyirdi. Səsinin sehri məni ötən illərə apardı, o illərə ki, 2001-ci ilin buraxılış mərasimində hər bir kursanta, hər

bir zabitə ata məhəbbətilə baxıb, fəxr edirdi. Çünki burada yetişən zabitlərin əksəriyyəti H. Əliyevin qurub-yaratdığı C.Naxçıvanski adına Hərbi litseydə təhsil almış və sonra Ali Hərbi Məktəbə daxil olmuşdular. Gənc nəslin hərb sənətinə marağının böyük olmasından Ulu Öndərimiz sonsuz fərəh hissi keçirdiyini dəfələrlə söyləmişdi.

2001-ci ildə Ali Hərbi Məktəbin buraxılış mərasimində Ali Baş Komandan H. Əliyev və ölkəmizdə səfərdə olan Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin Baş Qərərgah rəisi, Ordu Generalı Hüseyn Kıvrıkoğlu mərasimdə iştirak etmək üçün məktəbimizə gəlmişdilər. Həmin gün türk ulduzları eskadriliyasının Bakı səmalarında sülh məramlı uçuşları haqqında Heydər Əliyev demişdir:

- Bu gün bu mərasimi daha da gözəlləşdirən «Türk ulduzları»nın ikinci gündür ki, Azərbaycanın, Bakının səmasında qəhrəmancasına uçuşları oldu.

Biz dünən də, bu gün də Türkiyənin nə qədər qüdrətli, peşəkar, nə qədər inkişaf etmiş Silahlı Qüvvələrinin mövcud olduğunun şahidiyik. Mən «Türk ulduzları»nın Azərbaycana gəlməsi münasibətilə bütün xalqımızın adından, dövlətimizin adından minnətdarlığımı bildirirəm və bəyan edirəm ki, mən onları öz şəxsi hədiyyələrimlə təltif edirəm.

Ulu Öndər Heydər Əliyev Azərbaycan əsgərlərinə türk əsgərlərinə bənzəməyi tövsiyyə etmişdi. Ümummilli liderimiz demişdi:

- Biz artıq bunun canlı şahidiyik ki,Türkiyə Cümhuriyyətinin ağır şəraitdə yaşayaraq inkişaf etməsində və ona qarşı olan təxribatların qarşısının alınmasında, vaxtilə 20-ci illərdə Türkiyə Cümhuriyyətinin yaranmasına mane olan qüvvələrin qarşısının alınmasında türk əsgəri böyük qəhrəman-

lıq, şücaət, vətənpərvərlik nümunələri göstəriblər. Ona görə də bu ənənələri daim inkişaf etdirərək Türkiyə Cümhuriyyətinin Silahlı Qüvvələri indi dünyada ən güclülərdən biri hesab olunur.

Türkiyə Cümhuriyyətinin Silahlı Qüvvələrinin, onun əsgərlərinin bütün başqa keyfiyyətlərdən əlavə ən yüksək keyfiyyəti vətənə, millətə, torpağa daim sədaqət hissi ilə yanaşması və xidmət etməsidir. Bu, hər bir ölkənin əsgərinin borcudur. Dünyada, dünya ölkələrində bu sahədə böyük nümunələr də var. Bu nümunələrdən biri və bizim üçün çox yaxın, əziz olanı türk əsgərinin, Türkiyə Silahlı Qüvvələrinin Türkiyə Cümhuriyyəti yaranandan sonra türk ordusunu daim inkişaf etdirməsidir. Siz də Azərbaycan xalqına xidmət edərək, müstəqil Azərbaycan dövlətinə xidmət edərək, müstəqil Azərbaycan torpağının keşiyində duraraq, xalqımızı sevərək, vətənpərvərlik hissi ilə yaşayaraq, özünüzü qəhrəman, cəsur, qüdrətli bir insan kimi formalaşdırmalısınız və qarşıdan gələ biləcək bütün çətinliklərə hazır olmalısınız.

Xalqımızın fəxri,vüqarı, müstəqil Azərbaycan dövlətini bütün dünyaya tanıtdıran, xalqımızın, dövlətimizin adını ucalardan uca edən, xalqımızın tarixini qoruyub saxlayan, vətən - yurd sevənlərə, elm və mədəniyyət xadimlərinə dəyərli qiymət verən, orduda möhkəm nizam-intizam yaradan yenilməz və təkrarolunmaz sərkərdəmiz, Ulu Öndərimiz Heydər Əliyev oldu. Onun həyat və fəaliyyətinin özü bir məktəbdir. Əqli, iradəsi, əməli,vicdanı saf olan hər kəs Heydər Əliyev ideyalarının davamçısı olmalı, ordu, vətən, xalq üçün çalışmalı, Ali Baş Komandan hörmətli prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşməlidir. Bu gün müstəqil Azərbaycanımızın prezidenti, Heydər Əliyevin layiqli davamçısı

İlham Əliyev müstəqil Azərbaycanın dünyada layiqli yer tutması üçün əzmlə çalışır. O, bütövlükdə Azərbaycan xalqının fəxri olmaqla yanaşı, həm də müstəqil Azərbaycan gənclərinin lideridir.

Müstəqil Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev bacarıqlı diplomat kimi, məntiqli və uzaqgörən, demokratik prinsipləri gözləyən mahir siyasətçi, gənc sərkərdə kimi dünya ölkələrində böyük nüfuz sahibi kimi tanınır.

Azərbaycan xalqının rifahı naminə çalışan Heydər Əliyev davamçısı möhtərəm İlham Əliyevin hər bir uğurlu addımını xalqımız dəstəkləyir, fəxrimiz,vüqarımız kimi alqışlayır, bütün xalq onun arxasınca addımlayırıq.

Xalqımız öz seçimində heç zaman yanılmır. Müstəqil Azərbaycanı sivil ölkələrə qovuşduran Heydər Əliyev ruhu qarşısında hər kəs baş əyir. Ona görə ki,o,müstəqil Azərbaycan Respublikasının vətəndaşlarında milli qürur və milli ruh yaratdı. Gənclərimizi milli vətənpərvərlik ruhunda tərbiyə etdi. O, xalqın atası və möhtərəm müəllimi idi.

Heydər Əliyev müəllim peşəsi barədə demişdir: «Müəllim öyrətməlidir, bilik verməlidir, tərbiyə verməlidir! Müəllim çalışmalıdır ki, uşaq nəinki bilik alsın, həm də ümumiyyətlə bütün əxlaq normalarını, prinsiplərini mənimsəsin və onlara riayət etsin, öz həyatını yüksək əxlaqi dəyərlər əsasında qursun».

Müstəqil Azərbaycan dövlətinin müəllimlərinin ən yaxın dostu sayılan H. Əliyev milli təhsilimizin, onun aparıcı qüvvəsi olan müəllimlərin cəmiyyətdə rolunun artması, müəllimlik peşəsinə olan ehtiram, bu peşənin layiqli davamçılarına olan qayğı və himayə onun öz daxili siyasətində önə

çəkilirdi.

Orta məktəblərdə dərin savada, biliyə malik olan gənclərimizin hərbi məktəblərdə sağlam və bilikli kursant kimi yetişməsi böyük müəllim, dahi şəxsiyyət, əbədiyaşar Ali Baş Komandan Heydər Əliyevin gərgin zəhmətinin nəticəsidir. Elə ona görədir ki, gündən-günə möhkəmlənən Silahlı Qüvvələrimizin şəxsi heyəti, zəngin döyüş təcrübəsinə malik zabit, kursant və əsgərləri var.

Bu gün tarixin yaddaşında əbədi iz qoyan ulu öndər Heydər Əliyevin qurub yaratdığı Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində, Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbində, C. Naxçıvanski adına hərbi liseydə yaradılan möhkəm nizam-intizam, tədris sahəsində yüksək müvəffəqiyyətlər müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində öz töhfəsini verir.

Ali Hərbi Məktəblərdə professor-müəllim heyəti, peşəkar zabitlərimizin qarşısında ən ümdə, ən vacib məsələ Heydər Əliyev ideyalarının layiqli davamçıları olan, vətən üçün gərəkli, savadlı zabit kadrlarının hazırlanmasında çox böyük məsuliyyətlə çalışırlar. Ən əsası dərin biliyə, yüksək döyüş hazırlığına malik yüksək səviyyəli zabit kadrlarının hazırlanması, müstəqil dövlətimizin möhkəmlənməsi və bu yolda gənclərin vətənpərvərlik, müstəqillik ruhunda yetişməsinə əsas verir.

Bu yolda biz Heydər Əliyev ideyalarının davamçıları kimi heç bir çətinlikdən qorxmadan müstəqil dövlətimizin işıqlı gələcəyi naminə, vətən torpaqlarının müqəddəsliyini duyaraq vətənə canla-başla, vicdanla xidmət etməli, işğal olunmuş torpaqlarımızın azadlığı naminə Ali Baş Komanda-

nımız İlham Əliyevə layiqli xidmətlərimizlə dayaq olmalıyıq. Vətən borcu, vətən sevgisi hər kəsin çiyinlərində, ürəyində və gözlərinin nurunda olmalıdır.

Vətən, millət, bayraq sevgili vətən müdafiəçiləri, vətən oğulları, soyuq səngərləri öz nəfəsilə istiləşdirən, torpaq qoxusunu çiçək ətrindən ayırmayan Azərbaycan oğulları! Babalarımızdan yadigar torpaqları qorumaq, Heydər Əliyev ideyalarına sadiq qalmaq hər birimizin müqəddəs borcudur.

***Adını əzizləyir,***
***Hər yerdə elim,obam.***
***Qeyrət simvolumuzsan,***
***Mənim yenilməz babam.***
***Dünyamızı dolaşan,***
***Şərəfimsən,şanımsan.***
***Sorağı dildə gəzən,***
***Azadlıq dastanımsan.***
***Tükənməz bəhrəm,barım,***
***Öndərim, xilaskarım.***

***Səni bizə bəxş edən,***
***Ana yurdum var olsun.***
***Mislin,bərabərin yox,***
***Tanrım sənə yar olsun.***
***Əzəmətin yenilməz,***
***Vüqarlısan dağ kimi,***
***Gör necə də doğmasan,***
***Sən ana torpaq kimi.***
***Gücüm,taqətim,varım,***
***Öndərim,xilaskarım.***

***Düşməni diz çökdürən,***
***Yenilməz qüdrətin var.***
***Yolumuza nur saçan,***
***Ülvi məhəbbətin var.***
***Bizə arxa,dayaqdı,***
***Bircə kəlmə sözün də.***
***Xalqımın varlığını,***
***Tanıtdın yer üzündə.***
***Sən ey andım,amalım,***
***Ey əbədi baharım.***
***Tarixin möcüzəsi,***
***Öndərim,xilaskarım.***

Odlar diyarı Azərbaycanı Ulu Öndərimiz qədər sevməli, seçdiyiniz hərb peşəsində qazanacağınız hər bir uğur müstəqil Azərbaycanın çiçəklənməsi deməkdir.

Heydər Əliyevin qurub-yaratdığı hərb ocaqları – Ali Hərbi Məktəblər vətən oğullarına vətən sevgisini, şərəfi, müstəqilliyi öyrədir. Azərbaycan Ordusunun ehtiyaclarına cavab verəcək keyfiyyətlərə malik olan bacarıqlı zabitlərin yetişdirilməsi üçün hərbi məktəblərdə hərtərəfli imkanlar yaradılmışdır. Əgər Sovetlər dövründə hərbi məktəblərdə çox az sayda Azərbaycan oğulları oxuyurdusa, artıq burada təhsil alanların hamısı azərbaycanlılardır. Hamısı da Heydər Əliyevin zəhməti, uzaqgörənliyi, müdrikliyi sayəsində həyata keçirildi. Vətən oğullarını ruhlandıran, cəsarətli hərbçilər yetişdirən məktəb Heydər Əliyevin qurub-yaratdığı hərbi məktəblərdir.

Bu hərb ocağını başa vurub şərəfli zabit adına yiyələnən leytenantlar oxuduqları müddət ərzində yüksəkliklərdə sax-

ladıqları şanlı döyüş bayrağını özlərindən sonra gələn son kurs kursantlarına təhvil verərkən hər kəsə örnək ola biləcək söz və ifadələrlə onu təqdim edərkən deyirlər:

-Kursantım!

-Babalarımızın qanı bahasına ucalan bu şanlı döyüş bayrağının müqəddəs keşik növbəsi sənindir. Rəngi əcdadlarının qanının rəngidir.

- Parçası şəhid dərisidir.

-Parıltısı zəfərlərin işığıdır.

-Ay-ulduzu hürriyyət və istiqlaldır.

-Yazısı qəhrəmanlıq və şücaətdir.

-Ağacı milli iradədir.

-Baftası şərəf və məsuliyyətdir.

-Bütün bunlar Azərbaycan xalqından sənə əmanətdir. Bu böyük əmanəti sənə təhvil verirəm. Dəmir biləyinlə onu bərk saxla. Qanının son damlasına qədər daim yüksəklərdə tut. Onu səndən sonra sağ qalanın əlinə təhvil verməyənə qədər son nəfəsini verməyəcəksən.

Ulu Öndər Heydər Əliyevin ruhu duyulan bu şanlı bayraq nəsillər boyunca əbədi olacaq, əldən-ələ veriləcək, göylərdə daim vüqarla dalğalanacaqdır. Müqəddəs bayrağı qorumaq keşik xidmətlərinin ən şərəflisi, ən alisi, ən müqəddəsidir.

Bu şanlı bayrağı təhvil aldığım kimi vicdanla, namusla qoruduğumu göstərmək üçün onu öpür və təhvil verirəm. Keşiyin mübarək və uğurlu olsun!

Bayrağı qəbul edən kursant deyir:

-Leytenantım!

Namusuma and içirəm ki, bu müqəddəs keşikdə bir an da olsun gözümü ondan ayırmayacağam. Babalarımızın qanı bahasına ucalan bu şanlı döyüş bayrağını canımdan da əziz

bilib onu daim yüksəklərdə tutacağam.

-Rənginin əvəzi qanım olsun.

-Parçasının əvəzi dərim olsun.

-Parıltısının əvəzi canım olsun.

-Ay-ulduzuna varlığım fəda olsun.

-Yazısını vicdanımdan tər-təmiz saxlayacağam.

-Ağacını milli imanımla bərk tutacağam.

-Baftası iman dolu qanımda namus, dözümlü çiyinlərimdə ən şərəfli məsuliyyət olaraq qalacaqdır.

-Ulu Öndər Heydər Əliyevin ruhu duyulan bu bayrağı məndən sonra sağ qalana təhvil vermədən ölmək mənə haram olsun.

-Keşiyini bir ibadət kimi tutacağam.

-İçdiyim bu anda sadiq qalacağımı sübut etmək və ehtiramımı göstərmək üçün bayrağımı öpür və təhvil alıram.

Nə qədər əzəmətli, nə qədər qüdrətli ifadədir, deyilmi? Bu əzəmətin, bu qüdrətin sahibi isə Ali Baş Komandanımız, Ulu Öndərimiz Heydər Əliyevdir.

Xalqımızın tükənməz sevgisini qazanmış Heydər Əliyev mərasim zamanı tribunadan stadiona enərək gənc zabitlərlə, eləcə də yeni qəbul olunmuş, habelə IV kursa keçən kursantlarla səmimi görüşərdi, onların ailə vəziyyətilə maraqlanardı, təhsillərində uğurlar arzulayardı.

Leytenant adına layiq görülmüş gənc zabitlərin valideynlərini səmimiyyətlə təbrik edərdi Heydər Əliyev!

Valideynlər isə öz növbəsində Ali Baş Komandana dərin minnətdarlıq bildirərdilər ki, siz öz əllərinizlə övladlarımıza diplom verdiniz.

Xoşbəxt o leytenantlardır ki, Heydər Əliyevdən atalıq xeyir-duası aldılar. Onların hər biri Ulu Öndərə oxşamaq ar-

zusu ilə vətənə xidmət edəcəklər. Vətən keşiyində məğrur dayanacaq, Heydər Əliyev ruhunun başımız üstündə günəş kimi parlaq şüalarından güc və hərarət alacaqlar. Xalqımızın qəhrəmanlıq ənənələrini yaşadacaq, vətənimizə sədaqətlə xidmət edəcəklər.

Aqil babalarımız yaxşı deyiblər ki:

- «Oğul düşmən çəpəridir». Vətənin dar günündə onun keşiyində dayanan igid oğullar bizim güvənc yerimizdir.

Dövlətimizin suverenliyi, azadlığı, müstəqilliyi keşiyində dayanan vətən oğulları! Xalqın Heydər Əliyevə, İlham Əliyevə olan sevgisi ilə qoruyun vətənimizi. Bu vətən bizim ilk beşiyimiz, son mənzilimizdir.

Vətəni vətən eyləyən, hər qarış torpağını göz bəbəyi kimi qoruyan onun igid, mərd oğullarıdır. Vətən belə oğulları ilə öyünür, fəxr edir. Onlar vətəni sevib qoruduqları kimi, vətən övladları da onları sevib əzizləyir.

Heydər Əliyev çıxışlarının birində belə demişdir:

- «Hər bir azərbaycanlı gənc orduda xidmət etməkdən şərəf hissi duymalı, fəxr etməlidir ki, ona müstəqil dövlətçiliyimizi və torpaqlarımızın toxunulmazlığını qorumaq kimi ən şərəfli vəzifə etibar olunub».

Bəli, oğullar dünyaya vətəni qorumaq üçün gəlirlər. Damarlarında azəri-türk qanı axan Koroğlu qeyrətli mərd oğullarımız olub, indinin özündə də var və həmişə də olacaqdır.

Artıq bizim güclü ordumuz var. Möhtərəm prezidentimiz İlham Əliyevin dediyi kimi:

- «Azərbaycan Silahlı Qüvvələri Qafqazda ən güclü ordudur».

Bəli, Azərbaycanın bütövlüyü uğrunda mübarizədə biz

qalib gələcəyik, Qarabağ yenə «musiqi beşikli», «Qarabağ şikəstəli» günlərinə qayıdacaq. Şəhid qanı tökülən Qarabağ çöllərində yenə al qırmızı lalələr açacaq. Bənövşə kol dibində baharın gəlişindən, bülbüllər gülün həsrətindən perik düşmüş, qərib diyarlardan dönən durna harayına vüsal nəğməsi oxuyacaq. Şəhid ruhlarına əyan olacaq ki, uğrunda şəhid qanları tökülən torpaq heç zaman yadlara verilmir. Torpaq uğrunda ölənlərindir! Vətən onu sevənlərindir!

Heydər Əliyev 2001-ci ildə əsgərlər qarşısında çıxışında demişdir:

- Ermənistan silahlı qüvvələri vaxtilə Azərbaycan ərazisinin bir qismini işğal edibdir. Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Işğal olunmuş torpaqlardan bir milyon Azərbaycan vətəndaşı, bizim soydaşlarımız didərgin düşüblər, ağır şəraitdə yaşayırlar və Azərbaycan dövlətinin ən ümdə vəzifəsi Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, yerindən-yurdundan didərgin düşmüş soydaşlarımızı öz elinə-obasına qaytarmaq və onlara gələcək yaşayış üçün şərait yaratmaqdır.

Biz bunun üçün məsələlərin sülh yolu ilə həll olunmasına çalışırıq və bundan sonra da çalışacağıq. Dünya təcrübəsi, müasir həyatda gedən proseslər onu göstərir ki, bu cür münaqişələr sülh yolu ilə həll olunmalıdır. Nə qədər çətin də olsa sülh yolu ilə həll edilməlidir. Biz bu çətinliklərin öhdəsindən gələrək bu yol ilə gedirik və gedəcəyik. Ancaq eyni zamanda Azərbaycan ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa olsun, bərpa edilməlidir, işğal edilmiş torpaqlarımız azad olunmalıdır. Bu, Azərbaycan dövlətinin üzərinə düşən vəzifədir və bunun icraçıları Azərbaycan Silahlı Qüvvələridir, Azərbay-

can ordusudur, Azərbaycan əsgəridir, siz hər an, hər dəqiqə Azərbaycan dövlətinin bu qərarını, üzərinizə düşən bu vəzifəni yerinə yetirməyə hazır olmalısınız.

Vətən sevgili vətənpərvərliyin banisi də dahi şəxsiyyət Heydər Əliyevdir!

O, görüşlərin birində gənclərə müraciətində demişdir:

- «Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil, vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik.

Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Mən arzu edərdim ki, Azərbaycan gənci Şekspiri ingilis dilində oxusun, Puşkini rus dilində oxusun, Nizamini, Füzulini, Nəsimini isə Azərbaycan dilində oxusun".

Heydər Əliyev Azərbaycan dilinin böyük hamisi və qayğıkeşi idi. Xalqımızın tarixi, mədəniyyəti və ənənələrilə bağlı gərəkli olan sənət əsərlərinin üzə çıxarılması, öyrənilməsi və gələcək nəsillərə çatdırılmasını çox vacib bilirdi. Öz ağlının, parlaq zəkasının nuru ilə xalqımızın yoluna nur saçdı Heydər Əliyev!

Ulu öndərimiz böyük mütəfəkkirlərimiz Nizami Gəncəvi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Mirzə Cəlil, Mirzə Ələkbər Sabir, Səməd Vurğun haqqında demişdir:

- «Bizim böyük dahi şairlərimiz, yazıçılarımız, mütəfəkkirlərimiz, dünya mədəniyyətini zənginləşdirmiş insanlarımız xalqımızın nə qədər böyük mədəniyyətə malik olduğunu açıb göstərmişdir».

Elm, maarif, ədəbiyyat və mədəniyyət sahələrinin inkişafında yorulmadan çalışan Heydər Əliyev xalqın milli yadda-

şını oyatdı və silkələdi.

Müstəqil Azərbaycanın elm, mədəniyyət və incəsənətinin dünyada tanınmasında Heydər Əliyevin əvəzsiz əməyi olmuşdur, ən əsası Azərbaycanı dağılmaqdan və milli fəlakətdən qurtarmışdır. O, Azərbaycanın milli qürurunu, xalqın millət, torpaq, vətən sevgisini özünə qaytardı.

"Biz bir millət, iki dövlətik" söyləyən Heydər Əliyevə "Atatürk Beynəlxalq Sülh Mükafatı" verilməsi xəbərini Azərbaycan xalqı və Azərbaycandan çox-çox uzaqlarda yaşayan azərbaycanlılar qürur, sevinc, böyük bayram əhval – ruhiyyəsi ilə qarşılamışdı.

Heydər Əliyev qardaş Türkiyə xalqının gözündə- könlündə layiqli yer tutmuş dahi bir şəxsiyyət kimi böyük nüfuz qazanmışdır. O, Azərbaycan – Türkiyə qardaşlıq əlaqələrinin daha da genişlənməsi üçün daim əlindən gələni edirdi.

Heydər Əliyev haqqındaTürkiyənin keçmiş prezidenti Süleyman Dəmirəl demişdir: "Azərbaycan xalqı möhtərəm Heydər Əliyevin qiymətini, dəyərini çox yaxşı bilir.

Vətənini, millətini, torpağını canı-qanı ilə sevən, bütün mənalı həyatını bu yolda şam işığı kimi əridən, böyük nüfuz, hörmət sahibi, xalqın sevgisini qazanmış bəşəriyyətin yetişdirdiyi dahilərdən biri Heydər Əliyevdir".

"Vətəni qoruyarsan vətən olar" - demişdir Şah İsmayıl Xətai. Bu hikmətli kəlam əsrlər boyu yol gəlib, öz ünvanını, öz sahibini tapmışdır. Bu insan, bu vətən özü Heydər Əliyevdir.

Zəmanəmizin görkəmli dövlət xadimi əbədi liderimiz Heydər Əliyev Hərbi Məktəbləri yaratmasaydı görəsən xalqımızın sonu necə olardı. Bünövrəsi bərk olan müstəqil Azərbaycanın təməlini də elə Heydər Əliyev öz polad iradəsilə

qurdu, yaratdı. Onda olan rəşadət, ürək genişliyi, səmimilik, təbiətə, elə, obaya, hərbə bağlılıq, dahi Nəsimi demişkən “Gedən cismimdir, ruhum sizlədir“ ideallığı ilə qəlbimizdə yaşayır. Əbədi məşəl kimi, parlaq günəş kimi gələcək nəsillərin qəlblərində əbədi heykəlini ucaltdı Ulu Öndərimiz !

Azərbaycanın dövlət müstəqilliyi yolunda yorulmadan mübarizə aparan və bu işə Dünya Birliyi ölkələrinin potensial gücünün təsir qüvvəsini cəlb etməyə çalışan dahi şəxsiyyət Heydər Əliyev demişdir:

“Bizim məqsədimiz Azərbaycanın ərazi bütövlüyünü təmin etməkdən,Cənubi Qafqaz regionunda möhkəm və ədalətli sülhə nail olmaqdan ibarətdir”.

Heydər Əliyevin əzmi, fədakarlığı sayəsində müstəqil Azərbaycan Respublikası MDB ölkələri arasında hər bir sahədə ilkin yerlərdən birini tutur. Bu gün müstəqil Azərbaycan dövlətçiliyi hər bir azərbaycanlının iftixarı, güvənc yeridir.

Heydər Əliyev demişdir: “Müstəqilliyi yaşatmaq üçün, konstitusiyamızda qeyd olunduğu kimi, Azərbaycanda dövlət quruculuğu ilə ciddi məşğul olmaq lazımdır. Biz konstitusiyamızda yazmışıq və bu heç vaxt pozula bilməz. Azərbaycanda hüquqi, demokratik, sivilizasiyalı, dünyəvi dövlət qurulur. Dövlət quruculuğu prosesi gedir və gedəcək və mən tam əminəm ki, biz Azərbaycanda hüquqi, demokratik dövləti tamamilə qurub onu dunya demokratiyası səviyyəsinə çatdıra biləcəyik “.

Heydər Əliyev şəxsiyyəti, zəkası, idrakı, təcrübəsi, bacarığını bu günkü və gələcək nəsil daim öyrənəcək və ondan bəhrələnəcək. Onun bir amalı, bir istəyi var idi – Azərbaycan xalqına hörmətlə yanaşmaq, onun böyüklüyünü və sülh-

sevərliyini dünya xalqlarına aşılamaqdır.

Ümummilli liderimizin ömür yolu bizim üçün müqəddəs məktəbdir. Onun gərgin zəhməti sayəsində Müstəqil Azərbaycan Respublikası beynəlxalq aləmdə öz yerini tutdu, iqtisadiyyat, mədəniyyət, siyasət sahəsində aparıcı dünya dövlətləri ilə əlaqələr yaratdı. Odlar diyarı Azərbaycanı inkişaf etmiş ölkələr sırasına çıxardı, dövlətimiz demokratik dövlətlərlə bir cərgədə dayandı.

Bu gün Heydər Əliyev kursunun davamçısı, onun məktəbindən, siyasətindən bəhrələnmiş, püxtələşmiş bir siyasi xadim kimi müstəqil Azərbaycanın gələcəyi naminə onun yolunu davam etdirən yüksək intellektual səviyyəyə malik hörmətli prezidentimiz İlham Heydər oğlu Əliyev var. Xalq Heydər Əliyevə inandığı qədər də İlham Əliyevi dəstəkləyir və ona inanır.

Heydər Əliyevin müstəqil Azərbaycan dövləti üçün gördükləri işə göz yumanlar isə mənəviyyatca kordurlar.

Mənəviyyatca zəngin insanlar isə Heydər Əliyev işığından bəhrələnirlər. Heydər Əliyevin ölümsüzlüyə qovuşan ölümü xalqımızı kədərləndirsə də onun yeganə oğlu – sevimli prezidentimiz İlham Əliyevin atasına bənzər duruşu, baxışı, nitqi, iradəsi, qurub-yaratmaq əzmi, vətənə, torpağa, insanlara və ən əsası orduya olan məhəbbəti bizi sınmağa qoymadı. Gənc nəslin nümayəndəsi – şəxsiyyətli prezidentimiz İlham Əliyev yaşlı nəsilləri və eləcə də gənc nəsilləri, sağlam qüvvələri öz ətrafında birləşdirdi. Nurlu nənələrimiz çıxışlarını mavi ekranlardan dinlədikdə onu əzizləyə-əzizləyə belə deyirlər:

- “Tanrı səni qorusun, bəd nəzər səndən uzaq olsun” - əziz prezidentimiz İlham Əliyev, - “Yaşa, var ol”, “ Adın ucalar-

dan gəlsin "– deyən ana – bacılarımız həmişə Sizə güvənirlər.

Deyirlər tarix təkrar olunur. Təkrarlaşan tarix səhifələrində yeni nəslin numayəndəsi, fəxrimiz, vüqarımız İlham Əliyev var və dünya durduqca odlar diyarı müstəqil Azərbaycanı Heydər Əliyev varlığı ilə var edəcəkdir.

Zamanın gənc dühası İlham Əliyevi Heydər Əliyev yetişdirib. Bu gün dahi şəxsiyyət zirvəsində dayanan İlham Əliyevə ən yüksək ucalıqlar yaraşır.

Yenilməz müstəqil Azərbaycan Dövlətinin prezidenti Heydər Əliyev zamanın yetişdirdiyi şəxsiyyətdir! Heydər Əliyev şəxsiyyətinin yetirdiyi şəxsiyyət isə uca dağ vüqarlı sevimli prezidentimiz İlham Əliyevdir!

Qüdrətli dövlət başçısı, müdrik ağsaqqal, xalqın atası Heydər Əliyev ömrü boyu xalqının, vətəninin inkişafı yolunda çalışdığı qədər də, vətən oğullarının köməyi olduğu qədər də vətən qızlarının ictimai həyatda irəli getməsinə kömək olmuşdur. Tarix yaddaşlarında dastanlara, rəvayətlərə, nağıllara dönmüş Həcər, Nigar, Tomris, Burla Xatun kimi tarixi qəhrəman qadınlarımızın adına ehtiramla bu günün müstəqil dövlətimizin hərbi sahəsində xidmət edən Azərbaycan qadınlarına, qızlarına qol-qanad verirdi Heydər atamız!

Hərbi məktəblərdə vətən oğulları ilə yanaşı vətən qızları da hərbi təhsil alırlar və 2001-2002-ci illərdə buraxılmış məzun oğullarımızla bərabər məzun leytenant qızlarımız da vardı. Saf bulaq çeşməsi tək qaynayan Heydər Əliyev əməyi sayəsində bu ənənə, bu cəngavərlik libasında olan qızlarımızın sayı durmadan artmaqdadır.

2005-ci ilin dekabr ayında Müdafiə Nazirinin əmri ilə qadın hərbi qulluqçuları- mən də daxil olmaqla Təlim-Tədris

Mərkəzində olduq. Başqa qadın hərbi qulluqçulardan fərqli olaraq mənim baxışlarım vaxtilə H. Əliyev adına AAHM-nin məzunu olmuş durna qatarına bənzəyən leytenant oğul və qızlarımızı görəndə ürəyim dağa döndü. Sanki illərdən bəri axtardığım doğmalarıma qovuşmuşdum. Bir anlığa ötən illərə nəzər saldım və bu övladlarımızın- zabitlərimizin kursantlıq illəri kino lenti kimi gözlərim önündən keçdi. Onlar AAHM-nə, hərbi təhsil məktəblərinə gəldikləri ilk günlərdə necə də uşaq bənzərli baxışları ilə dərslərdə, idmanda, mədəni-kütləvi tədbirlərimizdə iştirak edirdilər. Özləri ürəklə seçib gəldikləri peşənin sirlərinə Heydər Əliyevin yaratdığı hərb ocağında vüqarla,inamla yiyələndilər. İllər keçdi, nizam-intizamlı kursantlar savadlı, bacarıqlı zabitlərə döndülər, dağ başında qartallara bənzədilər. Bu qolu, bu qanadı, bu vətən sevgisini hərbi formaya olan məhəbbəti onlar hərbi məktəblərin banisi – əbədi Ali Baş Komandan Heydər Əliyevdən öyrəndilər.

İnsanlar arasında belə oğul- qızlarımıza kimisi maraqla, kimisi məhəbbətlə, kimisi hörmətlə və bütün xalqımız Heydər Əliyev sevgisi ilə yanaşırlar.

Bu sevgi, bu istək xalqımızın orduya məhəbbətini artırdı, Heydər Əliyev davamçıları olmaq devizi ilə qurub-yaratmaq, vətən keşiyində dayanmaq amalı bizim ən ümdə vəzifəmizdir.

Artıq zabit kimi xidmət edən vətən övladları, bilikli, bacarıqlı, hərbin sirlərini dərindən öyrəndikləri qədər də H. Əliyev ocağından nə öyrəniblərsə hamısını öz tabeçiliklərində olan səngər qoxulu əsgərlərimizə öyrədirlər. Mən onların hər biri ilə fəxr edirəm. Onların qarşısında hərbi vətənpərvərlik mövzusunda şerlər söyləyərkən dilimə belə

bir söz, ana sözü, ana laylasının bənzərliyi olan söz gəlmişdi: - Əziz vətən oğulları təbiət gözəldir, sizin boy-buxununuz, şux qamətiniz, təbiətin gözəlliyindən də qat-qat gözəldir. Siz cərgədə duranda, irəliyə addımlayanda durna qatarına bənzəyirsiniz. Bu qatardan, bu durna qatarından əskik olmayasınız. Sizinlə fəxr edir, sizlərə güvənirik, əziz vətən oğulları!

Sizin uca səsinizlə oxuduğunuz müəllifi olduğum məktəb marşlarını eşidəndə bir anlığa vətən torpaqlarının azadlığı uğrunda aldığı yaralardan vəfat etmiş mayor rütbəli həyat yoldaşımın varlığını duyuram. Möhtərəm prezidentimiz Heydər Əliyevin qayğısı sayəsində mən və mənim kimi qız-gəlinlərimiz dərd qarşısında əyilmədilər. Övladlarımıza atalıq qayğısı, bizlərə dövlət qayğısı göstərən Heydər Əliyev hələ sağlığında ikən cənnətlik adını qazanmışdı. Heydər Əliyev özü də taleyin sərt sınaqlarından keçmişdi. Hörmətli xanımı, dünya şöhrətli oftolmoloq Zərifə xanımı vaxtsız itirmişdi. Öz dərdini öz ürəyində gizlədən Heydər Əliyev daha çox xalqın dərdini, ağrı - acısını öz ürəyində daşıyırdı. Tanrı hər zaman ona yaxın olan insanlarını beləcə sınaqdan keçirir. Çətin sınaqlardan məharətlə çıxmağı bacaran qürurlu dahi insan hər zaman bizlərə qürurlu olmağı tövsiyyə edib. Bütün Azərbaycan xalqına, azərbaycanlılara məğrur dayanmağı öyrətdi Heydər atamız!

Çünki özü məğrur, cəsarətli, iradəli,çətinliklərə sinə gərməyi bacaran xalqın atası idi Heydər atamız!

Heydər Əliyev Azərbaycan xalqının əvəzsiz qızı, fədakar həyat yoldaşı Zərifə xanım Əliyevanın vəfatından sonra belə demişdir:

- "Zərifə xanımın həyatdan getməsi bizim ailəmizi, şəxsən məni və mənim övladlarımı çox sarsıtdı. Hər bir ailə üçün itki

ağırdır. Burada heç bir şeyə fərq qoymaq olmaz. Ancaq hər bir insan da, ailə də özünün daxili mənəviyyatına, yaxud xüsusiyyətinə uyğun olaraq ailədə baş vermiş faciəyə, bədbəxt hadisəyə yaxud itkiyə öz münasibətini bildirir. Ümumiyyətlə ailəmiz çox həssas olduğuna görə Zərifə xanımın vəfatı bizim üçün çox ağırdır".

Heydər Əliyev və Zərifə xanım Əliyeva ömrü gənclərimizə son dərəcə örnək olası həyat məktəbidir.

Aqil babalarımızın belə bir məsəli var: - "Əgər olmasaydı ana zəhməti, qazana bilməzdim mən bu şöhrəti".

Zərifə xanım öz həkimlik sənəti ilə insanların gözlərinə nur, Heydər Əliyev isə öz əməlləri ilə odlar diyarı Azərbaycana işıq, nur gətirmişdi!

Öz peşələrinin vurğunu ziyalı ailəsi - Heydər Əliyev ailəsi, təkcə Azərbaycana deyil, bütün dünyaya örnək oldu.

Zərifə xanımın vəfatına prezidentimizlə yanaşı xalqımız da yas saxlayıb, ürəkdən kədərlənirdilər. Heydər Əliyevə hər zaman mənəvi dayaq olan, Azərbaycan xalqının ismətli, ziyalı qızı Zərifə xanımın ölümünə hər kəs kədərlənirdi. Bu gözəl qadın, gözəl ana dünyadan belə vaxtsız getməməliydi. Hər kəsin bir alın yazısı var. İnsan ömrünün sonunun nə zaman yetişəcəyini heç kim bilmir. Bir də belə deyirlər axı: - ömrü verən allahdır, əzrayılın üzü qara olsun, bu sirli-sehirli dünyanın işindən heç kim, heç nə başa düşmür. Dünya bir pəncərədir, hər gələn baxar gedər. Gəlimli-gedimli dünyada da hər kəsin bir ömür payı var. Xoşbəxt o kəsdir ki, halal zəhmət, alın tərilə elmin zirvəsinə yüksəlir və xalqı üçün yararlı işlər görür. Mənəviyyatca okeanlar qədər dərin insan ağlı-ziyası elmin sirlərinin dərinliyində daim axtarışda olur. Zərifə xanım da elm aləmində, tibb sahəsində zirvələr

fəth etdi. Vətənimizin adını ucaltdı, vətən üçün gözəl övladlar böyütdü. Gözəl ana, gözəl xanım və gözəl alim. Bu adların gözəlliyində ölümündən sonra da " Fəxri xiyabanda" xatirəsinə ucaldılmış "Elegiya" abidəsinin ağ rəngdə olmasının da bir rəmzi mənası vardır. Bu nurdur, ana nuru, alim nuru.

Onun xatirəsinə həsr olunmuş mahnının sözlərini xalq şairi Fikrət Qoca, musiqisini isə Sevil xanım Əliyeva yazıb.

Bu həzin, kövrək mahnını dinləyən hər kəs kövrəlir, anasızlıq həyatını yaşayanları isə ikiqat kövrəldir. Zərifə xanımın ölümünə yerlər,göylər ağladı, təbiət dil açıb göz yaşı tökdü. Səməd Vurğunun şerində deyildiyi kimi:

***Ölüm sevinməsin qoy, ömrünü vermir bada,***
***El qədrini canından daha əziz bilənlər.***
***Şirin bir xatirə tək qalacaqdır dünyada,***
***Sevərək yaşayanlar,sevilərək ölənlər.***

Dahilər ölməzdir, dahi və ziyalı bir ailənin yeganə oğlu İlham Əliyev də ata-ana itkisi ilə taleyin sərt imtahanından keçdi, özü də məğrurluqla. Bu məğrurluq irsən gendən keçib, bu ağrılar içərisində vətən yanğısı, yurd sevgisi, xalqın taleyini pəhləvan cüssəli çiyinlərində çəkmək ağrısı var. Öz doğma Azərbaycan dilimizdə, hətta ingilis dilində yüksək tribunalardan çıxış edəndə Ulu Öndərimizin davamçısı sevimli prezidentimizlə fəxr edirik.

Fəxr edirik ona görə ki, İlham Əliyevin xanımı hörmətli Mehriban xanım Əliyeva da dövlətçiliyimizin daha da möhkəmləndirilməsi naminə Ali Baş Komandanımıza Azərbaycanın qeyrətli qızı kimi, qəhrəman xanım kimi onun gördüyü xeyirxah işlərə yaxından köməklik edir.

Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun rəhbəri olduğu gündən öz üzərinə çətin və şərəfli bir vəzifə götürmüşdür. YUNESKO-nun xoş məramlı səfirinin az bir müddət ərzində yeniləşən müstəqil Azərbaycanda gördüyü işlər öz bəhrəsini verir. Təhsil, mədəniyyət, xeyriyyəçilik sahələrində gördüyü işlərin hamısı cəmiyyət tərəfindən rəğbətlə qarşılanır.

Hörmətli Mehriban xanım, paytaxtda və eləcə də ucqar rayonlarda orta məktəblərin tikilib təhvil verilməsində, gənc nəslin daha da savadlı oxumaları üçün əlinizdən gələn hər nə varsa əsirgəmirsiniz. Qarabağ mövzusunda kitabların çap olunması və bəşəriyyətə həqiqətləri olduğu kimi çatdırmaqda, muğam sənətinin sirlərinin açılmasında, onun Azərbaycana məxsus olduğunun dünya xalqlarına çatdırılmasında gördüyünüz işlərdən hamıya bəlli olur ki, Siz Ulu Юndər Heydər Əliyevin ideyalarını həyata keçirən müstəqil Azərbaycanımızın qeyrətli Lider xanımlarımızın birincisisiniz. Xalqımızın qarşısında duran problemlərin həlli istiqamətində üzərinizə düşən səlahiyyətinizin öhdəsindən layiqincə gəlirsiniz. 2005-ci ildə ölkəmizdə geniş inkişaf prosesi getdiyi bir dövrdə millət vəkili seçilməyiniz münasibətilə Azərbaycan ordusunun sıravi əsgəri kimi Sizi ürəkdən təbrik edirəm. Böyütməkdə olduğunuz qız balalarınız Arzu və Leylaya, mayası məhəbbətdən yoğrulmuş Ulu Öndərimizin adını daşıyan balaca Heydər balanıza atalı- analı böyümələrini arzulayıram. Arzu edirəm ki, oğlunuz – Heydər İlham oğlu Əliyev babası Heydər Əliyev adının ucalığına çatsın. Biz sizinlə fəxr edirik. Həyat yoldaşınızla - İlham Əliyevlə xoşbəxt olun, uzun ömürlü olun, Ulu Tanrı dayağınız olsun. Həyatın bütün gözəllikləri, əlçatmaz ucalıqlar, şanlı qələbələr qismə-

tiniz olsun.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanı Milli Qəhrəman Çingiz Mustafayev Fondu və ANS Şirkətlər Qrupu ölkəmizin təhsil sisteminin inkişafında, milli-mədəni irsimizin qorunub saxlanılması və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmləndirilməsi üçün gördüyü işlərə, bədii gimnastika üzrə 27-ci dünya çempionatının respublikamızda yüksək səviyyədə hazırlanıb keçirilməsinə, genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə görə “2005-ci ilin adamı” elan etmişdir.

Gələcək nəsillərə örnək olacaq Odlar diyarının qeyrətli qızı Mehriban xanım Əliyevanın həmin mərasimdəki çıxışını oxuculara təqdim edirəm:

- Hörmətli xanımlar və cənablar!

İlk növbədə Milli Qəhrəman Çingiz Mustafayev Fondu və ANS Şirkətlər Qrupuna fəaliyyətimi yüksək qiymətləndirib məni «İlin adamı» elan etdiklərinə görə öz dərin minnətdarlığımı bildirirəm.

2005-ci il Azərbaycan tarixində və insanların yaddaşında bir sıra mühüm və həlledici hadisələrlə yadda qalacaqdır; Bakı-Tbilisi-Ceyhan layihəsinin həyata keçirilməsi, parlament seçkiləri, ölkəmizin iqtisadiyyatında misli görünməyən nailiyyətlər, ölkəmizdə olimpiya idman növü olan bədii gimnastika üzrə ilk dəfə dünya çempionatının keçirilməsi. Yəqin ki, bu siyahını davam etdirmək olar və belə bir gərgin hadisələrlə dolu ilə yekun vurarkən «İlin adamı» elan edilməyim əlbəttə mənim üçün bir tərəfdən çox böyük şərəf, digər tərəfdən isə çox böyük məsuliyyətdir.

Təbiidir ki, mən öz işlərimi qurub planlaşdıranda heç bir

mükafat barədə düşünmürdüm. Mən sadəcə öz səylərimi, qüvvəmi qarşıya qoyduğum bir sıra məsələlərə yönəltmişdim. Mən hər hansı bir fəaliyyətimə başlayarkən məsuliyyətimi hiss edirdim.

Hesab edirəm ki, işin vacibliyi və xarakterindən asılı olmayaraq, əsl məsuliyyət insanın özü qarşısında, özünə verdiyi vədləri qarşısında olan məsuliyyətdir. Bir daxili tələb olaraq mən hər addımımda bu məsuliyyəti hiss edirəm. Digər tərəfdən bu sizlərin, cəmiyyətin, millətin qarşısında olan məsuliyyətdir və onun böyüklüyü inkaredilməzdir. Bu sırada mənə ünvanlanan məktubların, göstərilən etimadların sayı nə qədər çox idisə, məni bu işləri bir o qədər çox davam etdirməyə çağırır, bunların mənə arxa olduğunu və qüvvə verdiyini duyurdum.

Bu gün mən ANS şirkətlər qrupu və Milli Qəhrəman Çingiz Mustafayevin adını daşıyan fondla yanaşı, mənə inanan, etimad göstərən, məni dəstəkləyən hər bir insana öz dərin minnətdarlığımı bildirmək istəyirəm.

Hesab edirəm ki, bu mükafat Heydər Əliyevin adını daşıyan və onun siyasətini davam etdirən fondun fəaliyyətinə verilən yüksək qiymətdir. Fond yaradılan ilk gündən qarşısına çox böyük və mühüm məqsədlər qoymuşdur. Biz arzu edirik ki, cəmiyyətimizdə adımıza layiqli yer tutaq və Heydər Əliyevin dövlətçilik, azərbaycançılıq, vətənpərvərlik fəlsəfəsini davam etdirməyə qadir olaq. Bizim mövqeyimiz hər zaman ondan ibarət olub ki, hər bir insanı, hər bir təşkilatı, hər bir qurumu təmtəraqlı sözlər yox, tərif və parlaq epitetlər yox, gördüyü işlər və əldə edilən nəticələr xarakterizə etməlidir.

«Yeniləşən Azərbaycana yeni məktəb», «Internat mək-

təbləri və uşaq evlərinin inkişafı» proqramları, «Diabetli uşaqlara ən yüksək qayğı», «Talassemiyasız yaşam» layihələri, «Qarabağ xanəndələri» albomları – bütün bunlar Heydər Əliyev Fondunun 2005-ci ildəki fəaliyyətinin yalnız bir qismidir. Məhz bu əməllərə görə Heydər Əliyev Fondu bu gün cəmiyyətdə böyük nüfuza malikdir və böyük dəstəyə, hörmətə malik olan bir qurumdur.

2005-ci ilin ən parlaq aksiyalarından biri «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsinin gerçəkləşməsi oldu. Bu layihənin hazırlanması dövründə ölkəmizdəki bütün kənd məktəbləri təhlil edildi və ən yararsız vəziyyətdə olanların siyahısı tutuldu. Ikinci mərhələdə çox qısa bir zamanda 132 məktəb inşa olunub istifadəyə verildi. Azərbaycanın tarixində heç vaxt belə bir qısa zamanda bu qədər məktəb tikilməyibdir. Misal üçün demək istərdim ki, sovet dövrünün rekordu 110 məktəb olub və həmin məktəblərin əksəriyyəti şəhərlərdə tikilibdir. Bizim layihə isə kənd məktəblərinin vəziyyətinin yaxşılaşdırılmasına yönəlmişdir.

Biz 2005-ci ildə bu layihə çərçivəsində 22 min şagird yeri yaratmağa nail olduq və mən inanıram ki, bu il də layihəmiz davam etdiriləcəkdir. Fürsətdən istifadə edərək Heydər Əliyev Fondunun təşəbbüsünə cavab verən hər bir quruma, təşkilata, yerli və xarici şirkətlərə, sahibkarlara, iş adamlarına dərin minnətdarlığımı bildirmək istəyirəm. Fondun daim diqqət mərkəzində olan layihələr ölkəmizdə mövcud olan internat məktəbləri və uşaq evlərinin fəaliyyəti ilə bağlıdır. Bu müəssisələrin maddi-texniki bazalarının yenidən qurulması ilə yanaşı, biz çalışırıq kimsəsiz uşaqlara mənəvi dayaq olaq, onlar üçün bir növ ailə mühiti yaradaq. Artıq mən deyə bilərəm ki, bütün bu uşaqlar bizim üçün əziz və

doğma olublar, biz mütəmadi olaraq onlarla görüşürük və bu gün mən bütün cəmiyyətimizi bu problemə diqqət verməyə çağırıram. Mədəni irsimizin qorunması, zəngin tariximizi və ənənələrimizi, gözəl musiqimizi və ədəbiyyatımızı qoruyub saxlamaq və gələcək nəsillərə, bütün dünyaya çatdırmaq Heydər Əliyev Fondunun mənəvi borcudur. Keçən il işıq üzü görən «Qarabağ xanəndələri» albomu cəmiyyətimizdə çox böyük diqqət və maraqla qarşılanmışdır. Yaxın gələcəkdə muğam sənətinə həsr olunmuş bir sıra yeni kitablar da işıq üzü görəcəkdir. Gələcəkdə bu istiqamətdə olan fəaliyyətimizi genişləndirməyə çalışacağıq. Səhiyyə ilə bağlı olan layihələri xüsusi vurğulamaq istərdim; diabet xəstəliyinə tutulmuş uşaqlara kömək, talassemiya və başqa irsi xəstəliklərin aradan qaldırılması üçün həyata keçirilən tədbirlər. Bizim ünvanımıza yüzlərlə məktub gəlir və müxtəlif xəstəliklərdən əzab çəkən insanlar bizdən kömək istəyir və biz də çalışırıq ki, bu köməyi daim onlara göstərək. 2005-ci ilin ən uğurlu layihələrindən biri «Azərbaycan portalı»nın yaranmasıdır. Üç dildə olan bu portal dünya ictimaiyyəti üçün ölkəmiz barədə ətraflı, dolğun və ədalətli bir məlumat mənbəyinə çevrilibdir. Bir sözlə, 2005-ci ildə Heydər Əliyev Fondunun fəaliyyəti çox zəngindir və bütün layihələr, proqramlar barədə çox söz demək olar. Bir neçə gün bundan əvvəl biz ilə yekun vurduq, hesabatı ictimaiyyətə təqdim etdik. Fondun fəaliyyətinin bütün istiqamətlərinin hamısını açıqlamağa çalışdıq. Ona görə bu gün mən yalnız layihələrimizin, proqramlarımızın yalnız bir qismi haqqında bir neçə söz dedim.

Heydər Əliyev Fondu hər bir təşkilatla, hər bir qurumla və hər bir vətəndaşla əməkdaşlığa daim açıq olan qurumdur və mən inanıram ki, biz birlikdə ölkəmizin inkişafı və xalqı-

mızın gələcəyi naminə hələ çox-çox böyük işlər görəcəyik.

Əziz dostlar, bu gün biz müasir texnika, yüksək texnologiya və qloballaşma dövründə yaşayırıq. Fikrimcə, zəmanənin ən böyük təzadlarından biri ondan ibarətdir ki, əldə edilən tərəqqi, kommunikasiya imkanları insanların birləşməsinə, daha sıx ünsiyyət qurmasına şərait yaratsa da, gerçək həyatda biganəlik artır, insanların arasında uçurum artır. Bəzən nəinki bəşəriyyətin səsini eşitmirik, hətta qonşu qonşunu eşitmir, qardaş qardaşa kömək əli uzatmaq istəmir. Bu gün bütün dünyanın qarşılaşdığı ən ağrılı problemlərdən biri mənəvi ideyaların ucuzlaşması, onların saxta ideallarla əvəz edilməsidir. Bəzən cəmiyyətdə insan elə bir vəziyyətə düşür ki, bütün döydüyü qapılar onun üzünə bağlı qalır. O, öz dərdi ilə, öz problemi ilə təkbaşına qalır və ona elə gəlir ki, heç bir şey və heç kəs ona kömək edə bilməz. Bu halda, o, üzünü bizim fonda tutur. Mən demək istəmirəm ki, biz dərhal onun bütün problemlərini həll edirik. Amma o insan burada nə biganəlik, nə soyuq münasibətlə rastlaşmaz və hökmən onun probleminin həlli üçün mümkün olan bütün vasitələrdən istifadə ediləcəkdir. Yəqin ki, xeyriyyəçilik, insansevərlik, mərhəmət Azərbaycan xalqının mentalitetinə, mədəniyyətinə, əsrlər boyu formalaşan ənənələrimizə xas olan ən gözəl keyfiyyətlərdən biridir və bu gün biz Heydər Əliyev Fondu olaraq bu ənənələri davam etdirməyə çalışırıq.

Hər bir insanın yəqin ki, öz yaşam fəlsəfəsi var. Hökm deyil ki, bu fəlsəfəni sözlərlə izah etsin. Onun hərəkətlərində, əməllərində istər-istəməz özünü biruzə verəcəkdir. Bizim fondumuzun da belə bir fəlsəfəsi var. Bu fəlsəfənin əsasında çox sadə bir ideya, əməl durur:

- insanlara yaxşılıq etmək. Hər bir insan nəinki çətin an-

larında, həm də gündəlik həyatında özünə qarşı xoş münasibəti hiss etsə, bu, onun ömrünü başqa bir məna ilə doldurmağa qadirdir. Mən inanıram ki, xoş əməllərlə dünyada çox şeyi yaxşılığa doğru dəyişdirmək mümkündür.

Sonda bir arzumu da diqqətinizə çatdırmaq istərdim. Bildiyimiz kimi, Heydər Əliyevin təşəbbüsü ilə yaranan Silahlı Qüvvələrə Yardım Fondu ictimaiyyətin dəstəyi ilə fəaliyyət göstərir. ANS teleradio şirkəti millətçiliyə, vətənpərvərliyə, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü mövzusuna hər zaman böyük diqqətlə yanaşır və bu, təqdirəlayiq bir faktdır. Mən istərdim ki, bu gün mənə verilən pul mükafatını məhz həmin fondun hesabına keçirim.

Bir daha ANS Şirkətlər Qrupuna və Milli Qəhrəman Çingiz Mustafayev Fonduna öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Arzu edirəm ki, 2006-cı il sizlər üçün, bütün ölkəmiz üçün daha uğurlu, daha işıqlı və bütün arzularınızın gerçəkləşdiyi il olsun. Çox sağ olun.

«Xalq» qəzeti, 01 fevral 2006-cı il.

ANS Şirkətlər Qrupunun prezidenti Vahid Mustafayev: - Hörmətli xanımlar və cənablar! Milli Qəhrəman Çingiz Mustafayev Fondu və ANS Şirkətlər Qrupu adından və sizin hamınızın adından xanım Mehriban Əliyevanı «2005-ci ilin adamı» seçilməsi münasibətilə bir daha ürəkdən təbrik edir və ona gələcək fəaliyyətində uğurlar arzulayıram. Yadınızdadırsa Çingiz Mustafayevin belə bir verilişi var idi: «Heç kim və heç nə unudulmayacaq». Biz onun ənənələrini davam etdirərək çalışacağıq ki, cəmiyyətdə vətən, xalq üçün əlindən gələni edənlərin heç biri, heç vaxt unudulmasın.

«Xalq» qəzeti, 01 fevral 2006-cı il.

Ulu Öndərimiz Heydər Əliyev İlham Əliyevi xarakterizə

edərkən belə demişdir: - "İlham Əliyev yüksək intellektli, proqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, İlham Əliyev xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəkdir. Inanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyinizlə İlham Əliyev başa çatdıra biləcək".

Bəli, bu gün xalqın ümid yeri Ulu Öndərimiz, dahi sərkərdəmiz Heydər Əliyevin davamçısı İlham Əliyevdir.

Təməli dahi liderimiz Heydər Əliyevlə qoyulmuş və hazırda torpaqlarımızı geri qaytarmağa qadir güclü ordumuz və bu orduya rəhbərlik etməyə qadir Ali Baş Komandanımız - İlham Əliyevimiz var.

Ümummilli əbədiyaşar liderimiz Heydər Əliyevin başladığı böyük işləri hörmətli prezidentimiz İlham Əliyev inamla yerinə yetirir və davam etdirir.

"Ən böyük şəxsiyyət özündən çox mənsub olduğu cəmiyyəti düşünən və onun varlığının, xoşbəxtliyinin qorunması yolunda həyatını verən insanlardır " – demişdir Atatürk.

Bütün türk dünyasında Heydər Əliyev və Atatürk təkrarolunmaz şəxsiyyətlərdir.

Vətənə sevgi, vətəni qorumağı insanlara öyrətmək, təbliğ etmək, qanına-canına, damarlarına hopdurmaq, vətənpərvərlik mövzusunda dahi sərkərdələrin bugünkü həyatından yazılan şerləri, romanları, povestləri, hərbi marşları gələcək nəsillərə çatdırımaq çox vacibdir. Gələcək nəsil hər zaman bilməlidir ki, müstəqil Azərbaycanımızda Ordu quruculuğunun banisi Ulu Öndər Heydər Əliyevdir.

Ümummilli liderimizin müstəqilliyimiz naminə dediyi sözlər həmişə bizə örnəkdir: - "Biz müstəqil dövlətimizi qoruyub saxlayacağıq. Azərbaycanın işğal olunmuş torpaqlarını azad edəcəyik, ölkəmizin ərazi bütövlüyünü bərpa edəcək, sərhədlərimizin toxunulmazlığını təmin edəcəyik. Suveren, azad Azərbaycan Respublikası müstəqil dövlət kimi bundan sonra da əsrlər boyu yaşayacaqdır ".

Silahlı Quvvələrimizin müdafiə qüdrəti və döyüş qabiliyyətinin ildən-ilə artması ordu sıralarında xidmət edən vətən oğullarının düşmənə layiqincə cavab verə biləcəyini xəbər verir. Bu gün Silahlı Qüvvələrin tərkibində xidmət edən oğullarımız vətənpərvər gənclərdir, xalqını, millətini sevən gənclərdir.

Orduda qazanılan nailiyyətlərin hamısı Ulu Öndər Heydər Əliyev əməyinin, həmçinin onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikası Silahlı Quvvələrinin Ali Baş Komandanı, hörmətli prezidentimiz İlham Əliyevin gərgin əməyinin, fəaliyyətinin sayəsində mümkün olmuşdur.

Ali hərbi məktəblərin banisi Heydər Əliyev hərb elminin bütün sahələrində sizlərin yolunuza günəş kimi nur saçdı. Sizin hərb yolunuz işıqlı yoldur, bu yol ancaq zirvələri fəth etməyi, böyük dənizlərdən okeanlara çıxmağı, müqəddəs ana torpağımızın hər cür ərazi və iqlim şəraitində sərhədlərimizin keşiyində dayanmağa aparan yoldur.

Həmin vaxt Heydər Əliyev gənc məzunlara öz çıxışında belə demişdir:

- "İnanıram ki, siz gələcəkdə daha çox iftixar hissi keçirəcəksiniz ki, bu peşəni seçmisiniz. Eyni zamanda inanıram ki, hər bir Azərbaycan vətəndaşı da, bizim müstəqil dövlətimizin cəmiyyəti də bu peşəni sevən adamlara, bu peşə ilə məş-

ğul olan adamlara, bu yolla gedən adamlara daha da böyük hörmət, ehtiramla yanaşacaqlar. Mənim üçün hər bir əsgər, hər bir döyüşçü, hər bir zabit Azərbaycan vətəndaşlarının hər birindən daha da qiymətlidir, daha da yüksəkdir ".

Vətən torpaqlarının üzərində günəş kimi parlayan əziz vətən oğulları, sizin xeyir–duanızı Heydər Əliyev vermişdir. Müstəqil Azərbaycanın haqq səsini dünyaya çatdıran Heydər Əliyev zirvəsi sizləri ucalığa səsləyir! O zirvəni fəth etmək sizlərin üzərinizə düşür.

Müstəqil Azərbaycan dövlətinin sükanının böyük tarixi şəxsiyyət, zəngin dövlətçilik və idarəçilik təcrübəsinə malik Heydər Əliyevə Tanrı tərəfindən nəsib olması bizi çox böyük bəlalardan, fəlakətlərdən qorudu.

Bu gün xalq İlham Əliyevlə fəxr edir, onun bütün uğurlarına sevinir.

Müstəqil Azərbaycanı sabaha uğurla aparan qətiyyətli yolda, dövlətimizin sarsılmazlığı, əbədiliyi naminə hər bir Azərbaycan vətəndaşı möhtərəm Prezidentimizə, cənab İlham Əliyevə üzərinə düşən vəzifəsi və vicdanı ilə dəstək olmalıdır.

Ulu Öndər Heydər Əliyevin Azərbaycanda qurub-yaratdığı abidələrdən ən ucası ordu quruculuğu, hərb ocaqlarıdır.

Heydər Əliyev demişdir: - Ali məktəblərdə, ümumiyyətlə, təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır.

«Sağlam bədəndə sağlam ruh olar» – devizi ilə möhtərəm prezidentimiz İlham Əliyev Heydər Əliyev ideyalarına sadiq qalaraq müstəqil Azərbaycan Respublikasında gənc nəslin sağlam, gümrah, vətənpərvər böyüməsi naminə şəhər və

rayonlarımızda böyük idman kompleksləri qurdu, yaratdı. Bu gün sağlam əqidəli, geniş dunyagörüşə malik gənclərin tərbiyə olunmasında möhtərəm prezidentimiz İlham Əliyev Heydər Əliyev yolunun davamçısıdır.

Müstəqil Azərbaycanın işıqlı gələcəyi, xalqımızın rifahı və tərəqqisi naminə yorulmadan çalışan, vətənimizi dünya miqyası səviyyəsində tanıtdıran gənc, vüqarlı prezidentimiz gözəl nitq mədəniyyəti ilə bütün dünya prezidentlərindən ən şəxsiyyətlisidir.

Xalqımız öz prezidentimizlə öyünür və fəxr edir. Nəhəng və güclü dövlətlər arasında müstəqil Azərbaycanın mövqeyinin möhkəmləndirilməsi üçün əlindən gələn yaxşı hər nə varsa edən prezidentimiz İlham Əliyev Heydər Əliyev ideyalarını əlçatmaz zirvələrə doğru aparır. Bu yolda Ulu Tanrı, Heydər Əliyev ruhu, Zərifə xanım ruhu, ana-bacılarımızın xeyir-duası onun köməyi olsun. Müstəqil Azərbaycanı xoş gələcəyə uğurlu yollarla aparan prezidentimiz İham Əliyev, yollarınız uğurlu olsun,əməli və dönməz işlərinizdə yeni-yeni zirvələr fəth etməyinizi diləyirəm.

Bəli, Azərbaycan dövlətinin müstəqilliyinin dönməz, əbədi varlığının lideri – İlham Əliyev əzəmətlə irəliləyir Azərbaycan xalqının sülhsevər dövlət kimi tanınmasında əlindən gələni edir, dövlətimizi dünyanın sivil, demokratik və qüdrətli dövlətləri sırasına çıxarır. Müstəqil Azərbaycan Respublikasının vətəndaşlarının bilikli, bacarıqlı, səriştəli oğlu İlham Əliyevə böyük ehtiyacı var, hər zaman dövlətimizin başçısı Heydər Əliyevdən sonra xalqımız yalnız və yalnız onu dəstəkləyir.

Müstəqil Azərbaycanın bu günü və sabahı İlham Əliyevlə bağlıdır. Nurlu sabahların günəşi, xoş müjdələrin, uğurlu

günlərin, firavan həyatın qurucusu bu gün İlham Əliyevdir, tarix, zaman özü İlham Əliyevi bu günümüz və gələcəyimiz üçün yetişdirib. Azərbaycan tarixində gənc liderimiz böyük şəxsiyyət kimi Azərbaycanı dünya dövlətləri sırasında, beynəlxalq aləmdə yetərincə tanıtdırıb.

İlham Əliyev zəngin təcrübəyə malik, heç kəsə nəsib olmayan həyat yolu keçmiş Heydər Əliyevin oğlu və qeyrətli davamçısıdır. Müstəqil Azərbaycanın Dünya Birliyində özünə layiqli yer tutmasında böyük əməyi olan gənc liderimiz, dövlət başçımız, Ali Baş Komandanımız İlham Əliyevdir.

2005-ci ildə İlham Əliyev Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin, Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinin buraxılış mərasiminə gələrkən ilk öncə Ulu Öndər, əbədi Ali Baş Komandanımız H. Əliyevin heykəli önünə tər çiçəklər düzmüş və ziyarət etmişdir. İlham Əliyev buraxılış mərasiminə gələrkən əvvəlcə hərbçilərin yaşayış tərzi ilə yaxından maraqlanmış, mənzilə ehtiyacı olanlara mənzil hədiyyə etmişdir.

Prezident qayğısı ordu quruculuğuna, hərbi qulluqçuların əməyinə verilən ən böyük töhfələrdən biridir. Bu qayğının, bu töhfənin varisi isə xeyirxah insan, Ali Baş Komandan, prezidentimiz İlham Əliyevdir.

Öz xalqının, millətinin tərəqqisi üçün əvəzsiz xidmət sahəsinin mütəfəkkiri bu gün İlham Əliyevdir.

Vətəninə, millətinə, torpağına dərin məhəbbəti olan prezidentimiz İlham Əliyev Heydər Əliyev irsinin zənginliyini, azərbaycançılıq ruhu ilə yaşayan azərbaycanlıların fəxri olan yenilməz, səriştəli lideridir. İndi müstəqil Azərbaycan dövlətçiliyini Heydər Əliyev ideyaları amalında məharətlə

həyata keçirən hörmətli prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevdir.

Xalqın böyük inamını qazanmış möhtərəm prezidentimiz İlham Əliyev müstəqil Azərbaycan dövlətinə rəhbərliyə qadir qüdrətli şəxsiyyətdir.

İlham Əliyev haqqında "Unikal" şirkətinin vitse – prezidenti Endri Fokler demişdir:

- "Bu dövr Azərbaycan üçün çox vacib olan bir dövrdür. Bu dövrdə Azərbaycanın mövqeyini müdafiə edən şəxslərə ehtiyac böyükdür. İlham Əliyevin diplomatiyası bu baxımdan əvəzsiz məna kəsb edir". Müstəqil Azərbaycan dövlətinin, xalqının mənəvi dəyərləri dünya şöhrətli siyasətçi, dahi şəxsiyyət, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin nur saçan adı ilə bağlıdır.

O, xalqının ümid, inam yeri, gələcək müvəffəqiyyətimizin başlıca təminatçısı idi.

Bu gün Heydər Əliyev ideyalarının davamçısı İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycanda müstəqilliyin möhkəmləndirilməsi üçün siyasi və iqtisadi sistemin strukturları möhkəmlənir, xalqın mənəvi-siyasi birliyi formalaşır, istər beynəlxalq, istərsə də regional sahədə təhlükəsizliyin təmin edilməsi üçün prinsipial sülh siyasəti həyata keçirilir.

Heydər Əliyevdən əmanət qalan müstəqilliyimiz, tarixi nailiyyətlərimiz inkişaf etdirilərək, möhtərəm prezidentimiz İlham Əliyev tərəfindən qorunub saxlanılır.

Heydər Əliyev yaşayıb-yaratdığı dövr ərzində bütün çətinliklərin öhdəsindən məharətlə gəldi, o hərbi məktəblərin təməlini elə qoydu ki, müasir nəsillərdən tutmuş gələcək nəsillərə qədər bütün hərbi təhsil sistemi məhz Ulu Öndərimizin adı ilə bağlı olacaqdır.

Müstəqil Azərbaycanın xoş gələcəyinin banisi Heydər Əliyev deyirdi: -Mən həyatda yalnız üç şeyə arxalanmışam. Yaradanıma, zəhmətimə və bir də xalqıma.

Əbədi yaşamaq yolu mübarizədən keçir. Heydər Əliyevin mübarizliyi tarixin yaddaşında dərin mənalı əsərlərə, şeriyyatlara çevrilir və bu insanların qəlbində səcdəgah, qibləgah qədər müqəddəsdir.

Vətənpərvər şair, ürəyində vətən məhəbbəti kükrəyib daşan Xəlil Rza Ulutürk Ulu Öndər Heydər Əliyevə hələ neçə il öncə "Heydər dədə – Atatürk " şerini yazmışdır:

***Azadlıq Allahı tək əyləşib öz yerində,***
***Yerin-göyün nuru var peyğəmbər gözlərində.***
***Sadəliyi nur saçır, əzəməti dərində.***
***Gedir polad çiynində Kəpəz, Qoşqar boyda yük.***
***Dədə Heydər – Atatürk!***
***Dərin mavi gözləri sakit yanan od-ocaq,***
***Alovunda satqınlar yanacaq, kül olacaq.***
***Qaranlıqda işıqdır, o işığa yol açaq.***
***Məsləki varlığından böyükdür,min qat böyük.***
***Böyüklük heykəlidir,***
***Dədə Heydər – Atatürk!***
***Dörd tərəf qan-qiyamət, sərt qış,o, güllü yazdır,***
***Dinc mülayim səsi də***
***qaynar bir ehtirasdır.***
***Ərzurumdan Xəzərə şığıyan Xan Arazdır.***
***Sədərək körpüsünə qanadlandı bu səhər,***
***Üç addımda Türkiyə hər çınqılı bir dövlət.***
***Azərbaycan, Türkiyə. . Daş qala qoşa səngər.***
***Bütün qasırğalara birləşməklə sinə gər.***
***Bu birlik qarşısında düşmən tük salacaq, tük.***

***Qucur iki sahili Heydər Dədə-Atatürk,***
***Ümid körpüsü üstə dayanıbdır inamla,***
***Dədə Heydər – Atatürk!***

Heydər Əliyev hər zaman vətənpərvər şairlərin qələmindən doğan, vətənə məhəbbət, düşmənə nifrət hissindən yaranan vətənə sevgisi, məhəbbəti olan şairlərin əməyini yüksək qiymətləndirmişdir.

Heydər Əliyev 15 fevral 1995-ci il tarixli fərmanı ilə Azərbaycan xalqının azadlıq uğrunda mübarizəsində xüsusi xidmətlərinə görə Xəlil Rza Ulutürkü "İstiqlal" ordeni ilə təltif etmişdir. Heydər Əliyev vətənpərvər şair Xəlil Rza Ulutürkün "İstiqlal" ordenini (ölümündən sonra) Firəngiz xanım Ulutürkə təqdim etmişdir. (1995)

Ulu Öndər vətənpərvər şair Xəlil Rza Ulutürk haqqında demişdir:

- Xəlil Rza Ulutürk kimi şəxsiyyətlər, böyük insanlar xalqımızı daim ruhlandırmış, mübarizəyə çağırmış, milli azadlıq uğrunda öz mübarizəsi ilə nümunə göstərmişdir.

Xəlil Rzanın Azərbaycan xalqının qarşısında xidmətləri əvəzsizdir. Onlar heç vaxt unudulmayacaq. Xəlil Rza xalqımıza böyük ədəbi irs qoymuş, mədəniyyətimizi, ədəbiyyatımızı zənginləşdirmişdir.

Xəlil Rza Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsində ön cərgələrdə getmiş, bu mübarizəyə qalxmış gənclərimizə həm alim, həm şair kimi, həm də hörmətli bir insan kimi örnək olmuşdur. O, daim Azərbaycanın müstəqilliyi duyğuları ilə yaşamış, həyatının şüurlu hissəsini buna nail olmağa sərf etmiş, böyük xidmətlər göstərmişdir.

Allaha şükürlər olsun ki, o, Azərbaycanın müstəqilliyinin şahidi olmuş, bunu görmüşdür.

Xəlil Rza bir vətəndaş, bir insan kimi bütün xüsusiyyətləri ilə həmişə sevilmişdir. Mən daim onun yaradıcılığına, insanlığına, vətəndaşlığına, ən çox cəsurluğuna, əyilməzliyinə, öz ideyalarından dönməzliyinə hörmət etmişəm, onu yüksək qiymətləndirmişəm. Ona görə də bu itki bütün Azərbaycan xalqı kimi mənim üçün də böyük bir itkidir. Güman edirəm ki, Xəlil Rzanın parlaq həyatı, onun böyük vətəndaşlığı, milli azadlıq uğrunda mübarizliyi bütün azərbaycanlılar üçün nümunə olacaqdır.

Əminəm ki, Xəlil Rza Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır.

Xəlil Rza Ulutürk həm də şəhid atası idi, oğlu Təbriz vətən torpaqlarının azadlığı uğrunda şəhid olmuşdu.

Heydər Əliyevin Xəlil Rza yaradıcılığına olan hörməti bu gün Firəngiz xanım Ulutürkə böyük ruh verdi. Azərbaycan xanımlarına xas olan gözəl xüsusiyyətə malik Firəngiz xanım Ulutürk Heydər Əliyevə belə demişdir: “Möhtərəm prezidentimiz, həmişə günəş olun”.

Bəli, Heydər Əliyev müstəqil Azərbaycanın daim parlayan günəşidir. Bu günəşin hərarəti, şöləsi zülmətləri yaracaq, Azərbaycanın başı üstündə hər zaman açıq səma olacaqdır.

Müstəqil Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev:

- Mən Heydər Əliyevdən öyrənmişəm və bundan sonra da öyrənəcəyəm deyir.

Müstəqil Azərbaycanın sabaha gedən yolunda İlham Əliyev daha qətiyyətli, daha da mübarizdir.

2005-ci ildə Heydər Əliyev adına AAHM-də İlham Əliyev öz çıxışında belə demişdir: - “Bu gün Azərbaycan ordusu

Qafqazda ən güclü ordudur. Biz bu hərbi üstünlüyü əldə etmişik və gərək biz bunu möhkəmləndirək. Bu üstünlük daha da böyük olmalıdır və biz buna da nail olacağıq. Gələn ilin hərbi büdcəsində yeni artımlar nəzərdə tutulub və bütün məsələlər öz həllini tapacaqdır. Bir sözlə,bu münaqişəni həll etmək üçün, işğala son qoymaq üçün həm siyasi-diplomatik səylər göstərilməlidir, həm də düşmən bilməlidir ki, Azərbaycan ordusu istənilən vaxtda öz doğma torpaqlarını azad edə bilər və lazım olan vaxtda bütün gücümüzü səfərbər edərək biz buna nail olacağıq".

Əsrlərin sınağından keçmiş Odlar Diyarı, Azərbaycan xalqı tarixən qəhrəman, döyüşkən bir xalq olduğumuzu və torpaq uğrunda canımızdan keçməyi bacaran vətənpərvərliyimizi göstərməyə qadirik.

Heydər Əliyev deyirdi: - "Hər bir vətəndaş hiss etməlidir ki, indi vətəni qorumaq üçün hərə öz payını verməlidir, hərə öz yerini tapmalıdır. İndi hər kəs müsəlləh əsgər olmalıdır. Bundan artıq vəzifə yoxdur. Bütün qalan problemlər sonra həll ediləcəkdir. Bütün digər problemlər ikinci, üçüncü sıraya keçməlidir. Ön sırada birinci növbədə bu problem durmalıdır. Hamı onun ətrafında birləşməlidir".

Heydər Əliyev xalqın gələcək taleyi naminə hər zaman narahat idi . Səhhəti ilə bağlı Azərbaycandan çox-çox uzaqlarda- Amerikada müalicə alarkən öz sağlamlığından öncə yarımçıq qalmış görəcəyi işlərə aid çox narahat idi. Xalqımızın atası, bir ata qədər nigaran, narahat idi. Ömrünün nurundan xalqımızın firavan yaşaması naminə böyük, əzəmətli insan nur saçdı hər kəsin yoluna.

Təkrarolunmaz şəxsiyyət Heydər Əliyev qədər heç kəs sevə bilməz doğma vətənimiz Azərbaycanı. Gənc nəslə vətən

sevgisi, Azərbaycan və azərbaycançılıq sevgisi verdi Ulu Öndərimiz.

Müstəqil Azərbaycanımızın döyünən ürəyi idi, ona görə də onun ölümü hər kəsi, hamımızı sarsıtdı. Son vida mərasimində gözlərdən axan göz yaşları leysana döndü,qəlblər göynədi,qara libaslı,qara yaylıqlı analar-bacılar ağı deyib ağladı Heydər atamızı. Bəlkə də yer üzündə belə matəm olmamışdı. Heydər Əliyevin həyatdan köçməsinə bütün dünya sarsıldı,onun ölümünə xan çinar qədər qamətimizi düz tutmağa çalışsaq da vücudumuzdan bir sütun qırıldığını duyduq, könlümüzdən bir sızıltı keçdi. Heydər atanın ölümü ilə çox şey itirdik. Bu itki heç nə ilə əvəz olunmaz. Ən ağır itki ,ən böyük dərd, ən unudulmaz kədər idi. Gənc nəsillərin həyatda firavan yaşaması naminə həmişə mübarizə aparan, öz zəhmətilə ucalıqları, zirvələri fəth edən yalnız Heydər Əliyev idi.

Heydər Əliyev ideyaları müstəqil Azərbaycanın bu günü və gələcəyi naminə parlayan günəşdir. Müstəqillik və dövlətçilik,milli birlik ideyalarına söykənərək hamımız Heydər Əliyev ideyalarını dərindən öyrənməliyik və öyrətməliyik. Müstəqil Azərbaycanın çiçəklənməsi naminə dahi öndərimizin işıqlı yolunun davamçıları olmalıyıq.

Yer üzündə tayı-bərabəri olmayan şəxsiyyət, müstəqil Azərbaycan dövlətinin xilaskarı və qurucusu, ümummilli liderimiz Heydər Əliyev əbədiyyətə qovuşsa da, müstəqil Azərbaycanı bütün bəlalardan qurtarıb, güclü dövlətlər sırasına çatdıraraq gələcək nəsillərə miras qoydu. Müstəqil Azərbaycan dövləti Heydər Əliyevdən əmanət qaldı bizlərə. Bu gün Heydər Əliyev qədər güclü möhtərəm prezidentimiz İlham Əliyev xalqımızın xoşbəxtliyi, firavanlığı naminə

əlindən gələn hər nə varsa var qüvvəsi ilə çalışır,müstəqil Azərbaycan dövlətinin şanlı tarixi, nurlu sabahı olan Heydər Əliyev ideyalarını həyata keçirir. Heydər Əliyevin zəngin həyat təcrübəsini mənimsəyən möhtərəm prezidentimiz İlham Əliyev Heydər Əliyev ideyalarına sadiq olaraq, qüdrətli ordu quruculuğunda yeni-yeni zirvələr fəth edir, İlham Əliyevin uğurları mənfur düşmənləri qorxuya salır,güclü ordumuzun qələbə çalacağı gündən xəbər verən nailiyyətlərimiz Ali Baş Komandan İlham Əliyevin əməyinin nəticələridir.

İlham Əliyevin uğurları, nailiyyətləri, prinsipiallığı ilə hər bir azərbaycanlını ürəkdən sevindirir. Xalqımızın xoşbəxt sabahı naminə qətiyyətlə yeni-yeni uğurlar qazanan möhtərəm prezidentimiz İlham Əliyevə Ulu Tanrıdan can sağlığı arzulayıram. Arzu edirəm ki, Heydər Əliyev yolunun davamçısı İlham Əliyevin yollarını Ulu Tanrı nura boyasın,-bütün işləri avand olsun. Əməllərində milli birlik, sülh naminə əməkdaşlıq, dövlətçilik, fədakarlıq, mətinlik olan prezidentimiz İlham Əliyev bütun Azərbaycan xalqının fəxridir. Möhtərəm prezidentimiz İlham Əliyevin şərəfli yolu Heydər Əliyev ideyalarının, müstəqil Azərbaycanın bu günü və gələcəyi üçün işıqlı yoldur. Bu yol Heydər Əliyev yoludur, bu yol azadlıq yoludur. Vətənini,millətini sevən hər kəs bu yolun davamçısı olmalıdır. Bu gün möhtərəm prezidentimiz ətrafında sıx birləşərək,odlar diyarı Azərbaycanda mənəvi və mədəni keyfiyyətlərə malik insanlar kimi yaşayıb, yaratmalıyıq. Azərbaycanın hüquqi, demokratik və dünyəvi dövlət kimi beynəlxalq aləmdə tanınmasında böyük əməyi olan prezidentimiz İlham Əliyevə hər kəs üzərinə düşdüyü işləri vicdanla yerinə yetirərək öz köməyini göstərməlidir.

Heydər Əliyev ideyalarını davam etdirmək naminə əli-

mizdən gələni əsirgəməməliyik. Çünki bu bizim bu günümüz və gələcəyimiz olan işıqlı sabahdan və firavan həyatdan xəbər verir.

Heydər Əliyev dühası ilə inkişaf edən müstəqil Azərbaycan dövlətini beynəlxalq aləmdə böyük nüfuzla tanıtdıran hörmətli prezidentimiz İlham Əliyev ölkəmizin hərtərəfli inkişafı,ərazimizin bütövlüyü naminə gördüyü işləri bundan sonra da uğurla davam etdirəcək. Müstəqil Azərbaycan inkişaf etmiş dövlətlər sırasında öz mövqeyini daha da möhkəmləndirəcəkdir. Heydər Əliyevdən əmanət qalan müstəqil Azərbaycanın sükanını dağ vüqarlı prezidentimiz İlham Əliyev məharətlə idarə edir. Zəngin maddi və mənəvi dəyərlər üzərində qurulmuş Azərbaycan İlham Əliyevin zəhməti sayəsində bu gün dünya miqyasında nüfuzlu dövlətlər sırasındadır. Ölkəmizdə olan sabitlik, firavan həyat müstəqil Azərbaycan dövlətinin nüfuzunu durmadan artırır. Xalqın etimadını doğruldan prezidentimiz İlham Əliyev haqqında Ulu öndər Heydər Əliyev demişdir:

- Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.

Azərbaycan xalqının əbədi prezidenti Heydər Əliyevin həyat yolunu davam etdirən möhtərəm prezidentimiz İlham Əliyevin az bir müddət ərzində ordu quruculuğunda yaratdığı güclü nizam-intizam xalqımız üçün ən böyük uğurlardandır.

Ümummilli liderimizin ideya və prinsiplərinə sadiq qalan Azərbaycan prezidenti İlham Əliyev xarici ölkələrdə yaşayan azərbaycanlıların problem və qayğılarını,onların birliyi və təşkilatlanması sahəsindəki mövcud vəziyyəti həll etmək, ölkələrimizlə əlaqələrin daha da möhkəmlənməsi, Azərbay-

canla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,-diaspor quruculuğu işinin təkmilləşdirilməsi sahəsində qarşıda duran vəzifələri müzakirə etmək məqsədi ilə 2006-cı il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının 2-ci qurultayının keçirilməsi haqqında sərəncam imzalamışdı.

Həmin gün dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın nümayəndələri qurultayda iştirak etmək üçün doğma Azərbaycanımızın paytaxtı Bakıya gəlmişlər.

Qurultaydan əvvəl nümayəndə heyəti səhər tezdən Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin məzarını ziyarət etdi. Onlar Ulu Öndərin əziz xatirəsini dərin ehtiramla anaraq abidəsi önünə əklil qoydular, gül-çiçək dəstələri düzdülər.

Sonra qonaqlar görkəmli oftolmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə tər qərənfillər düzdülər.

Daha sonra qurultay nümayəndələri Şəhidlər xiyabanına gələrək Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda həyatını qurban vermiş qəhrəman vətən oğullarının əziz xatirəsini böyük ehtiramla yad etdilər. Şəhid məzarlarının üzərinə tər çiçəklər düzdülər, ”Əbədi məşəl “abidəsinin önünə tər çiçəklərdən hörülmüş əklil qoydular. Qurultay nümayəndələri şəhid türk əsgərlərinin xatirə abidəsini də ziyarət etdilər və əklil qoydular.

Heydər Əliyev adına sarayın foyesində qurultay ərəfəsində “Azərbaycan diasporuna dövlət qayğısı” fotosərgi təşkil edilmişdı. Stendlərdə xalqımızın ümummilli lideri Heйdər Əliyevin və Prezident İlham Əliyevin müxtəlif dövrlərdə Azərbaycan diasporunun nümayəndələri ilə görüşlərində çəkilmiş fotoşəkillər, Azərbaycan diasporunun təşəkkülü ilə

bağlı imzalanmış fərman, sərəncam və qanunların nüsxələri,diaspora ilə bağlı müxtəlif kitablar nümayiş etdirilirdi.

Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin fotoşəkillərindən,erməni faşistlərinin xalqımıza qarşı törətdikləri soyqırımı əks etdirən fotosərgi də təşkil olunmuşdu.

Burada respublikamızın sosial-iqtisadi inkişafından, Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən kitab və jurnallar,eləcə də Prezident İlham Əliyevin siyasi fəaliyyəti ilə bağlı fotoşəkillər, milli adət-ənənələrimizi, mədəniyyətimizi təbliğ edən videokasetlər, disklər nümayiş etdirilirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qurultayda geniş nitq söylədi. Dövlət başçısı dünya Azərbaycanılarının 2-ci qurultayı münasibətilə bütün azərbaycanlıları təbrik edərək, bunu böyük tarixi hadisə kimi qiymətləndirdi. İlham Əliyev 5 il öncə ümummilli lider,Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə keçirilən ilk qurultaydan sonra Azərbaycan diasporunun inkişaf etdiyini xatırlatdı.

Eyni zamanda, dövlət başçısı 2002–ci ildə yaradılan xarici ölkələrdə yaşayan azərbaycanlılarla iş üzrə dövlət komitəsinin diasporaların təşkilatlanmasında uğurlu fəaliyyət göstərməsini vurğuladı.

Dövlət başçısı Azərbaycan diasporunun güclənməsi və möhkəmlənməsi ilə yanaşı bəzi ölkələrdə hələ də Azərbaycan haqqında kifayət qədər dolğun məlumat olmadığını qeyd etdi: ”Mən əminəm ki, bu qurultaydan sonra azərbaycanlılar bir daha möhkəmlənəcəklər. Əlli milyonluq Azərbaycan xalqı daha da yaxşı yaşayacaq və öz məqsədinə nail olacaq”.

Möhtərəm prezidentimiz İlham Əliyev öz çıxışında qeyd

etdi ki, ümummilli lider Heydər Əliyevin yürütdüyü siyasət bu gün də davam etdirilir və Azərbaycanın ən böyük sərvəti onun müstəqilliyidir. Gücümüz imkan verir ki,tam müstəqil şəkildə siyasət aparaq. Heydər Əliyev siyasəti Azərbaycanda hər bir sahə üzrə davam etdirilməlidir.

Dövlət başçısı çıxışında Qarabağ probleminə də geniş yer verdi. Prezident münaqişənin danışıq yolu ilə həll ediləcəyinə ümid etdiklərini qeyd etməklə yanaşı,konkret mövqeyini də ortaya qoydu: ”Amma nə vaxta qədər?Bu proses əbədi ola bilməz. Azərbaycan xalqının və iqtidarının səbri tükənib. Danışıqlarda iştirakımız bir daha göstərir ki, məsələni sülh yolu ilə həll etməyin tərəfdarıyıq. Amma görəndə ki, Ermənistan dünya ictimaiyyətini çaşdırmaq istəyir,onda bizim başqa yolumuz qalmayacaq. Mən həmişə demişəm ki, son sınağa qədər hiss etsək ki, münaqişəni sülh yolu ilə həll etmək mümkündür,bu prosesdə iştirak edəcəyik. Yox,görsək ki,bu məsələdə imitasiya var, Azərbaycan bu prosesdə iştirak etməyəcək”.

Prezidentimiz bir daha qeyd etdi ki,Ermənistanın işğalçı qüvvələri Azərbaycan torpaqlarından çıxarılmalı və vətəndaşlarımız öz dədə-baba torpaqlarına qayıtmalıdır. Yalnız bundan sonra Ermənistanla münasibətlər bərpa oluna bilər. Heç vaxt Qarabağın Azərbaycandan ayrılmasına izn verməyəcəyik. Biz zərər çəkən tərəfik. Vaxt gələcək, Ermənistan etnik təmizləmə siyasətinə görə beynəlxalq ictimaiyyət qarşısında cavab verəcək.

Azərbaycan prezidenti İlham Əliyev dövlətimizin ordu quruculuğu sahəsinin günü-gündən möhkəmləndiyini bəyan etdi. Bu sahəyə diqqətin artırıldığını söyləyən Ali Baş Komandanımız hərbi büdcənin ildən ilə artdığını dedi: ”Mən

istəyirəm ki, hərbi büdcəmiz Ermənistanın bütün büdcəsinə bərabər olsun".

Prezident bir daha qeyd etdi ki,Azərbaycan dövləti nə qədər güclü olsa,diaspor təşkilatımızın da mövqeyi güclənəcək: "Bizim hamımızın bir vətəni var - Azərbaycan. Ölkəmizi zənginləşdirəcək, qüvvətli dövlətə çevirəcəyik. Bu yolda hamımıza uğurlar diləyirəm".

Xarici ölkələrdə yaşayan azərbaycanlılarla iş üzrə dövlət komitəsinin sədri Nazim İbrahimov da çıxışında qurultayın çox önəmli bir tarixi hadisə olduğunu qeyd etdi. O, tədbirin yüksək səviyyədə təşkil olunmasının və dövlət başçısının qurultayda iştirakının bunun əyani sübutu olduğunu bildirdi. Komitə sədri Azərbaycan diasporunun yaradılmasından, fəaliyyətindən və inkişaf strategiyası ilə bağlı qurultay iştirakçılarını geniş məlumatlandırdı. Qeyd olundu ki,məhz Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra Azərbaycanda bu istiqamətdə əsaslı dönüş yaranıb.

Xalqımızın inam və güvənc yeri olan Ulu Öndər Heydər Əliyev azərbaycanlılara vətən sevgisi öyrətdi. Azərbaycandan çox-çox uzaqlarda yaşayan həmvətənlərimizlə əbədi körpü yaratdı. Bu körpü vətən həsrətilə,yurd sevgisi ilə yaşayanları daha da ruhlandırdı,qartal gözlü Azərbaycana tərəf qanad açıb, uçub gəlmək istəyənlərin sayı günü gündən artdı. Bu birliyi, bu doğmalığı Heydər Əliyev yaratdı, bu tarixə qızılı hərflərlə yazılacaq bir səhifədir.

Heydər Əliyev mərd, qorxmaz, cəsur adamları sevirdi, çünki özü mərd, cəsur və qorxmaz idi.

Heydər Əliyev prinsipallığı,dönməzliyi,qətiyyəti yüksək qiymətləndirirdi,çünki özü prinsipal, dönməz və qətiyyətli idi.

Heydər Əliyev professionalları irəli çəkməyi xoşlayırdı, çünki özü hər cəhətdən professional idi.

Vətən bizim ata-ana yurdumuz, qibləgahımız, səcdəgahımız və son mənzilimizdir. Azərbaycanda və Azərbaycandan çox-çox uzaqlarda yaşayan hər bir azərbaycanlı Azərbaycan adı ilə fəxr edir. Səməd Vurğunun “Azərbaycan” şerində deyildiyi kimi:

***El bilir ki, sən mənimsən,***
***Yurdum-yuvam məskənimsən.***
***Anam,doğma Vətənimsən,***
***Ayrılarmı könül candan,***
***Azərbaycan, Azərbaycan!***

Müstəqil Azərbaycan dövlətinin prezidenti, Ali Baş Komandan İlham Heydər oğlu Əliyevi Azərbaycanda və dünyada yaşayan azərbaycanlılar sevir,hörmət edir. Onlar hər zaman мющтярям президентимизин hər bir əmrinə hazırdirlar. Cənab prezidentimiz İlham Əliyev dünya ölkələri içərisində Azərbaycan dövlətinin adını ucalardan uca etdi.

Möhtərəm prezidentimiz İlham Əliyevin gərgin əməyi sayəsində müstəqil Azərbaycan dövlətinin qüdrəti gündən-gündən möhkəmlənir. Vətənimizin qüdrətlənməsi, ərazi bütövlüyünün təmin olunması üçün ana vətənimiz olan Azərbaycanımızı göz bəbəyimiz kimi qorumalıyıq.

Ulu Öndər Heydər Əliyev demişdir: ”Azərbaycan torpağının hər guşəsi hər birimiz üçün müqəddəs yerdir! Hər bir insan ilk növbədə anasını, vətənini, torpağını, millətini sevməli, bu hisslərlə yaşamalıdır. Ulu Öndər Heydər Əliyevin adını daşıyan möhtəşəm sarayda möhtərəm prezidentimiz İlham Əliyevin iştirakı ilə keçirilən Dünya Azərbaycanlılarının 2-ci

Qurultayına ürəyi vətən eşqi ilə döyünən həmvətənlərimizdən- Almaniyada yaşayan Mayts-Azərbaycan Cəmiyyətinin sədri Başar Kömür, Fransadakı ”Azərbaycan Evi” Assosiasiyasının sədri Səid İsmayılov, Ukrayna Azərbaycanlıları Konqresinin sədri Oqtay Əfəndiyev, Umumrusiya Azərbaycan Konqresinin prezidenti Məmmədbağır Əliyev, Amerikadakı Azərbaycan Cəmiyyətinin prezidenti Tomris Azəri, Estoniya parlamentinin deputatı Eldar Əfəndiyev, Belarus Azərbaycan İcmaları konqresinin sədri Natiq Bağırov prezidentimizin ətrafında sıx birləşdiklərini bildirdilər.

2-ci qurultayın keçirilməsi xalqımızda böyük əhval-ruhiyyə yaratdı. Hər kəsin gördüyü layiqli iş vətənimiz Azərbaycan üçün çox gərəklidir. Bu onu göstərir ki, hər bir vətən övladı Heydər Əliyev ideyaları ilə yaşayır. Bu amal, bu istək, vətənimizin daha da qüdrətli olması naminə möhtərəm prezidentimiz İlham Əliyevə Ulu Tanrıdan möhkəm cansağlığı arzulayırıq.

Dünya Azərbaycanlılarının Həmrəylik gününün banisi Ulu Öndərimiz Heydər Əliyev dünyada yaşayan azərbaycanlılarla həmrəylik və ünsiyyət körpüsünün yaradıcısı,onun layiqli davamçısı İlham Əliyev isə xaricdə yaşayan soydaşlarımızın birliyinin, həmrəyliyinin daha da güclənməsi naminə əlindən gələni əsirgəməyən prezidentimizdir.

Bütöv və böyük Azərbaycan uğrunda azərbaycançılıq ideyaları yüksək səviyyəyə çatdırılmış, Odlar diyarı - Azərbaycan sevgisi, vətənə şərəfli xidmət hər birimizin borcudur. Vətənimizin şanı-şöhrəti Ulu Öndərimiz Heydər Əliyevin adı ilə, İlham Əliyevin uğurları ilə geniş vüsət alır.

Fəxr edə bilərik ki, Ulu Öndər Heydər Əliyevin qurduğu müstəqil, azad bir ölkəmizin prezidenti İlham Əliyevdir. Bəli,

nə qədər ki, müstəqil Azərbaycan var, Heydər Əliyev də yaşayacaqdır, onun arzuları,ideyaları müstəqil Azərbaycanın başı üzərində nur saçacaqdır.

Heydər Əliyev adı və siması əlçatmaz zirvələrin ucalığında ən yüksək zirvədə dayanan təkrarolunmaz şəxsiyyət, Azərbaycan xalqının parlaq günəşidir. Bu parlaq günəşin, bəşəriyyətin böyük tarixi şəxsiyyəti, dünya şöhrətli sevimli prezidentimiz Heydər Əliyevin ölüm xəbəri bütün Azərbaycan xalqını sarsıtdı.

12 dekabr 2003-cu il bütün Azərbaycan xalqının matəmli günü idi. Həmin günü Heydər Əliyev ideyalarına ürəkdən bağlı olan, onu daim sevən və dəstəkləyən 75 yaşlı atamdan bir məktub aldım, oxdum. Dahi sərkərdəmiz,Ulu Öndərimiz Heydər Əliyevin ölümü ilə barışa bilmədiyindən atam Mustafayev Məhəmməd Hacıkərim oğlu o vaxt yazdığı kədərli bir şeri mənə göndərmişdi. İndi həmin şeri oxucularımıza təqdim edirəm:

***Yad qərib ellərə gedəndən bəri,***
***Yolunu gözləyir el, Heydər baba.***
***Dünyaya yayılan qara xəbəri,***
***Danışa bilməyir dil,Heydər baba.***

***Gözüm yollardadır, qulağım səsdə,***
***Səsini dinləyim yenə ahəstə.***
***Arzular ,diləklər vardı hər kəsdə,***
***Sağalıb vətənə gəl,Heydər baba.***

***Yaradan bəxş edib belə insanı,***
***Cahanı fəth edib,şöhrəti,şanı.***
***Xalqına bağlıdır həyatı,canı,***
***Dahisən tarixdə qal,Heydər baba.***

***Qoca da, cavan da, hamı ağlayır,***
***Analar başına qara bağlayır.***
***Ellər ümidini sənə bağlayır,***
***Hardan əsdi qara yel,Heydər baba.***

***Hünərinlə qurdun bu gənc dövləti,***
***Dünyaya çatdırdın haqq-ədaləti.***
***Nəsillər heç zaman unutmaz səni,***
***Azadlığa açdın yol,Heydər baba.***

***Sənə necə qıydı amansız ölüm,***
***Ölümü deməyə gəlməyir dilim.***
***Dedim yalan olar öyrənim,bilim,***
***Gördüm ki, ağlayır el, Heydər baba.***

Bəli, barışa bilmədiyimiz amansız ölüm, xalqımızın güvənc yeri olan Heydər Əliyevin dünyasının dəyişməsi, əbədi yaşarlıq rəmzi qədər Ulu Öndərimizin adı ürəklərimizə əbədi həkk olundu. Son mənzilə vətən oğullarının çiynində yol aldı. Son vida mərasimində Heydər atanı-müqəddəs insanı ziyarət etmək üçün insanlar axın-axın gəlirdilər. Dahi şəxsiyyət dünyadan cismani köçsə də, parlayan günəş qədər müstəqil Azərbaycanı hər zaman qorumağa qadir olan bacarıqlı zabit kadrları yetişdirən hərb ocaqlarını xalqımıza əmanət qoydu.

Müstəqil Azərbaycanımızın milli ordusu bu gün düşməni məhv etməyə,doğma yurd-yuvalarımızı azad etməyə qadirdir. Əgər ki,sülh danışıqları bir nəticə verməzsə, Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında Azərbaycan ordusu hərbi yolla torpaqlarımızı düşmən caynağından azad edəcəkdir. Qoy nankor qonşularımız birdəfəlik anlasınlar ki,

Heydər Əliyev kimi ümummilli lideri, İlham Əliyev kimi qüdrətli prezidenti və döyüşlərdə zəfərlər qazanmaq istəyi ilə alışıb-yanan milli ordusu olan bir ölkə-doğma Azərbaycanımız zəfər marşı çalacaqdır.

Heydər Əliyevin qurub - yaratdığı hər nə varsa, hamısı müstəqil Azərbaycan tarixinə qızıl hərflərlə tarix yaddaşında həkk olundu. Heydər Əliyevin əziz xatirəsi xalqımızın yaddaşında hər zaman yaşayacaq, müqəddəs varlıq qədər qəlblərdə yad ediləcəkdir. Dünya durduqca Heydər Əliyev dühası onunla fəxr edən dünya ölkələrindən, bütün yer kürəsindən parlayan günəş kimi nur saçacaqdır. Heydər Əliyev nurunun şöləsindən neçə- neçə gənc nəsillər bəhrələnəcək, fəxrimiz, vüqarımız möhtərəm prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşərək, Heydər Əliyevin xatirəsini əbədi olaraq ürəyimizdə yaşadacaqlar.

Hələ sağlığında ikən müqəddəs ziyarətgahları ziyarət etmiş Heydər atanın məzarı hər zaman müqəddəs məbədgah kimi ziyarət ediləcək, məzarı üzərinə tər çiçəklər düzüləcək, ruhu müstəqil Azərbaycanı ürəkdən sevən hər kəsə kömək olacaqdır.

Heydər Əliyev - müstəqil Azərbaycan! Bu adın işığına doğru yalnız ucalıqlar, əl çatmaz zirvələr gözləyir bizləri. Heydər Əliyev yolu əbədidir, dönməzdir və göylər üzündən nur saçan günəş qədər sönməzdir.

Ümummilli liderimiz Heydər Əliyevin parlaq xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

Tanrı dərgahında Heydər Əliyev ruhuna dərin hörmət və sonsuz ehtiramla Allah rəhmət eləsin, məzarı nurla dolsun deyirəm. Amin!

# AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİRZA oğlu ƏLİYEVİN XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

**Azərbaycan Ali Hərbi Məktəbinə HEYDƏR ƏLİYEVİN adı verilsin.**

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 10 mart 2004-cü il**

***Bizim Ali Hərbi Məktəbimiz, Ali Hərbi Təyyarəçilik Məktəbimiz, Ali Hərbi Dənizçilik Məktəbimiz, Hərbi Akademiyamız, Təkmilləşdirmə kursları ordumuzu təmin etmək, lazım olan qüvvəlləri hazırlamaq üçün müxtəlif səviyyədə yaranmış kurslar- bunların hamısı artıq Azərbaycanda Silahlı Qüvvələrin böyük bir təhsil sisteminin tam yaranmasını nümayiş etdirir və bu davam edəcəkdir.***

***H. Əliyev***

## AZƏRBAYCAN DÖVLƏTÇİLİYİ TARİXİNDƏ ƏN BÖYÜK QƏLƏBƏ VƏ ƏN AĞIR İTKİ

Cənab Heydər Əliyev Azərbaycan səmasında yanan parlaq bir günəş idi. Elə bir günəş idi ki,işığı heç zaman azalmayacaq, ziyası hələ bundan sonra neçə-neçə sabahımızı nura qərq edəcək, gələcəyə aparan yollarımızı aydınlaşdıracaq.

Heydər Əliyev itkisi təkcə son yüzillikdə yox, Azərbaycan dövlətçiliyinin bütün tarixi ərzində xalqımızın məruz qaldığı ən böyük itkilərdən biridir. Çünki Azərbaycan öz tarixi boyu bir çox liderlər, siyasi xadimlər yetişdirsə də onlardan heç kimə cənab Heydər Əliyev kimi uzun müddət siyasi olimpin zirvəsində qalmaq,ümumxalq məhəbbətini qazanmaq səadəti nəsib olmamışdır.

Heydər Əliyev 30 ildən çox Azərbaycan xalqına təmənnasız xidmət etdi, Azərbaycan dövlətinin möhkəmləndirilməsi, onun beynəlxalq nüfuzunun artması istiqamətində ardıcıl fəaliyyət göstərdi.

Heydər Əliyev dühası xalqımızın mənəvi qüdrətindən güc alaraq sabahımıza işıq salan, bizi qələbələrə aparan bir dühadır. Heydər Əliyev epoxası tariximizə müstəqil Azərbaycan dövlətinin yaradılması, cəmiyyətin demokratikləşməsi, respublikanın dünya birliyinə inteqrasiyası dövrü kimi daxil olmuşdur. Tam əminliklə demək olar ki, yaxın və uzaq gələcəyin Azərbaycanı məhz Heydər Əliyevin qurduğu Azərbaycanın tarixi varisi olacaqdır.

Respublikanın müstəqilliyinin qorunması, güclü ordunun, müasir hərbi təhsil sisteminin yaradılması da cənab Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Ordumuzda vahid rəhbərlik və mərkəzçilik prinsiplərinin bərqərar olunması, onun şəxsi heyətinin döyüş və mənəvi ruhunun yüksəldil-

məsi üçün Heydər Əliyevin gördüyü işlər hərb tariximizin ən parlaq səhifələrini təşkil edir. Ordumuzun bütün şəxsi heyəti kimi Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin şəxsi heyəti də Heydər Əliyevin gündəlik diqqət və qayğısını daim öz üzərində hiss edirdi. O, bu məktəbə ordumuzun gələcək simasını müəyyən edən bir baza kimi baxır,onunla fəxr edirdi. Məktəbin birirnci və ikinci buraxılışlarında şəxsən özü bu təhsil ocağına təşrif buyurmuş, məktəbin fəaliyyətindən qürur hissi keçirdiyini bildirmişdir.

Heydər Əliyev Azərbaycanın müstəqilliyini onun hər bir vətəndaşının mənəvi sərvətinə çevirmiş nadir şəxsiyyət idi.

Bu ağır gündə ən böyük təsəllimiz odur ki,cənab Heydər Əliyevin böyük məharətlə idarə etdiyi dövlətçilik sükanı bu gün etibarlı əllərdədir. Heydər Əliyevin daxili və xarici siyasət kursu dövlətimizin gələcək inkişafının ən vacib strateji istiqamətlərini birdəfəlik müəyyən etmişdir.

Ulu Öndər Heydər Əliyev Silahlı Qüvvələrin şəxsi heyəti ilə görüşləri zamanı öz çıxışlarında belə demişdir:

- Azərbaycanın güclü ordusu bu gün də,sabah da,on il də, yüz il də bundan sonra lazımdır. Bunun üçün planlı iş aparılmalıdır. Bunun üçün Azərbaycan ordusunun,Silahlı Qüvvələrinin qüdrəti hər gün artmaqdadır. Onun qüdrəti təkcə qolun əzələlərindəki güc deyildir. Müasir texnika, texnologiya, silahlar, döyüş qaydaları,müharibə nəticəsində meydana çıxmış hərb elmi – bunların hamısını həm bizim Ali Hərbi Məktəblərdə öyrənmək lazımdır,bunu həm də hər bir zabit hər gün özü öyrənməlidir, biliyini, hərbi elmini artırmalıdır.

Ulu Öndərimiz güclü ordu və ixtisaslı zabitkadrları yetişdirən hərbi məktəbləri yaratdı və bununla da hər zaman fəxr edirdi.

Ulu Öndər, dahi sərkərdə Heydər Əliyevin adını daşıyan Azərbaycan Ali Hərbi Məktəbinin bütün kollektivi, şəxsi heyəti bu yüksək, şərəfli adla fəxr edirik.

Heydər Əliyev dühası əbədi, həmişəyaşar dühadır. Onun parlaq xatirəsi daim qəlbimizdə yaşayacaqdır.

***General-mayor***
***HEYDƏR PIRIYEV***
***H. Əliyev adına Azərbaycan Ali***
***Hərbi Məktəbinin rəisi,***
***2006***

## HEYDƏR ƏLIYEV ADINA AZƏRBAYCAN ALI HƏRBİ MƏKTƏBİ
### *(Məktəb marşı)*

***Söz:*** *Zəminə Xınalı*
***Musiqisi:*** *Mahir Əsgərovundur*

Birləşin, azəri-türk övladları,
Düşmənin ürəyi,həm qəlbi yansın.
Bütün yer üzündə sülhün sədası,
Azadlıq, ədalət qoy zəfər çalsın.
Müstəqil dövlətimin hərbi məktəbi,
Heydər Əliyev adına Hərbi Məktəbi.

Hərbin sirlərini öyrənəcəksən,
Parlayan, sönməyən bir gələcəksən.
Hər zaman dillərdə sən gəzəcəksən,
Elimi-obamı bəzəyəcəksən.
Müstəqil dövlətimin hərbi məktəbi,
Heydər Əliyev adına Hərbi Məktəbi.

Vətən harayına neçə oğullar,
İgid mərd zabitlər yetirdin özün.
Xoş müjdə,qələbə,sülh sorağını,
Zəfər bayrağını gətir sən özün!
Müstəqil dövlətimin hərbi məktəbi,
Heydər Əliyev adına Hərbi Məktəbi.

Müqəddəs şəhidlərin ölməz ruhunu,
Tarix yaddaşında yaşadacaqsan.
Üç rəngli bayrağı mavi səmada,
Ən yüksək zirvəyə ucaldacaqsan.
Müstəqil dövlətimin hərbi məktəbi,
Heydər Əliyev adına Hərbi Məktəbi.

***Xəzər canlı bir orqanızmdir. Burada həyat sakitdir. Xəzər əsrlər boyu yaşamış və yaşayacaqdır və daha da böyük rol oynayacaqdır. Xəzəri sevən insan kimi mən onun yaşamasını,onun təmiz olmasını və onun təbiətinin qorunub saxlanmasını istəyirəm. Mən xəzəri sevirəm.***

***H. ƏLİYEV***

## HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA ALİ HƏRBİ DƏNİZ TƏHSİLİ SİSTEMİNİN YARADICISIDIR

Tarixin həlledici sahələrindən birini yaşayan Azərbaycan xalqı inkişafının bütün sahələrində olduğu kimi,ordu quruculuğu prosesində də öz inkişaf mərhələlərini keçməkdədir. Bu sahədə olan fəaliyyəti tənzimləmək üçün 1991-ci ilin oktyabr ayının 9-da o dövrdəki Azərbaycan Ali Soveti tərəfindən ilk hüquqi normativ qanun - "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" Qanun qəbul edildi. Ordu quruculuğunun bugünkü inkişaf mərhələsi 1993-cü ilin noyabr ayında mərhum prezidentimiz Heydər Əliyevin radio və televiziya ilə xalqa müraciətindən sonra başlamış və indiki öz yüksək səviyyəsinə çatmışdır.

Respublika prezidenti Heydər Əliyev nəinki orduda hərbi vətənpərvərlik ruhunun artırılması işinə rəhbərlik edirdi,hətta özü də bilavasitə bu işdə fəal iştirak etməyə başladı. Ali Baş Komandan Heydər Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələri quruculuğunun bu istiqamətində, hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi, aparılan işlərin hərbi-siyasi nəticəsi kimi ordu daxilində dərinləşməkdə olan böhranın qarşısını aldı və bu sahədə keyfiyyət dəyişikliyi yarandı. Ordu quruculuğunda aparılan kompleks işlərin nəticəsi olaraq Azərbaycan Respublikasının qanunvericilik orqanı olan Milli Məclisin 18 noyabr 1993-cü il tarixli iclasında müdafiə və təhlükəsizlik məsələsi müzakirə edildi və bu məsələ üzrə Milli Məclisin daimi komissiyasının yaradılması haqda qərar qəbul edildi.

Azərbaycan Respublikası Silahlı Qüvvələrində kadr probleminin aradan qaldırılması üçün keçmiş SSRİ-nin müxtəlif regionlarında yerləşmiş MDB qoşun hissələrində xidmət

edən azərabycanlı zabitlərin vətənə qayıtmasına xüsusi diqqət və qayğı göstərildi. Bununla bərabər Milli ordunun peşəkar zabit kadrları ilə təmin olunması üçün hərbi təhsilin inkişafına xüsusi diqqət artırıldı.

Ümummilli lider Heydər Əliyev döyüş bölgələrindəki görüşlərindən birində vaxtilə C.Naxçıvanski adına ixtisaslaşmış ibtidai hərbi liseydə təhsil almış və MDB-nin Silahlı Qüvvələrində xidmət edən zabitlərin böyük hissəsinin hələ də respublikaya qayıtmadığına öz təəssüfünü bildirərək qeyd edirdi ki, Azərbaycanın bu gün peşəkar hərbi qulluqçulara daha çox ehtiyacı var. Ona görə də Ali Baş Komandan respublikadan kənarda xidmət edən hərbi qulluqçuların vətənə qayıtması məsələsinin həllini Müdafiə Nazirliyi qarşısında əsas vəzifə kimi qoymuşdur. Bu gün Silahlı Qüvvələrdə gedən quruculuq işini təhlil etsək görərik ki, bacarıqlı və sağlam zabit korpusunun böyük hissəsi C.Naxçıvanski adına hərbi liseyin məzunlarıdır.

Bu gün Azərbaycan Silahlı Qüvələrinə zabit kadrı hazırlayan bütün hərbi təhsil ocaqları Ulu Öndərin yaratdığı hərbi təhsil sistemləri şəbəkəsidir.

Zabit kadrlarının hazırlanması prosesinin tam mənada həyata keçirilməsi, o cümlədən Azərbaycanda hərbi dənizçiliyin inkişaf etdirilməsi ölkəmizin müdafiə doktrinasının tərkib hissəsi olmaqla daima Ali Baş Komandanın diqqət mərkəzindədir.

Azərbaycan ali hərbi məktəblərinin ilk buraxılışı mərasimində iştirak edən Ali Baş Komandan öz çıxışında bildirmişdir: ”Azərbaycan ordusunun peşəkarlıq səviyyəsini qaldırmaq ən başlıca vəzifədir”...

Azərbaycan ordusunda xidmət etmək, zabit olmaq, Azər-

baycanın müstəqilliyinin, dövlətçiliyinin, Azərbaycan torpaqlarının keşiyində durmaq məsuliyyətli olduğu qədər də şərəfli bir işdir.

Azərbaycan Silahlı Qüvvələrinin tərkib hissəsi olan Hərbi Dəniz Qüvvələrinin qarşısında Xəzərdə dövlətin maraqlarını təmin etmək və onun su sərhədlərinin toxunulmazlığını təmin etmək vəzifəsi qoyulmuşdur. Belə vəzifənin öhdəsindən gəlmək üçün Hərbi Dənizçilik Məktəbinin rəhbərliyi qardaş türk ordusunun mütəxəssislərinin təcrübələrindən bəhrələnərək, müasir tələblərə cavab verməyə qadir olan, yüksək ixtisaslı kadrların hazırlanması naminə, nizam-intizama ciddi riayət etməklə, tədris prosesinin yüksək səviyyədə qurulmasına nail olmağa çalışır.

1939-cu ildə əsası qoyulmuş Ali Hərbi Dənizçilik Məktəbinin bazasında formalaşan bu təhsil ocağı 4 pilləli hazırlıq sistemini tətbiq etməklə hazırladığı kadrlar nəinki Xəzər akvatoriyasında, hətta dünya okeanlarında qarşıya qoyulmuş istənilən tapşırığı yerinə yetirirlər.

2004–cü ilin iyun ayının 25-də Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ilk dəfə olaraq AAHD Məktəbindя gənc leytenantların birinci buraxılış mərasimində iştirak etmiş və demişdir: ”Mən çox şadam ki, Azərbaycan ordusu güclənir, inkişaf edir. Ordunun maddi-texniki bazası güclənir, şəxsi heyətin hazırlıq, peşəkarlıq səviyyəsi yüksəlir. Bu istiqamətdə gələcəkdə də addımlar atılacaqdır”.

***1-ci dərəcəli kapitan***
***NURULLA ƏLİYEV,Azərbaycan Ali***
***Hərbi Dənizçilik Məktəbinin rəisi***
***2006***

## AZƏRBAYCAN ALI HƏRBİ DƏNİZÇİLİK MƏKTƏBİ
### *(Məktəb marşı)*

***Söz:*** *Zəminə Xınalı*
***Musiqisi:*** *Azər Dadaşovundur.*

Ana vətənim üçün,
Pak vicdanlı oğullar,
Qəhrəmanlar yetirir,
Hərbi Dəniz Məktəbi.

Anam Azərbaycanın,
Mətin bir əsgəri tək,
Keşiyində dayanıb,
Hərbi Dəniz Məktəbi.

Tarixlər yaddaşında,
Silinməz izlər qoyur,
Günəşdən ilham alır,
Hərbi Dəniz Məktəbi.

Xəzərin sahilində,
Yurd salıb,yuva salıb.
Ulduz kimi parlayır,
Hərbi Dəniz Məktəbi.

Üç rəngli bayrağımız,
Vüqarla dalğalandı.
Saf sularda yol aldı,
Hərbi Dəniz Məktəbi.

***Bizim ordumuzda milli aviasiya sahəsini də özümüzün milli mütəxəssislərimizlə, azərbaycanlilarla yarada bilərik. Bunlar artıq yaranıbdır və bu gün də sizinlə ilk görüşə gəlmişik. Bu, Azərbaycan Milli ordusunun bu sahədə ilk addımıdır. Amma hesab edirəm ki, bu çox yaxşı başlanğıcdır. Bunun böyük gələcəyi var. Mən bu gələcəyi açıq-aydın görürəm. Əgər biz bu qısa müddətdə azərbaycanlılardan, Azərbaycan gənclərindən təyyarələri, hərbi təyyarələri, döyüş təyyarələrini idarə edə bilən və havada döyüş apara bilən, yaxud hava qüvvələri ilə ölkəmizin müdafiəsini təmin edə bilən mütəxəssislər hazırlaya bilmişiksə, bu böyük nailiyyətdir. Eyni zamanda bu da dövlət müstəqilliyimizin bizə verdiyi bəhrədir.***

***H.ƏLİYEV***

## HEYDƏR ƏLIYEV -
## MÜDRİK TARİXİ ŞƏXSİYYƏT

XX əsrdə Azərbaycanın öz dövlət müstəqilliyini bərqərar etməsi xalqımızın çoxəsrlik tarixində qazandığı ən böyük və zəngin nailiyyətidir.

80-ci illərin sonlarından etibarən baş verən məlum tarixi hadisələr nəhayət SSRİ-nin dağılmasına gətirib çıxartdı. Belə bir şəraitdə Azərbaycan digər MDB Respublikaları kimi öz müstəqilliyini elan etdi. 1991-ci il noyabrın 18-də qəbul olunmuş müstəqillik haqqında Konstitusiya aktı ilə Azərbaycan Respublikası özünü Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan etdi. Lakin XX əsrin əvvəllərində qurularaq cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyətindən fərqli olaraq elə həmin əsrin sonunda müstəqilliyini elan etmiş Azərbaycan Respublikası öz istiqlalını bu gün də qoruyub saxlayır. Bu müstəqilliyin ideoloji memarı və təminatşısı, ötən əsrin və bütün zəmanəmizin uzaqgörən dahi şəxsiyyəti Heydər Əliyevdir.

Heydər Əliyevin yarım əsrdən çox bir dövrü əhatə edən bütün fəaliyyəti milli özünüdərkin,milli şüurun,milli ruhun yüksəlməsinə xidmət etmiş, Azərbaycan xalqının müstəqilliyinə inamlı yol açmışdır.

Tarix göstərir ki, dövlətin normal idarə olunmasında və dayanıqlı yaşamasında şəxsiyyətin rolu əvəzsizdir. Belə bir məşhur deyim var:

-Zamanın nəbzini tuta bilən şəxsiyyətlərə ”Müdrik şəxsiyyət”, lazım olan anda, lazım olan yerdə olmağı bacaran şəxsiyyətlərə ”Tarixi şəxsiyyət” deyirlər.

Heydər Əliyevin həyatına nəzər salsaq dərhal deyərik

ki,o, ”Müdrik – tarixi şəxsiyyət“dir.

Eyni zamanda hər bir xalqın tarixi nailiyyət qazanması üçün iki vacib şərt mövcuddur: -tarixi şəxs və tarixi şəxsiyyət. Bu iki amil üst-üstə düşərsə xalq bundan fayda görər.

Tanrı 1993-cü ildə belə bir tale yüklü məsuliyyətli şəxsi – Heydər Əliyevi müstəqil Azərbaycana qismət etdi. Əgər 1993-cü ilin 15 iyun Milli Qurtuluş günü olmasaydı, yəni Heydər Əliyev xalqın iradəsi ilə hakimiyyətə qayıtmasaydı həmin tarixi şans çox güman ki,əldən çıxacaqdı. Bu gün Azərbaycanın tarixi şansını reallığa çevirən, xalqın çoxəsrlik arzu və istəyini bütün dünyaya bəyan edən Heydər Əliyev dühası olmuşdur.

Ulu Atatürkün dili ilə desək: ”Ən böyük şəxsiyyətlər özündən çox mənsub olduğu cəmiyyəti düşünən, onun varlığı və xəşbəxtliyinin qorunması yolunda həyatını verən insandır”. Heydər Əliyev məhz belə şəxsiyyətlərdəndir.

Heydər Əliyev kimi müdrik, tarixi şəxsiyyətlər zamanın gur səsinin əks-sədası kimi doğulur və zaman qarşısında öz missiyasını həyata keçirirlər.

İllər ötəcək, nəsillər bir-birini əvəz edəcək, tarixə bugünkü dəyişikliklərin fundamental yekunu kimi yalnız Azərbaycan dövlətçiliyi düşəcək, zamanın silinməz yaddaşında isə müstəqil və qüdrətli Azərbaycan dövlətinin yaranıb, möhkəmlənməsində Heydər Əliyevin əvəzsiz, müqəddəs xidmətləri qalacaqdır.

Bütün sahələrdə olduğu kimi ölkəmizin silahlı ordu quruculuğu da əbədi liderimiz Heydər Əliyevin misilsiz xidmətlərindən biridir. Mənsub olduğumuz Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi (AAHTM) Ulu Öndərimizin adı ilə bağlıdır. Məhz buna görə də AAHTM professor-müəllim heyəti

bu məsuliyyəti dərindən dərk edir və bütün səy və bacarığını hər an artırır.

Azərbaycanın uğur rəmzi olan Heydər Əliyev elə əzəmətli bir zirvədir ki, o, yer kürəsinin istənilən bir guşəsindən aydın görsənir. Biz isə çox xoşbəxt insanlarıq ki, doğma Azərbaycanımızın ən yeni tarixinin canlı şahidləri və iştirakçısı olmuşuq.

Heydər Əliyev azərbaycanlı olması ilə fəxr etdiyi üçün biz də, hər bir azərbaycanlı da, onunla fəxr edirik.

***polkovnik Coşqun Ağamalıyev,***
***Azərbaycan Ali Hərbi Təyyarəçilik***
***Məktəbinin rəisi***
***2006***

## AZƏRBAYCAN ALI HƏRBI TƏYYARƏÇILIK MƏKTƏBI
***(Məktəb marşı)***

***Söz:*** *Zəminə Xınalı*
***Musiqisi:*** *Yusif Axundzadənindir.*

Çəkilsin göylərdən qara buludlar,
Günəş şəfəq saçsın yollarınıza,
Öyünür xalqımız sənin adınla,
Sirli bir dünyasan,adın gözəldi.
Yurdumun fəxrisən, coşan bir qəlbi,
Ali Hərbi Təyyarəçilik Məktəbi.

Məramın sülh olsun,səadət olsun,
Düşmən yanar olsun,tanrım qorusun!
Uzaq keçmişlərdən gəlir sorağı,
Şahinlər yuvası,qeyrət ocağı.
Yurdumun fəxrisən,coşan bir qəlbi,
Ali Hərbi Təyyarəçilik Məktəbi.

Azəri yurdunun türk övladının,
Müqəddəs beşiyi sən olacaqsan.
Tarixin əbədi yaddaşlarında,
Hər zaman, hər vaxtı yaşayacaqsan.
Yurdumun fəxrisən,coşan bir qəlbi,
Ali Hərbi Təyyarəçilik Məktəbi.

***– Azərbaycanlılar! Harda olursan ol, hansı ölkədə yaşayırsan yaşa, ancaq Azərbaycan haqqında, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü haqqında, Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlisən.***

***H. Əliyev***

## DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK MARŞI

***Söz:*** *Zəminə Xınalı*
***Musiqisi:*** Həsən Abbasquliyevindir.

Azərbaycan adını,
Vətən,torpaq andını,
Ucalardan uca tut.
Sən ey vətən övladı,
Dünyanın hər yerində.
Günəş kimi parla sən,
Ucal ən şərəfli, şanlı adla sən.

***Nəqarət:***

Həmrəylik dostluq demək,
Həmrəylik sülh deməkdir.
Xalqımın xoş niyyətin,
Bəşərə çatdırmaq gərək.
Azərbaycan xalqına,
Gücünə, qeyrətinə,
Şanına, şöhrətinə,
Alqış deyək.
Sən şanlı bir tarixsən,
Sən bir şərəf yolusan,
Bölünməz bir bəşərsən,
Sülhün keşiyindəsən,
Parlayan bir günəşsən,
Zəfər yürüşündəsən,
Azəri xalqının övladısan sən.

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MÜSTƏQİLLİK, DÖVLƏTÇİLİK, AZƏRBAYCANÇILIQ VƏ ORDU HAQQINDA MÜDRİK KƏLAMLARI

- Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir.

***H. Əliyev***

- Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanması, daimi, əbədi olması bundan da çətindir.

***H. Əliyev***

- Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır.

***H. Əliyev***

- Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir.

***H. Əliyev***

- Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir.

***H. Əliyev***

- Ədalətsizliklə ədaləti bərpa etmək olmaz.

***H. Əliyev***

- Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın.

***H. Əliyev***

- Tarixə düzgün qiymət vermək, onu düzgün təhlil etmək lazımdır.

***H. Əliyev***

- Tarix həmişə hər şeyi öz yerinə qoyur.

***H. Əliyev***

- Ədəbiyyatın insanlara böyük təsiri vardır.

***H. Əliyev***

- Azərbaycan klassik, professional musiqisi, bəstəkarlarımızın yaratdığı bu əsərlər şərq aləmində demək olar ki, ilk professional, klassik musiqi nümunələridir və burada Azərbaycan birinci yerdədir.

***H. Əliyev***

- Bizim böyük və dahi şairlərimiz, yazıçılarımız, mütəfəkkir adamlarımız, dünya mədəniyyətini zənginləşdirmiş insanlar xalqımızın öz kökü, öz yeniliyi ilə böyük mədəniyyətə malik olduğunu sübut edir.

***H. Əliyev***

- Yüksək mədəniyytə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcək.

***H. Əliyev***

- Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir.

***H. Əliyev***

- Möhkəm, daimi sülh üçün müstəqil dövlətin, ölkənin güclü ordusu olmalıdır.

***H. Əliyev***

- Xalqla ordunun birliyi həm xalqın qüdrətini, həm ölkənin qüdrətini artırır, həm də ordunu daha da qüdrətli edir.

***H. Əliyev***

- Orduya qayğı, hörmət cəmiyyətin, xalqın şərəfli vəzifəsidir.

***H. Əliyev***

- Dövlət onun ərazisində yaşayan əhalinin təminatçısı olmalıdır.

***H. Əliyev***

- Milli ideologiyamız tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xüsusiyyətləri ilə, xalqımızın, dövlətimizin bugünü və gələcəyi ilə bağlı olmalıdır.

***H. Əliyev***

- Hər bir vətəndaş gərək ölkənin böyük siyasəti haqqında düşünsün, kiçik mənfəətləri, maraqları haqqında düşünməsin.

***H. Əliyev***

- Heç bir vətəndaş ictimai-siyasi həyata biganə qalmamalıdır.

***H. Əliyev***

- Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olur.

***H. Əliyev***

- Biz öz səviyyəmizə görə zamanın tələblərinə həmişə cavab verən mədəniyyətimizlə-istər keçmiş, istərsə də bugünkü mədəniyyətimizlə fəxr edirik.

***H. Əliyev***

- Azərbaycan ən qədim zamanlardan dinlərin, dillərin və mədəniyyətlərin təmas və ünsiyyət yeri olmuşdur.

***H. Əliyev***

- Sağlam mənəviyyat qanun keşiyində duran bizim hər bir məmurumuz üçün əsas meyar olmalıdır.

***H. Əliyev***

- Azərbaycan dili çox zəngin və ahəngdar dildir. Şəxsən mən öz dilimi çox sevirəm və bu dildə danışmağımla fəxr edirəm.

***H. Əliyev***

- Hər bir xalqın mənliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir.

***H. Əliyev***

- Yaşayırıq ona görə ki, torpaqlarımıza, dilimizə, dinimizə, mədəniyyətimizə, milli ənənələrimizə sadiq olaq.

***H. Əliyev***

- Hər bir gənc Azərbaycanın müstəqil gələcəyini təmin etmək üçün vətəni sevməlidir, xalqımızı sevməlidir, millətimizi sevməlidir, dilimizi sevməlidir, dinimizi sevməlidir, milli ənənələrimizi sevməlidir.

***H. Əliyev***

- Müstəqil Azərbaycanın öz torpaqlarını qorumağa qadir olan güclü nizami ordusu vardır.

***H. Əliyev***

- Nailiyyətlərimiz ondan ibarətdir ki, Azərbaycan ordusu artıq formalaşıb,qurulub və dövlətçiliyimizi, torpaqlarını, müstəqilliyini qorumağa qadirdir.

***H. Əliyev***

- Şəhidlərimizin ruhu məni ağrıdır. Həlak olan Azərbaycan vətəndaşlarının surəti hər gün gözümüzün qarşısına

gəlir. Lakin torpaqların, vətənin müdafiəsi hər birimiz üçün ülvi, ən müqəddəs vəzifədir. Bu müqəddəs vəzifənin yerinə yetirilməsində şəhid olanlar cənnətə gedirlər, onların qəhrəmanlığı xalqın xatirəsində daima yaşayacaqdır.

***H. Əliyev***

- Azərbaycan Respublikasının bu gün mövcud olan dövlət müstəqilliyi böyük sınaqlardan keçibdir. İftixar hissi ilə demək olar ki, bu sınaqlardan şərəflə çıxıbdır və indiki Azərbaycanın dövlət müstəqilliyi artıq mövcuddur və dönməzdir.

***H. Əliyev***

- Orduya çağırılan gənclər bilməlidirlər ki, onlar öz şərəfli vəzifələrini yerinə yetirməyə çağırılırlar.

***H. Əliyev***

- Qüdrətli bir ordunun yaranması bizim əsas vəzifəmizdir.

***H. Əliyev***

- Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır. Tariximiz bizim üçün dərs olmalıdır.

***H. Əliyev***

- Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir.

***H. Əliyev***

- Azərbaycanın hər bir vətəndaşı işğal edilmiş torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə qalxmağa hazır olmalıdır.

***H. Əliyev***

- Xalqın, millətin, insanın öz ana dilindən əziz heç bir şeyi ola bilməz.

***H. Əliyev***

- Hər bir azərbaycanlı milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycanın dilini, mədəniyyətini, milli–mənəvi dəyərlərini yaşatmalıyıq.

***H. Əliyev***

- Biz öz tarixi köklərimizlə, milli köklərimizlə, mənəvi dəyərlərimizlə, milli – mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edə bilərik.

***H. Əliyev***

- Biz düz yolla – haqq yoluyla, Allah yoluyla, Quran yoluyla, demokratiya yoluyla, həqiqət yoluyla, müstəqillik yoluyla gedirik. Tutduğumuz bu yol bizi Azərbaycanın çox gözəl gələcəyinə aparıb çıxaracaqdır.

***H. Əliyev***

- Dünyada hər şey halallıq istəyir, təmizlik, düzlük istəyir. Hər kəs öz tərbiyəsinin, öz mədəniyyətinin səviyyəsinə uyğun olaraq hərəkət etməlidir.

***H. Əliyev***

- Müstəqil Azərbaycan dövləti sözün tam mənasında azadlıq və demokratiya prinsipləri əsasında demokratik cəmiyyət qurur.

***H. Əliyev***

- Azərbaycanın dövlət müstəqilliyi bizim üçün ən əziz, ən qiymətli nailiyyətdir və bu nailiyyəti – dövlət müstəqilliyimizi daim qoruyub saxlayacağıq.

***H. Əliyev***

- Azərbaycan xalqı öz dövlətini dəstəkləyir, müdafiə edir və bu da xalqımızın əbədi müstəqilliyinin təminatıdır.

***H. Əliyev***

- Mən həqiqəti sevmişəm və həyatım da həqiqət üzərində qurulmuşdur.

***H. Əliyev***

- Milli ideyalarımız tarixi keçmişimizlə, millətimizin adət – ənənələri ilə, xalqımızın, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır.

***H. Əliyev***

- Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır.

***H. Əliyev***

- Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün qüdrətli bir ordunun yaradılması bizim əsas vəzifəmizdir.

***H. Əliyev***

- İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.

***H. Əliyev***

- Yaxşı idarə olunan dövlət ən böyük dayaqdır. Elə dövlət hər cür tərifə layiqdir. Nə qədər ki, o mövcuddur, rahatlıq və əminamanlıqdır.

***H. Əliyev***

- Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir.

***H. Əliyev***

- Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır. Tariximiz bizim üçün dərs olmalıdır.

***H. Əliyev***

- Azərbaycan ordusu artıq formalaşıb, qurulub və dövlətçiliyimizi, dövlətimizin torpaqlarını, ərazisini, müstəqilliyini qorumağa qadirdir.

***H. Əliyev***

- Ordu xidməti çox böyük fədakarlıq tələb edir, cəfakeşlik tələb edir.

***H. Əliyev***

- Bu gün böyük bir fərəh hissi ilə demək olar ki, Azərbaycan Ordusu bütün qoşun növləri üzrə inkişaf edir və təkmilləşir.

***H. Əliyev***

- Bizim ordumuzda milli aviasiya sahəsini də özümüzün milli mütəxəssislərimizlə, azərbaycanlılarla yarada bilərik. Bunlar artıq yaranıbdır və bu gün də sizinlə ilk görüşə gəlmişik. Bu Azərbaycan Milli Ordusunun bu sahədə ilk addımıdır. Amma hesab edirəm ki, bu çox yaxşı başlanğıcdır. Bunun böyük gələcəyi var. Mən bu gələcəyi açıq – aydın görürəm. Əgər biz bu qısa müddətdə azərbacanlılardan, Azərbaycan gənclərindən təyyarələri, hərbi təyyarələri, döyüş təyyarələrini idarə edə bilən və havada döyüş apara bilən, yaxud hava qüvvələri ilə ölkəmizin müdafiəsini təmin edə bilən mütəxəssislər hazırlaya bilmişiksə, bu böyük nailiyyətdir. Eyni zamanda bu da dövlət müstəqilliyimizin bizə verdiyi bəhrədir.

***H. Əliyev***

- Azərbaycan Silahlı Qüvvələrinin sıraları ilbəil yeni, gənc zabitlərlə artır və genişlənir.

***H. Əliyev***

- Bizim qüdrətli ordumuz olduqdan sonra torpaqlarımızı azad edə bilərik.

***H. Əliyev***

- Bizim məqsədimiz Azərbaycanın ərazi bütövlüyünü təmin etməkdən, Cənubi Qafqaz regionunda möhkəm və ədalətli sülhə nail olmaqdan ibarətdir.

***H. Əliyev***

- Hər bir insan gərək eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun! Gərək dövlətinə sadiq, xalqına sadiq vətəndaş olsun!

***H. Əliyev***

- Orduda, hər bir hərbi hissədə yuxarıdan aşağıyadək qanun – qayda, nizam – intizam, yüksək tələbkarlıq mövcud olmalıdır.

***H. Əliyev***

Bizim əsas problemimiz Ermənistan – Azərbaycan münaqişəsinə son qoymaq, ölkəmizin ərazi bütövlüyünü bərpa etmək və işğal olunmuş torpaqlarımızdan didərgin düşmüş vətəndaşlarımızı öz yerlərinə, yurdlarına qaytarmaqdır.

***H. Əliyev***

- Bizim dövlətimiz də, ordumuz da inkişaf edəcəkdir. Azərbaycan ilbəil öz inkişaf yolu ilə gedəcəkdir.

***H. Əliyev***

- Hamımız Azərbaycan, onun gələcəyi haqqında düşünməliyik.

***H. Əliyev***

- İkinci Dünya Müharibəsində, Böyük Vətən Müharibəsində alman faşizminə qarşı döyüşlərdə Azərbaycan oğulları, xalqımızın övladları, azərbaycanlılar da döyüşmüş, vuruşmuş, alman faşizmi üzərində qələbəyə öz payını vermişlər.

***H. Əliyev***

- İkinci Dünya Müharibəsində Azərbaycan övladlarının böyük bir hissəsi misilsiz qəhrəmanlıqlar göstərmiş və ən yüksək mükafatlara layiq olmuş, Sovet İttifaqı Гəhrəmanı kimi yüksək ad almışlar.

***H. Əliyev***

- Torpağı hər kəs, hər bir vətəndaş, hər bir azərbaycanlı müdafiə etməlidir.

***H. Əliyev***

- İndi Azərbaycan Ordusu mütəşəkkil, güclü bir qüvvədir.

***H. Əliyev***

- Azərbaycan Ordusu böyük gücə, texnikaya, silah – sursata malikdir və onun inkişaf etməsi üçün böyük imkanlar yaranıbdır.

***H. Əliyev***

- Azərbaycan Ordusunun, Silahlı Qüvvələrinin qüdrəti hər gün artmalıdır.

***H. Əliyev***

- Azərbaycanın güclü ordusu bu gün də, sabah da, on il, yüz il də bundan sonra lazımdır.

***H. Əliyev***

- Sülhü təmin etmək üçün, dövlətlər arasında daimi sülhü saxlamaq və müharibələrin baş verməsinin qarşısını al-

maq üçün gərək hər bir dövlətin güclü ordusu olsun.

***H. Əliyev***

- Azərbaycanın nizami ordusu var, Azərbaycanın yüksək səviyyədə təşkil edilmiş Sılahlı Qüvvələri var, Azərbaycan dövlətini, dövlətçiliyini və bütün mənafelərini, torpaqlarını qorumağa qadir ordusu var və bu ordu peşəkar hərbçilər, peşəkar zabitlər tərəfindən idarə olunur.

***H. Əliyev***

- Bizim ordumuz bu günün, gələcəyin ordusudur.

***H. Əliyev***

- Azərbaycan inkişaf edir, yüksəlir, güclənir və o cümlədən Azərbaycanın Silahlı Qüvvələri güclənərək daha da qüdrətli olur.

***H. Əliyev***

- Azərbaycan Silahlı Qüvvələrində, Azərbaycan ordusunda hər bir zabit, hər bir komandir, hər bir yüksək vəzifəli şəxs bilməlidir ki, o, sədaqətlə xidmət etməlidir.

***H. Əliyev***

- Azərbaycan xalqı, Azərbaycan dövləti işğal olunmuş torpaqları mütləq azad edəcəkdir.

***H. Əliyev***

- Torpaqlarımız azad olacaq, ordumuz inkişaf edəcək, respublikamızın iqtisadiyyatı yüksələcək və yaxın illərdə Azərbaycan böyük inkişaf yoluna qədəm qoyacaqdır.

***H. Əliyev***

- Azərbaycan Ali Hərbi Məktəbinin məzunları olmaq böyük şərəfdir və siz bu adı axıra qədər şərəflə daşımalısınız.

***H. Əliyev***

- Azərbaycanın Silahlı Qüvvələri Azərbaycanın torpaqlarını, dövlətçiliyini qorumalı və Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunmuş torpaqların azad edilməsi üçün üzərinə qoyulacaq vəzifələrin yerinə yetirilməsinə daim hazır olmalıdır.

***H. Əliyev***

- Azərbaycan ordusunun öz peşəkarlığının səviyyəsini qaldırması ən başlıca vəzifədir.

***H. Əliyev***

- Azərbaycan ordusunda xidmət etmək, zabit olmaq, Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin, Azərbaycan torpaqlarının keşiyində durmaq peşəsini şüurlu olaraq seçmiş gənclərə böyük ümid bəsləyirəm.

***H. Əliyev***

- Azərbaycanın hərbi potensialının daha da güclənəcəyinə əminəm.

***H. Əliyev***

- Azərbaycan əsgərinin birinci vəzifəsi xalqına, torpağına, millətinə sədaqətlə xidmət etməkdir.

***H. Əliyev***

- Türkiyə Cümhuriyyətinin Silahlı Qüvvələrinin, onun əsgərlərinin bütün başqa keyfiyyətlərindən əlavə, ən yüksək keyfiyyəti vətənə, millətə, torpağına daim sədaqət hissi ilə yaşaması və xidmət etməsidir. Bu, hər bir ölkənin əsgərinin borcudur.

***H. Əliyev***

- Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki,

ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa – olsun, bərpa edilməlidir.

***H. Əliyev***

- Müstəqil Azərbaycan dövləti hər bir Azərbaycan əsgərinin, bütövlükdə Azərbaycan Silahlı Qüvvələrinin xidmətini qiymətləndirməyə qadirdir.

***H. Əliyev***

- Dünyada çox peşələr var. Hər bir ölkədə, o cümlədən müstəqil Azərbaycanda da. Amma bütün peşələrdən xalq üçün, millət üçün, hər bir vətəndaş üçün, dövlət üçün ən vacib, ən dəyərli peşə milləti, xalqı, torpağı qorumaq peşəsidir – yəni hərbi peşədir.

***H. Əliyev***

- Azərbaycanın yüksək səviyyədə təşkil edilmiş, dövlətimizi, xalqımızı, torpaqlarımızı qorumağa qadir olan silahlı qüvvələri var.

***H. Əliyev***

- Vətəni müdafiə etməyə çalışan hər bir vətəndaş, hər bir gənc bizim üçün əziz, qiymətli və dəyərlidir.

***H. Əliyev***

- Hər bir vətənpərvər adam, millətini, xalqını sevən hər bir azərbaycanlı Azərbaycanın müstəqilliyinin daimi, dönməz olması üçün səy göstərməlidir.

***H. Əliyev***

- Xalqımızın, vətənimizin, respublikamızın taleyi hər bir insanın taleyinə çevrilməlidir.

***H. Əliyev***

- Mən respublikanın xoşbəxt gələcəyini görürəm və əmin ola bilərsiniz ki, biz bunların hamısına nail ola biləcəyik.

***H. Əliyev***

- Xalqımızın mədəniyyət sahəsində nailiyyətləri vətənini, millətini sevən hər bir Azərbaycanlı üçün iftixar mənbəyidir.

***H. Əliyev***

- Azərbaycan xalqı əyilməzdir, yenilməzdir, qəhrəmandır.

***H. Əliyev***

- Bütün Azərbaycan xalqı adından bəyan edirəm ki, torpaqlarımızın müdafiəsi uğrunda şəhid olanların xidməti heç vaxt unudulmayacaq, onlar qəlbimizdə daim yaşayacaqdır.

***H. Əliyev***

- Ordu ölkəmizin,millətimizin, dövlətimizin dayağıdır.

***H. Əliyev***

- Ordu xalqımızın tərkib hissəsidir.

***H. Əliyev***

- Hər bir vətəndaş vətənimizin, xalqımızın taleyi ilə yaşamalıdır.

***H. Əliyev***

- Azərbaycan xalqı özünün tarixi qəhrəmanlıq ənənələrini uca tutaraq vətənini, torpağını, Azərbaycan Respublikasının müstəqilliyini qorumağa qadirdir.

***H. Əliyev***

- Dünya bilməlidir, hamı bilməlidir, o cümlədən, Ermənistan tərəfi bilməlidir ki, biz heç vaxt torpaqlarımızın bir

qarışını da heç kəsə verməyəcəyik!

***H. Əliyev***

- Azərbaycanın mərd, igid oğulları, vətənpərvər insanları, respublikamızın müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü qorumuş, qoruyub saxlamaq üçün mübarizə etmiş və canlarını qurban vermişlər.

***H. Əliyev***

- Şəhidlər vətənini sevən əsl Azərbaycan gəncləri olublar.

***H. Əliyev***

- Azərbaycanın hər bir vətəndaşı işğal edilmiş torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə qalxmağa hazır olmalıdır.

***H. Əliyev***

- Qəhrəman Azərbaycan əsgəri, müqəddəs Azərbaycan torpaqlarının, müstəqil Azərbaycan Respublikasının müdafiəsi yolunda irəli !

***H. Əliyev***

- Xalq həmişə azadlıq uğrunda mübarizə apararkən qurbanlar verməlidir.

***H. Əliyev***

- Hər bir insan ilk növbədə anasını, vətənini, torpağını, millətini sevməli, bu hisslərlə yaşamalıdır.

***H. Əliyev***

- Hər bir şəhid bizdən ötrü böyük itkidir. Onların xatirəsi bizim üçün əzizdir, qəlbimizdə daim yaşayacaqdır.

***H. Əliyev***

- Azərbaycan xalqı dərin mənəviyyata malik xalqdır, qəhrəman xalqdır.

***H. Əliyev***

- Doğma respublikamızın indiki ağır vəziyyətdən çıxması üçün hər bir vətəndaş öz səyini əsirgəməməlidir.

***H. Əliyev***

- Torpağımızı, vətənimizi, müstəqil Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü qorumaq ən şərəfli vəzifədir və bu vəzifəni həyata keçirmək hər bir Azərbaycan vətəndaşının borcudur.

***H. Əliyev***

- Xalqımız çoxəsrlik tarixində milli mənliyini, torpağını, vətənini qoruyub saxlamağa qadir olduğunu dəfələrlə sübut edibdir.

***H. Əliyev***

- Xalqımız bilməlidir ki, biz özümüz-özümüzü qorumalıyıq, qüdrətimizi, qəhrəmanlığımızı göstərməliyik.

***H. Əliyev***

- Ordu xalqın bir hissəsidir. Xalqla ordunun birliyi həmişə dövlətin də qüdrətini təmin edir, orduya da daha çox güc verir, xalqın da öz ordusuna daha çox etibar etməsinə əsas verir.

***H. Əliyev***

- Bütün qüvvələr ordu quruculuğuna səfərbər olunmalıdır.

***H. Əliyev***

- Dövlətimizin hərbi qüdrətini möhkəmləndirməliyik !

***H. Əliyev***

- Ordu ölkəmizin, millətimizin, dövlətimizin müstəqilliyinin dayağıdır.

***H. Əliyev***

- Beynəlxalq təşkilatlar tərəfindən tanınmış sərhədlər çərçivəsində olan ərazimizi biz heç vaxt heç kəsə verməyəcəyik.

***H. Əliyev***

- Biz müharibə istəmirik, Ermənistan torpaqlarına göz dikməmişik. Biz öz torpaqlarımızı, öz ərazimizi, öz vətənimizi qoruyuruq.

***H. Əliyev***

- Orduya qayğı, hörmət cəmiyyətin, xalqın şərəfli vəzifəsidir.

***H. Əliyev***

- Müstəqil dövlətin özünəməxsus qüdrəti olmalıdır. Bu qüdrətin əsasını xalq və onun bir hissəsi olan ordu təşkil edir.

***H. Əliyev***

- Bu gün biz böyük iftixar hissi ilə deyirik ki, müstəqil Azərbaycan Respublikasının Milli Ordusu var. Bu, Azərbaycan xalqının böyük milli nailiyyətidir.

***H. Əliyev***

- Xalqla ordunun birliyi həm xalqın qüdrətini, həm ölkənin qüdrətini artırır, həm də ordunu daha da qüvvətli edir.

***H. Əliyev***

- Bütün azərbaycanlılar müstəqil dövlətimizin ətrafında daha sıx birləşməli, onun azad, firavan, daha da güclü və qüdrətli olması üçün əllərindən gələni etməlidirlər.

***H. Əliyev***

- Xalq mənim dayağım, gücüm və inamımdır.

***H. Əliyev***

- Şəhidlərin qanı yerdə qalmayacaq.

***H. Əliyev***

- Ordu Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qorumaq üçün yaranıb. Ona görə də hər bir vətəndaş ordu sıralarında xidmət etməyi özünə şərəf bilməlidir.

***H. Əliyev***

- Bizim ordumuz bu gün Azərbaycanın müstəqilliyinə yönəldilmiş hər hansı bir qəsdə layiqli cavab verməyə hazırdır.

***H. Əliyev***

- Vətən birdir və hamı bu vətən uğrunda çalışmalıdır.

***H. Əliyev***

- Müstəqilliyi qazanmaq tarixi şansdır, onu yaşatmaq isə müqəddəs vəzifədir.

***H. Əliyev***

- Silahlı Qüvvələrdə Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə sədaqətli, sağlam mənəviyyatlı insanlar xidmət etməlidirlər.

***H. Əliyev***

- Xalqı həmişə mədəniyyət birləşdirir. Çünki başqa əsaslara nisbətən mənəvi əsaslar daha üstündür.

***H. Əliyev***

- Mən yer üzündə müəllimdən yüksək ad tanımıram.

***H. Əliyev***

- Müəllimlik vəzifəsi ona görə şərəflidir ki, o, cəmiyyət üçün ən dəyərli, bilikli, zəkalı, tərbiyəli, vətənpərvər vətən-

daşlar hazırlayır.

***H. Əliyev***

- Ordumuzun yaranması, formalaşması, möhkəmlənməsi o yalnız və yalnız Azərbaycan Respublikasının müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin etmək üçün lazımdır.

***H. Əliyev***

- Azərbaycanın müstəqilliyinin dönməz və əbədi olmasının əsas mənbəyi və təlimatçısı Azərbaycan gəncliyidir.

***H. Əliyev***

- Ana dili milli sərvətimizdir.

***H. Əliyev***

- Milli müstəqilliyimiz – mənəvi sərvətimizdir.

***H. Əliyev***

- Mən, sən, biz hamımız həyatda müəllimlərə borcluyuq.

***H. Əliyev***

- Hər bir gənc vətənpərvər olmalıdır.

***H. Əliyev***

- Yaşasın qəhrəman Azərbaycan əsgəri.

***H. Əliyev***

- Bizim hamımızın bir vətəni var – bu Azərbaycandır.

***H. Əliyev***

- Bizim ordumuz bu gün Azərbaycanın müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə qarşı yönəlmiş hər hansı qəsdə layiqli cavab verməyə qadirdir.

***H. Əliyev***

- Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün hər bir döyüşə, hər bir vuruşa hazır olmalıyıq.

***H. Əliyev***

- Torpağı qorumaq, torpaq uğrunda həlak olmaq insan üçün böyük sərvətdir.

***H. Əliyev***

- Allahın bu xalqa bəxş etdiyi sərvətdən ağılla istifadə edilməlidir.

***H. Əliyev***

- Vətəni, torpağı, dövləti qorumaq peşəsi hər bir peşədən şərəflidir.

***H. Əliyev***

- Orduda gərək hər kəs Azərbaycan dövlətçiliyinə, Ali Baş Komandana tam sədaqətli olsun. Burada ikili mövqe tutmaq olmaz. Hamımız Azərbaycan, onun gələcəyi haqqında düşünməliyik.

***H. Əliyev***

- Orduda yüksək vətənpərvərlik ruhu, sağlam münasibətlər olmalıdır.

***H. Əliyev***

- Torpağı hər kəs, hər bir vətəndaş, hər bir azərbaycanlı müdafiə etməlidir.

***H. Əliyev***

- Müstəqil Azərbaycan Respublikasının Milli Ordusu var. Bu, Azərbaycan xalqının böyük milli nailiyyətidir.

***H. Əliyev***

- Ordu Azərbaycan dövlətinin dövlətçiliyinin siyasəti əsasında yaşamalıdır, fəaliyyət göstərməlidir.

***H. Əliyev***

- Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır.

***H. Əliyev***

- Möhkəm, daimi sülh üçün müstəqil dövlətin, ölkənin güclü ordusu olmalıdır.

***H. Əliyev***

- Müstəqilliyimizi həmişə qoruya bilən güclü ordumuz olmalıdır.

***H. Əliyev***

- Bizim ordumuz öz dövlətimizin, xalqımızın ordusudur.

***H. Əliyev***

- Xalqla ordunun birliyi həm xalqın qüdrətini artırır, həm də ordunu daha da qüvvətli edir.

***H. Əliyev***

- Qarşımızda duran əsas vəzifələrdən biri xalqla ordunun sağlam mənəvi birliyini təmin etməkdən ibarətdir.

***H. Əliyev***

- Ordu daim dövlət qayğısı altında olmalıdır, xalqın qayğısı ilə əhatə edilməlidir.

***H. Əliyev***

- Hər kəs orduya qayğı göstərməlidir, öz imkanlarından istifadə edib ordunun problemlərinin həll olunmasına ça-

lışmalıdır. Ordunun inkişaf etməsi üçün əlindən gələni əsirgəməməlidir.

***H. Əliyev***

- Ordu bizim doğma ordumuzdur.

***H. Əliyev***

- Ordu ölkəmizin, millətimizin, dövlətimizin müstəqilliyinin dayağıdır.

***H. Əliyev***

- Ordu dövlətin, xalqın, millətin qayğısı ilə əhatə olunmalıdır.

***H. Əliyev***

- Ordu müstəqil dövlətimizin əsas atributudur.

***H. Əliyev***

- Beynəlxalq təşkilatlar tərəfindən tanınmış sərhədlər çərçivəsində olan ərazimizi biz heç vaxt heç kəsə verməyəcəyik.

***H. Əliyev***

- Hər bir müstəqil dövlətin müstəqil yaşaması üçün güclü, müasir tələblərə cavab verən ordusu olmalıdır.

***H. Əliyev***

- Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var.

***H. Əliyev***

- Ordumuz sağlam ordu olmalıdır. Azərbaycan xalqının milli mənəvi dəyərləri əsasında tərbiyələnən, möhkəmlənən, hazırlanan və inkişaf edən ordu olmalıdır.

***H. Əliyev***

- Ordu peşəkar zabitlər, komandirlər tərəfindən idarə olunmalıdır.

***H. Əliyev***

- Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi, suverenliyi uğrunda şəhid olmuş övladlarımızın qəhrəmanlıq nümunələri bizim qəlbimizdə əbədi yaşayacaqdır və ordumuzun bugünkü əsgərləri, gələcək döyüşçülər üçün nümunə, örnək olacaqdır.

***H. Əliyev***

- Orduya çağrılan gənclər bilməlidirlər ki, onlar öz şərəfli vəzifələrini yerinə yetirməyə çağırılırlar.

***H. Əliyev***

- Xalqımızın, dövlətimizin ən ümdə məqsədi Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, işğal olunmuş torpaqlarımızı azad etmək, yerlərindən-yurdlarından didərgin düşmüş vətəndaşlarımızın evlərinə qayıtmağını təmin etməkdir.

***H. Əliyev***

- Hər bir vətəndaş Azərbaycanın Milli Ordusunda xidmət etməyi özü üçün ən şərəfli vəzifə hesab etməlidir.

***H. Əliyev***

- Hər bir vətəndaşın borcu Azərbaycanın dövlət müstəqilliyinə, öz ölkəsinə, millətinə, dövlətinə, xalqına sadiq olmaqdan ibarətdir.

***H. Əliyev***

- Gələcəyimiz olan gənclər ölkəmizə, millətimizə, dövlətimizə sədaqətlə xidmət etməlidirlər.

***H. Əliyev***

- Respublikamızın müstəqilliyini qoruyub saxlamaq üçün lazım olan tədbirləri görərək daim gənclərə arxalanırıq, güvənirik.

***H. Əliyev***

- Hər bir gənc Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, inkişaf etdirmək, yaşatmaq üçün çalışmalıdır və öz xidmətlərini göstərməlidir.

***H. Əliyev***

- Hər bir gəncin orduya getməsi onun ailəsində bayram olmalıdır.

***H. Əliyev***

- Bizim hamımızın bir vətəni var – bu, Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daima Azərbaycanla bir vurmalıdır.

***H. Əliyev***

- Azərbaycan öz mədəniyyəti, elmi, yüksək təhsili ilə böyük bəşəri keyfiyyətlərini bütün dünyaya nümayiş etdirə bilmişdir.

***H. Əliyev***

- Hər bir azərbaycanlı gənc orduda xidmət etməkdən şərəf hissi duymalı, fəxr etməlidir ki, ona müstəqil dövlətçiliyimizi və torpaqlarımızın toxunulmazlığını qorumaq kimi ən şərəfli vəzifə etibar olunub.

***H. Əliyev***

- Mən “ *Naxçıvanskilər* ”*in* gələcəyinə inanıram.

***H. Əliyev***

- Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir.

***H. Əliyev***

- Bizim Silahlı Qüvvələrimizdə hər bir zabit, hər bir komandir mənəviyyatca saf olmalıdır. Mənəvi saflıq insanı daim yüksəldir və lazım olan bütün başqa keyfiyyətlərin onda cəmlənməsi üçün əsas meyardır.

***H. Əliyev***

- Silahlı Qüvvələrimizin vəzifəsi bütün ölkələrdə olduğu kimi, öz ölkəsinin, Azərbaycanın müstəqilliyini qorumaq, suverenliyini qorumaqdır.

***H. Əliyev***

- Hər bir gənc orduda xidmət etməyi özünün ən böyük vətəndaşlıq və vətənpərvərlik borcu kimi qəbul etməlidir.

***H. Əliyev***

- Biz fəxr edirik ki, azadlıq yolunda özünü qurban etmiş şəhidlərimiz var, onların qəhrəmanlığı, onların ruhu bizim qəlbimizdə daim yaşayacaqdır.

***H. Əliyev***

- Azərbaycan gəncləri Azərbaycanın gələcəyidir!

***H. Əliyev***

- Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir.

***H. Əliyev***

- Xalqımız əsrlər boyu həmişə öz torpağını qoruyub, öz milli azadlığını, qürurunu müdafiə edib və bu gün də müdafiə etməyə qadirdir.

***H. Əliyev***

- Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır.

***H. Əliyev***

- Böyük siyasəti kiçik hisslərə, xırda mənfəətlərə bağlamaq olmaz.

***H. Əliyev***

- Ziyalı kütləvi ola bilməz. Alimdir, şairdir, bəstəkardır, rəssamdır, yazıçıdır, artistdir – bunlar fitri istedada malik olan nadir adamlardır. Biz öz hərəkətlərimizlə, öz münasibətlərimizlə, öz tədbirlərimizlə gərək ziyalının cəmiyyətdə rolunu qaldıraq.

***H. Əliyev***

- O insanlar ki, sədaqətlidirlər, saf mənəviyyatla, amallarla yaşayırlar, xalqına, millətinə, torpağına xidmət edirlər, dövlətin qanun-qaydalarına tabe olurlar, bu qanun-qaydaları qoruyurlar və onların həyata keçirilməsinə çalışırlar – belə adamlar həmişə mənim silahdaşımdır.

***H. Əliyev***

- Mən həyatda yalnız üç şeyə arxalanmışam: - yaradanıma, zəhmətimə və bir də xalqıma.

***H. Əliyev***

- Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik sadəcə orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik.

***H. Əliyev***

- Vətən yolunda həlak olmaqdan şərəfli bir həyat ola bilməz. Biz onların xatirəsinə daim hörmət etməliyik.

***H. Əliyev***

- İkinci Dünya Müharibəsinin, Böyük Vətən Müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək bizim dövlətin və hər bir dövlət orqanının, hər bir namuslu Azərbaycan vətəndaşının borcudur.

***H. Əliyev***

- Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına xidmət olmuşdur.

***H. Əliyev***

- Biz müstəqil ölkəmizdə öz elmimizi, mədəniyyətimizi, nailiyyətlərimizi və tarixi keçmişimizi daha geniş təbliğ etməliyik. Azərbaycan televiziyası bu prosesin önündə getməlidir.

***H. Əliyev***

- Televiziya bütün informasiya vasitələrinin ən kütləvisidir. İndi heç kəs öz həyatını televiziyasız təsəvvür edə bilməz.

***H. Əliyev***

- Gün o gün olacaq ki, Azərbaycan torpaqlarının hamısı azad olacaq, hər bir vətəndaşımız öz evinə, obasına qayıdacaqdır.

***H. Əliyev***

- Müəllim vəzifəsi ona görə şərəflidir ki, o cəmiyyət üçün ən dəyərli, bilikli, zəkalı, tərbiyəli vətəndaşlar hazırlayırlar.

***H. Əliyev***

- Həyatın mənası çox və yaxud az yaşamasından ibarət deyil. Onun əsas mənası bu həyatda öz yerini, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır.

***H. Əliyev***

- Heç bir vətəndaş ictimai-siyasi həyata biganə qalmamalıdır.

***H. Əliyev***

- Ən böyük vəzifə Azərbaycanı erməni təcavüzündən xilas etməkdir.

***H. Əliyev***

- Hərbi məktəbdə təhsil almaq istəyən hər bir kəs verdiyi vədə və içdiyi anda sadiq olmalıdır.

***H. Əliyev***

- Mən inanıram ki, Azərbaycan Ordusu güclənərək elə səviyyəyə çatacaqdır ki, lazım olan anda o Azərbaycana qəsd edən hər bir düşmənə zərbə vuracaq və qələbə qazanacaqdır.

***H. Əliyev***

- Ordumuza yeni nəsillər, zabit nəsilləri sistemli olaraq gəlir. Bunların hamısı bizim ordumuzu ilbəil gücləndirir, onun qüdrətini artırır.

***H. Əliyev***

- Ordunun ordu olmasının əsas amili nizam-intizamdır.

***H. Əliyev***

- Şəhid olmaq hər bir insan üçün ən yüksək zirvəyə çatmaqdır. Ancaq istəməzdik ki, bizim gənclərimiz şəhid olsunlar. O qəhrəmanlar ki, o insanlar ki, vuruşlarda, döyüşlərdə şəhid olublar, canlarını qurban veriblər, onlar bizim ordumuz üçün, hər bir əsgər üçün örnək olmalıdır.

***H. Əliyev***

- Bizim qarşımızda duran bir vəzifə də var. O da şəhid ailələrinə qayğı göstərmək, döyüşlərdə xəsarət almış, əlil olmuş insanlara qayğı göstərməkdir.

***H. Əliyev***

- Azərbaycan dövləti, Azərbaycan xalqı heç vaxt vətən yolunda, torpaq yolunda, müstəqillik yolunda şəhid olmuş vətəndaşlarımızı unutmayacaqdır.

***H. Əliyev***

- Bütün görüşlərdə Azərbaycanın milli mənafeləri müdafiə edilir və müdafiə olunacaqdır.

***H. Əliyev***

- Bizim güclü ordumuz, bundan sonra daha da güclənəcək ordumuz Azərbaycanın işğal olunmuş torpaqlarını azad etməyə, Azərbaycanın ərazi bütövlüyünü bərpa etməyə qadirdir.

***H. Əliyev***

- Xalq, dövlət orduya ümid edir, orduya güvənir. Ordu isə xalqın, dövlətin dəstəyinə güvənir.

***H. Əliyev***

- Dövlət xalqındır, xalq üçündür, millət üçündür.

***H. Əliyev***

- Ordu xalqındır və ordu xalq üçündür, dövlət üçündür, millət üçündür.

***H. Əliyev***

- Azərbaycan ordusu bundan sonra daha da güclü, daha da qüdrətli ordu olacaqdır.

***H. Əliyev***

- Hərbi vətənpərvərlik ruhu hər bir insanın qəlbində yaşamalıdır. Əgər vətənpərvərlik hissiyyatı olmasa, o, ölkəsinin vətəndaşı ola bilməz.

***H. Əliyev***

- Hərbi vətənpərvərlik hissiyyatı olmasa, bizim xalqımız bu ağır vəziyyətdən çıxa bilməz.

***H. Əliyev***

- Bizim əsas vəzifələrimizdən biri də Azərbaycanda vətənpərvərlik ruhunu yüksəltmək, orduda vətənpərvərlik ruhunu yüksəltmək və hər bir vətəndaşda hərbi vətənpərvərlik ruhunu yüksəltməkdir.

***H. Əliyev***

- Sevindirici hal ondan ibarətdir ki, indi özünü hərbi peşəyə həsr etmək istəyən gənclər ilbəil artır.

***H. Əliyev***

- Bütün Azərbaycan gənclərində hərbi peşəni mənimsəmək qabiliyyəti çox yüksəkdir.

***H. Əliyev***

- Ordu, Silahlı Qüvvələr xalqın təhlükəsizliyini və müstəqil dövlətin suverenliyini, müstəqilliyini qorumaq üçün lazımdır.

***H. Əliyev***

- Azərbaycanın dövlət müstəqilliyi bundan sonra da möhkəmlənəcək və əbədi olacaqdır.

***H. Əliyev***

- Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcəkdir.

***H. Əliyev***

- Bizim ordumuz güclənəcək, müstəqil dövlətimiz daha da yüksəklərə qalxacaq, Azərbaycan müstəqil dövlət kimi daim yaşayacaqdır.

***H. Əliyev***

- Silahlı Qüvvələrin yaranmasına, ordu quruculuğuna dövlətin, bütün hakimiyyət orqanlarının xüsusi qayğısı olmalıdır. Azərbaycanın dövləti, Azərbaycanın Prezidenti, Ali Baş Komandan bu qayğını göstərir və bundan sonra da göstərəcəkdir.

***H. Əliyev***

- Azərbaycan bu gün güclü orduya malikdir və Azərbaycan torpaqlarının qorunmasına qadir olan ordumuz var.

***H. Əliyev***

- Bizim artıq vətənpərvər əsgərlərimiz, zabitlərimiz, gənclərimiz var.

***H. Əliyev***

- Azərbaycanın torpaqlarını, mənafeyini müdafiə etməyə qadir olan əsgərlərimiz, zabitlərimiz, milli ordumuz vardır.

***H. Əliyev***

- Azərbaycanın dövlət quruculuğunda əsas yerlərdən biri güclü ordumuzun yaradılmasıdır.

***H. Əliyev***

- Hərbi peşədə xidmət göstərmək üçün ciddi fiziki hazırlıq çox vacibdir.

***H. Əliyev***

- Azərbaycanın dövlət müstəqilliyi tarixi hadisədir, Azərbaycan xalqının tarixi nailiyyətidir. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir.

***H. Əliyev***

- Azərbaycan xalqının əsrlər boyu qəlbində olan, həsrətini çəkdiyi günlər gəlib çatmışdır. Azərbaycan xalqı öz müstəqilliyinə nail olmuşdur.

***H. Əliyev***

- Azərbaycan dövləti müstəqildir, müstəqil olacaq və müstəqilliyini qoruyub saxlayacaq.

***H. Əliyev***

- Hər bir azərbaycanlı gənc orduda xidmət etməkdən şərəf hissi duymalı, fəxr etməlidir ki, ona müstəqil dövlətimizi və torpaqlarımızın toxunulmazlığını qorumaq kimi ən şərəfli vəzifə etibar olunub.

***H. Əliyev***

- Vətəni qorumaq ən yüksək, şərəfli vəzifədir. Bu vəzifəni həyata keçirmək üçün hər bir Azərbaycan vətəndaşı canını qurban verməyə hazır olmalıdır.

***H. Əliyev***

- İndi biz müstəqil dövlətik, öz respublikamızın, öz taleyimizin sahibiyik, xalqımızın bu günü və gələcəyi üçün cavabdehik.

***H. Əliyev***

- Azərbaycan ordusu bütün qoşun növləri üzrə inkişaf edir və təkmilləşir.

***H. Əliyev***

- Müstəqil Azərbaycan Respublikası XXI əsrdə həyatın bütün sahələrində geniş inkişaf edən, çiçəklənən bir ölkə kimi böyük uğurlar qazanacaqdır.

***H. Əliyev***

**Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Azərbaycan ordusu haqqında kəlamları:**

- Heydər Əliyevin fiziki yoxluğu bizi sarsıtmamalıdır. Onun siyasəti yaşayır, onun ideyaları yaşayır və onun əsəri olan müstəqil Azərbaycan yaşayır. O, bizim qəlbimizdə daim yaşayacaqdır.

***İlham Əliyev***

- Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək daha da güclənəcəkdir, Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır, ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda cox işlər görmək lazımdır.

***İlham Əliyev***

- Mən əminəm ki, Azərbaycan öz müstəqilliyin qoruyub saxlayacaq və möhkəmləndirəcəkdir. Əminəm ki, ölkəmizin ərazi bütövlüyü tezliklə təmin olunacaq, xalqımız sülh şəraitində yaşayacaq və gələcəkdə biz neftdən gələn gəlirləri sosial sahəyə-səhiyyəyə, mədəniyyət, təhsil sahələrinə, ordu quruculuğuna yönəldəcəyik. Mən inanıram ki, Azərbaycan beynəlxalq aləmin mühüm ayrılmaz bir hissəsi kimi durmadan inkişaf edəcəkdir.

***İlham Əliyev***

- Mən hər bir azərbaycanlının prezidentiyəm.

***İlham Əliyev***

- Azərbaycanı böyük gələcək gözləyir, mən buna əminəm.

Gələcəyin, sənaye inkişafının əsası, əhalinin rifah halının artmasının bazası indidən qoyulmuşdur.

***İlham Əliyev***

- Azərbaycan torpaqları işğalçı qüvvələrdən azad olunacaq, bizim soydaşlarımız öz doğma torpaqlarına qayıdacaqlar.

***İlham Əliyev***

- Azərbaycan iqtisadi baxımdan çox sürətlə inkişaf edir.

***İlham Əliyev***

- Ölkəmizdə ictimai-siyasi vəziyyət müsbətdir.

***İlham Əliyev***

- Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparır, heç kimdən asılı deyil, gələcəkdə də heç kimdən asılı olmayacaqdır.

***İlham Əliyev***

- Xalqımızın ümummilli lideri Heydər Əliyevin fəaliyyəti nəticəsində, səyləri nəticəsində, siyasəti nəticəsində bu gün Azərbaycan bölgədə və dünyada çox möhkəm yerini tutmuş bir ölkədir.

***İlham Əliyev***

- Azərbaycanın uğurlu inkişafı, ölkəmizin möhkəmlənməsi bizim ən başlıca vəzifəmizdir.

***İlham Əliyev***

- Azərbaycanda sabitliyi möhkəmləndirəcəyik və Azərbaycanın inamlı inkişafını təmin edəcəyik.

***İlham Əliyev***

- Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən əsasları yaradılmış və möhkəmləndirilmiş Azərbaycan dövləti getdikcə qüdrətlənir.

***İlham Əliyev***

- Cəmiyyətimizdə milli birlik, sosial həmrəylik güclənir.

***İlham Əliyev***

- Dövlətimizin və xalqımızın gücü, birliyi, insanlarımızın əzmi və iradəsi məqsədimizə çatacağımıza bizdə tam əminlik yaradır.

***İlham Əliyev***

- Mənim fəaliyyətimin əsas istiqamətlərindən biri də ordunu gücləndirmək, onun maddi - texniki bazasını möhkəmləndirməkdən ibarətdir, biz güclü orduya malikik, amma hər gün, hər an bu istiqamətdə daha böyük addımlar atmalıyıq. Mən şübhə etmirəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Şübhə etmirəm ki, biz torpaqlarımızı azad edəcəyik. Amma, əlbəttə, biz istərdik bu sülh yolu ilə olsun.

***İlham Əliyev***

- Daim orduya qayğı göstərməliyik, diqqət göstərməliyik, ordumuzu gücləndirməliyik.

***İlham Əliyev***

- Orduya ayrılan xərclər hər il artır. Büdcədə nəzərdə tutulan xərclər artır. Bundan sonra da orduya ayrılacaq vəsaitlər artacaqdır.

***İlham Əliyev***

- Bizim ordumuz istənilən vaxtda torpaqlarımızı düşməndən azad etməyə qadirdir. Amma istəyirik ki, ordumuz

daha da güclü olsun. Orduda xidmət edən zabitlərin, əsgərlərin şəraiti daha yaxşı olsun.

***İlham Əliyev***

- Naxçıvanda yerləşən hərbi hissələr muxtar respublikanı çox möhkəm qoruyurlar, və mən Ali Baş Komandan kimi burada aparılan işlərdən razıyam.

***İlham Əliyev***

- Naxçıvanski adına məktəbin 30 illiyi qeyd edilərkən, xalqımızın ümummilli lideri əsgərlər, zabitlər və generallar qarşısında çıxış edərkən, o, iki dəfə nitqini dayandırmışdır. Amma bütün buna ciddi baxmayaraq, o, iki dəfə kürsüyə qayıtmış, öz nitqini davam etdirmişdi. Budur, bizim hamımız üçün nümunə, budur bizim üçün örnək. Bu fədakarlıq, bu cəsarət, bu siyasi iradə bizim hamımız üçün örnək, nümunə olmalıdır. Biz hamımız çalışmalıyıq ki, xalqımızın ümummilli lideri Heydər Əliyevə oxşayaq, onun yolu ilə gedək. Azərbaycan xalqı bu istiqamətdə böyük işlər görür, bu siyasəti birmənalı dəstəkləyir.

***İlham Əliyev***

- Gələcək gənclərindir.

***İlham Əliyev***

- Azərbaycan bu gün sabit və intensiv inkişaf edən bir ölkədir, Azərbaycan bu gün denokratiya və inkişaf yolu ilə irəliləyən müstəqil ölkədir.

***İlham Əliyev***

- Azərbaycan Xəzərdə öz neft yataqlarını mənimsəməyə başlayan ilk ölkədir, amma indi biz bu işi öz tərəfdaşlarımızla, dünyanın iri neft şirkətlərilə birlikdə həyata keçiririk.

***İlham Əliyev***

- Azərbaycan Ordusu güclü ordudur.

***İlham Əliyev***

- Müasir, mütəşəkkil ordunu yaratmaq Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri olmuşdur.

***İlham Əliyev***

- Azərbaycan ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadir bir ordudur.

***İlham Əliyev***

- Güclü kadr potensialı indi Azərbaycanın müstəqilliyinə, Azərbaycanın inkişafına xidmət edir.

***İlham Əliyev***

- Heydər Əliyev hakimiyyətə qayıdandan sonra ordu quruculuğu istiqamətində böyük işlər görülməyə başladı, nizamlı ordu yarandı və bu gün o, ən yüksək standartlara cavab verir, qarşıda duran bütün vəzifələri həll edə bilir.

***İlham Əliyev***

- Ölkəmizi inkişaf yoluna çıxarmaq xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəsna xidməti idi.

***İlham Əliyev***

- Bu gün Azərbaycan inamla inkişaf edir, bölgədə aparıcı dövlətdir.

***İlham Əliyev***

- Hər bir ölkə üçün onun ordusu çox vacib bir atributdur, çox önəmli bir rəmzdir.

***İlham Əliyev***

- Azərbaycan ordusu istənilən vaxtda öz doğma torpaqlarını azad edə bilər.

***İlham Əliyev***

- Bizim ordumuz daha da güclü, daha da inamlı olmalıdır.

***İlham Əliyev***

- Mənim fəaliyyətimin əsas istiqamətlərindən biri də ordunu gücləndirməkdən, onun maddi-texniki bazasını möhkəmləndirməkdən ibarətdir.

***İlham Əliyev***

- Azərbaycan inamla addımlayır, çox uğurla inkişaf edir.

***İlham Əliyev***

# 20 YANVAR ÜMUMXALQ MATƏM GÜNÜDÜR

*(PUBLİSİSTİK QEYDLƏR)*

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş Sovet İttifaqının qoşun hissələri və zirehli texnika Azərbaycanın paytaxtı Bakı şəhərinə yeridilmiş, dinc əhaliyə divan tutulmuş, yüzlərlə insan qətlə yetirilmiş, yaralanmış, itkin düşmüşdür.

Sovet Ordusunun xüsusi təyinatlı dəstələrinin və daxili qouşunların iri kontinigentinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görülməmiş vəhşiliklə müşayiət edilmişdir.

Bu dəhşətli faciənin hər anını belə yaşamış hər bir vətən övladının nə susmağa, nə də ki, paslı qılınc kimi qında yatmağa, sadəcə olaraq, mənəvi haqqı yox idi. Bu faciə lal dilləri belə dilləndirməli, yatmış vicdanları oyatmalıydı.

Misilsiz iradə sahibinə malik Azərbaycan xalqı tankların imperiya əsgərlərinin şəhərə soxulacağı yolları silahsız kəsmişdilər. Ürəyi torpaq eşqi ilə döyünən vətən övladlarının Sovet imperiyası tərəfindən qanına qəltan edilməsi, xalqımızın böyük qardaş adlandırdığı ruslara qarşı olan inamını bir daha qırdı. Həmin gün yüzlərlə insan vətən uğrunda şəhid oldu.

Həmin gün 20 yanvar günü Bakı şəhəri öz qara libasını geyindi. Analarımız ağı deyib ağladı, məhəbbət rəmzi adlandırılan qırmızı qərənfillər şəhidlərin ruhu qarşısında baş əydi, göz yaşlarını tökdü. Bəli, həmin gün xalqımızla bərabər qərənfillər də ağlayırdı.

Şəhidlərin əbədiyyətə qovuşduğu gündən etibarən 3 gün Bakıda və bütün rayon, kənd və qəsəbələrdə matəm günü

elan edildi. Bakıda, Azadlıq meydanında keçirilən matəm mitinqinə xalqımız axın-axın gəlirdi. İnsanların əllərində tutduqları bayraq və şüarlara qara lent bağlamışdı.

20 Yanvar 1990-cı il Azərbaycan tarixində faciəli günlərdən biridir.

Bu Sovet İttifaqının öz vətəndaşlarına qarşı törətdiyi misilsiz vəhşilik, sovet imperiyasının bədnam tarixində ən qara səhifələrdən biri idi. Vaxtilə öz nefti ilə Sovet İmperiyasını yaşadan, alman faşizmi ilə müharibədə onun qələbəsini təmin edən Bakının küçə və meydanları günahsız insanların, uşaqların, gənclərin, qoca və qadınların al qanına boyandı. Ancaq eyni zamanda, o gecə, o gün Azərbaycan xalqı öz qəhrəmanlığını, rəşadətini bütün dünyaya nümayiş etdirdi.

O gecə mərd oğul və qızlarımızın vətənpərvərliyi hər şeyi üstələmişdi. Onlarla igid vətən övladı doğma şəhərin küçələrinə çıxıb imperiya ordusunun qabağını kəsməyə əliyalın can atırdı.

O gün xalqın yaddaşına **“QARA YANVAR”** kimi həkk olundu. Müstəmləkəçilik buxovunu qırmaq, azad nəfəs almaq istəyi qalib gəlirdi. Azadlıq uğrunda ayağa qalxanların ürəyinə tuşlanan güllələrin vıyıltısı Bakının hər tərəfini bürümüşdü. Qışqırıq, inilti səsləri göyə ucalırdı. Xalq dözür, bu dözümlə düşməni dəhşətə gətirir və qalib gəlirdi. O gün kimin kim oluğu bilindi. O gün mətanət, iradə zəfər çaldı.

20 Yanvar günü xalqımızın qəm, kədər günüdür. Amma eyni zamanda böyük qürur hissi keçiririk ki, xalqımız qəhrəman xalqdır, əyilməz və sınmaz xalqdır.

20 Yanvar xalqımızın faciəsi olduğu qədər də, böyük bir sınaq anı idi. Doğma vətəni öz canlarından artıq sevən vətən övladları hər kəs öz sahəsində dosta məhəbbət, düşmənə

nifrəti elə o andaca duydular. Ürəklərində çoşub-daşan düşmənə nifrət hər bir azəri-türk balasının yaddaşında qara səhifə, qan yaddaşı kimi həkk olundu.

O müdhiş gecənin dəhşətləri ömür boyu heç kəsin yaddaşından silinməyəcək. Əsrlər keçəcək, qərinələr bir-birini əvəz edəcək, lakin insanın insana qarşı törətdiyi o vəhşiliyin ağrısı keçməyəcək.

Azərbaycan xalqının tarixində qara hərflərlə həkk olunmuş 20 Yanvar faciəsi xalqımızı müstəqillik yolundan döndərə bilmədi.

20 Yanvar xalqımızın tarixində azadlıq, müstəqillik uğrunda mübarizənin ən yüksək zirvələrindən biridir.

20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı törədilmiş cinayət əslində bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş, dəhşətli bir əməldir.

20 Yanvarda Azərbaycan xalqı hərbi-siyasi, mənəvi təcavüzə məruz qalsa da öz tarixi qəhrəmanlıq ənələrinə sadiqliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini dünyada bəyan etdi.

20 Yanvar faciəsi xalqımızı öz azadlığı uğrunda mübarizəsindən döndərə bilmədi.

20 Yanvar hadisələri zamanı göstərdiyi qəhrəmanlıqlara görə şəhidlər öz müqəddəs adları ilə gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsində böyük öməkdir.

20 Yanvar günü münasibətilə yazılmış poeziya nümunələri və musiqi parçalarından ibarət kompozisiyaları bütün sənət sahələrində çalışan insanların birliyi kimi qiymətləndirmək olar.

20 Yanvar şəhidlərinin böyük haqqı hamımızın, hər bir azəri-türk övladının ürəyindədir. Həmin gün yüzlərlə insa-

nın daxilindən qopan azadlıq harayı ilə yanaşı "Bağışla, ey Vətən"pıçıltılarından da xali deyildi. O gecə bütün xalq əli qanlı imperiya siyasətçilərinə kəskin nifrət və qəzəbini bir daha sübut edirdi.

Müqəddəs and yerimiz "Şəhidlər xiyabanı" və həmin xiyabanda alovlanan məşəl şəhidlərin əbədi yaşar olduğundan xəbər verir. Yüksək amal uğrunda canını fəda etmiş şəhidlərimizin etimadını doğrultmaq, müstəqilliyimizi qorumaq hər birimizin müqəddəs borcudur.

20 Yanvar şəhidləri öz qanları. canları ilə bir daha sübut etdi ki, Azərbaycan xalqının azadlıq yolunu heç kim, heç nə kəsə bilməz. Əksinə həmin gün xalqımızın birliyi özünü göstərdi.

Yazıçılarımız, şairlərimiz ürəyindən qopan ağrıları öz şeirləri ilə xalqa çatdırdı. İlham və Fərizə məhəbbəti dillərdə dastana çevrildi. 1918-ci il ınart soyqırımı qurbanlarının uyuduğu yer Şəhidlər Xiyabanı adlanaraq xalqımızın Bakıya gələn hörmətli qonaqlarının ziyarətgah yerinə çevrildi. Həmin gün 1918-ci il şəhidləri ilə 20 Yanvar şəhidlərinin ruhları tanrı dərgahına qovuşdu.

20 Yanvar günü öz qanlı səhifələri ilə Azərbaycan tarixində dərin iz saldı. Həmin gün azəri türk xalqı şəhidlərlə son dəfə vidalaşdı. "Tanrının sevimli bəndələri" şəhidlərin ruhlarına dualar oxundu.

Həmin gün Allah yolunda canını fəda edən, dinini, vətənini, bayrağını, torpağını, xalqını, namusunu müdafiə edərkən ölən və haqsız öldürülənlər şəhid adlandı-müqəddəs şəhid.

Hörmətli professor Vasim Məmmədəliyev belə yazmışdı:

-Şəhidlik Allah dərgahında peyğəmbərlikdən sonra ən yüksək məqamdır. Qurani-Kərimin Bəqərə surəsinin 54-cü

ayəsində buyrulur: "Allah yolunda ölənlərə (şəhid olanlara) ölü deməyin. Əksinə, onlar Allah dərgahında diridirlər, lakin siz insanlar bunu dərk etmirsiniz".

Ali-İmran surəsinin 169-170-ci ayələrində isə deyilir: "Allah yolunda ölmüş (şəhid olmuş) kimsələri heç də ölü zənn etmə. Əsl həqiqətdə onlar diridirlər. Rəbbi yanmda onlara ruzi əta olunur. Onlar Allahın öz mərhəmətindən onlara bəxş etdiyi nemətə (şəhidlik rütbəsinə) sevinir, arxalarınca gəlib hələ özlərinə çatmamış, şəhidlik şəhadətinə hələ nail olmamış kəslərin axirətdə heç bir qorxusu olmayacağına və onların qəm-qüssə görməyəcəklərinə sevinirlər".

Şəhidlər Allahın sevimli bəndələridir. İmanla ölən, cənnətə daxil olan bir kimsə, bir də bu dünyaya dönmək istəməz. Ancaq şəhidlər belə deyillər, onlar təkrar dirilmək, təkrar şəhid olmağı arzu edərlər. Şəhidlərin cənnətə qovuşduqları vaxt "Ey rəbbimiz! Biz sənin yolunda təkrar şəhid olmaq üçün dünyaya qaytarılıb ölməyimizi istəyirik"-deyərək Allah-Təalaya yalvaracaqlarından Peyğəmbər əleyhissalam xəbər vermişdir.

Peyğəmbər əleyhissalamın hədislərində şəhidlərdən hər birinin qiyamət günü 70 nəfər üçün şəfayət edəcəyini, yəni Allah-Təaladan onların günahlarının bağışlanması üçün xahiş edəcəyini bildirmişdir.

Şəhid olmaq imanın kamilliyindən, əqidənin möhkəmliyindəndir. İmansız adam Allah yolunda, vətən, torpaq, xalq uğrunda könüllü olaraq son damla qanına qədər vuruşub şəhid ola bilməz. Bunun üçün insan kamil, iman sahibi, böyük vətənpərvər olmalıdır.

Tarix boyu müsəlman döyüşçülərini qələbədən-qələbəyə ruhlandıran, onlara güc, cəsarət verən yeganə istək onların

vətənpərvərliyi, dinpərəstliyi, axirətdə şəhidlərə veriləcək sonsuz nemətlərə iman etmələri və bunlara qovuşmaq üçün can atmalıdırlar.

Dünyanın faniliyinə, axirət isə cənnətin və cənnət nemətlərinin əbədiliyinə qəlbən iman edənlər şəhid olmaqdan zövq almışlar.

Halbuki, dünya nemətlərinə, zövqlərinə ifrat dərəcədə düşkün olanlar, axirətə inanmayanlar güclü hiss etdikləri düşmənləri ilə savaşa dözməyib, döyüş meydanını tərk etmişlər. Bu tarix boyu həmişə belə olmuş, bu gün də belədir.

Kamil mömin xalq, vətən, din yolunda şəhid olmaq üçün dua edər.

Şəhidlərə qüsl verilməz, onları kəfənə tutmazlar. Şəhidin qüsl suyu bədənindən axan qanı, kəfəni isə əynindəki paltarıdır. Şəhidin bütün günahları bağışlanar. Allah yanında şəhidin boynunda insan haqları istisna olmaqla qalan bütün günahları bağışlanar. İnsan haqları dedikdə şəhidin bir kimsəyə borcu, yaxud kimsənin ondakı əmanəti nəzərdə tutulmur. İslam dininə görə.

Əgər şəhidin bir kimsəyə borcu varsa, o, verilməli, bir kimsənin onda əmanəti varsa, o əmanəti sahibinə çatdırmalıdır. Təbü ki, şəhid öldükdən sonra özü bunu edə bilməz. Bu işi əlbəttə şəhidin yaxın adamları yerinə yetirməlidir. Əgər şəhidin yaxın adamlarının da buna imkanı yoxdursa, o zaman əmanət sahibindən mütləq halallıq alınmalıdır.

Suda və havada şəhid olanın savabı quruda şəhid olanın savabından artıqdır.

Məlum olduğu kimi, əsgər millətin haqqını tanıtdırmaq, dinini, şərəfini, namusunu, torpağını, vətənini müdafiə etmək, yurdun düşmən ayaqları altında tapdalanmaması üçün

ədalət, Tanrı yolunda canını fəda etməkdən çəkinməyən bir vətən övladıdır. Məhz buna görə də dinimizdə bu böyük ruha sahib olan vətən oğullarına əsgəri borcunu yerinə yetirəikən döyüşdə igidliklə həlak olanlara şəhid, sağ qalanlara isə qəhrəman adı verilmişdir.

Tanrı rizası üçün vətəni düşmən hücumundan qoruyan zaman vəzifə başında həlak olan kimsə şəhiddir. Öz vəzifəsini, borcunu yerinə yetinnək üçün Allah rizasını qazanmaqdan ötrü ülvi bir məqsəd güdən vətən oğlu istər düşmənlə çarpışarkən həlak olsun, istər növbə çəkərkən, istərsə də gözlənilməz düşmən gülləsinə tuş gələrsə, o, şəhiddir. Dinimizə görə, dünya axirətin tarlası hesab olunur. Elə isə haqq, Allah yolunda ölənlərin, yəni bu mübarək torpağa həyatını əkib, onu qanı ilə suvaranların qiyamət günü biçəcəkləri məhsul əbədi və nurlu cənnət həyatından başqa nə ola bilər?!

Ən müqəddəs əməllər uğrunda canlarını fəda edən şəhidlər bu mübarək insanlar, o qədər yüksək bir mərtəbədə qərar tuturlar ki, həmin mərtəbəyə qalxa bilməmiş adi insanlar onların məqamlarını əsla dərk edə bilməzlər.

Şəhidin qərar tutduğu yüksək mərtəbəni Allah yolunda şəhidin nail olduğu neməti və etibarı dərk etmək üçün şəhid olmaq lazımdır.

Məhz buna görə də Allah-Təala "Şəhidlər diridirlər, fəqət siz insanlar bunu dərk edə bilmirsiniz" deyə buyurur. Həqiqətən də bu belədir, biz adi insanlar bunu dərk edə bilmirik və dərk etməyimiz də qeyri-mümkündür.

Vətən, din, xalq, torpaq uğrundan düşmənlə çarpışmaq, həlak olmaq elə bir şərəfdir ki, Peyğəmbər (ə) belə təkrar-təkrar şəhid olmasını diləmiş "Ah, nə olaydı Allah yolunda, haqq işi uğrunda öləydim, sonra dirilib, yenə öləydim,

sonra dirilib yenə öləydim, yəni şəhid olaydım" deyə buyurmuşdur.

Şəhidlik vətən, millət yolunda fədakarlıq, hər hansı bir xalqın, millətin istiqlaliyyətinin, bütövlüyünün rəmzidir. Millət, xalq, torpaq, vətən öz bütövlüyünü məhz şəhidlərin haqq işi uğrunda canlarından keçən bu fədakar insanların sayəsində qoruyub saxlayır. Bir fərd, üçün necə oluısa-olsun yaşamağ arzusu yeganə ideala çevrilərsə, səfıl, şərəfsiz bir həyat şanlı bir ölümdən üstün tutularsa, o fərdin alnı qiyamətə qədər zillət və rəzalət damğasından qurtula bilməz. Bu tarix boyu sübut olunmuş danılmaz bir həqiqətdir.

"Şəhid olacağam"-deyə özünü kor-koranə ölümün ağuşuna atmaq, ölümə təsliın olınaq düzgün deyildir. Bu cür ölən adam şəhid olmaz, ona şəhid deyilməz.

Döyüşə gedən hər bir vətən oğlu ölmək üçün yox. öldürmək üçün can atmalıdır. Məqsəd haqqı, millətin, xalqın şərəfi- ni qorumaq, bu yolda vuruşmaq, torpağın düşmən əlinə keçməsinə yol verməməkdir. Əgər vətən oğlu bu yolda canını gülləyə sipər edərsə, son damla qanınadək düşınəılə döyüşüb həlak olarsa, o, şəhiddir. Çünki o müqəddəs amal uğrunda canını fəda etmişdir.

İslam dininə görə şəhid olan kimsə əgər buna imkan varsa, məhz şəhid olduğu yerdə, uğrunda fəda olduğu torpaqda dəfn olunmalıdır. Çünki bununla bir tərəfdən şəhidin yatdığı torpaq parçası, qoynunda saxladığı şəhidin vücudu ilə şərafətlənər, Allah yanında hörmətli olur, digər tərəfdən isə gələcək nəsillər məhz şəhid məzarları sayəsində dünyaya göz açdıqları yurdun hansı qanlar hesabına onların əlində qaldığını, onlarnıa çatdığını dərk edir.

Bu xalqın qan yaddaşmı qat-qat möhkəmləndirir, gələ-

cək nəsillərin vətənpərvərlik hissini torpağa, xalqa bağlılığını daha da qüvvətləndirir.

Vətən yolunda, torpaq uğrunda mübarizə aparan bir xalq üçün şəhidlik ən böyük öməkdir. Hələ biz gələcək nəsillərimiz müqəddəs şəhidlik zirvəsinə ucalımş vətən övladları haqqında öz yaradıcılıq sahəmizdə daimi yazmalı və tarixin yaddaşmda əbədi iz qoymalıyıq.

Tarix boyu öz istiqlaliyyəti, milli varlığı uğrunda mərdliklə mübarizə aparan Azərbaycan xalqı bu yolda çox şəhidlər vermişdir.

Azərbaycan torpağı müqəddəs şəhid məzarları ilə doludur. Qədirbilən xalqımız şəhidlərin xatirəsini həmişə müqəddəs tutur, onlara böyük ehtiraın və hönrıət bəsləyir.

Bu günün ən böyük şəhidləri isə 1990-cı ilin 20 Yanvar gecəsində azğınlaşmış Sovet Ordusu tərəfındən vəhşicəsinə qətlə yetirilən günahsız insanlardır. Onlar xalqımızın tarixində əbədi həkk olmuş igid vətən övladlarıdır.

20 Yanvar Şəhidləri bizim XX əsrin sonunda əldə etdiyimiz müstəqilliyimizin qaranquşlarıdır. Onların Azərbaycan xalqının milli şürunun qüvvətlənməsində milli özünüdərkin xidmətləridir.

20 Yanvar şəhidləri cismən ölsələr də ruhən, mənən qələbə çalıb öz qanları ilə müstəqillik bayrağımızı, milli varlığımızı dünyaya bəyan etdilər.

Bakıda canlı insan ürəklərinə tuşlanmış. güllələr, milyonlarla insanın yenidənqurmaya olan son ümidlərini məhv edən bir atəş idi.

O, müdhiş gecə öz canlarını azadlıq uğrunda qurban vermiş vətən övladlarını xalq son mənzilə yola saldı. Həmin gün Bakı qara geyinib, ağı deyirdi.

Al qərənfillər göz yaşları qədər küçələrə səpilmişdi. Elə həmin gün 20 Yanvar günü bütün xalq qərənfillərin göz yaşının şahidi oldu. Al qərənfillər şəhidlərimizi son mənzilə, xalqımızla birlikdə yola salırdı.

İnsan dənizi şəhərin Azadlıq meydanmdan Şəhidlər Xiyabanına qədər dalğalanırdı.

Bu ağır sınaq altında Azərbaycan xalqı öz müdrikliyini, milli qürurunu, əyilməzliyini, əzəmətini bir daha sübut etdi. Bu dərd bizim ümumi dərdimiz, bu yas bizim hamımızın yası idi. Şəhidlərin cənazələrini bütün xalq son mənzilə yola salırdı.

20 Yanvar faciəsi zamanı həlak olanların arasında müsəlman, yəhudi və xristian da var idi.

Müqəddəs şəhidlik zirvəsinə ucalmış şəhidlərin arasında əsrimizin yaddaşında iz qoyan İlham və Fərizənin məhəbbəti gənc nəslimizə ömək oldu. Onlar haqqında kitablar yazıldı. Aşıqlar İlham və Fərizənin məhəbbətinə dastan qoşdular.

***Çal aşıq, çal sazı***
***Dindir telləri***
***Çal de ki, nəmlidir***
***Ana gözləri***
***Çal de ki, o gecə***
***Nələr gördük, nə!***
***Oyandıq yuxudan***
***Güllə səsinə***
***Bir şirin yuxuyla***
***Yatmış körpələr güllənın qurbanı***
***Oldu, o gecə***
***Şəhərə soxulmuş***

*O xain əllər,*
*Lərzəyə gətirdi,*
*Doğma Bakını.*
*Pozdu sakitliyi,*
*Pozdu dincliyi.*
*Yağış əvəzindən*
*Qanlar yağdırdı.*
*Çal de ki, günahsız*
*Sevgililərin*
*Həsrətdən gözləri*
*Yollarda qaldı.*
*Qadan alım, çal ay aşıq*
*Ürəklərdən tel qırıldı.*
*Arzular, gözlərdə qaldı.*
*Qanlı yanvar günlərində...*
*Gənc ailə ...*
*Altı ayda nə gördülər?*
*İlham ilə Fərizə;*
*Qəfil ölüm həsrət qoydu*
*Körpə uşaq üzünə.*
*“Vətən” deyib*
*İrəliyə yeriyəndə*
*Güllə dəydi ürəyinə*
*İlhamın məhəbbəti həmin yerdə*
*Daşa döndü.*
*İlham kimi igid oğul*
*Şəhid oldu...*
*Aman allah,*
*Bu ki, daşdır,*
*Bu heykəldir?*

*Bu ki, sevgilim İlhamdır.*
*Fəryad edir, nalə çəkir,*
*Saçın yolur*
*Şəhidin sevgilisi.*
*Qansız zalım, necə qıydın?*
*Necə axı,*
*Güllə atdın.*
*Nəydi bizim günahımız.*
*Bizi niyə ayrı saldın?*
*-Qəfil ölüm...*
*Qulağına pıçıldadı*
*-Sən, Fərizə,*
*Sənsə sevgi şəhidisən.*
*Şəhidlərin anası da,*
*Bacısı da*
*Ağlar qalmış.*
*Xonçaları, toy libası*
*Miras qalmış.*
*Azərbaycan xalqım belə*
*Şəhidlərə yas saxlamış.*
*Eyvanlara, küçələrə*
*Qara rəngli bayraq sancmış*
*Qadan alım, çal, ay aşıq,*
*Dərdimizə şərik aşıq,*
*Sən çaldıqca,*
*Qəlbim yaman kövrəkləşir,*
*Sən çaldıqca,*
*Dərdim bir az yüngülləşir,*
*Baxırsan ki, ağlamaqdan*
*Məğrur ata.*

*Şəhid oğul həsrətindən*
*Xəstə düşüb, yor-yorğanda*
*Yata-yat*
*Qədd əyildi, bel büküldü*
*Dözə bilmir, şəhid deyib ağlamaqdan*
*Ümid yeri,*
*“Şəhidlər Xiyabanı’dır*
*Çal ay aşıq, sən çaldıqca*
*Şəhidlərin ölməz ruhu*
*Qoy şad olsun!*
*Şəhidlərin məzarları*
*Nurla dolsun.*
*Azərbaycan! Odlar yurdu*
*Sinəsində köz gəzdirir.*
*Aşıqları eldən-elə*
*Mahnı qoşur, saz gəzdirir.*
*Çətin gündə, xalqım mənim*
*Mətanətli, dözümlüdür.*
*Qayıtmışıq, keçmişlərə*
*Dövran yenə həminkidir.*
*Analarımız,*
*Nigar olub,*
*Həcər olub.*
*Şir ürəkli oğulları*
*Nər biləkli igidləri*
*Doğur ancaq*
*Dinlə oğul sözlərimi*
*Şəhid olmuş, ölməz ruhlar*
*Vətən yolu, xalq yolunda*
*Canlarını qurban venniş*

***And yerimiz "Vətən uğru"***
***Yurd yerimiz "Azərbaycan".***

Şəhidlik əbədiyyat anıdır. O, an hər kəsə qisınət olmur. 20 Yanvar şəhidləri bir daha sübut etdilər ki. dünya fani deyil, insan gəldi-gedər deyil, insan vətən qədər, torpaq qədər əbədi olan ölümsüz əməl sahibidir. Şəhidlik ən müqəddəs zirvə, "Şəhidlər Xiyabanı" isə müqəddəs ziyarətgahımızdır.

Vətənin azadlığı elə bir ülvi qismətdir ki, onun uğrunda ölməyə dəyər!

Ulu tanrı dərgahında cəmi şəhidlərimizə allahdan rəhmət diləyirəm.

***1990***

# ZƏMİNƏ XINALIYA HƏSR OLUNMUŞ BƏDİİ ƏSƏRLƏR

*Əli Rza XƏLƏFLİ*

## MUNDİR ALTINDA ÜRƏK
*(oçerk)*

Azərbaycanın mənəvi mühitində bu gün səsi eşidilən, sözü ünlənən çoxlu qadın sənətkarlar var. Onların arasında aktyorlar, rəssamlar, kino xadimləri az deyil, amma ictimai rəyə, mənəvi mühitə təsir imkanı daha çox söz və söz sənəti ilə bağlı qadın ictimai xadimlərə məxsusdur.

Zəminə Xınalının adına qədər, bu adın doğurduğu mənəvi təsir imkanına qədər başqa sənət xadimlərinin - qadın sənətkarların adlarını çəkmək olar. Amma bu sıralanmanın özü yəqin ki, artıq informasiya olar. Cəmiyyətin artıq bildiyi informasiyanı ona təzədən verməyə ehtiyac yoxdur. zəminə xanım sözüylə, sənətiylə, ədəbi publisistikası, tarixi araşdırmaları, qələmiylə kifayət qədər ədəbi-mənəvi mühitdə tanınır. Və öz ünvanını qorumaq baxımından kifayət qədər istedad gücünə malikdir.

Bəlkə də, bu qeydləri yazmağa ehtityac olmazdı. Onsuz da, Azərbaycanın tarixində Tomris fenomeni də var, Zərrintac xanım Qürrətül-eyn fenomeni də var. Əgər türk tarixi, türk etnomənəvi gücü baxımından zaman güzgüsünə baxsaq, keçmiş Sovet İttifaqı Qəhrəmanı Manşuk Mametova, bizim Züleyxa Seyidməmmədova da var. Ancaq heç cür o fikirdə deyiləm ki, bu adamların hansının fikir, düşüncə, hansının cəsarət və iradə sahibi olduğunu qabardım. Bəlkə də, bu obrazların hansındasa bir keyfiyyət qədərincə dolğun deyil. Amma bizim müasir ədəbi obrazımız Zəminə Xınalı Azərbaycanın mənəvi tarixinin XXI əsr üçün, lap dəqiq desək, bu əsrin başlanğıcı üçün xarakterik obrazdır. Zəminə Xınalı söz

adamıdır, sənətkardır.

Zəminə Xınalının mənəvi dünyası haqqında bizim danışmağa kifayət qədər haqqımız var. Çünki onun bir-birinin ardınca çap olunan və eyni zamanda "Kredo" qəzetində işıq üzü görən çox dəyərli əsərləri onu qələm adamı kimi, sənət adamı kimi uca tutmağa, dəyərləndirməyə əsas verir.

Zəminə xanımın çoxlu əsərləri çap olunub. Xüsusilə, miniatür kitablar seriyasından "Tənha türk məzarı" əsəri iki dildə - həm türkcə, həm də Azərbaycan dilində işıq üzü görüb. Professor, Azərbaycanın görkəmli alimi, millət vəkili Nizami Cəfərov Zəminə xanımın mənəvi-ruhi dünyası ilə yaratdığı obrazın bağlılığını, birbaşa əlaqəsini belə görür: "Zəminə Xınalının "Tənha türk məzarı" lirik poeması xalqımızın bu müqəddəs duyğularının ifadəsi olmaqla, hərbçi şairin özünün iç dünyası və bir sənətçi - azərbaycanlı duyğularının əsl təzahürüdür". Akademik Nizami Cəfərovun və eyni zamanda, yalnız titul sahibi kimi yox, mənəvi təsir imkanına görə nüfuzlu söz-sənət adamının Azərbaycanın şairi haqqında dediyi bu sözlərin arxasında sənətkarın yaradıcılıq məhsulu olmasa, hökmlər havada qala bilərdi. Ona görə də Zəminə Xınalının ibrətli, hissiyyatlı misralarını oxumaq və onu qədərincə qiymətləndirmək elə bilirəm ki, hər bir oxucudan xüsusi diqqət tələb edir:

***Şamaxı ətrafı, yol kənarında***
***Bir türk əsgərinin məzarı vardır.***
***Bu yoldan ötənlər, keçənlər deyir,***
***Bu məzar tək-tənha, qərib məzardır.***
***Hələ uşaq idim, Nigar nənəm də,***
***Belə söylərdi, belə deyərdi:***

***- O uzaq elləri çox yaxın bilib,***
***Azəri yurdunun yaman günündə.***
***Canıyla, qanıyla yardıma gəlib.***
***Gəlişi kor edib xain düşməni.***
***Girib gözlərinə ox kimi dəlib.***
***Ərzurm, Qars keçib Murova gəlib.***
***Dumana, çiskinə, qırova gəlib.***
***Şəhidlik müqəddəs uca zirvədir***
***Canından keçməyə girova gəlib,***
***Silahı-sursatı çiyinlərində,***
***Torpaq məhəbbəti əməllərində.***
***Səsinə səs verdi o, millətində***
***Özünü tapmışdı Vətən dərdində.***
***Bolşevik erməni daşnaklarıyla***
***Qana qan deyirdi qanlı döyüşdə.***
***Vətənin yolunda - irəli, - dedi***
***Bayrağı qaldırıb öndə gedirdi.***
***Çağırdı türklərlə azəri bir-bir***
***Bizim torpaqlara göz dikən kimdir?***

Beləcə, "Tənha türk məzarı" poeması ümumi, təntənəli bir axarla, ilhamlı duyğularla Azərbaycan tarixinin bir parçası olaraq obrazlaşır. Ən başlıcası, nadir görüntülər, nadir duyğulanmalar əsər boyu şairənin qəlb çırpıntılarını əvəz edir. Onun qəhrəmanı Ərzurumdan, Qarsdan keçib Murova gəlir, dumana, çiskinə, qırova düşüb, canından keçməyə, əqidəyə, inama, məsləkə girov olur, ən başlıcası, bu təlatümlü həyatında silahı, sursatı çiynində ona görə saxlaya bilir ki, torpaq məhəbbəti onun əməl yoludur. Çünki onun üçün səsi gələn-gəlməyən millətin özü elə Vətənin özüdür. Düşmən, yağı zaman-zaman cildini dəyişsə də, nə vaxt ki, torpağa diş

qıcayır, onun simasını aydın görür, harda olsa da, sərhəd boyunca, ya Vətənin içincə o, düşmənə qarşı vermək istədiyi canını əsirgəmir. Bu, Zəminə Xınalının mənəvi ölçüləridir, bu, Zəminə Xınalının döyüş həngidir. Çünki zirehli mundir altında, hərbi forma içində o, bir şair ürəyi gəzdirir. Bu şair ürəyi onun zirehli mundir altında - təhlükəsiz qala içində hökmran kimi saxlamır. Bu şair ürəyi onu daim döyütülər içində saxlayır. Bu mundir onun üçün mühafizə qalası deyil, bu mundir əslində, torpağın, vətənin səngəridir. Yurdun səngəridir. Şair əslində, yurdu, vətəni, hərbi forma libasında öz əyninə geyir və elə vətəni qorumaq üçün, yurdu qorumaq üçün.

Zəminə Xınalı çoxlarının qibtə etdiyi, bəlkə də çoxlarının həsəd aparacağı bir mərtəbə sahibidir. Bu mərtəbə yalnız onun mənsub olduğu hərbi rütbə mərtəbəsi deyil. Bu mərtəbə həm də şairlik mərtəbəsidir, sənət mərtəbəsidir. Zəminə Xınalının “Hər şeydən əzəl Vətəndir” şeirlər kitabına yazıçı Əlibala Hacızadə görünür, bu sözləri təsadüfi yazmayıb: “Hər şeydən əzəl Vətəndir” adlı bu kitabı şairənin oxucularla yeddinci görüşüdür. Çox nəfis və gözəl tərtibatla nəşr olunan bu topluda onun son vaxtlarda qələmə aldığı şeirləri, nəğmələri toplanmışdır. Burada da müəllifin o biri kitablarında olduğu kimi, hərbi vətənpərvərlik mövzusunda yazılmış əsərləri üstünlük təşkil edir. Bu şeirlər həm fikir, düşüncə və həm də sənətkarlıq baxımından müəllifin son illərdə öz üzərində inadla çalışdığını, şeir adlı sehirli, möcüzəli bir sənətin seirlərinə daha dərindən bələd olduğu müşahidə olunur . Kitab “Müqəddəs Vətən”, “Şəhid oğul”, “20 Yanvar Ümumxalq Matəm günüdür”, “Yarı yolda qalan ömür”, “Müqəddəs zirvə”, “Səndən yox ki, taleyimdən küsmüşəm”, “Durnalar qayıtdı, sən qayıtmadın”, “Sevincin öz yeri, qəmin öz yeri”, “Məni sev-

gi yaşadır", "Duyğularımla baş-başa", "Sazın-sözün sehrində" adlı bölmələrindən ibarətdir". ("Hər şeydən əzəl Vətəndir" səh.4). Şairə Zəminə Xınalını və həm də hərbçi Zəminə Xınalını Azərbaycanın ədəbi ictimaiyyəti kifayət qədər tanıyır. Təsadüfi deyil ki, görkəmli sənətkarımız Əlibala Hacızadə onun şeirlərinə bu qədər həssas, diqqət və qayğı ilə yanaşır. Sənətinin sirlərini açmağa çalışır. Ən başlıcası, Zəminə Xınalının yetkin bir sənətkar, ruhi ilə, canıyla, qanıyla sənətə bağlı, sözə bağlı bir ədəbi şəxsiyyət olduğunu təsdiq etməyə çalışır. Amma biz burada onun - yəni Zəminə Xınalının hərbçi simasını da görürük. Zəminə Xınalı əslində, hərbi formasında olsa da, olmasa da döyüşçüdür. Özünün tədqiqatları ilə, özünün sənət idealları ilə o, yurdu, vətənə bağlı bir sənətkar olduğunu sübut edir. Zəminə Xınalı bir şairdir - özü də lirik, vətənsevən bir şairdir, duyğusal bir şairdir. Eyni zamanda o, həm də tədqiqatçıdır. Azərbaycanda hərbi məktəblərin tarixinə dair qiymətli bir tədqiqat əsərinin - "Hərbi məktəblərin banisi" əsərinin müəllifidir. Zəminə Xınalı bu kitabında əslində, arxiv sənədləri əsasında Azərbaycanda hərbi məktəblərin tarixinə nəzər salır və ən nəhayət, bu qənaətə gəlir ki, yeni dünyanın müasir əsaslarla Azərbaycanda hərbi məktəblərin banisi Heydər Əliyevdir. Bu qənaətdə, bu hökmdə bir məcazi məna, xüsusilə elə bir məna var ki, onun arxasında müasir dövrümüzün böyük həqiqəti dayanır. O, Vətənini, yurdunu sevən bir sənətkar olaraq və həm də özü bir hərbçi olaraq hərb sənətinə - Vətəni qoruyan əsgərə sözü ilə, sənəti ilə həmişə dəstək olmağa çalışır. Onun bu hisslərini duyan, qiymətləndirən Xalq şairi Fikrət Qoca "Hərbi məktəblərin banisi" kitabına ön sözdə qeyd edir: "Zəminə Xınalı vətənpərvər şairdir. ...İnsan bu dünyaya sınaqdan çıxmaq üçün gəlir. Ona

görə də o, dünyaya gələndən hər an, hər saat, hər gün nəyisə itirir. Bunlar həyatın ona endirdiyi zərbələrdir. O, zərbələrə dözüb, özünü itirmirsə, deməli, əsl insandır. Belə insanlar məğlubiyyət adlı heç nə tanımır. Onlar zəfər üçün yaranıb, zəfər üçün yaşayırlar.

Zəminə Xınalının tərcümeyi-halını oxuyan başqa xalqın dost nümayəndəsi bizim yenilməz xalq olmağımıza əmin olacaq. Bu xanımın həyatını bilən düşmən xalqın nümayəndəsi belə qadınları olan xalqın düşməni olmağı arzu etməz, qorxar. Çünki belə qadınların sevgilisi, övladı yenilə bilməz. Onlar zəfər üçün yaranıb" (Zəminə Xınalı "Hərbi məktəblərin banisi", səh.4). Azərbaycan ədəbiyyatının, Azərbaycan hərb sənətinin bir-birinə qovuşan, bir-birini tamamlayan bir obrazı var. Bu, Zəminə Xınalıdır. Görkəmli ədəbi ictimaiyyətin, söz-sənət adamlarının yüksək qiymətləndirdiyi, uca tutduğu mundir altında döyünən bir ürək sahibi olan Zəminə Xınalı. Azərbaycanın Xalq şairi Söhrab Tahir Zəminə Xınalı haqqında yazır: "Zəminə xanım bütün varlığı ilə Vətənə, doğma torpağa bağlıdır. Ömür-gün yoldaşını Vətənin müqəddəsliyi yolunda qurban verən bu cəfakeş xanım həyatda göz dikdiyi iki oğul balasını da hərbçi kimi görmək istədi. Eşq olsun belə anaya, eşq olsun belə Azərbaycan qadınına!

Mən Dünya Azərbaycanlıları Mədəniyyət Mərkəzinin prezidenti kimi demək istəyirəm ki, Zəminə xanımın "Dünya Azərbaycanlılarının Həmrəylik mahnısı"nın sözləri məni heyran etdi. Bu, birliyə, həmrəyliyə, dostluğa, qardaşlığa çağırış himnidir:

***Azərbaycan adını***
***Vətən torpaq andını***
***Ucalardan uca tut***

***Sən ey Vətən övladı.***
***Dünyanın hər yerində***
***Günəş kimi parla sən,***
***Ucal şanlı adla sən.***

Eşq olsun bu birliyə, eşq olsun bu çağırışa!" (Zəminə Xınalı, "Vətən sevgisi", "Adiloğlu", Bakı-2007. səh.4). Bütün bunlara baxmayaraq, mən Zəminə Xınalını sıravi bir Azərbaycan ziyalısı hesab edirəm. Və bu sıravi Azərbaycan ziyalısı rütbəsinin arxasında ən başlıcası, zirehli mundir altında döyünən bir ürək görürəm. Vətənə, torpağa bağlı bir ürək. Dosta, övlada, soydaşa, millətə sevgi dolu bir ürək.

Zəminə Xınalının bir sənətkar olaraq lirikasından, onun Şəhriyar üslublu, dəyərli bir poemasından, könülləri oxşayan gözəl şeirlərindən söz açmaq imkanı olmadı. Bütün bunların hamısının arxasında bir həqiqət dayanır. O həqiqət ondan ibarətdir ki, zirehli mundir altında bir ürək daşıyan sənətkar var. O, Zəminə Xınalıdır. Dünyanın ən yaxşı sözləri də, dünyanın ən böyük, ən əzəli şeiri də, sənəti də, zirehli mundir altında əzəmətlə görünən qadın çöhrəsidir. Zəminə Xınalı, bəlkə də, onun layiq olduğu haqqı bu cəmiyyətdən almayıb. Əgər mənim imkanım olsaydı, çox diqqətlə müqayisə aparardım. Bizimlə üzbəüz, yağı mövqeyində dayanan Ermənistanda Zəminə Xınalı analoquna qarşı münasibət hansı səviyyədədir. Düşmən ərazisində Zəminə Xınalı tipində olan hərbçi sənətkara münasibət necədir?

Mən deməzdim ki, Zəminə Xınalını bu gün biz kifayət qədər tanımırıq. Bəli, biz onu dolğunluğu ilə tanıyırıq, həm sənətkar kimi, həm də hərbçi kimi. Zəminə Xınalının taleyi həm hərbimizin taleyidir, həm də sənətimizin.

***21 iyun 2008***

# ZƏMİNƏ XINALIYA İTHAF OLUNMUŞ ŞEİRLƏR

*Məhəmməd Hacıkərimoğlu*

**QIZIM ZƏMİNƏ XINALIYA**

Ay Xınalım, həm şairsən,
Həm cəngavər əsl sən.
Tomris ana, Nüşabəsən deyəsən,
İncəlisən, el-obanın
Müqəddəslər nəslisən,
Həyatının hər anında
Vəsf edirsən vətəni,
Qədir bilən nəsillərin
Heç unutmazlar səni.

**2001**

*Polkovnik Şakir Səlimov*

**ŞAİRƏ BACIM ZƏMİNƏ XINALIYA**

Bilirəm yüksəkdir hər şeydən sənə,
Vətən tək müqəddəs, ölməz qürurun.
Sadiqsən ömürlük sən öz eşqinə,
Hər şeydən yüksəkdir analıq borcun.

Vətəni qoruyur hər iki oğlun
Ucadır Murov tək, Qoşqar tək başın.
Yazdığın marşların qanadın qolun,
Çağrışın dayanmır, oyanın qalxın.

Dənizçi, piyada, təyyarəçi də,
Silaha sarılar sənin marşınla,
Zabiti, giziri, siravisi də,
Şığıyar irəli bir çağrışınla.

Demə ki, mən, kiməm sadə qadınam,
Vətənə vətəndaş, anam bacımsan.
Səndəki qeyrətə qurbanam bacı,
Azəri yurdunun başının tacı.

*02.02.2008*

***Bəxtiyar Rüstəmoğlu***
***(Qaymaqlı kəndi)***

## SİLAHLI QÜVVƏLƏR GÜNÜ AZƏRBAYCAN TV-DƏ ÇIXIŞ EDƏN HƏRBİÇİ-ŞAİRƏ ZƏMİNƏ XINALIYA

Qeyrəti, şöhrəti doğma Qazağın,
İncə dərəsinin ey ,əsgər qızı.
Bütün türk dünyası sənə səs verər,
Ordu çələnginin təzə tər qızı,
İncə dərəsinin ey, əsgər qızı.

Yerdə qalmayacaq tökülən qanlar,
Ölməyə doğulur cahanda canlar,
Analar silaha sarılan anlar,
Vətənin misriyə köklənər sazı,
İncə dərəsinin ey, əsgər qızı.

Millətin çəkilməz ağır dərdi var.
Bu dərdlərə yüklənibdir Bəxtiyar.
Xınalı Zəminəni öz eli duyar,
Azəri yurdunun igid, nər qızı,
İncə dərəsinin ey, əsgər qızı.

*Mərcan Şahbuzlu*

## DOĞMA ƏZİZSƏN

Yolundan dönməzsən çox qürurlusan,
Qəlbi işıqlısan, qəlbi nurlusan,
Həyatda həmişə sən uğulusan,
Sinəsi kükrəyən coğqun dənizsən
Sən mənim qəlbimə doğma, əzizsən.

*Fəridə Ləman*

## HƏRBÇİ ŞAİRƏ ZƏMİNƏ XINALIYA

Boyun sərv ağacıdır,
Qəlbin ana qucağı,
Duyğulu ürəklərdə,
Çatmısan od-ocağı,
Xınalı qız, Xınalı,
Ay Zəminə Xınalı.

Hərbi marşlar yazmısan,
Ad alıb, san salmısan.
Vətən deyən hayımsan,
Qızdan qızıl payımsan,
Xınalı qız, Xınalı,
Ay Zəminə Xınalı.

Bax beləcə yaz-yarat,
Tanrıdan murada çat.
Oyat, yatanı oyat.
Tamaşadır bu həyat,
Xınalı qız, Xınalı,
Ay Zəminə Xınalı.

*Vahid Hacıyev*
*(Aslanbəyli kəndi)*

## AY ELİMİN XINALISI

İnsan ömrü bir şərəfdir,
Bil ki, ömrün mənalısı,
Bax beləcə ömür sürdün,
Ay elimin Xınalısı.

Dözümlüdü məhəbbətin,
Təmiz adın ləyaqətin,
Dağ vüqarlı, şux qamətin,
Ay elimin Xınalısı.

Şair təbli əmin Kamal,
Bənzər ona əqli-kamal,
Həyat dadlı, daim kam al,
Ay elimin Xınalısı.

Gözəl nitqin, şirin dilin,
Lazım gəlsə vuran əlin,
Saf əqidən, saf əməlin,
Ay elimin Xınalısı.

Neçə nəğmə, marşı yazdın,
İlham aldın xoş avazdan,
Tar-kamandan, telli sazdan,
Ay elimin Xınalısı.

Fəxr eyləyir İncə dərən,
Umur səndən öncə, dərən,

Valeh olur səni görən,
Ay elimin Xınalısı.

Necə gözəl hərb libasın,
Paqonların zər-zibası,
Kömək olsun el duası,
Ay elimin Xınalısı.

Şeirlərin qürur, hünər,
Cəsarətin düşmən yenər,
Qız oğlusan sözündə nər,
Ay elimin Xınalısı.

Vahid açır söz önündə,
Qabiliyyətin göz önündə,
Qəlbin bir od-köz sinəndə,
Ay elimin Xınalısı.

***Pərvanə Nizaməddin***

## SƏN OCAQ DAŞISAN

Öncə Vətən dedin, ay Vətən qızı,
Geyindin əyninə əsgər libası.
Sənintək qızlarla fəxr edir Vətən,
Yağıdan qeyrətin alar qisası,
Xınalı ləqəbi yaraşır sənə,
Saçların daşlardan xınalanıbdır,
O, nurlu sifətin, o günəş üzün,
Bəyaz buludlardan cilalanıbdır.
Sən ocaq daşısan, sən yurd yerisən.

Durnalar lələyin tökəcək orda,
Yad daş Qarabağda binə tutammaz,
Ruhun qasırğatək sökəcək orda,
Bu qədər içində Vətən harayı,
Dağların, daşların qulağı karmı.
Zəminə Xınalı yazdığın marşı,
Söylə səndən əvvəl yazanı varmı.
Eşq olsun çatdığın yanan ocağa,
Tüstüsü düşməni kor edəcəkdir.
Bir dəfə qıy vursan qartallar kimi,
Səsin nadanları kar edəcəkdir.
Bu ana torpağın, əzəl torpağın,
Hər zaman bil səni yad edəcəkdir,
Səni şərafətlə, həm fəxarətlə,
Zamana, taixə ad edəcəkdir.

***02.02.2002, Qazax rayonu,***
***Kəmərli kəndi.***

***Maarif Əliyev***
***(Şəmkir rayonu)***

**ZƏMINƏ XINALIYA**

Əynində mundiri qeyrətə bir bax,
Baxışı alovlu mənalı bacım.
Əyilməz qəddi var, qüdrətə bir bax,
Nə gözəl təxəllüs "Xınalı" bacım.
Tanıdır aləmə mahalı sözlə
Mübarək qədəmi səyalı üzlə,
Vətənə tac olar, həyalı üzlə,
Şirin dilli, cəngi dühalı bacım.

***Xədicə Dönməz***
***(Naxçıvan)***

**ZƏMİNƏ XINALIYA**

Qəlbin vurar atəş ilə,
Gözün dolar hey yaş ilə,
Görüş bir gün gəl mənimlə,
Nazlı-duzlu Xınalı,
Ay Zəminə Xınalı.

Sinən aşıq hey çalırsan,
Sən elimə yaraşırsan,
Ellərdən ilham alırsan,
Nazlı-duzlu Xınalı,
Ay Zəminə Xınalı.

Dərdi-qəmi olanı,
Sirli-sözlü Xınalı,
Oldum sənin heyranın,
Üzü nurlu Xınalı,
Ay Zəminə Xınalı.

***Faiz Üzgün***

**XINALI GÖZƏL**

Bu dünyada bir Xınalıq kəndi var,
Xınalıqda gözəllər aşar-daşar,
Sənə gəlinimmi, qızımmı deyim,
Hər dərdə, möhnətə dözümmü deyim?

Sənə ürəyimmi, gözümmü deyim.
Çöhrəsi ey əlvan güldən-çiçəkdən
Nədir gözlərində bu kədər, bu qəm.
Əlləri taledən hənalı gözəl,
Ey Xınalı gözəl, Xınalı gözəl.

Hər yerdə, hər zaman mərdsən əzəldən,
Namərdin qəlbinə dərdsən əzəldən,
Gözümdə, könlümdə yüksələcəksən.
Çöhrəsi gün kimi işıqlı gözəl,
Yaraşıqlı gözəl, işıqlı gözəl!
Sənsiz mənasızdır çölüm-çəmənim,
Sən ey ağ çiçəyim, ağ yasəmənim!

Mənim ürəyimi dərindən duyan
Yaramın üstünə ey məlhəm qoyan.
Sözüylə namərdin gözünü oyan,
Heyranam qəlbinə, heyran ay qızım
Günün şəfəqinə boyanan qızım
Saçları binadan hənalı gözəl,
Ey Xınalı gözəl, Xınalı gözəl!

Dilimin necə də oldun əzbəri,
Səndən ötrü kimlər çaşır, sərsəri,
Səni məsud, məsum biləndən bəri,
Parladı gözümdə yeni bir işıq
Oldu yer bir işıq, Səma bir işıq
Əlləri boyalı, hənalı gözəl,
Ey Xınalı gözəl, Xınalı gözəl!

Bu fani dünyada yaşadıqca biz,
Dərddən yazacağıq, dərddən şübhəsiz,
Hələ dövran sürür düşmənlərimiz,
Neçə nəğmə qoşum sənə mən, qızım
Ey! Aya, Günəşə, Göyə tən qızım.
Azərbaycan kimi analı gözəl!
Ey Xınalı gözəl, Xınalı gözəl!

Hamıdan gözəlsən, hamıdan uca,
Sən cavan, alişan, mən ərzan, qoca,
Elində hörmətli, şöhrətli gözəl,
Ləhcəsi şəfqətli, ismətli gözəl,
Səndən alır rəngin çölüm-çəmənim
Sən ey ağ çiçəyim, ağ yasəmənim
"Taleyi" tanrıdan hənalı gözəl,
Ey Xınalı gözəl, Xınalı gözəl!
Azərbaycan kimi analı gözəl
Xınalı gözəl!

***2006***

***Sevdagül Maqsudqızı***

## AD GÜNÜ MÜNASİBƏTİLƏ

Gəlmisən dünyaya bahar çağında,
Təbiət yuxudan oyanan zaman,
Duymusan baharın xoş ətirini,
Görmüsən baharın gözəlliyini.

Hədiyyə verməyə bir şey tapmadım,
Bu şeri yazmağı qərara aldım,

Gec də olsa qəbul eylə şerimi,
Sənə olan sevgi-məhəbbətimi.

İstədim şeir yazam,
Sənə nəğmələr qoşam.
Şerlərin nəğmələrdə,
Eldən-elə dolaşan,
Azərbaycan gözəli,
Igid-mehriban qadın,
Doğum günün mübarək!
Ad günün çox mübarək!
Ay Zəminə Xınalı!

*21.04.2004*

***Zabit Həsənov***

## XINALI BACIM

Yıxılmış bir evin dirəyi oldun,
Yığdın qanadına övladlarını.
Cəngavər libaslı ömür yaşadın,
Yaşatdın qəlbində atalarını.

Tanrıya nə qədər yaxın qadınsan,
Saçını binədən xınalı edib.
Qaməti düz qadın, bədnəzər baxış,
Bilən yox könlünü yaralı edib.

Tarixin sükanı əlində sənin,
Çağır Həcərləri dönsün geriyə.
Yazdığın marşlardan ilham alaraq,
Deyirəm Xınalı get irəliyə.

Yaşa bu dünyada yaşadığın tək,
Sənin üzün ağdır, ağ da olacaq,
Yarat bu dünyada yaratdığın tək
Səndən gözlədiyimiz zəfər olacaq.

***06.01.2007-ci ildə İctimai radionun "Salam əsgər" verilişində canlı çıxışından sonra qələmə aldım.***

***Rüstəm Bağır***

## HƏRBÇİ-ŞAİRƏ ZƏMİNƏ XINALIYA

***Musiqi: Hikmət Mirməmmədli***

Şairlər yurdunda göz açmısan sən,
Səni böyüdən anaya min əhsən,
Vurğun bulağından bəhrələnmisən,
Sevənlər qəlbində özün fərəhsən.

***Nəqarət***

Namusla yaşanan adına alqış,
Əsgər libasında qadına alqış,
Tanrı özü səni uca yaratmış,
Azəri qadını adına alqış,
Zəminə, Zəminə ay Xınalı Zəminə.

**Z**ərif çiçəklərə güllərə taysan,
**Ə**ngin üfüqlərdən boylanan aysan,
**M**arşların səslənir əsgər dilində.
**İ**lhamın çağlayır nəğmə selində,
**N**amusla yaşanan adına alqış,
**Ə**sgər libasında qadına alqış.

***26.06.2006***

*Xaqani Abdinov*
*(Sumqayıt)*

## HƏRBÇİ-ŞAİRƏ ZƏMİNƏ XINALIYA

O, Vətən həsrəti, o yurd həsrəti
Rahatlıq verməyir, sənə Xınalı.
Alnının yazısı, tale-qisməti
Bəllidir bu gündən mənə Xınalı.

Günahkar deyilsən anan qız doğub
Səni Vətən dərdi yamanca boğub,
O, ürək yoldaşın əbədi uyub
Sənə dayaq olsun tanrım Xınalı.

Səndə min kişinin qeyrəti varmış,
Qəlbində ilk eşqin sevdası varmış,
Könlünün dərd-qəmi həsrəti varmış,
Həsrətə gərirsən, sinə Xınalı.

Nə olsun qadınsan, kişi kimisən,
Vətənə gərəksən kişi kimi sən.
Əhsən qeyrətinə, sənə min əhsən,
Layiqsən ən xoşbəxt günə Xınalı.

Taledən nə yaman tez küsdün nədən,
Sən öz hünərinə gücünə güvən,
Arzunun, Ayazın toyun görəsən
Olasan sən də bir nənə, Xınalı.

Çox fikir eyləmə xəyala dalma,
Dərdnlə bir daha baş-başa qalma.
Ömür çox qısadır arzu edirəm
Bu dünya durduqca, yaşa Xınalı.

Xaqani aşiqdir, sözünə sənin,
İntizar baxışlı gözünə sənin.
Məətəl qalmışam özünə sənin,
Xalqımın sevimli, sevimli qızı,
Hərbçi şairə Zəminə Xınalı.

***2002***

***Ramiq Muxtar***

## DÖYÜŞÇÜ QIZ

***Musiqi: Nəriman Məmmədov***

Geydi əsgər paltarını Vətən qızı,
Xonça tutdu qərənfillər al qırmızı.
Ayla Günəş nur çilədi yollarına.
Rəbbim Allah, özün qoru bu nər qızı,
Qəzəb odu alovlandı ürəyində,
Şir gücü var bu gözəlin biləyində,
Təbəssümü bir məlhəmdir əsgərlərə,
O, səsləyir igidləri zəfərlərə,
Topçu oğlan enli kürək boyu uca,
Məqam güdür, fürsət tapıb könül aça
Hərdən gizli gözü ucu baxır ona,
İstəyir ki, qızı sala eşq oduna.
Cavan oğlan! İrəli bax düşmən gəlir,

Eyş-işrət vaxtı deyil, dostlar gülür,
Nə sözün var, zəfər günü sən deyərsən.
Qismətində mən varamsa sevinərsən.

***1996***

***Əlfayım Əziz***

## HƏRBÇİ-ŞAİRƏ ZƏMİNƏ XINALIYA

Misraların çiçəklərdə,
Arzularda diləklərdə,
Yuva qurdun ürəklərdə,
Elim-günüm mənim bacım,
Ay Xınalı Zəminə bacım.

Qoy həmişə gözün gülsün,
Dodaqlarda sözün gülsün,
Vətənimdə üzün gülsün,
Elim-günüm mənim bacım,
Ay Xınalı Zəminə bacım.

Hərbi marşla söz yormusan,
Quşu gözündən vurmusan,
Haqqın yolunda durmusan,
Elim-günüm, mənim bacım,
Ay Xınalı Zəminə bacım.

Düşmən gözü tökə-tökə,
Axtarmadın rahat guşə,
Şair olmaq çətin peşə,
Elim-günüm mənim bacım,
Ay Xınalı Zəminə bacım.

Xalqındadır hər bir çağın,
Hərb yoludur, nər qucağın,
Şair – sönməsin ocağın,
Elim-günüm, mənim bacım,
Ay Xınalı Zəminə bacım.

***Rəfael Ərəstunoğlu***
***(Neftçala)***

## CƏFAKEŞ ANA, GÖZƏL ŞAİRƏ ZƏMINƏ XINALIYA

Zəminə Xınalı, əsgər-şairə
Sinəsi kəlamlar, söz xəzinəsi,
İlhamı çağlayıb dönür şeirə,
Nəğməli avazı qəlbinin səsi

Mərdanə deyibdir sözünü hər an,
Həcər qeyrətlidir, vardır vüqarı,
Keçib əsgər kimi çox sınaqlardan,
Yaranıb həvəslə ordu marşları.

Ülvi sevgilərlə Vətən müqəddəs,
Onun hər qarışı, doğma əzizdir,
Düşməni məhv edək – dilində bu səs,
Vətən məhəbbəti dərya, dənizdir.

Yaşayır köksündə şəhid heykəli,
Koroğlu bənizli Akifsiz qalıb,
Unutmaq çətindir ötən günləri,
Ömrün qasırğalı anları olub.

Oğulllar böyüdüb, ana qoynunda,
Akifdən yadigar Arzu, Ayazdır.
Zəminə Xınalı cəfakeş ana,
Övladlar dünyası bahardır-yazdır.

Ulu tanrı uca səcdəgahıdır,
İnamla-ümidlə yazıb-yaradır.
Qızıl qələm dövlətidir-varıdır,
Halallıqla balaların yaşadır.

***16 may 2003***

***Kursant Seymur Əhmədov.***

**ANAMSAN-BACIMSAN**

Qələm tutan əlin yaxındır mənə,
Sözlərin hünərə çağırır məni,
Adın da, özün də doğmadır mənə,
Anamsan-bacımsan ayırmam səni.

Sən də bir anasan, qeyrətli ana,
Analar-bacılar ağlar istəməm.
Xınalı bacımsan dərdin mənimdir,
Hər sözü ürəyə salma istəməm.

Yazırsan qəlbindən axan sözləri,
Əsgər qardaşınam unutma məni,
Yazırsan sarı sim çalan sözləri,
Seymur qardaşınam unutma məni.

***05.06.1999.***

*Arzu Bayramov*

## ARZUNUN ANASINA İTHAFI

Sən əziz anam, sevgili anam,
Yarı yolda qoymadın bizi anam,
Övladların üçün çox çalışmısan,
Onlar ucalanda, qanadlanmısan.

Geyindin gənc yaşda hərbi libası.
Ey Azəri gözəli, anam Xınalı,
Sən atam Akifin vəfalı yarı,
Ayaza – mənə verdin xeyir-duanı.

Ayazla sən doğma eldə, vətəndə,
Mən isə sizdən uzaqda qürbətdə,
Adın verir mənə güc də qüvvət də,
Ayaz da yüksəldəcək səni göylərə.

Bu misramı yazıram sənə, Ayaza,
Allah kömək olsun, gözəl anama.
Sizdən uzaqda çəkirəm həsrət
Ana sevgisidir, insana verən qüvvət.

***İstanbul – Türkiyə. Kuleli***
***Askeri lisesi.***
***2003-cü il.***

*Ayaz Bayramov*

## AYAZIN ANASINA İTHAFI

Anama həsr edirəm sətirlərimi
Bəlkə heç vaxt deyə bilmədiyim sözlərimi...
İndi deyə biləcəm nəhayət,
Etdim keçmişimə səyahət,
Dünyaya ilk gələndə ağladım.
Amma qorxmadım...
Anam yanımdaydı anladım.
Həyata tək gəlmişəm
Amma özümü tənha sanmadım.
Anam yanımdaydı,
9 il gördüm atamı,
Fələksə çox gördü bizə onu.
Anam hiss etdirmədi bizə onun yoxluğunu
Əzablar içində keçdi, gənclik çağı
Dərd qarşısında əyilmədin
Gecələr oldu qəm ortağın
Dərdini gecələrdən başqa kimsəylə bölmədin,
Sən ey fədakar qadın
Qızılı hərflərlə yazıldı bu qəlbimə müqəddəs adın.
Ana!...
Ölənəcən borcluyam, sənin önündə
Ana!
Bilirəm nə qədər böyüsəm də yenə
Uşağam sənin gözündə.

***AAHT məktəbi, 2009-cu il.***

***Gizir Şölə Əliyeva***

## ZİREHLİ GÖZƏLSƏN

Şeirlər içində şeirin seçilir,
Boynuna əsgəri libas biçilir.
Ömür yollarından günlər keçilir,
Kiməsə bənzəmə bənzərsizsən sən.

Yerişin məğrurdur, duruşun mətin,
Peşən şərəflidir, çətindən çətin.
Vətən əsgərisən şuxdur qamətin,
Kiməsə bənzəmə bənzərsizsən sən.

Özünü tapmısan, Vətən yolunda,
Sel güclü qanın da, qaynar qanında.
Zirehli gözəlsən elə olun da
Kiməsə bənzəmə bənzərsizsən sən.

***Gəncə "N"***
***saylı hərbi hissə***

***Təbəssüm Cənnətova***
***(Naxçıvan)***

## ZƏMİNƏ XINALIYA

İki qəlb birləşib, bir könül oldu.
Bölündü ikiyə dərd qəlbli oldu,
Heç bilmək olarmı, fələk işini.
Atasız qoyubdu, göyərçinləri.
Ağladıb sızlatma sazı Xınalı.

Bu dünya belədir ömür bölünür,
Hayana baxırsan dərddir görünür.
Əvvəli toplanır sonu bölünür,
Şükür yaradana, böyük Allaha,
Qəddini heç zaman əymə Zəminə.

Bənövşə gözəldir, qoxusu xoşdur,
Onun ömrü isə, 40 gün də yoxdur,
Kolun kölgəsi də, qəbinə oxdur,
Göz yaşı şeh olan yazıq Bənövşə
Sənə təsəllidir, gözəl Zəminə.

Həyat bir bağçadır, biz onun barı,
Qoyma ki, solsun xınalı saçları,
Bölündü dörd yerə fəsil ayları,
Cavanlıq çağını qoru Zəminə,
Köklə telli sazı, ağlat Zəminə!

***29.09.2007***

***Oqtay Rza***

***16.12.2010 Bakı Atatürk məkəzində T.Abbaslının «Z.Xınalı yaradıcılığında hərbi vətənpərvərlik» kitabının təqdimatı***

Zəminə Xınalı – fədakar xanım!
Həm hərbi müəllim, həm yazar xanım!
Çoxsaylı türklərə doğma bacıdır,
Eşqi Xınalıqdan qat-qat ucadır,
Bir şanlı tarixdir, ömür-gün yolu,
Ən çətin çağları, keçmişdə qalsın,
Bu cəsur insanın hər iki oğlu,
Vətən dəyanətli general olsun,

*Kapitan Məmmədov*

## ZƏMİNƏ XINALIYA

Taleyin, qismətin qızıl qələmlə,
Yazılıb tarixin daş yaddaşına.
Yazdığın marşların dillər əzbəri,
Çevrilib yurdumun vətən daşına.

Sənin vüqarında dağlar tək uca,
Vətən sevgisini, biçdin boyuna.
Marşların oxundu, səngər boyunca,
Parlayıb dönmüsən üzük qaşına.

Sənə qibtə edir, yad olan kəslər,
Səninlə fəxr edir, şad olan kəslər.
Sən igid qadınsan, harayla səslə
Vətən sevənləri yığ öz başına.

***01.08.2007***

*Əli Kazımov*

## AY ZƏMİNƏ XINALI

Şeirləri Vətən üçün ağlayan,
Hər birisi gur çeşmətək çağlayan,
İgidləri öz elinə bağlayan,
Bu məhəbbət tükənməsin,
Ay Zəminə Xınalı!

Keçmişləri bir-bir yada salırsan,
Şeirində xəyallara dalırsan.
Bu millətin dərdinə çox qalırsan,

Vətənindən bol-bol ilham alırsan.
Ay Zəminə Xınalı!

Xınalısan əzəl başdan – binadan,
Seçirməzsən vətəndəki sonadan,
Doğulmusan vətən adlı anadan,
Arzuların başa çatsın Tanrıdan
Ay Zəminə Xınalı!

***05.09.2005.***
***Bakı şəhəri***

***Nəsib baba***
***(İncə dərəsi)***

**XINALI**

Bir gözəl yaranıb Qazax elində,
Şöhrətin yayılıb elə Xınalı.
Halal olsun səni doğan anaya,
Sən sevindir el-obanı, Xınalı.

Sən nəfəs verirsən doğma xalqına,
Şeirlər qoşursan elə-obaya.
Vurğun bulağından içib bir damla,
El-obanı sən sevindir, Xınalı.

Sənə kamal verib, bizi yaradan,
Şeirinə sözünə olmuşam heyran.
Sənə baş əyəcək tarixdə cahan,
Sən qaldır ayağa xalqı, Xınalı.

Səninlə fəxr edir Qazax mahalı,
Sənsiz əriyərmi dağların qarı.

Sən dünya gözəli dağlar maralı,
Boy atmısan asimana, Xınalı.

Sən uca boylusan, nazlı-qəmzəli,
Sən şirin dillisən, şeirin məzəli.
Vətən əsgərisən, Vətən gözəli,
Qamətin gözəldir, sənin Xınalı.

Göydə yanan ulduz kimi parlaqsan,
Durna kimi qanab açıb uçarsan.
Uca-uca zirvələrə qalxarsan,
Tanrı sənə kömək olar Xınalı.

İncəli qızısan, sular sonası,
Sən Vətən qızısan, zabit anası.
Mahnılar-marşların ana laylası.
Yaz-yarat ricam var səndən Xınalı!

***2002-ci il***

***Kapitan Ağayev***

***"N" saylı hərbi hissə - Ağdam***

## XOŞ GÜNLƏRI GÖRƏSƏN HƏRBÇİ-ŞAİRƏ ZƏMİNƏ XINALIYA

Ləçəyini papağa döndərən Vətən qızı,
Tənhalığa baş əyib, hər iki övladını.
Vətənin keşiyinə göndərən Vətən qızı.
Sən yurdumun Tomrisi,
Sən yurdumun Həcəri,
Sən yurdumun əsgəri.
Şan-şöhrəti hünəri,

Əzablı gün çox gördün,
Tanrıdan diləyirəm ki, görəsən xoş günləri...

***21.03.2008***

***Şahməddin Məhəroğlu***

***2002-ci ildə Z.Xınalının "İncə duyğular-da" yaşayacaqsan kitabının təqdimat mərasimi keçirilərkən...***

Necə də gözəldir, əhvalın sənin,
Yaraşar bu ovqat sənə Xınalı.
Sinəndə atəşdi-alovdu yanan,
Yaraşır bu büsat, sənə, Xınalı.

Qəlblərin qapısın açıb hörmətin,
Məramın bəllidir, xoşdur niyyətin.
Sən qələm sahibi, necə də mətin,
Yaraşır bu qismət, sənə, Xınalı.

Sənə gərək deyil, atəş-alışqan,
Sinəmdən alışıb, alovlanırsan.
Odlar diyarıdır, səni yaradan,
Yaraşar bu ovqat sənə, Xınalı

Uca dağ vüqarlı bir qəlbi olan,
Həyatda sarsıla bilməz heç zaman,
Yüz yaşa yar olsun,Sənə yaradan,
Yaraşır bu həyat sənə, Xınalı.
Yaraşır bu büsat sənə, Xınalı.
Büsatın mübarək Zəminə Xınalı.

***20.11.2002***

## XINALI

Sən özün qadınsan, gözəl bir ana!
Seirin səs salıbdır Azərbaycana!
Hərbi mündirin də yaraşır sənə,
Başdan-başa şeiriyyatsan, Zəminə!
Vallah böyük bir ülfətsən, Xınalı!

Qələmin itidir yazırsan dərdli,
Başdan-başa yazdıqların kədərli,
Sözlərin mənalı, həm də ki, qəmli,
Doğulandan Xınalısan, Xınalı!
Vallah böyük bir insan, Xınalı!

Bir şəhid zabitin yadigarısan,
Qoşa oğulların iftixarısan.
Sən türk dünyasının bir simasısan
Vətəninə bir şöhrətsən Zəminə!
Vallah böyük şərafətsən, Xınalı!

Allah sənə qoy həmişə yar olsun,
Oğulların daim, bəxtiyar olsun.
Səni nəzər edən gözlər kor olsun,
Yaşa səni, yüz il yaşa Zəminə!
Vallah böyük bir ümmansan, Xınalı!

Xəstə Seyid nə deyəcək bax sənə,
Sənin adın yaraşıqdır vətənə.
Şeirlərin ləzzət verdi, bil mənə,

Sən sönməyən bir işıqsan Zəminə.
Başdan-başa bir kitabsan Xınalı

*Rafiq Mirzə*

## ELİN ŞAİRİ

Ömrü boyu xəyallarla yaşayan,
Vətən üçün əməlinlə yaşa, yan,
El yükünü öz çiynində daşıyan,
Sənsən ay Xınalı, elin şairi,
Azəri yurdumun gözəl şairi.

Düşmənə düşmənsən, dosta mehriban,
El yolunda ürəyini yandıran,
Nakəsə, nadana mətləb qandıran,
Sənsən ay Xınalı, elin şairi
Azəri yurdunun gözəl şairi....

Hünər meydanında qolun yorulmaz,
Hərbçisən düşmən səni qorxutmaz,
Aslanın erkəyi, dişisi olmaz,
Mirzə, Xınalıdır elin şairi,
Azəri yurdumun gözəl şairi.

*Sənəm Səbayel*

## ZIREHLI GÖZƏL

Yaradan yar olub Qazaxlı qıza,
Qeyrət qalasıdır zirehli gözəl.
Həm qadındır, həm əsgərdir, həm ana,
Bir şəhid yarıdır zirehli gözəl.

Xına daşdan, xınalanıb Zəminə,
Saçının yanında, sünbül zəmi nə?
Cəngidə savaşıb marş var sözünə,
Şeirdən varlıdır, zirehli gözəl.

Səbayelnən elqızıdır-bacıdır,
Oğlanları həyatının tacıdır.
Hacı Əfəndi andı, haqq-inancıdır,
Dinli-imanlıdır zirehli gözəl.

***H.Əliyev adına AAHM-nin məzun leytenantları adından Z.Xınalıya ithaf.***

## ELLƏR ALQIŞLAYAR QƏHRƏMANINI

Ordu sırasında bir qadın vardı
Mahnılar-marşları belə yazardı,
Birləşin azəri-türk övladları,
Düşmənin ürəyi, həm qəlbi yansın.
Belə misraları çox idi onun,
Sanki o, görürdü düşmənin sonun.
Nə qədər fədakar əzmkar idi,
Həyatın özü də zülmkar idi,
Nə onun əməyi qiymətlənirdi,
Çavuşdu nə də ki, rütbə verildi,
Səbəbi bu idi cəsur qadının.
Vətən uğurunda ölmüşdü əri,
Çoxalmış qayğısı, dərdi-kədəri.
Unuda bilməyir o, bax bunları
Nə qədər haqsızlıq görmüşdüsə o,
Tanrıya sığınıb yenə ümidlə

Parlaq gələcəyi görmüşdüsə o,
İtməmiş ümidi yenə səbrlə,
Hərdən danışardı, Allahla-pirlə.
Qeybdən bir səsin gəldiyi zaman,
O, ulu tanrının səsiymiş inan,
Deyirmiş ey qadın,
Darıxma heç vaxt.
Sənin oğulların olacaq xoşbəxt!
Sənin də üstünə gün doğacaqdır,
Adına səlnamə yazılacaqdır!
Sənin əməyinin bəhrəsini də
Özüm dəyər verib, qiymətləndirdim.
Sənə mane olan o, nankorları,
Göylərdən, zülmətə yerə endirdim.
Sənisə ən çətin imtahanlarda,
Özüm sınaq edib, dəyərin verdim.
Sən qorxma heç zaman sən tək deyilsən,
Yolların açıqdır, get irəli sən,
Sən ki, Vətən uğru xidmət eylədin.
Nəzərim üstündə olacaq hər an,
Səndən çox uzaqdır bəd-nəzər, yaman,
Yolun işıqlıdır görməzsən duman,
Mən ulu Tanrıyam, sənsə bəndəmsən.
Səni qoruyuram onu biləsən.
Kim sənin yolunda pislik edəcək,
Viranə yurdunda tikan bitəcək.
Nəhayət elə bir gün yetişəcək
Könlündə arzular çiçəkləyəcək.
Sən ucalacaqsan uca zirvəyə
Onda çatacaqsan bütün istəyə,
Bəndələr köməyin olmasa da bil,

Unut olanları ürəyindən sil.
Yaxşılıq eylə sən, balıq bilməsə,
Elin məsəlidir:–"Xalıq biləcək".
Paxıl bəndələrin vermədiyini
Tanrı səxavətlə özü verəcək.
Tanrı sevgisiylə, Vətən sevgisi,
Qoşa qanad kimi sənin qismətin,
Unutma yadında saxla onu da,
Hasil olacaqdır, bütün niyyətin.
Müqəddəs borcundur, Vətən xidməti,
Şərəfli peşədir, çətindən çətin.
Əsgəri libasda, hərbi mundirdə,
Örnəyi olmusan bütün millətin.
Qoru Odlar yurdu, Vətən adını.
Ellər alqışlayar qəhrəmanını.
Ellər alqışlayar Zəminə Xınalını...

TARIYEL ABBASLI

# ZƏMİNƏ XINALININ YARADICILIĞINDA HƏRBİ VƏTƏNPƏRVƏRLİK

*(Monoqrafiya)*

## VƏTƏNDAŞLIQ POEZİYASI – VƏTƏN SEVGİSİ

Tanrının yaratdığı insanlar, dünyanın qoynuna atıldığı gündən bir-birinə bənzəməyən həyat tərzi keçirir. Kimiyə acı, kimiyə şirin olan dünya pəncərəsindən boylanan insanlardan, dünyanın yaddaşından çıxanlar da olur, dünya durduqca yaşayanlar da. Tarixi yaradanlar tarixin yaddaşında dərin iz salanlar olurlar. Bir insan ömrü içində həyatın min bir əzab-əziyyətinə qatlaşmaq çətinliyə sinə gərmək, ucalığa-zirvəyə doğru can atmaq üçün polad iradə tələb olunur. Dünya zalım olduğu qədər də, həyat amansız olur. Taleyin sərt sınaqlarına tuş gələn insanın əməli, şəxsiyyəti və tanrı sevgisi olan yaradıcılığı üst-üstə düşəndə, elə dünyanın işləri kimi, insanın işləri də öz axarında gedir. Bax onda mənalı ömür yolu ilə nəsillərə örnək olacaq şəxsiyyətlər yaranır. Şəxsiyyət və yaradıcılıq bir-birini tamamlayanda isə zaman keçdikcə yaddaşlara həkk olunan bir insan ömrünün salnaməsi yaranır, tarixin yaddaşına əbədi həkk olunur. Əsrlər boyu odlar yurdu Azərbaycan xalqının qəhrəman, cəngavər oğul-qızları zaman-zaman tarixin yaddaşına həkk olunub. Bunların içərisində rəssamı da olub, heykəltəraşı da, şairi də olub, yazıçısı da, döyüşçüsü də olub, əsgəri də. Və bu insanlar içərisində həmişə söz adamları daha çox sevilənlərdir, daha çox yaddaşlarda yaşayanlardır.

Şairlik isə Allah vergisi Tanrı töhfəsidir. Bəzən isə şairlər Tanrıya yaxın olan insanlardır deyirlər. Bu insanlar Tanrı ilə danışır, dərdləşə bilirlər. Şairlikdə birinci şərt istedad, fitri istedaddır. Elə Allah vergisi də budur. İstedadla isə zəhmət yarıbayarıdır. Yəni hər bir istedadlı insan öz istedadını yalnız gərgin zəhməti, yuxusuz gecələri mütəmadi faydalı işi ilə

üzə çıxara bilər. Haqqında söhbət açdığımız görkəmli hərbçi şairə, Azərbaycan Yazıçılar Birliyinin üzvü Zəminə Xınalı da məhz istedadı ilə zəhmətini yoğurub bir-birinə qatan söz adamlarımızdan biridir.

1964-cü il martın 21-də Qazax rayonunun Aslanbəyli kəndində ziyalı ailəsində anadan olmuş, valideynlərinin və kənd əhalisinin həmişə «Xınalı» deyə çağırdığı Zəminənin heç özünün də ağlına gəlməzdi ki, nə vaxtsa o, Azərbaycanın tanınmış bir şairi, mahnı və marşları hər il buraxılış mərasimlərində ölkə prezidenti qarşısında oxunan hərbi marşlar müəllifi kimi məşhur olacaq.

Onun şeirlərində doğma torpağın müqəddəsliyi, ana yurdun əsrarəngiz gözəllikləri – bütövlükdə Azərbaycan torpağı, müstəqil Azərbaycanımızın şərəfi, şöhrəti, güvənci olan Azərbaycan Ordusu odlu bir məhəbbətlə tərənnüm olunur. Atalar yaxşı deyib ki, ot kökü üstə bitər. Atası – hələ erkən yaşlarından elin-obanın böyük hörmətini qazanan, lirik şeirlər müəllifi kimi tanınan, bu gün ömrünün müdriklik çağında olan Məhəmməd müəllim, əmiləri Kamal və Camal kişilər kəndin ilk ali təhsil almış ziyalılarından olublar. Məhəmməd müəllimin əmisi Həmid Mustafayev isə Qazax Müəllimlər Seminariyasının ilk məzunu olmuşdur. Zəminə Xınalı da bu şair təbiətli ziyalı insanların ocağında dünyaya göz açıb. Ağlı kəsəndən tanınmış söz adamlarının, ustad aşıqların evlərinə ayaq açdığını görüb. Bəlkə də elə sazı da o vaxtdan sevib, sözə o zamandan könül verib. Bir də ki, Qazaxda doğulmusansa saza-sözə nə könül, bunlar elə səninlə gəlir dünyaya. Və bu fitrədən dünyaya gələn sözü, sənəti göyərtmək üçün bir az öncə dediyimiz kimi zəhmət və yuxusuz gecələr lazımdır.

Bəs Zəminə Xınalı necə şair oldu? Necə məşhurlaşdı? Nə cür məşhur hərbçi şairə oldu? Əlbəttə bütün bunlar, bu sualların cavabları kitabı oxuduqca məlum olacaq.

Yəqin ki, bütün yazarlar kimi, Zəminə Xınalı da lap erkən yaşlarından şeir yaradıcılığına başlayıb. Lakin onlardan fərqli olaraq o şeirlərini uzun müddət üzə çıxarmayıb, qorxub. Bir yandan mühafizəkar kənd mühiti, ata-ana, qardaş qorxusu, digər tərəfdən isə özünə inamsızlıq, şeirinin bəyənilməyəcəyi qorxusu. Lakin o da doğrudur ki, istedadı boğmaq olmaz, bulağın gözünü bir tərəfdən tutsan da, o digər tərəfdən göz verib büllur və saf, dişgöynədən, şirin suyunu nə zamansa çağladacaq, insanlara bəxş edəcək.

Zəminə Xınalı özü bu barədə belə deyir: «Hələ ikinci sinifdə oxuyanda Vaqifin və Vidadinin «Durnalar» şeirini böyük qardaşımdan eşitmişdim. Bir gün həyətdə olanda göydə uçan durna qatarını gördüm və bədahətən bir bəndlik şeiri uşaq təxəyyülü ilə dedim. Uşaqlar başıma toplaşdılar. Çaşıb qaldım, ardını deyə bilmədim. Ancaq məndə şeirə sevgi və bağlılıq dördüncü sinifdə oxuyanda baş qaldırdı. Deyim ki, o vaxtlar gözəl şeirlər müəllifi olan Kamal əmimin dediyi şeirlərə tez-tez qulaq asırdım. Bir dəfə sinif müəllimimiz bizi qonşu kənddə – Yuxarı Salahlıda yerləşən Səməd Vurğunun ev müzeyinə aparmışdı. Sinfimizin uşaqları Səməd Vurğunun ev əşyalarına, paltarına baxırdılar. Mənim diqqətimi isə daha çox onun kitabları, əlyazmaları və şeirləri cəlb edirdi. Ordan gələndən sonra bir neçə şeir yazdım. Bunu müəlliməmiz də bilirdi və ona görə də bir gün bizim məktəbə görüşə gəlmiş xalq şairi Mirvarid Dilbaziyə də bu barədə dedi. Mirvarid xanım məni yanına çəkib üzümdən öpdü, S. Vurğun haqqında şeirimi dinləyəndən sonra: «Bu qız gələcəkdə gözəl şairə olacaq» - dedi.

İnanın ki, mən o qədər sevinirdim ki, az qalırdı ki, ürəyim ağzımdan çıxsın».

1981-ci ildə Aslanbəyli kənd orta məktəbini bitirən Zəminənin ən böyük arzusu Bakıya gəlmək, ingilis dili üzrə ali təhsil almaq idi. Buna onun əsası da var idi. Səkkizinci sinif şahədətnaməsi və orta məktəb attestatında bir dənə də olsun «dörd» yox idi. Bütün qiymətləri «əla» idi. Ona yalnız bir qəbul imtahanı vermək lazım idi. Lakin tale elə gətirdi ki, o valideynlərinin məcburi məsləhəti ilə Sumqayıt şəhərinə gəlib Sumqayıt Kimya Texnologiya Texnikumüna daxil oldu. 1984-cü ildə texnikumu başa vurub Sumqayıt kimya istehsalat birliyində laborant vəzifəsində işləməyə başladı. Hələ texnikumda oxuyarkən öz biliyi ilə digər tələbələrdən seçildiyinə görə müəllimləri ona «Qızılbaş» qız deyirdilər. Hətta bəzi müəllimlər onun bu qədər dərin savad və biliyə görə texnikumda oxumasına məəttəl qalmışdılar. Texnikumda oxuyarkən və zavodda işləyərkən də yazdığı şeirləri gizlədirdi. İndi də evində qaldığı mamasından *(bibisindən-atasının bacısı-T.A.)* qorxub çəkinirdi. Hamının ümumi məqsədi bir idi: Onu bu yoldan çəkindirmək. Qız uşağı şeir yazmaz – deyirdilər. Lakin buna baxmayaraq həmin ərəfədə Sumqayıtın «Kimyaçı» qəzetində onun bir neçə şeiri çap olundu. Bu şeirlər Zəminə Xınalının ilk mətbu şeirləri idi.

1984-cü ildən Zəminən həyatının yeni bir mərhələsi başladı. Təsadüfən sevib-seçdiyi Akif adlı bir oğlana könül verdi. Oğlan da insafən pis oğlan deyildi. Özü qaraşın olsa da, bu sarışın və göyçək qızda öz səadətini tapmışdı. Və Zəminə Xınalının ədəbi yaradıcılığı da ailə qurandan sonra daha geniş vüsət aldı. Ürəyindəki arzular sanki çiçək açdı. Həyat yoldaşı Akif Bayramov şeirə və sənətə qiymət verən insan idi. Ali

təhsilli mühəndis olsa da, ədəbiyyatı da çox sevirdi. Tezliklə də dissertasiya müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsi aldı.

1984-cü ilin sonlarında gənc ailə Türkmənistan Respublikasına gedir. O vaxt Akif Bayramov Türkmənistan Respublikası Magistral Qaz Kəmərləri Xətti İstehsalat İdarəsinin direktor müavini işləyirdi. 1987-ci ilin yayında Moskva şəhərində eyni vəzifəyə təyin olundu və onlar Moskva şəhərinə köçdülər. Xidməti işçi kimi o Moskvanın ən nəhəng və məşhur küçəsi olan Arbat küçəsində evlə təmin edildi. Vaxtilə Bakını görmək, Bakıda olmaq, tələbəlik həyatı yaşamaq arzusunda olan Zəminə artıq nəhəng Moskva şəhərinin sakini idi. Özünü çox xoşbəxt və bəxtəvər hesab edirdi. Artıq şeirlərini də sərbəst və qorxu-hürküsüz yazırdı. Bəzi hallarda həyat yoldaşı ona yazıb- yaratmaq üçün mövzular tapmaqda kömək edirdi.

1988-ci ildə məlum Qarabağ hadisələrinin başlanması gənc ailənin də aydın gündüzünü zülmət gecəyə çevirmişdi. Televiziyada Topxana meşəsinin qırılması, «Miatsun» deyə bağıran ermənilərin əsassız torpaq iddiaları onları da varından yox etmişdi. Akif Bayramov 1981-ci ildə Politexnik İnstitutu bitirməklə, həm də ehtiyatda olan baş leytenant idi. Artıq 1991-ci ildən Qarabağ müharibəsinin başlanması digər soydaşlarımız kimi Akif Bayramovu da narahat edirdi. Və 1991-ci ilin soyuq fevral günlərinin birində Akif iki körpəsi və həyat yoldaşı ilə Bakıya gəldi. Bakıya gələn kimi könüllü olaraq cəbhəyə getmək istədiyini bildirdi. Lakin Rusiya vətəndaşı olduğuna görə Azərbaycanda qeydiyyata düşməli və haradasa işləməli idi. Ona görə də tezliklə Bakıda qeydiyyata düşdü və Moskvadan gəlmiş ixtisaslı mütəxəssis kimi

Qaradağ Yeraltı Qazsaxlama idarəsində baş mühəndis vəzifəsinə təyin olunsa da, o müharibəyə getməli idi. Və getdi də...

Bax elə o gündən gənc ailənin qara günləri başladı. O vaxtlar ölkədə hərc-mərclik, özbaşınalıq, xaos baş alıb gedirdi... Zəminə Xınalının həyat yoldaşı ön cəbhələrdə olsa da, o özü iki körpə uşağın qayğıları ilə qalmış, çörək növbələrində saatlarla gözləməli olurdu. Akif müəllim hərdən evə-uşaqlara baş çəkməyə gələndə də Bakıdan çoxlu dərman, bint və qalın geyimlər tədarük edib əsgərlərə aparırdı. Artıq kapitan rütbəsində olan Bayramov tank əlahiddə heyətinin komandiri idi. Öz əsgərləri ilə düşmənə qarşı əzmlə mübarizə aparan mərd və mübariz Vətən oğlu 1993-cü ilin qışında qızğın döyüşlər zamanı minaya düşdü. Ağır vəziyyətdə hərbi hospitala gətirilən mayor Akif Bayramov həkimlərin səyi nəticəsində həyata qaytarıldı. Lakin o artıq cəbhəyə gedə bilmədi. Uzun müddət müalicə olunsa da aldığı yaralardan vəfat etdi.

Bu illərdə Zəminə Xınalı Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbini hərbi jurnalist ixtisası üzrə bitirdi. Artıq Zəminə sevə-sevə böyütdüyü iki oğul balasının varlığına tapınırdı. İndi onun şeirlərində Vətən sevgisi ilə birlikdə, həm də bir ana qayğısı, ana məhəbbəti, ana sevgisi var idi. Bu illər ərzində Zəminə xanım Dənizçilik Məktəbində Qadınlar Şurasının sədri, həm də «Azərbaycan ordusu» qəzetində ştatdankənar müxbir kimi fəaliyyət göstərir, hərbi hissələrdə, əsgərlər arasında olur, hərbi-vətənpərvərlik mövzusunda məqalələr və şeirlər yazıb çap etdirirdi. Bu isə ona özü də bilmədən gələcək hərbçi şairə olması üçün stimul yaradırdı...

* * *

Vəfalı ömür-gün yoldaşının vəfatından sonra Zəminə Xınalı öz ömür yolunu, həyat amalını tapdı. O, ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan Azərbaycan Ali Hərbi Məktəbinin hərbi qulluqçusu kimi fəaliyyətə başladı. Zəminə xanım həmin vaxtı belə xatırlayır: «Artıq yoldaşım dünyasını dəyişmişdi. Mən yoldaşımdan sonra hərbiyə keçmək istəyirdim. Lakin bəzi qadağalar qoyulmuşdu. Mənim raportumun üstünə belə yazılmışdı: Qadınlar hərbi qulluğa götürülmürlər. Bu söz mənim içimdə bir üsyan yaratdı. Bu duyğulardan yaranan «Əsgər papağı» şeirini yazdım.

***Mən əsgər papağı geyinməliyəm,***
***Qadınam kişi tək öyünməliyəm.***
***Hərbi əməliyyatı, hərbi sənəti,***
***Ürəklə, vicdanla öyrənməliyəm.***

***Günahım nədir ki, anam qız doğub,***
***Adımı Xınalı Zəminə qoyub.***
***Bilmirəm hardandır bu eşq, bu həvəs,***
***Qəlbimə kişilik qeyrəti dolub.***

***Yorğanım od olub, yastığımsa daş,***
***Vətən dara düşüb, eşit vətəndaş!***
***Ey papaq altında yatan oğullar,***
***Oyanın Vətəni qoruyaq qardaş!***

Bu şeirim yayılandan sonra məni sıravi əsgər kimi orduya götürdülər. Və içdiyim anda sadiq qalaraq baxmayaraq ki, marşlarım, mahnılarım prezident, müdafiə naziri qarşısında,

yüksək rütbəli zabitlər qarşısında oxunur, özüm hələ də əsgəri rütbədəyəm. Mənim ən böyük rütbəm əsgər papağı, əsgər libasım oldu. Hətta övladlarıma sağlığımda ikən belə bir vəsiyyət etmişəm ki, mən öləndə məni əsgəri libasda dəfn edin».

Xalq şairi Söhrab Tahir Zəminə Xınalının 2007-ci ildə çap olunmuş «Vətən sevgisi» kitabına yazdığı ön sözdə deyir: «Mən qızlarımızın əynində hərbi paltarı görəndə həmişə çox sevinmişəm, bir qürur duymuşam. Sevinmişəm ki, mənim xalqımın belə kişi qeyrətli, ər hünərli, cəngavər qızları var. Mən Zəminə Xınalı ilə ilk dəfə görüşəndə də bu sözləri ona demişəm və üstəlik də qeyd eləmişəm ki, sənin gözəlliyini bu paltar ikiqat artırır.

Sonralar mən Zəminə Xınalının hərbi vətənpərvərlik mövzusunda şeirlərini oxudum, hərbi marşlarını dinlədim, digər şeirlərinə fikir verdim və gördüm ki, bu xanım heç də adi bir hərbçi deyil. O, əsl hərbçidir, əsl vətənpvərvərdir, əsl döyüşçüdür, xalqını çox sevən bir insandır.

Mən özüm hərblə bağlı adamam. Hərbçilərə böyük hörmət və məhəbbətim var. Elə ona görə də mən vaxtaşırı olaraq hərbi hissələrdə, cəbhə bölgələrində, hospitallarda – ümumiyyətlə əsgərlərin yanında oluram. Əsgərlərin əlində Zəminə xanımın kitablarını görəndə qürur hissi keçirirəm. Bu səfərlərim zamanı görmüşəm ki, Zəminə Xınalı həqiqətən praktiki cəhətdən də əsgərlərin arasında olur. Onun qələbəyə, mübarizəyə çağıran, düşmənə nifrət hissləri ilə dolu olan poeziyası, vətənpərvərlik mövzusundakı şeirləri əsgərlərə ruh verir, onlarda vətən sevgisini gücləndirir».

Beləliklə, Zəminə Xınalı Azərbaycan Milli Ordusunun sədaqətli bir əsgəri kimi uzun illərdir ki, öz xidmətini davam

etdirir. Hər il müxtəlif vaxtlarda keçirilən hərbi təlim və məşğələlərdə həmişə ürəklə, vicdanla, qorxmadan mətin addımlarla gedir. Təkcə hərbi təlimlərdəmi?

Zəminə Xınalı bu mətin əsgəri addımlarla bərabər, Azərbaycan Ordusunun şərəf və layəqətini, şöhrətini, dünənini və bu gününü yorulmadan tərənnüm eləyən istedadlı bir şairə kimi də özünü tanıtdı. Bu yerdə yenə də Zəminə xanımın bir fikri yadıma düşdü: Şairə deyir: – «Həyat yoldaşımın sağlığında xalq şairi Nəriman Həsənzadə bizə qonaq gəlmişdi. O, öz şeirlərindən və həyat yoldaşı mərhum Sara xanımdan danışanda, mən onun səmimiliyi və mülayimliyindən istifadə edərək dedim ki, Nəriman qağa, elə istəyirəm ki, mən də məşhur şair olam, hər yerdə tanınam, sevilәm, mahnılarım oxuna. O isə kövrək bir təbəssümlə dedi: «Qızım mən onu sənə arzulamazdım. Dahi şair olmaq üçün gərək dağ boyda dərdin ola».

İllər keçdi, mən Azərbaycanda fəaliyyət göstərən hərbi məktəblərin marşlarının müəllifi kimi tanındım, kompakt-disklərim, kitablarım çıxdı. Bax onda Nəriman qağa yenə də kövrək təbəssümlə dedi: «Xınalı, dərdin mübarək! Sənin dağ boyda dərdin səni tanınmış bir şair elədi».

Həyat yoldaşı dünyasını dəyişəndən sonra Z.Xınalı bir cüt körpə balası ilə tək qaldı. Bəzən gecələr ömür-gün yoldaşının xəyalları ilə yaşayır, bu zaman onun yeni-yeni şeirləri meydana gəlirdi. Bəzən yuxularında əlçatmaz zirvələrə çıxır, bəzən nurani bir qocanın məsləhətlərinə qulaq asır, beləliklə öz həyatını yaşayırdı. Klassik Azərbaycan şairi Nizami Gəncəvinin yuxuda Zəminə Xınalıya dediyi «Bir yaxşılığın əvəzi, min yaxşılıq olar» – kəlamı haqqında Zəminə xanım söhbət eləyərkən belə deyir: «Sovetlər Birliyi yenicə dağıl-

mışdı. O vaxta qədər Azərbaycanın əksər müəssisələrində rusdilli əhali daha çox çalışırdı. Azərbaycan ədəbiyyatından xəbəri olmayan bu millətin nümayəndəsi olan bir qadın Nizami Gəncəvinin iri bir portretini zibilliyə atmışdı. Bunu görəndə mənim ürəyimdən bir gizilti keçdi. Əyilib onun portretini götürdüm, üstünün tozunu sildim və çətinliklə də olsa onu evimə gətirdim. Və nəfəsimi dərmədən onu divardan asdım. Necə deyərlər, kasıb və boş komam sanki zənginləşdi, özümdə bir rahatlıq tapdım. Bir anlığa təsəvvür etdim ki, mən dünyanın ən varlı, ən zəngin bir adamıyam. Çünki divardan asılan portret evimə bir işıq, bir istilik gətirmişdi. Şəklə baxa-baxa yuxuya getdim. Gecənin bir aləmi yuxuda gördüm ki, Nizami Gəncəvi şəkildə gördüyüm həmin formada ayaq üstə evin bir küncündə dayanıb mənə deyir:»Sən ki, mənim şəklimi zibilliklər içində qoymadın, mənim ruhum həmişə sənə dayaq olacaq. Mən səni zirvələrə ucaldacam. Bir yaxşılığın əvəzi min yaxşılıq olar» – dedi. Sanki mən həyatda canlı bir insanla danışırmış kimi yuxudan oyandım. Oyandım və divardan asılmış şəkillə üzbəüz dayandım. Və hər gün işə gedəndə və işdən gələndə bu şəkillə sanki danışırdım, dərdimi bölüşürdüm. Aradan bir müddət keçmişdi. Mən möhkəm xəstələndim. Qanadı qırılmış quş kimi taqətim kəsilmişdi, heç ayağa da qalxa bilmirdim. Elə hey yatırdım. Bir gecə yarı yuxuda gördüm ki, mən yenə də taqətsiz halda uzanmışam. Bu zaman ağ əbalı, ağsaqqallı, nurani bir qoca evin içərisində mənə qalx – deyə əmr edir. Mən isə «taqətim yoxdu, qalxa bilmərəm» – deyirəm. Bu zaman qoca mənim əllərimdən tutub ayağa qaldırır. Bu anda göydən fırlana-fırlana bir kişi papağı gəlib mənim başıma düşdü. Qoca o papağı mənim başımda düzəltdi və əlimə də bir qələm verdi. Bu anda mən özümü

doğrudan da çox güclü hesab etdim. Bundan sonra yuxudan oyandım. Yuxudan oyananda həqiqətən də mənim taqətsizliyimdən əsər-əlamət qalmamışdı. Bax elə o gündən vətənpərvərlik mövzusunda yazdığım şeirlər mahnılara, marşlara çevrildi və mən Azərbaycan cəmiyyətində hərbi marşlar müəllifi kimi tanındım».

* * *

Zəminə Xınalı müasir Azərbaycan poeziyasında hərbi-vətənpərvərlik mövzusunda yazan şairlərdən biri – bəlkə də birincisidir. Bu gün vətənpərvərlik mövzusunda yazan şairlərimiz çoxdur. Ancaq Z.Xınalının bir üstün və fərqli cəhəti odur ki, o, ordu haqqında haradansa eşidib, hardasa ekranda-efirdə görüb yazmır. O birbaşa ordunun içərisindədir, əsgərlərin, kursantların arasındadır, onların zəhmətini duyur, bunu onlarla bir yerdə hiss edir, onlarla bir yerdə yaşayır. Azərbaycan ordusundakı yenilikləri, yüksəlişi də görür, vaxtilə (1990-1993) bu ordunun uğursuzluqlarını da görüb, bu ordunun qəhrəman və yenilməz oğullarını görüb, onları əsərlərində tərənnüm edib, onlardan yazıb və yenə də yazır.

Azərbaycanımızın hərb tarixində həm lap qədimdən, həm də Vətən müharibəsi dövründə həmişə sözlə silah, şeirlə qılınc, söz adamı ilə döyüş adamı, cəbhə adamı bir olub, əlaqədə, təmasda olub. Əgər biz böyük sərkərdəmiz, klassik şairimiz ilk müstəqil dövlətimizin yaradıcısı Şah İsmayıl Xətaini, onun dövlətçiliyini və ordu quruculuğunu yadımıza salsaq görərik ki, Şah İsmayıl Xətai öz dövründə sənətə və sənətkara nə qədər böyük qiymət verib, sözə, söz adamına böyük önəm verib. Şah İsmayılın ordularında həmişə ozan-aşıq dəstələri olardı ki, döyüşdən qabaq bu ozan dəstələri

musiqi ilə döyüşə çağırış nəğmələri ilə ordunu vuruşa ruhlandırırdı: «Ozanlar vuruş günlərində qalib yürüşlü ordunun müqabilində çukurlar çalmaq, türkü-varsağılar oxumaqla igidləri döyüş həvəsilə coşdururlar. Onlar ruh yüksəkliyi ilə «Qurban olduğum və sədəqə olduğum, pirim, mürşüdüm» – deyə öldü-qaldı bilmədən düşmən üzərinə yürüyüb özlərini hərb dəryasına vururdular» *(T.Abbaslı «Qurbaninin poetik irsi». Bakı-2004. səh. 45).*

1941-1945-ci illər Vətən müharibəsi dövründə Azərbaycanın tanınmış şair və yazıçıları daim cəbhə xəttində olur, əsgərlərlə görüşür, döyüşçüləri qələbəyə, düşmənə nifrətə ruhlandırırdılar. Onlardan elələri var idi ki, birbaşa döyüşdə idi. Əsgər şair idi, döyüşçü şair idi. Və neçə-neçə şair və yazıçımız döyüş cəbhələrində beləcə həlak oldular. Lakin bununla belə cəbhədə silahla bir yerdə, paralel olaraq söz vardı. Böyük söz. Xalq şairi Səməd Vurğunun «Bilsin, ana torpaq eşitsin Vətən müsəlləh əsgərəm mən də bu gündən», Süleyman Rüstəmin «Dörd ay vardı ananın gözləri yol çəkirdi, başqa bir dərdi yoxdu, oğul dərdiiydi dərdi», Məmməd Rahimin «Qartal tərk eləsə öz yuvasını, meşələr saxlayar onun yasını» – deyə igid təyyarəçi Hüseynbala Əliyevə həsr etdiyi «Leninqrad göylərində» poeması, yazıçı Əbülhəsənin «Müharibə» romanı, cəbhəçi yazıçı Məmməd Aranlının hekayələri və digər yazıçı və şairlərimizin şeir və poemaları, hekayə və povestləri həmişə döyüşçülərimizə ruh verib.

Xalq şairləri Söhrab Tahirin, Xəlil Rza Uluturkün, Rəsul Rzanın, Fikrət Qocanın, Oqtay Rzanın hərbi-vətənpərvərlik mövzusundakı şeirləri həmişə sevilib. Bu görkəmli şair və yazıçılarımız öz ecazkar qələmlərinin gücü, qüdrəti, vətəni, torpağı, milləti sevən sadə ürəklərinin istəyi ilə bir ordunun

görə bilmədiyi işləri görmüşlər. Bu sırada heç bir tərəddüd etmədən böyük fəxrlə, qürurla hərbçi şairə Zəminə Xınalının adını çəkmək olar. Zəminə Xınalı hərbi-vətənpərvəlik mövzusunda daha çox yazan hərbçi şairədir. H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin hərbi qulluqçusudur. O, H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin, Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinin məktəb marşlarının, o cümlədən Dünya Azərbaycanlılarının Həmrəylik mahnısının, Azərbaycan Sülhməramlı Qüvvələrinin «Sülh» marşının sözlərinin müəllifidir. Onun şeirlərindəki güclü vətənpərvərlik duyğuları, doğma torpağa, elə-obaya məhəbbət, yurd yerlərinə sonsuz sevgi motivləri bütün yaradıcılığı boyu özünü göstərir. Onun şeirlərinin əzəli də, axırı da vətəndir. Şairənin «Mənim əsgər qardaşım», «Üç qardaş, üç pəhləvan», «Yarı yolda qalan ömür», «Müqəddəs zirvə», «Ömrün bahar çağında», «Hər şeydən əzəl vətəndir», «Müqəddəs Vətən», «Vətən sevgisi», «Təki Vətən yaşasın», «Ali Baş Komandanım» və digər kitablarında toplanmış şeir, poema və dram əsərlərində yurd istəyi, şəhid ağrıları, torpaq itkiləri və bunlardan irəli gələn yüksək vətənpərvərlik duyğuları özünü göstərir.

Zəminə Xınalının yaradıcılığındakı hərbi vətənpərvərlik istiqamətini üç yerə bölmək olar: Birincisi, onun lirik şeirlərində hərbi vətənpərvərlik, ikincisi, poemalarındakı hərbi vətənpərvərlik, üçüncüsü isə dramaturgiya və publisitikasında hərbi vətənpərvərlik motivləri. Əlbəttə, biz yeri gəldikcə bu ayrı-ayrı istiqamətlər haqqında fikirlərimizi çatdıracağıq.

Qeyd edək ki, şairə Zəminə Xınalı hər şeydən əvvəl, qadındır, anadır. Nə qədər hərbi mövzularda yazsa da, bütün analar, qadınlar kimi, bütün insanlar kimi müharibə istəmir,

sülh istəyir, əmin-amanlıq, sakitlik istəyir. Onun müharibə haqqında yazdığı tək bircə bəndlik şeirinə nəzər salaq:

***Müharibə – qan qoxusu,***
***Müharibə faciədir.***
***Müharibə həm qaranlıq,***
***Həm də zülmət bir gecədir.***

Lakin bununla belə müharibənin törətdiyi ağrı-acılar, ömür-gün yoldaşının vaxtsız həlak olması onu əsl şair elədi: Vətəndaş şairə, vətənpərvər şairə. Zəminə Xınalı Azərbaycanda, Şərqdə və dünyada analoqu olmayan bir şairədir. Gəlin görək dünyada elə bir şair və şairə varmı ki, birdən-birə ölkənin üç ali hərbi məktəbinin marşını yaza və o da ölkə prezidenti qarşısında təqdim oluna. Bu, yalnız haqqında söhbət açdığımız Zəminə Xınalıdır:

***Birləşin azəri, türk övladları,***
***Düşmənin ürəyi, həm qəlbi yansın.***
***Bütün yer üzündə sülhün sədası,***
***Azadlıq, ədalət qoy zəfər çalsın.***
***Müstəqil dövlətimin hərbi məktəbi,***
***Heydər Əliyev adına hərbi məktəbi.***

Bu, H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məktəb marşının ilk bəndidir. Burada şairə azəri-türk birliyinin böyüklüyünü önə çəkir, bu birlik olan yerdə azadlıq, ədalət və sülh olar deyir. Bu gün Azərbaycan ordusunun tərkibini onun müstəqillik dövründə geniş vüsət almış və milli hərbi kadrlarımızı yüksək səviyyədə hazırlayan ali hərbi məktəblərin məzunları təşkil edir. Bu kadrların hazırlanması üçün şairə bir obraz yaradır. Hərbi məktəb obrazı və ona üz tutur:

***Hərbin sirlərini öyrədəcəksən,***
***Parlayan, sönməyən bir gələcəksən.***
***Hər zaman dillərdə sən gəzəcəksən,***
***Elimi, obamı bəzəyəcəksən,***
***Müstəqil dövlətimin hərbi məktəbi,***
***Heydər Əliyev adına hərbi məktəbi.***

Şairə Azərbaycan xalqının ümid və pənah yeri olan neçə-neçə mərd oğullar, zabitlər yetirən hərbi təhsil ocağına üz tutarkən böyük inam və fəxrlə, qürurla onu tərənnüm edir. Qələbə müjdəsinin də məhz bu igidlər tərəfindən gətiriləcəyinə inanır. Elə müqəddəs şəhidlərimizin ruhunu uca tutaraq üçrəngli bayrağımızın yüksəklərdə saxlanılmasında bu məktəbin rolunu yüksək qiymətləndirir.

***Vətən harayına neçə oğullar,***
***İgid, mərd zabitlər yetirdin özün,***
***Xoş müjdə, qələbə, sülh sorağını,***
***Zəfər bayrağını gətir sən özün.***
***Müstəqil dövlətimin hərbi məktəbi,***
***Heydər Əliyev adına hərbi məktəbi.***

Qeyd eləyək ki, Zəminə Xınalının bu məktəb marşı hər gün kursantların düzülüşündə, hər il isə buraxılış mərasimində ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev qarşısında oxunur. Və bu marşlar dəfələrlə ümummilli liedrimiz Heydər Əliyevin qarşısında da oxunmuşdur.

H. Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin zabiti polkovnik Rəhim Səmədov Zəminə Xınalının yazdığı Məktəb Marşından təsirlənərək yazır:

***Sədası gələndə Məktəb Marşının,***
***Riqqətə gətirir qəlbləri adın.***
***Var olsun qələmi onu yazanın***
***Heydər Əliyev adına Hərbi Məktəbin.***

Heydər Əliyev adının ucalığından bəhrələnən şairənin yaradıcılığı Vətən oğullarına, Vətən torpaqlarına olan sevgisindən, onun yaradıcılığına, şəxsiyyətinə olan hörmətdən irəli gəlir.

Hər bir müstəqil dövlətin müdafiə qüdrətinin hərtərəfli təminatı üçün quru qoşunları ilə birgə həmin dövlətin hərbi dəniz donanmasının, hava hücumundan müdafiə qüvvələrinin olması vacibdir. Bu baxımdan Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinin fəaliyyəti danılmazdır. Zəminə Xınalı da bir hərbçi və bir şair kimi bu həqiqətləri görərək hər iki məktəbin də məktəb marşını yazmış və bu gün onlar da əlamətdar günlərdə oxunur***:***

***Ana Vətənim üçün***
***Pak vicdanlı oğullar,***
***Qəhrəmanlar yetirir***
***Hərbi dəniz məktəbi.***

Mavi Xəzərin sahilində – Bakıda fəaliyyət göstərən dənizçilik məktəbinin hələ sovet dönəmində tarixi ənənələri var idi. Keçmiş Sovet İttifaqının dəniz sahilində yerləşən bir sıra böyük şəhərləri kimi Bakıda da belə bir dünya şöhrətli hərbi təhsil ocağı fəaliyyət göstərirdi. Həmin madii-texniki baza üzərində ulu öndərimiz Heydər Əliyevin xeyir-duası ilə öz fəaliyyətini yenidən quran dənizçilik məktəbinin milli

zabit kadrları kursantların yeni dəstəsini hazırlayırdı. O illərdə Z.Xınalının məktəb marşı müstəqil məktəbin ən vacib atributlarından biri idi.

***Tarixlər yaddaşında***
***Silinməz izlər qoyur,***
***Günəşdən ilham alır,***
***Hərbi dəniz məktəbi.***

– deyən müəllif bir az öncə dediyimiz kimi tarixə, tarixi ənənələrə nəzər salır, eyni zamanda məktəbin fəaliyyətinə bu günkü prizmadan yanaşaraq dənizçilik məktəbinin kursantlarına öyrədir ki:

***Üçrəngli bayrağımız,***
***Vüqarla dalğalandı,***
***Saf sularda yol aldı,***
***Hərbi dəniz məktəbi.***

Zəminə Xınalı Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinin də məktəb marşını eyni həvəs və ürəklə yazmışdır. Üçü də eyni bir məkanda, yan-yana yerləşən bu hərbi məktəblər Azərbaycan xalqının güvənc yeri, dövlətimizin və dövlətçiliyimizin arxa-dayağıdır.

Müəllif hər bir marşda həmin ali təhsil ocağına üz tutur, onu tərənnüm edib alqışlayarkən əslində məcazi mənada o, həmin məktəbin kursant və məzunlarına müraciət eləyir:

***Çəkilsin göylərdən qara buludlar,***
***Günəş şəfəq saçsın yollarımıza,***

*Öyünür xalqımız sənin adınla,*
*Sirli bir dünyasan, adın gözəldi.*
*Yurdumun fəxrisən, coşan bir qəlbi,*
*Ali Hərbi Təyyarəçilik Məktəbi.*

Elə ona görə də həm təyyarəçilik məktəbinin, həm də digər ali hərbi məktəblərin kursant və zabit heyəti öz çiyindaşlarına mərdlik, cəsarət və mətanət aşılayan bu mahnı marşları böyük ürəklə həvəslə oxuyur və onun ritmik musiqisi altında addımlayırlar.

*Məramın sülh olsun, səadət olsun,*
*Düşmən yanar olsun, Tanrım qorusun,*
*Uzaq keçmişlərdən gəlir sorağı,*
*Şahinlər yuvası, qeyrət ocağı,*
*Yurdumun fəxrisən, coşan bir qəlbi,*
*Ali Hərbi Təyyarəçilik Məktəbi.*

Qeyd edək ki, Z.Xınalının digər lirik şeirləri kimi, hərbi-vətənpərvərlik mövzusunda yazdığı şeirləri də musiqiyə və ritmə yatan şeirlərdir. Ona görə də hərbi məktəblərin fəaliyyətə başladığı ilk illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbin marşının musiqisini həmin məktəbin hərbi orkestrinin baş dirijoru mayor Mahir Əsgərov, təyyarəçilik məktəbinin marşının musiqisini, xalq artisti, professor, Azərbaycan Silahlı Qüvvələri nümunəvi orkestrinin bədii rəhbəri və baş dirijoru polkovnik Yusif Axundzadə, Dənizçilik Məktəbinin marşının musiqisini isə bəstəkar Azər Dadaşov yazmışlar.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin rəisi, polkovnik-ley-

tenant Eldar Sabiroğlu Z. Xınalının yaradıcılığı haqqında danışarkən yazır: «Zəminə Xınalının müəllifi olduğu hərbi marşların mətnləri, onun ulu öndərimiz Heydər Əliyev haqqında yazdığı «Hərbi məktəblərin banisi» kitabı və digər əsərləri ilə yaxından tanışam. Bunlar Z. Xınalının qələminin gücündən, onun Azərbaycan ordusuna, dövlətinə və dövlətçiliyinə bağlılığından, Vətənə, torpağa, bayrağa olan sevgisindən irəli gəlir. Mən ona yaradıcılığında uğurlar arzulayıram» *(«Yazıçı» – «Oğuz eli» qəzetinin xüsusi buraxılışı. Mart-2009, səh-11).*

Z.Xınalının sərhədçilərimizin şərəfinə yazdığı "Sərhədçi nəğməsi" şeiri də çox maraqlıdır.

***Qoruyaq vətənin sərhədlərini,***
***Ürəyimiz kimi, canımız kimi.***
***Kükrəyək dəniz tək, çağlayaq çay tək,***
***Damarda qaynayan qanımız kimi.***

və yaxud şeirin digər bir bəndi:

***Bütöv Azərbaycan sərhədlərini,***
***Qorumaq peşəsi çox şərəflidir.***
***Günəş şəfəqiylə nura boyanan,***
***Doğma yurdumuzun sərhədləridir.***

Xəlil Rza Ulutürkün ömür-gün yoldaşı Firəngiz xanım Ulutürk yazır: – "Zəminə Xınalını ulu öndər Heydər Əliyevin yolu ilə addımlayan bir xanım kimi tanıyırıq. Bütün qadınlar onun kimi cəsur olmur. Zəminə Xınalının çox diqqətəlayiq poeziyası var. Xalqına, Vətəninə bağlılığı şeirlərində çox aydın şəkildə görünür". (*"Yazıçı" "Oğuz eli" qəzetinin xüsusi*

*buraxılışı – mart 2009.)*

Zəminə Xınalı baş verən ictimai-siyasi hadisələrə, yeniliklərə və ədəbi prosesə operativ reaksiya verən şairədir. Hələ 2001-ci ildə 31 dekabrı Azərbaycan Prezidenti Heydər Əliyev Dünya Azərbaycanlılarının həmrəylik günü kimi qeyd olunması üçün sərəncam verərkən şairə «Dünya Azərbaycanlılarının həmrəylik marşı»nı yazdı. Bu mahnının sözləri sanki dünyanın hər yerinə səpələnmiş 50 milyondan çox azərbaycanlının özünün Azərbaycanı dünyaya tanıtması idi. Bu, həm də hər bir azərbaycanlıya müəllifin tövsiyəsi, məsləhəti, Azərbaycanı sevmək, sevdirmək yolunda nəsihəti idi:

***Azərbaycan adını,***
***Vətən, torpaq andını,***
***Ucalardan uca tut,***
***Sən, ey Vətən övladı.***
***Dünyanın hər yerində***
***Günəş kimi parla sən!***
***Ucal ən şərəfli,***
***Şanlı adla sən!***

Şairə həmrəylik sözünün işığında hər bir azərbaycanlını birliyə, dostluğa, sülhə çağırır. Öz növbəsində isə Azərbaycanın qüdrətinə, şanına, şöhrətinə alqış deyir, parlayan bir günəş kimi zəfər yürüşündə olan doğma Azərbaycanımız və azərbaycanlılarımızla öyünür:

***Həmrəylik dostluq demək,***
***Həmrəylik birlik demək,***
***Xalqımın xoş niyyətin,***
***Bəşərə çatdırmaq gərək.***

***Azərbaycan xalqına,***
***Gücünə, qeyrətinə,***
***Şanına, şöhrətinə alqış deyək!***

Xalq şairi Söhrab Tahir şairənin «Vətən sevgisi» adlı kitabına yazdığı ön sözdə deyir: «Mən Dünya Azərbaycanlıları Mədəniyyət Mərkəzinin prezidenti kimi demək istəyirəm ki, Zəminə xanımın «Dünya Azərbaycanlılarının həmrəylik mahnısı»nın sözləri məni heyran etdi. Bu, birliyə, həmrəyliyə, dostluğa, qardaşlığa çağırış himnidir. Eşq olsun bu birliyə, eşq olsun bu çağırışa». *(Zəminə Xınalı»Vətən sevgisi». Bakı – 2007, səh.4)*

«Qoşa ulduz» junrnalının baş redaktoru Gülzar Şəmkrili «Dünya Azərbaycanlılarının həmrəylik mahnısı»ndan bəhs edərkən yazır: «31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik günü münasibətilə bu şərəfli bayrama bir hədiyyə kimi bu mahnı Zəminə Xınalının töhfəsidir. Həmin mahnının yazılması ilə bağlı söhbət edərkən o, öz fikirlərini bildirdi:

– Mənim ürəyim, qəlbim, ruhum, şeirlərimin qayəsi və mayası müstəqil Azərbaycan dövlətçiliyimizin banisi Heydər Əliyevin yaratdığı Ali Hərbi Məktəblə bağlıdır. Hər gün işə gələrkən məktəbimizin kursantlarını görərkən, məktəbin həyətində ümummilli liedrimiz Heydər Əliyevin heykəli önündə ziyarət edərkən mənəvi qürur hissi keçirir, bütün dərdlərimi unudur və yaratmaq eşqiylə yaşayıram. Ömrümün sonunadək bu yolu davam etdirəcəyəm. Qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik günü münasibətilə bütün dünya azərbaycanlılarını ürəkdən təbrik edir və xalqımızı torpaqlarımızın işğaldan azad olunması uğrunda birgə mübarizəyə səsləyirəm. Gün o gün olsun ki, qələbə gününün

himnini yazaq. O gün uzaqda deyil». *(«Qoşa ulduz» jurnalı № 3, 2006-cı il).*

2008-ci ildə NATO standartlarına uyğun olaraq digər ölkələrdə olduğu kimi,Azərbaycanda da respublika Silahlı Qüvvələri tərkibində Sülhməramlı Qüvvələrin yaradılması üçün Azərbaycan Prezidenti sərəncam imzaladı. Bu sərəncamdan dərhal sonra Sülhməramlı Qüvvələrin ilk atributlarından biri olan «Sülhməramlı qüvvələrin Sülh Marşı» yarandı və bu marşın da sözlərini Zəminə Xınalı yazdı:

***Odlar yurdu ana Vətənim,***
***Azadlığa özü yetənim,***
***Həyat verib torpağa-daşa,***
***Son qoyacaq hərbə-savaşa.***
***Sülhməramlı Qüvvələr.***

Aydındır ki, bu gün dünyanın hər yerində, xüsusilə də münaqişə bölgələrində sülhməramlı qüvvələrin sülh və əmin-amanlıq yolunda fəaliyyəti danılmazdır. Azərbaycanın Sülhməramlı Qüvvələrinin də bu istiqamətdə az müddət ərzində geniş rolu olmuşdur və haqlı olaraq şairə bu növbəti mahnı marşında Azərbaycan Sülhməramlı Qüvvələrini azadlığın, haqqın səsi, həmişə açıq səma arzulayan dünyanın sülh elçisi adlanıdırır:

***Qartal kimi qanad açacaq,***
***Zirvələrdən işıq saçacaq.***
***Azadlığın, haqqın səsidir,***
***Dünyanın sülh elçisidir,***
***Sülhməramlı Qüvvələr.***

Z.Xınalı respublikamızın ictimai həyatına həmişə bir yaradıcı insan kimi öz münasibətlərini bildirir, ictimai birlik və təşkilatları da unutmur.

***Məğrur yerişlidir, qartal gözlüdür,***
***Mənim diyarımın ağsaqqalları –***

– söyləyən Zəminə Xınalı akademik Budaq Budaqovun sədrlik etdiyi "Ağsaqqallar şurası"nın himninin də sözlərinin müəllifidir.

***Ağsaqqal adının ucalığında,***
***Tanrı sevgisi var, günəş nuru var.***
***İsti nəfəsində, gur ocağında***
***Qorqud babamızın odu, qoru var.***

* * *

Zəminə Xınalının çap olunan bütün kitablarının, ayrı-ayrı qəzet və jurnallarda dərc olunan bütün şeirlərinin əsas mövzusu vətənpərvərlikdir, əsgər həyatıdır, vətənə olan sonsuz sevgi və məhəbbətdir, müharibədir, döyüşdür, döyüşə-qələbəyə çağırış ruhudur. Onun şeirlərindən barıt qoxusu gəlir, top-tüfəng, mərmi harayı eşidilir. Xüsusilə şairənin Qarabağ mövzusunda yazdığı şeirlərdə bu əlamətlər özünü daha yaxından göstərir. Artıq 20 ilə yaxın zaman kəsiyində davam etməkdə olan Qarabağ savaşı ədəbiyyatın ayrıca bir mövzusuna çevrilmişdir. Heç bir şair, yazıçı bu və ya digər dərəcədə söz adamı tapmazsan ki, o bu müharibəyə, bu ədalətsiz və qanlı savaşa istər bədii yazıları, istərsə də publisistikası ilə öz münasibətini bildirməmiş olsun. Bu isə onunla bağlıdır ki, elə bir ailə, nəsil, soy tapa bilməzsən ki, bu savaş ona bir

ziyan, bədbəxtlik, itkilər gətirməmiş olsun. Haqqında söhbət açdığımız Z.Xınalı da Qarabağ savaşının lap ilk illərindən bu amansız müharibənin ağrı-acısını görənlərdəndir. Bir az əvvəldə qeyd etdiyimiz kimi onun həyat yoldaşı Azərbaycandan kənarda yaşayan bir çox soydaşlarımız kimi müharibə başlayanda dərhal Azərbaycana qayıtmış, könüllü zabit kimi cəbhəyə getmiş və mayor rütbəsində həlak olmuş, Vətənə qurban getmişdir. Ona görə də Qarabağ və müharibə mövzusu Z.Xınalıya daha yaxın və daha göynərtili olmuşdur. Hələ 1993-cü ildə qələmə aldığı «Qanlı müharibə» şeirində yazır:

***Qapımı elə bir harayla döydü,***
***Qanlı müharibə, amansız döyüş.***
***Heç nədən sormadan cavan yarımı,***
***Aldı müharibə, amansız döyüş.***

***Söndürdü səadət çıraqlarımı,***
***Görmədi heç ürək ağrılarımı,***
***Puç etdi ən şirin arzularımı,***
***Qanlı müharibə, amansız döyüş.***

Bəli, müharibə qandır, qorxudur, ölümdür, faciədir. Şairə bu şeirdə təkcə öz ürək ağrılarını deyil, bu qanlı savaşların neçə-neçə anaları gözü yaşlı, bacıları ağlar qoymasını ürək yanğısıyla ümumiləşmiş bir şəkildə qələmə almışdır:

***Neçə igidlərin qanını içdi,***
***Ağrısı, acısı canımdan keçdi,***
***Neçə ərənlərə kəfən də biçdi,***
***Qanlı müharibə, amansız döyüş.***

Zəminə Xınalının Vətən, onun azadlığı, müharibə, Qarabağ, əsgərlər haqqında yüzlərlə şeirləri var. Təkcə Qarabağla bağlı bilavasitə «Qarabağ» adlı 20-dən çox şeiri var. Onun Qarabağ haqqında yazdığı ilk şeirlərindən biri 1992-ci ildə yazdığı «Qarabağdadır» adlanır. Bu şeirdə müharibəyə yenicə getmiş ömür-gün yoldaşının – mayor Akif Bayramovun cəbhədəki döyüşlərindən ruhlanan bir qadının, balalarına ürək-dirək verən dözümlü bir ananın bir az səksəkəli, bir az da qürurlu obrazı yaradılmışdır:

***Ürəyində alov vardı, od vardı,***
***Torpağımız yad əlində dardadı,***
***Sorağını eşidərdim Akifin,***
***Vətən keşiyində – Qarabağdadı.***

***Atasız darıxan uşaqlarım da,***
***Tez-tez soruşardı: atam hardadı,***
***Mən isə fəxrlə deyərdim bala,***
***Vətən keşiyində – Qarabağdadı.***

Bu dözümlü və mübariz qadın şeirdən-şeirə püxtələşir, möhkəmlənir mətinləşirdi. Şeirlərində ilk öncə həyat yoldaşının ölümündən doğan şəxsi kədər üstünlük təşkil etsə də, bu, sonralar ictimai kədərə, ümumxalq ağrısına çevrilir. «Qarabağ» adlı digər bir şeirində:

***Anamız Qarabağ od tutub yanır,***
***Topxana meşəsi qana boyanır,***
***İnsan cəsədləri səpilir dağa,***
***Mərmilər, raketlər yağır torpağa.***

– deyən şairə qəhrəman türk oğullarını birliyə, mübarizəyə çağırır, düşməndən qisas almaq, əsirlikdə olan qız-gəlinlərin azad olunması üçün cihada səsləyir onları:

***Ey türk oğlu, oyan, dur, qalx ayağa,***
***Göstər qüdrətini xain dığaya,***
***Azad et yurdunu, doğma elini,***
***Bir zəfər sorağı sıxsın əlini.***

Akademik Teymur Bünyadov yazır: «Zəminə Xınalı Azərbaycan xalqının çox ləyaqətli, dəyanətli, istiqanlı bir övladıdır. Zəminə Xınalı bu müharibə şəraitində özünün bütün varlığını, taleyini, yaradıcılığını bu xalqa həsr edib. Ona görə də onun bütün yaradıcılığına nəzər salsaq görərik ki, o, vətənpərvərlik mövzusu, düşmənə nifrət, vətənə məhəbbət hissilə bizi həmişə qələbəyə, yüksəkliyə, təntənəyə səsləyən bir azərbaycanlı qızıdır. Şairənin onlarla kitabları, yazıları, məqalələri bizim qəhrəmanlıq tariximizin bədii salnaməsidir. Onun şeirlərində elə mövzular var ki, onları elə-belə oxumaq mümkün deyil, adamı heyrətə gətirir. Şairənin o qədər ibrətamiz misraları var ki, insanı vətənə, xalqa, anaya məhəbbətə səsləyir. Mən belə hesab edirəm ki, onun əsərləri bu gün gənclər üçün tərbiyə məktəbidir və o həmin gənclərimizin bu ruhda tərbiyə olunması üçün bir nümunədir». *(«Yazıçı» «Oğız eli» qəzetinin xüsusi buraxılışı. Mart 2009. № 2, səh. 3).*

Hörmətli akademikin bu sözlərinə qüvvət üçün yenə də şairənin Qarabağ mövzusunda yazılmış «Qarabağı unutmayın» şeirinə nəzər salaq:

***Ana Vətən – Azərbaycan,***
***Torpağına qurban olum,***
***Tarixlərdən gəlir səsin,***
***Haraylayır igid nəslin –***
***Qarabağı unutmayın,***
***Unutmayın Qarabağı.***

Şeirdə müəllif Qarabağın qəhrəmanlıq tarixinə nəzər salır, əsrlərin o tayından gələn igid vətən oğullarının tarixi salnaməsini izləyir. Tarixə qəhrəmanlıq simvolu kimi daxil olan Qarabağ ellərinin bu gün mənfur düşmənin murdar ayaqları altında inləməsini dəhşətli ürək ağrısıyla qələmə alır:

***Laçın, Şuşa, Kəlbəcərin,***
***Zəngilanın, Qubadlının,***
***Füzulinin, Cəbrayılın,***
***Xankəndinin, Xocalının,***
***Ağdamımın sinəsini,***
***Dağlar qoydu düşmənlər.***
***Azərbaycan torpağının,***
***Vətənimin gözü olan,***
***Qarabağı unutmayın,***
***Unutmayın Qarabağı.***

Şairə burada sanki ana bir övladını digər övladına tapşırdığı kimi igid Vətən oğullarına Qarabağı tapşırır, Qarabağı unutmayın deyir. Bu yolda şəhid olan neçə-neçə igid ər oğulun Qarabağın nər oğullarının qisasını almağa səsləyir onları. Oğullarımızın yadına salır ki, siz «Misri»dən, «Cəngi» dən doğulmusunuz. Düşmənə aman verməyin:

***Dosta dost ol, düşmənlərə,***
***Bac verməyin, igidlərim,***
***«Zəfər marşı», «Misri», «Cəngi»,***
***Sizinlədir igidlərim.***
***Qarabağı unutmayın,***
***Unutmayın Qarabağı.***

Zəminə Xınalı «İgidlər gəlmədi» şeirində isə dərdli Qarabağımızı balalarının yolunu gözləyən səsi, ünü, iniltisi, naləsi heç yerə çatmayan yaralı bir anaya bənzədir. İllərdir ki, bu ana balalarından ayrıdır, onların yolunu gözləyir. Balalar isə gəlmir ki, gəlmir. Gözü yaşlı ana nalə çəkir. Görən balalar məni unutdumu? Belə şey olarmı? Axı, ilahi, onlar məni çox, lap çox istəyirdi:

***Anamız Qarabağ dərd qəm içində,***
***Gözləri yol çəkir, gələni yoxdur,***
***Ağlayıb-ağlayıb hönkürüb deyir,***
***İgidlər gəlmədi, gəlmədi.***
***Dərd xalı salıbdı Cıdır düzündə,***
***Buludlar dolubdu göyün üzündə,***
***Suallar yurd salıb Ana gözündə,***
***İgidlər gəlmədi, gəlmədi.***

Bəs görəsən niyə gəlmirlər? Ana yenə də balaların dönüklüyündən narahatdır, ruhları onun başına dolanan, şəhid balalarını xatırladır, yada salır, lakin ümidini üzmür, balaları səsləyir:

***Dağlar ağ saçından, bulud suyundan,***
***Qayalar dumandan, ağac boyundan,***
***Dönükmü çıxdılar soyu-soyundan,***

***İgidlər gəlmədi, gəlmədi.***
***Torpağın bağrından yara sağalmaz,***
***Vətəni sevməyən heç vaxt ucalmaz,***
***Nə yaman dərd oldu, yox belə olmaz,***
***İgidlər gəlmədi, gəlmədi...***

Zəminə Xınalının Qarabağ mövzusunda yazılmış təsirli şeirlərindən biri də «Yurd Qarabağım» adlanır. Yenə də şairə dərdli Qarabağın al-qan içərisində olduğunu, onun müşgüllərə düşdüyünü ürək ağrısı ilə təsvir eləyir:

***Sinəsi üstünə şırım çəkilmiş,***
***Dərdli Qarabağım al-qan içində,***
***Muğam beşiyidir, sənət dünyası,***
***Qarabağ taleyi qara biçimdə.***

Nə qızıl təxti, nə də qızıl bəxti olan, elə anadan da talesiz, bəxtsiz doğulan Qarabağın halına yanan şairə birdən hayqıraraq nərə çəkir, düşməni didib-dağıtmağa hazır olduğunu bildirir:

***Vermərəm düşmənə vermərəm səni,***
***Mənim əsir düşən yurd Qarabağım,***
***Taleyi faciə, fəlakət dolu,***
***Aslansan, pələngsən, qurd Qarabağım.***

Eyni ruhda, döyüş ruhunda yazılmış başqa bir şeir – «Göndərin» şeirində şairə yazır:

***Ruhum döyüşə köklənib,***
***Misri qılınc verin mənə,***

***Hoydu mənim dəlilərim,***
***Qıratı göndərin mənə.***

Bu şeirin ilk misralarında qəhrəmanlıq ruhu ilə bərabər, xalqımızın tarixindən, milli-mənəvi dəyərlərimizdən gələn ifadələr də özünü göstərir. Müəllif gənc nəslə, adamlara təlqin edir ki, artıq düşməndən qisas almaq vaxtıdır. Başqa bir şeirinin bir bəndində deyildiyi kimi:

***Durun millət ayağa,***
***Gedək qisas almağa,***
***Könüllü getməliyik,***
***Vətəni qorumağa.***

«Göndərin» şeirinin də ruhu, mayası döyüşə, çağırışa, savaşa səfərbərlikdir:

***Oyan millət yurd hayqırır,***
***Düşmən yurdu çalır, çapır,***
***Cıdır düzü dərddən yanır,***
***Elatı göndərin mənə.***

Qırat, Bozat qəhrəmanlıq rəmzidir. Ona görə də müəllif növbəti bənddə Bozatı köməyə çağırır:

***Haraylayır şəhid ruhu,***
***Zaman silkələyir Nuhu,***
***Hürkək düşüb gözəl ahu,***
***Bozatı göndərin mənə.***

Burada şairə «Vətəni bölük-bölük, parça-parça etmiş yağının gözlərinə mil çəkmək üçün qüvvə istəyir. «Elatı göndərin mənə», «Bozatı göndərin mənə», daha sonra isə «Bayatı göndərin mənə» deyir. Bu çağırışlarda həqiqətən türkün ən etibarlı, ən sədaqətli dostlarına böyük ümid var. Şair bu ümiddən möhkəm-möhkəm yapışmaq istəyir. Qırat – xilasarlıq rəmzidir. Elat – darda qalmışlara köməyə çatmağın ən sədaqətli güvənc yeridir. Hamımızın bildiyi kimi Qaçaq Nəbinin Bozatı da elə Nəbinin özü qədər fədakardır. Şairin «Bayatı göndərin mənə» demək istəyi isə Türkün minillik dərdlərinə bir işarədir».*(Fariz Çobanoğlu «Könlü Vətən nəğməli şair». «Naxçıvan» qəzeti 31 yanvar 2009,səh.7).*

Xalq şairi Sabir Rüstəmxanlı yazır: «Zaman-zaman nağıllarımızda, dastanlarımızda əbədi iz qoymuş qadın qəhrəmanlarımız olub. Bu günə nəzər salanda onlardan heç nə ilə fərqlənməyən, yeri gələndə onların qəhrəmanlıqlarını təkrar etməyə hazır olan qadınlarımız heç də az deyil. Bu dediyim cəhətlərə örnək olaraq mən Zəminə Xınalının adını çəkə bilərəm. Z.Xınalı həm bir şairdir, qələm əhlidir, folklorçu, jurnalist-publisistdir. Bununla yanaşı o, içində bir qəhrəmanlıq ruhu, vətənpərvərlik ruhu, igidlik ruhu yaşadan Azərbaycan xanımıdır, vətənimin əsgəridir.

Zəminə Xınalı həyatını bütövlükdə hərbiyə bağlayıb. Əslində o, Qarabağ savaşında həlak olmuş həyat yoldaşının yolunu davam etdirir. Z.Xınalı indiyə qədər bir sətir yazı yazmamış olsaydı belə, onun orduya bu qədər bağlanması, illər boyu əynində hərbi libas daşıması qadınlarımıza, qızlarımıza bir nümunədir. O hərbi marşlar yazması ilə bərabər Qazax poeziya ənənələrinə uyğun olaraq gözəl şeirlər, dastanlar yazır. Yazıları xalq dili ilə, folklor dili ilə yaxından səsləşir.

Bütün bunlar kifayət edər ki, bir qadın haqqında ürəklə ən gözəl sözləri deyəsən. Mənə elə gəlir ki, Zəminə Xınalının həyatı, fəaliyyəti hər yana yayılmalı, imkan olsa Azərbaycanın bütün məktəblərində onunla görüşlər keçirilməlidir ki, onun ömür yolu, bu günkü həyatı gənclərimizə bir örnək olsun, bir nümunə olsun». *(«Yazıçı – «Oğuz eli» qəzetinin xüsusi buraxılışı. Mart – 2009, № 2, səh.7»)*.

Zəminə Xınalı bəzi şeirlərində kədərli notlara köklənsə də, talan olmuş yurd yerlərinə ağı deyib ağlasa da göz yaşlarını könlünün haraylarıyla ağ vərəqlərə yazaraq yaddaşlara ötürür. Bu onun vətəndaşlıq borcundan, vətən sevgisindən doğan əsgəri borcu, şairlik missiyasından irəli gəlir. Onun «Xocalı» şeirində oxuyuruq:

***Anaların laylasıydı,***
***İgidlərin qalasıydı,***
***Yaşıl meşə talasıydı,***
***Talan oldu Xocalı!***

Bu, Qarabağın ən gözəl guşələrindən biri olan Xocalının ağısıdır. Şairə eyni bir kədər və təəssüf hissilə Azərbaycanın musiqi beşiyi, xalqımızın maddi və mənəvi mədəniyyətini uzun əsrlər boyu özündə yaşadan dərdli-naləli Şuşanı da yada salır:

***Şuşa qəm içində boğulur Allah,***
***Düşmən tapdağına dözməyir daha,***
***Musiqi beşiyi sayılan Şuşa,***
***İndi boyanıbdı qarğışa – aha.***

Bir vaxtlar «başı dumanlı» deyə öyünülən Şuşanın dağları indi ağıya-aha bürünüb. Gecələr ağlar nəğmələr oxuyan,

gündüzlər bəxtinə gün doğmayan narahat yurd yerimizin elə gündüzləri də zülmətə qərq olur. Şairənin fikrincə yenə də bu müşkülləri elin igidləri – Azərbaycan əsgəri yox edə bilər:

***Şuşanın dağları, çölü-çəməni,***
***Oxuyur gecələr ağlar nəğməni,***
***Ey igid əsgərlər eşidin məni,***
***Bu doğma torpaqdan qovun düşməni.***

Uzun gecələrin nigarançılığından açılan sabahlardan doğan günəşi böyük ruhla, ilhamla salamlayan şairə yazır:

***Oyandım yuxudan oyanan kimi,***
***Söylədim: – Ay Vətən sabahın xeyir.***
***Vətən keşiyində dayanan kimi,***
***Söylədim ay Vətən sabahın xeyir.***

Və yaxud:

***Nə gözəl nur saçıb, günəş ellərə,***
***Çəmənlər xalıdır, yaşıl çöllərə,***
***Vuruldum göy gözlü, mavi göylərə,***
***Söylədim ay Vətən, sabahın xeyir!***

* * *

Azərbaycanda çox az şair tapmaq olar ki, o, öz əsərlərində vətəni, onun gülünü, çiçəyini, daşını, torpağını tərənnüm eləməsin. Əlbəttə, bu şeirlərin hər biri vətənpərvərlik mövzusunda yazılmış əsərlərdir. Bir az əvvəldə qeyd elədiyimiz kimi, Zəminə Xınalının yaradıcılığının böyük bir qolunu həm də hərbi vətənpərvərlik təşkil edir. Böyük Azərbaycan yazı-

çısı və ictimai xadimi Nəriman Nərimanov yazırdı: «Vətənin qədrini o kimsə bilər ki, vətən ilə onun ruhən rabitəsi olsun, Vətən ilə bir yerdə ağlasın, bir yerdə gülsün». Bu sözləri birbaşa Zəminə xanıma şamil eləmək olar. Yəni şairə vətənin gülünü, çiçəyini, daşını, torpağını, yazını, baharını, təbiət gözəlliklərini tərənnüm eləməklə bərabər, vətənin müqəddəsliyini, yenilməzliyini, böyüklüyünü, onun hərbi qüdrətini, döyüş nailiyyətlərini, Azərbaycan Milli Ordusunun intensiv inkişafını, əsgərlərimizin mətin və mübarizliyini, əsgər oğullarımızın düşmən qarşısında mətanətlə sinə gərdiyini böyük fərəh, qürur və iftixarla təsvir eləyir. Heç də təsadüfi deyil ki, şairənin çap olunmuş iyirmiyə qədər kitabının yarısının adında Vətən ifadəsi var «Müqəddəs Vətən», «Hər şeydən əzəl vətəndir», «Vətən sevgisi», «Təki Vətən yaşasın», «Vətən bizim anamız», “Vətən torpağı” və s. kitablar bu qəbildəndir. Bu və digər kitablarda şairənin ordu, Vətən və əsgərlərə ad edilmiş çoxlu sayda şeiri var.

Z.Xınalının yaradıcılığında Azərbaycan Milli Ordusu böyük qürurla tərənnüm olunur. Bu da təbiidir. Axı o özü də bu ordunun sıravi bir əsgəridir. Hər bir ordu dövlətin əsası, dayağı və onun yaşadıcısıdır. Hər bir dövlətin müstəqilliyi və yenilməzliyi onun ordusunun gücü, qüdrəti ilə ölçülür. Ordu quruculuğu dövlət quruculuğunun əsas və aparıcı istiqamətlərindən biridir. Dövlətin müqəddəratı və cəmiyyətin siyasi sabitliyi birbaşa ordu quruculuğundan asılıdır. Bu mənada ümummilli liderimiz Heydər Əliyevin xeyir-duası və rəhbərliyi ilə qurulmuş Azərbaycan Milli Ordusunun müstəqil və əzəmətli addımları ədəbiyyatımızın, sənətimizin və sənətkarlarımızın əsas müraciət obyekti olubdur. Həmişə ordunun, içərisində olan, ümummilli liderimizin orduya qayğı və

diqqətini öz gözləri ilə görən Z.Xınalı da təbii ki, əsərlərinin böyük əksəriyyətini Azərbaycan ordusuna, onun durna qatarına bənzəyən əsgər oğullarına həsr etmişdir.

Xalq yazıçısı Çingiz Abdullayev Zəminə Xınalı haqqında danışarkən yazır: «Zəminə Xınalının bizim əsgər balalarımızın vətənpərvərlik tərbiyəsində böyük rolu var. Mən fikirləşirəm ki, bizim bütün hərbçilərimiz onun kimi olsaydı, bu bizim bütün xalqımız, əsgərlərimiz, kursantlarımız üçün önəmli olardı. Azərbaycan yazıçıları içərisində hərbiçilər var, amma Zəminə Xınalı kimi fəaliyyət göstərən, onun kimi can yandıran, əsgərlərlə, hərbçilərlə ünsiyyətdə olan ikinci bir adam tanımıram. Mən şahidi olmuşam ki, Zəminə Xınalı Ali hərbi Məktəbdə şair və yazıçılarla görüşlər keçirmək üçün dəfələrlə Yazıçılar Birliyinə gəlmiş, bu adamların görüşlərinin keçirilməsini reallaşdırmışdır. Şəxsən mən onun təşəbbüsü ilə Ali Hərbi Məktəbdə zabit-kursant şəxsi heyəti qarşısında dəfələrlə görüşdə olmuşam. Mən orada şahidi olmuşam ki, onun gənclərin hərbi vətənpərvərlik ruhunda yetişməsində böyük əməyi var. Zəminə Xınalının ən böyük üstünlüyü orasındadır ki, onun marşları respublikamızın prezidenti qarşısında oxunur». *(«Yazıçı» – «Ocuz eli» qəzetinin xüsusi buraxılışı. Mart – 2009, № 2, səh. 9).*

Z.Xınalının vətəpərvərlik fəaliyyətini yüksək qiymətləndirən tanınmış şairimiz Oqtay Rza da öz düşüncələrini belə bölüşür: «Millətin, xalqın indiki dövründə, xüsusən işğal altında qalan torpaqlarımızın geri qaytarılması üçün bütün imkanlardan istifadə edilməsi məqamında ədəbiyyatın, sənətin, musiqinin xidməti əvəzsizdir, olduqca gərəklidir. Zəminə Xınalının Azərbaycan poeziyasının ən qeyrətli şairə-hərbçi qadınlarımızın biri və birincisi kimi tanıyıram və alqışlayıram.

Mən onu yaradıcılığına və şəxsiyyətinə görə tanıyıram. Bilirəm ki, kimdir. Yəni gözəl bir Azərbaycan xanımıdır, qeyrətli bir qadındır, şəhid qadınıdır, hərbçi oğulların anasıdır. Mən ona həmişə Xınalı Zəminə demişəm, çünki təbiət bu qadının saçlarına xınanı özü verib və ona həm də şairlik istedadı bəxş edib. Bu isə onu göstərir ki, onun Azərbaycan Yazıçılar Birliyinə üzv qəbul olunarkən verdiyim zəmanət heç də əbəs deyilmiş». *(«Yazıçı»– «Oğuz eli» qəzetinin xüsusi buraxılışı. Mart – 2009, №2, səh. 12).*

Yenə də yuxarıda dediyimiz fikrə qayıdaraq Zəminə Xınalının lirik şeirləri içərisində Vətənin müqəddəsliyi, doğmalığı haqqında, Vətən oğullarının – əsgərlərin yenilməzliyi və dəyanəti haqqında yazılmış bir neçə şeirə nəzər salmaq istərdik. Onun bu mövzuda yazılmış şeirləri bir-biri ilə paralellik təşkil edir. Hər şeydən öncə qeyd elədik ki, Zəminə Xınalı özü də vətənin sadiq bir əsgəridir. Və vətənin azadlıq və müstəqilliyi yolunda hər şeyə hazırdır. Bəlkə də onun əsgər oğullarımızı bu qədər məhəbbətlə tərənnüm eləməsi onun özünün əsgər istəyindən irəli gəlir, birinci növbədə o, özünü bir əsgər kimi görür. Ona görə də “Vətən nəğməsi” şeirində Zəminə Xınalı yazır:

***Uçardım qanadım olsaydı əgər,***
***Mən qadın olsam da  əsgərəm, əsgər.***
***Hər zaman mən sənin oduna yandım,***
***Sənsən ilk ünvanım,sənsən ilk andım.***

***Sənin torpağın da daşın da əziz,***
***Təkcə baharın yox, qışın da əziz.***
***Sənsən əzəl gündən şərəfim, şanım.***
***Mənim şah vüqarlı Azərbaycanım!***

Peşəsinin vurğunu olan Zəminə Xınalı elə uşaqlıqdan kişi xasiyyətli olub. Həmişə oğlan paltarı geyər, çölə, bayıra da çox vaxtı bu paltarda çıxardı. Bu barədə o, özü belə deyir: «Mən orta məktəbdə oxuduğum illərdə tez-tez qardaşlarımın paltarlarını geyir, taxtadan bir qılıncım var idi, onu da belimə taxıb evin içərisində gəzinirdim. Bu isə babamın *(Biz atamıza baba deyirdik)* xoşuna gəlmədiyinə görə evdə adam olmayanda hərdən belə geyinib öz-özümə məşq edirdim. Bir gün yenə evdə heç kəs yox idi. Hava toranlaşırdı. Mən evdə heç kəsin olmadığından istifadə edərək kişi paltarını əynimə geydim, üstündən sırıxlı bir gödəkçəni də əynimə çəkdim, ortamı da toqqa ilə bağladım. Saçlarımı yuxarı yığaraq qulaqlı papağı başıma keçirdim. Əlimə bir ağac alıb quzuların qabağına çıxdım. Bu zaman qonşumuzun Mamed adlı oğlu məni görüb:

– Sən kimsən əyə? – dedi.

Mən səsimi dəyişib:

– Ə, sənə nə var mən kiməm.

Mamed:

– Sən Hava xalam gilə qonaqmı gəlibsən?

Mən yenə də tovrümü pozmadan:

– Sənin nəyinə gərəkdir? – deyib onun üstünə yeridim.

Mamed özündən razı halda mənə tərəf gələrək:

– Neyləyəcəksən mənə?

– İndi bu dəqiqə sənin payını verərəm–deyib ona əl atdım. Oğlan doğrudan da bunu gözləmirdi və mən ona əl atan kimi yerə yıxıb üstündə oturdum və başına-başına döyməyə başladım. O, özünü müdafiə eləmək üçün əl-qol atanda papaq başımdan düşdü. Uzun və qıpqırmızı saçlarım oğlanın üzünə töküldü. Bunu görən oğlan qorxudan bağırmağa baş-

ladı:

– Ay qağa, ay qağa, bu nəydi ayə, başıma nə iş gəldi?

Deyəsən oğlan məni cinə, şeytana oxşatmışdı. Səsə rəhmətlik Kamal əmim gəlib məni oğlanın üstündən qaldırdı və:

– Ayə Mamed qorxma, əyə qorxma. Ayə Xınalıdı ey, zarafat eləyib səninlə.

Mameddə qorxmayası hal qalmamışdı ha. Yerdən durub bağıra-bağıra evlərinə tərəf qaçmağa başladı.»

Yeri gəlmişkən qeyd eləyək ki, tanınmış rəssam Kamil Ramazanov «Tariximizdən səhifələr» adlı tablosunda Azərbaycan tarixində silinməz iz qoymuş qəhrəman Azərbaycan qadınlarının obrazlarını yaratmışdır. Tomris, Sara Xatun, Taclı Bəyim, Nigar, Həcər, Züleyxa Seyidməmmədova, Leyla Məmmədova və Salatın Əsgərovanın sintez edilmiş portret tablosunda rəssam Zəminə Xınalının da hərbi libasda üçrəngli bayraq əlində rəsmini vermişdir. Tabloda rəssam qədim tariximizdən gələn qəhrəmanlarla birlikdə müasir dövrümüzün ümumiləşmiş obrazı kimi Zəminə Xınalını görmüşdür. Təbii ki, rəssamı bu orbazı yaratmağa sövq edən şairənin hərbi vətənpərvərlik mövzusundakı şeirləri olmuşdur. Şair-publisist Gülzar Namazova həmin tablo haqqında yazdığı məqalədə göstərir: «Bəli, müstəqil Azərbaycanımızın əbədi və əzəli rəmzi, atributu olan üçrəngli bayrağı məhz Zəminə Xınalı kimi qeyrətli və ismətli azəri-türk qadınının göyə qaldırıb uca tutmağa hamıdan çox mənəvi haqqı vardır. Haqqı vardır ona görə ki, vətən uğrunda şəhid olan həyat yoldaşının öz qolları üstdə can verdiyi zaman özünün zərif qadın ürəyinə dözüm diləyib. «Şəhid üçün ağlamazlar, bu bir şərəfdir ki, insan vətən topağı uğrunda şəhid olar» deyərək dərd qarşısında əyilməmiş, əksinə həyat yoldaşının şərəf-

li yolunu davam etdirməyi qarşısına məqsəd qoymuşdur». *(«Dedektiv» qəzeti, 11 avqust 2005-ci il, səh. 5).*

Şairə Zəminə Xınalı özü də həmin tabloya baxarkən özünü bu cəngavər qadınların arasında görərək vəcdə gəlib aşağıdakı şeiri yazmış və özünün dediyi kimi təvazökarlıqdan kənar olsa da, duyğularını belə bölüşmüşdür:

***Vücudumda dağ vüqarı,***
***Qollarımda selin gücü,***
***Polad kimi iradəm var,***
***Əyilmərəm, qırılmaram.***
***Damarımda axan qanım, dağ çayıdır,***
***Sinəm dərya, dəniz kimi,***
***Coşub daşar, hey kükrəyər.***
***Ürəyimi kədər, qəm yox,***
***Tanrının eşqi bürüyər.***
***Deməyin ki, o qadındır,***
***Çətinliklərdən büdrəyər.***
***Obam Qazax mahalıdır,***
***Aslanbəyli kəndindənəm,***
***İncə dərəm, o Göy Türbəm,***
***Avey dağı, Göyəzənim***
***Rəvac verib ki, öyünəm,***
***Ata yurdu öz obamı,***
***Saf bir məhəbbətlə sevəm.***
***Torpaq, bayraq sevgisiylə,***
***Aşır, daşır dolu sinəm.***
***Azərbaycan Ordusunun***
***Bir sıravi əsgər qızı –***
***Mən Xınalı Zəminəyəm.***

Bəli, analar çox qızlar doğublar. Qəhrəman, yenilməz, mərd, əyilməz, kişi kimi möhkəm. Bunlar keçmişdə olub. Tarixdə qadın qəhrəmanlığını, qadın ucalığını yaşadan bir ad da olub. Amazon qadınlar. Bu qadınlar Kiçik Asiya və Azov dənizi sahillərində yaşamış cəngavər qadınlardır. Onların tarixi madərşahlıq dövrünə gedib çıxır. Amazon qadınlar romalılara qarşı mübarizədə Qafqaz Albanlarına kömək ediblər. Bu gün onların varisləri elə Zəminə Xınalı və onun kimi qadınlardır. Döyüşkən, mübariz, dəyanətli.

***Yorğanım od olub, yastığımsa daş,***
***Vətən dara düşüb eşit vətəndaş.***
***Ey papaq altında yatan oğullar,***
***Oyanın vətəni qoruyaq, qardaş.***

Öz şeirlərində Vətən oğullarını doğma torpaq uğrunda mücadiləyə çağıran şairə «Hərbi mundirim» adlı şeirində əsgər həyatının əsgər paltarının onun üçün ən müqəddəs bir geyim olduğunu bildirir:

***Ən müqəddəs geyimimdir,***
***Mənim hərbi mundirim.***
***Öləرəmsə kəfənimdir,***
***Mənim hərbi mundirim.***

– deyərək elə özünü məhz Tomrislərin yadigarı adlandıraraq, tarixi varaqlayır, soydaşlarını zəfərlərə soraqlayır:

***Tarixləri varaqlayır,***
***Zəfərləri soraqlayır,***
***Tomrisləri haraylayır,***
***Mənim hərbi mundirim.***

Elə təkcə bu şeirdən çıxış edərək şair-publisist Əli Rza Xələflinin yazdığı «Mundir altında ürək» adlı məqaləsindən bəzi məqamları burada verməyi münasib sayırıq: «Azərbaycanın mənəvi mühitində bu gün səsi eşidilən, sözü dinlənən çoxlu qadın sənətkarlar var. Onların arasında aktyorlar, rəssamlar, kino xadimləri az deyil, amma ictimai rəyə, mənəvi mühitə təsir imkanı daha çox söz və söz sənəti ilə bağlı olan ictimai xadimlərə məxsusdur.

Zəminə Xınalının adına qədər, bu adın doğurduğu mənəvi təsir imkanına qədər başqa sənət xadimlərinin – qadın sənətkarların adlarını çəkmək olar. Amma bu sıralanmanın özü yəqin ki, artıq informasiya olar. Cəmiyyətin artıq bildiyi informasiyanı ona təzədən verməyə ehtiyac yoxdur. Zəminə xanım sözü ilə, sənətiylə ədəbi publisistikası, tarixi araşdırmaları, qələmi ilə kifayət qədər ədəbi-mənəvi mühitdə tanınır. Və öz ünvanını qorumaq baxımından kifayət qədər istedad gücünə malikdir.

Bəlkə də bu qeydləri yazmağa ehtiyac olmazdı. Onsuz da Azərbaycanın tarixində Tomris fenomeni də var, Zərintac xanım Qürrətüleyn fenomeni də var. Əgər türk tarixi, türk etno-mənəvi gücü baxımından zaman güzgüsünə baxsaq, keçmiş Sovet İttifaqı Qəhrəmanı Manşuk Mametova, bizim Züleyxa Seyidməmmədova da var. Ancaq heç cür o fikirdə deyiləm ki, bu adamların hansının fikir, düşüncə, hansının cəsarət və iradə sahibi olduğunu qabardım. Bəlkə də bu obrazların hansındasa bir keyfiyyət qədərincə dolğun deyil. Amma bizim müasir ədəbi obrazımız Zəminə Xınalı Azərbaycanın mənəvi tarixinin XXI əsr üçün, lap dəqiq desək bu əsrin başlanğıcı üçün xarakterik obrazıdır. Zəminə Xınalı söz adamıdır, sənətkardır.

Zəminə Xınalının mənəvi dünyası haqqında bizim danışmağa kifayət qədər haqqımız var. Çünki onun bir-birinin ardınca çap olunan və eyni zamanda «Kredo» qəzetində işıq üzü görən çox dəyərli əsərləri onu qələm adamı kimi, sənət adamı kimi uca tutmağa, dəyərləndirməyə əsas verir.

Zəminə xanımın çoxlu əsərləri çap olunub. Bu əsərlərdə təsvir olunan düşmən, yağı zaman-zaman cildini dəyişsə də, nə vaxt ki, torpağa diş qıcayır, onun simasını aydın görür, harda olsa da, sərhəd boyunca, ya Vətənin içincə o, düşmənə qarşı vermək istədiyi canını əsirgəmir. Bu Zəminə Xınalının mənəvi ölçüləridir, bu Zəminə Xınalının döyüş həngidir. Çünki zirehli mundir altında, hərbi forma içində o, bir şair ürəyi gəzdirir. Bu şair ürəyi onu zirehli mundir altında – təhlükəsiz qala içində hökmran kimi saxlamır. Bu şair ürəyi onu daim döyüntülər içində saxlayır. Bu mundir onun üçün mühafizə qalası deyil. mundir əslində torpağın, vətənin səngəridir, yurdun səngəridir. Şair əslində yurdu, vətəni hərbi forma libasında öz əyninə geyir və elə vətəni qorumaq üçün, yurdu qorumaq üçün».

Müəllifin bu sözlərinə qüvvə olaraq şairənin həmin şeirindəki digər bəndə nəzər salaq:

***Vətən uğru qana-qanla,***
***Mənfur düşmən yadda saxla,***
***Qurban gedər şirin canla,***
***Mənim hərbi mundirim.***

Daha sonra Ə.Xələfli yazır: «Bütün bunların hamısının arxasında bir həqiqət dayanır. O həqiqət ondan ibarətdir ki, zirehli mundir altında bir ürək daşıyan sənətkar var. O, Zəminə Xınalıdır. Dünyanın ən yaxşı sözləri də, dünyanın

ən böyük, ən əzəli şeiri də, sənəti də zirehli mundir altında əzəmətlə döyünən qadın çöhrəsidir. Zəminə Xınalı bəlkə də onun layiq olduğu haqqı bu cəmiyyətdən almayıb. Əgər mənim imkanım olsaydı, çox diqqətlə müqayisə apardım. Bizimlə üzbəüz yağı mövqeyində dayanan Ermənistanda Zəminə Xınalı analoquna qarşı münasibət hansı səviyyədədir. Düşmən ərazisində Zəminə Xınalı tipində olan hərbçi sənətkara munasibət necədir?» *(«Kredo» qəzeti 21 iyun 2008-ci il,№ 22,səh.1.)*

Zəminə Xınalının şeirləri də başdan-ayağa zirehdir. Əsgərlərimizi döyüşə, mübarizəyə, qələbəyə ruhlandıran «Döyüş bayrağı» şeirində müəllif yazır:

***Döyüş bayrağını qaldıran oğul,***
***Tanrı qollarına güc verəcəkdir,***
***Xankəndə bayrağı sancdığın günü,***
***Analar, bacılar sevinəcəkdir.***

Döyüş bayrağı müqəddəsdir, Vətən qədər, torpaq qədər müqəddəsdir, doğmadır, əzizdir. Və bu torpağın, bu vətənin eşqinə döyüş bayrağı həmişə ucalıqda, yüksəklikdə olmalıdır. Şeirdən çıxan nəticə budur:

***Bayrağı öp oğul, bayraq müqəddəs,***
***Vətən müqəddəsdir, torpaq müqəddəs.***
***Cəngavər libaslı hər oğul, hər qız,***
***Vətən keşiyində dayansın hər kəs.***

Hərbin ən ümdə dəyərləri olan – Məslək, Vəzifə borcu, Dürüstlük, Sədaqət, Cəsarət, Fədakarlıq haqqında Z.Xınalı poeziyanın diliylə belə açıqlama verir:

***Məslək dediyimiz amal uğrunda,***
***Böyüyə hörmətdir – Məslək sevgisi:***
***Vətənin qüdrətli olması üçün,***
***Sevgi, mərhəmətdir, Məslək sevgisi.***
***<u>Vəzifə borcu:</u>***
***Hərbi inancların ən mühümmüdür,***
***Fəxarət, qürurdur – Vəzifə borcu.***
***Şərəfdir, müqəddəs – ilvi dəyərdir***
***Vətən keşiyində – Vəzifə borcu.***
***<u>Dürüstlük:</u>***
***Əxlaqi təməlin başlanğıcıdır,***
***Yaşam fəlsəfəsi – dürüstlük özü.***
***Hərbin sirlərinin mükəmməlliyi,***
***Dürüstlük çox sevir, doğru düz – sözü.***
***<u>Sədaqət:</u>***
***Hər kəsin borcudur hərbi sevməyi,***
***And işib şərəflə xidmət etməyi.***
***Yaxşını-yamanı bir-bir seçməyi***
***Vətənə sədaqət, gözəl amaldır.***

***<u>Cəsarət:</u>***
***Qeyrət məqamında cəsarət olar,***
***Duyğu və düşüncə birləşsə əgər.***
***Çağırar qoynuna mərd oğulları***
***Vətənin köksündə yerləşən səngər.***
***<u>Fədakarlıq:</u>***
***Vətən torpağına öz canımızı***
***Fəda ediriksə, fədakarlıqdır.***
***Tanrı dərgahında vətən uğrunda,***
***Müqəddəs şəhidlik bir ucalıqdır.***

Bu açıqlamalar ən azından hərbi xidmətə yollanan vətən oğullarının cib dəftərlərində, köksünün başında saxlanılmalı kəlamlardı. Bu kəlamları vətənimizin əsgər qızı Z. Xınalı söyləyibsə, deməli bütün hərbi hissələrdə dillər əzbərinə çevrilib və tarixin yaddaşına köçürülüb. Vətəni sevənlər isə tarixin yaddaşında əbədi həkk olunanlardır.

Müdafiə Nazirliyinin hərbi tərbiyə və psixoloji hazırlıq şöbəsinin rəisi, polkovnik, Əməkdar İncəsənət Xadimi Abdulla Qurbani yazır: «Zəminə Xınalı vətənpərvər, yurdsevər bir qadındır. O övladlarını da vətənpərvər oğullar kimi böyüdür, onlara vətən sevgisi aşılayır. Bununla yanaşı gənclərin, Silahlı Qüvvələrin şəxsi heyətinin vətənpərvər ruhda tərbiyəsi üçün öz yaradıcılığı ilə də vətənə xidmət edir. Onun əsərləri, kitabları buna bariz bir nümunədir» *(«Yazıçı» – «Oğuz eli» qəzetinin xüsusi buraxılışı, 19 mart 2009, səh-11)*

Z.Xınalının vətən oğullarına ünvanlanan gözəl, poetik şeirlərindən biri də «Elimin igidlərinə» adlanır. Şairə həmişə olduğu kimi bu şeirdə də igidlərə-əsgərlərə üz tutur. Müəllif sanki öz qəlbində olan vətən sevgisini, torpaq məhəbbətini, yurd istəyini dəyanətli vətən əsgərlərinə aşılayır. Bu şeirdə, eləcə də şairənin bu tipli digər şeirlərində milli ruh, milli qeyrət vətən sevgisinə qarışıb ecazkar bir fon yaradır, vətən məhəbbəti fonu.

***Vətən xidmətində keşik çəkənlər,***
***İgidlər, ərənlər, ey mərd oğullar,***
***Nə qədər məğrursuz, mətanətlisiz,***
***Xalqımın ümidi, güvənc yeri siz!***

Bizə belə gəlir ki, qəlbində zərrə qədər də təpəri olmayan, orduya, əsgərliyə dırnaqarası baxan hər hansı bir gənc,

yaxud da xidmətdə olan əsgər bu və bunun kimi şeirləri oxuyandan sonra onun ürəyində, qəlbində bir vətənpərvərlik ruhu baş qaldırar, sinəsində bir vətən sevgisi oyanar. Bax elə ona görə də Zəminə Xınalı, onun yaradıcılığı, poeziyası Azərbaycan cəmiyyətində bu qədər sevilir və təbliğ olunur. Görkəmli akademik, Azərbaycan Ağsaqallar Şurasının sədri Budaq Budaqov yazır: «Mən Zəminə Xınalını qeyrətli Azərbaycan qadınlarının biri kimi tanıyıram. Birinci ona görə ki, onun əmək fəaliyyəti bizim Milli Ordumuzla bağlıdır və o təpədən dırnağa kimi vətənpərvər ruhda olan bir insandır. Vətənini sevəndir, özü də dildə yox, işdə və əməldə sevəndir. Vətən uğrunda şəhid olan bir zabitin xanımı kimi o, övladlarını da hərbçi kimi gördü. O, hərbçi olmaqla bərabər, gözəl bir şairədir və şairlik fəaliyyətinin əsas qolu isə hərbi vətənpərvərlikdir. Bundan gözəl nə ola bilər. Onun yaratdığı hərbi marşlar bizim ordumuzda vətənpərvərliyə çağırış simvoludur. Onun yazdığı hərbi şeirlər, poemalar elə əsgərlərimizin özünün ruhunu oxşayır. Mən bir neçə il öncə Zəminə Xınalı ilə cəbhə bölgəsində olarkən gördüm ki, əsgərlərdə bu xanıma qarşı böyük bir sevgi, onun şeirlərinə məhəbbət var. Bax budur Vətən sevgisi, torpaq sevgisi» *(«Yazıçı» – «Oğuz eli» qəzetinin xüsusi buraxılışı – mart, 2009, №2, səh.5).*

Bəs niyə əsgərlər Zəminə xanımı belə çox sevirlər? Suala şairə öz şeiri ilə belə cavab verir:

***Hər zaman siz belə vüqarlı olun,***
***Vicdanlı, dözümlü, sel güclü olun,***
***Sizin bağrınızdan qopan nərəylə,***
***Elin fəxrisiniz, el güclü olun!***

Bizə belə gəlir ki, öz yaradıcılığında əsgərləri, onların həyat tərzini, yaşayışını, hərbi təlimlərini, istirahətini, ağır və çətin günlərini, xoş anlarını, dəqiqələrini Zəminə Xınalı qədər tərənnüm eləyən ikinci bir şairə rast gəlməzsən. Onun «Mənim əsgər qardaşım», «Azərbaycan əsgəri», «Əsgər qardaşlar», «Xoş günlərin sorağında», «Var olun sizi», «Keşik xidmətini çəkənlərə», «Gey əsgər paltarını», «Zabit balama», «Sərhədçi nəğməsi» və adını çəkmədiyimiz onlarla şeirində bu dediyimiz fikirlər öz əksini tapır. Bu şeirlərin bəzilərində şairə gah öz doğma qardaşını cəbhəyə yola salan bacı, gah övladı vətən müdafiəsində olan, özü daim narahat bir əhval-ruhiyyədə qalan ana, bəzən əri cəbhələrdə olan nigaran bir qadın, bəzən də özü döyüşlərə atılmaq istəyən cəngavər ruhlu bir döyüşçü olur. Şairənin «Mənim əsgər qardaşım» şeirinə nəzər salaq:

***Sən günəş ol, işıq ol,***
***Sən ulduz ol, mayak ol,***
***Analara dayaq ol,***
***Mənim əsgər qardaşım.***

***Ürəyində eşqini,***
***Məhəbbətini qoru,***
***Sənsən sabahın nuru,***
***Mənim əsgər qardaşım.***

Burada bir bacı narahatlığı, bacı qayğısı, qardaşa olan bacı sevgisi özünü göstərir. Doğma qardaşının döyüş ruhunu alqışlayan bacı, eyni zamanda qardaşının yadına anasını da salır, «səni yarın da gözləyir» – deyə onu özünü qorumağa səsləyir:

*Arxanca su çiləyir,*
*Anan uğur diləyir,*
*Səni yarın gözləyir,*
*Mənim əsgər qardaşım.*

Eyni ruhlu digər bir şeir isə «Əsgər qardaşlar» şeiridir. Burada artıq bu qardaş tək deyil, burada bütöv ordudan söhbət gedir, əsgər qardaşlar, onların mətin və əzəmətli addımları müəllif tərəfindən alqışlanır. Müəllif qeyd edir ki, bütün Azərbaycan, bütün analar, bütün bacılar sizinlə fəxr edir əsgər qardaşlar:

***Geriyə yol yoxdur, ancaq irəli,***
***Açılan sabahlar gözləyir sizi,***
***Daim sevindirin siz qəlbimizi,***
***Yaşayın, var olun, əsgər qardaşlar.***

Daha sonra əsgərlərə böyük ruh verən və onlara qələbə əzmi arzulayan müəllif bu qələbənin, nurlu sabahların işıq saçmasının məhz onların əlində olmasını vurğulayır:

***Ürək döyüntüsü, qəlb çırpıntısı,***
***Qaranlıq gecənin tez açılması,***
***Nurlu sabahların işıq saçması,***
***Əllərinizdədir, əsgər qardaşlar.***

Təsadüfi deyil ki, tanınmış bəstəkar, respublikanın əməkdar incəsənət xadimi Nailə Mirməmmədli bu şeirə gözəl bir musiqi bəstələmiş və həmin mahnı Azərbaycan radiosu və televiziyasının qızıl fonduna daxil edilmiş, populyar bir mahnıya çevrilmişdir.

“Qarabağ, köksü yaralı vətən torpağı. Düşmən tapdağında inləyən, yaraları qaysaq bağlamaq bilməyən dərdlərimiz, faciələrimiz. Bu dərdlər elə böyükdür ki, nə ötən zaman, nə tökülən göz yaşı onu sağalda bilməz.

And yeri, yurd yeri, doğma vətən, dünyaya səs salan Azərbaycan səcdəgahımıza, qibləgahımıza övlad sevgisini tərənnüm edən mahnı-marşları ilə düşmənlə mübarizəyə, Azərbaycan adını ucadan-uca tutmağa çağırır Zəminə Xınalı. Şairə Babəkimizin, Koroğlumuzun uzaqgörən gözü, Şah İsmayılın, Cavanşirin bükülməyən dizi olan igidlərlə öyünür, “Heç unutmaz ana Vətən” şeirindəki kimi:

***Ey yurdumun igidləri,***
***Düşmənlərə qan uddurun.***
***Bu torpağın keşiyində,***
***Siz mərd durun, sayıq durun.***

Qüdrətlənən ordumuzun qurulmasında öz payı, öz yeri olan Zəminə Xınalının “Aslanın erkəyi, dişisi olmaz” deyiminin bu günümüz üçün aktuallığından çıxış edərək söylədiklərini unutma... Və bir də unutma, Qarabağı unutma”. *(Nərgiz Rüstəmli, “Respublika” qəzeti, 28 iyun, 2005).*

Z.Xınalının əsgər həyatı ilə bağlı yazdığı şeirlərdən biri «Xoş günlərin sorağında» adlanır. Romantik ruhda yazılmış şeirin qəhrəmanı yurd-yuvası işğal altında qalmış xanimanı viran olmuş, valideynləri doğma yurd yerlərindən didərgin düşmüş, çay qırağında oturub şirin xəyallara dalmış bir gəncdir, Azərbaycan əsgəridir:

***Çayın qırağında yorğun bir əsgər,***
***Dayanıb gör necə qəmli, mükəddər,***

***Dayanıb səngərdə səhərə qədər,***
***Sinəsin vətənə edibdir sipər.***

Növbəni döyüş dostuna təhvil verən əsgərin ürəyi durmur, qayıdıb yenə dostunun yanına gəlir, postdan arxayın olandan sonra çay qırağına qayıdır, yenə də romantik xəyallara dalır, odu sönmüş ocaqları düşünür, xəyalən gah Ağ atlı oğlana, gah Babəkə, gah Koroğluya dönür, torpaqları özü azad edir. Birdən xidmətə gələrkən ürəyi əsə-əsə onu yola salan anası yadına düşür, onun ardınca oğrun-oğrun baxan qonşu qızını xatırlayır:

***Xidmətə gələrkən mən ki, anamın,***
***Alqışı üstündə yol alıb gəldim.***
***Kaş ki, məni sevən qonşu qızının,***
***Axan göz yaşını heç görməyəydim.***

Bu duyğular hər bir vətən əsgərinin duyğularıdır. Onların hər biri əsgəri xidmətini başa vurub doğma ocağa gəlmək, ailə qurmaq, oğul-uşaq sahibi olmaq istəyir. Şairə bir ana kimi bu duyğuları hiss etdiyindəndir ki, qəhrəmanını belə bir romantik səpgidə təqdim edir. Və birdən xəyallar içərisində olan əsgər sövq-təbii olaraq ayağa qalxır və dəli bir nərə çəkərək sanki irəli cumur:

***Qanımı tökməyə hazıram deyir,***
***Düşmənə qəbiri qazıram deyir,***
***Qələbə sözünü yazıram deyir,***
***Xoş günlər, qələbə, sülh sorağında,***
***Bir əsgər oturub çay qırağında.***
***Ayağa duraraq özü-özünə,***

***İrəli...irəli...irəli – deyir.
Qışqırır, düşmənin bağrı çatlayır,
Qələbə, qələbə, qələbə – deyir.***

Şübhəsiz ki, müəllif burada qəhrəmanının romantik-psixoloji anlarını verməklə onu bir bədii obraz kimi tamamlayır, Azərbaycan əsgərinin ümumiləşmiş surəti kimi döyüşə, qələbəyə olan inamını verməyə çalışır.

Eyni ruh Z. Xınalının «Zabit balama» şeirində də öz əksini tapmışdır. Qeyd eləmişdik ki, şairənin hər iki oğlu hərbçidir, gələcəyin şərəfli Azərbaycan zabitidir və bu şeiri yazmaqla müəllif sanki öz doğma oğullarına üz tutur. Onları vətəni göz bəbəyi kimi qorumağa çağırır, onları ruhlandırır, onlara vətən sevgisi, torpaq məhəbbəti aşılayır:

***Barmağı tətikdə, gözü nişanda,
Qara gözlü balam gözünə qurban,
Vətənin dərdinə sən qarışanda
Polad biləyinə, özünə qurban.***

Azərbaycan əsgəri də, zabiti də qürurlu olmalıdır, yenilməz olmalıdır. O zaman torpaqların müdafiəsindən, döyüşdən, qələbədən danışmaq olar. Elə hərbçi şairə də bu şeirdə məhz bu məsələləri önə çəkir:

***Soyuq səngərləri səhər eylədin,
Canını vətənə sipər eylədin,
Hər an Vətən deyib, Vətən söylədin,
Sənin qüruruna, sözünə qurban.***

Gənc nəslin vətənpərvərlik ruhunda böyüməsində Zəminə Xınalı yaradıcılığı mühüm rol oynayır. Kim bilir bəlkə də

onun “Cəngi çalmışam” şeirini oxuyan hər bir gənc ana beşik başında layla əvəzinə cəngi çalacaq, elə Zəminə Xınalının özü kimi:

***Mən beşik başında övladlarıma,***
***Layla çalmamışam “Cəngi” çalmışam.***
***Rahatlıq bilməyib ömür yolumda***
***Həyəcan təbili zəngi çalmışam.***

Şairənin «Ana torpaq» şeiri də əsgərlərə müraciət baxımından çox maraqlıdır. Müəllifin nəzərində hər biri bir qoç igid olan Azərbaycan əsgəri xalqın pənahı, ümid yeri, inanc-güvənc yeridir:

***Ana torpaqımız can verib inlər,***
***Ümid sizlərədir, sizə igidlər,***
***Torpağı ölümdən xilas eyləyin,***
***Vətəni işğaldan xilas eyləyin.***

Şairənin fikrincə, ulu babalarımızın müqəddəs ruhu yaşayan, şəhidlərimizin qızıl qanı tökülən ana torpaq bu gün səngərlərə, qanlı savaş meydanına çevrilib. Laləli düzlərin,yaşıl çəmənlərin yanaqları çoxdan sönüb və bu sönüklüyü, bu soyuqluğu Azərbaycanın ər oğulları, nər oğulları əvvəlki rənginə gətirməlidir:

***Nigaran ruhların, ər oğulların,***
***Soyuq məzarları səngər olubdur,***
***Yaşıl çəmənlərin al yanaqları,***
***Laləli yanağı çoxdan solubdur.***

Tədqiqatçı jurnalist Salatın Əhmədli Zəminə Xınalının yaradıcılığından bəhs edərkən yazır: «Onun hər şeiri, hər poeması güclü duyğu ilə yazılıb, şeirlərinin ruhu vətənə məhəbbətdən yoğrulub. Onun şeirlərini sadəcə oxuyub keçmək olmur, oradakı milli ruh insanı düşünməyə, «Vətən üçün nə etmişəm?» deyə fikirləşməyə məcbur edir. Onun şeir dili çox poetik, oxunaqlı, rəvan, sadə xalq dilindədir. Şairə «Elimin igidlərinə» şeirində yazır:

***Eşq olsun sizləri doğan anaya,***
***Elimə-obama siz bəzəksiniz,***
***Vətənin ən ağır, çətin günündə,***
***Yaman günlərində siz gərəksiniz.***

Zəminə xanım vətənin mərd oğulları ilə fəxr edir, onları xalqının arxası, dayağı, güvənc yeri sayır. Onları doğan anaya «eşq olsun» deyir. Vətənin ən ağır, çətin günündə mərd, şücaətli oğullar onun müdafiəsinə qalxın, onu yağı düşmənlərdən qoruyun – deyir». *(S.Əhmədli «Sözün də səngəri var» «Bütöv Azərbaycan» qəzeti. 18 noyabr 2008-ci il. №4).*

Z.Xınalı ədəbi mühitdə yetərincə tanındığı qədər də Milli Ordumuzun zabit və əsgərləri arasında böyük nüfuz və hörmət sahibidir. El-oba arasında da ona olan hörmət və məhəbbətin əsasında onun şeirlərini, əsərlərini vətən sevgisiylə yazıb-yaratması, öz şərəfli əsgəri peşəsinə ürəkdən vurğunluğu durur.

Filologiya elmləri doktoru, professor Mədəd Çobanov yazır: «Z.Xınalının poetik yaradıcılığının əsası, demək olar ki, hərbçilərin əhatəsində, gələcəyimizin qarantı olan müdavimlərin, zabitlərin qaynar hərbçi həyat tərzində təşəkkül tapmış, ilk kövrək misralarından başlanıb. Oxucusunu

riqqətə gətirən, təkmilləşmiş poeziya nümunələrinə qədər həm çətim, həm də şərəfli bir yol keçmişdir. Elə şairənin özü də, qələmlə döyüşən hərbçi olmuş, özünün ilk yaradıcılıq günlərindən arzuladığı kimi, özü də hərbçi paltarı geymiş, başına hərbçi papağı qoymuşdur. Məhz bu da şairənin hərbi marşlara üstünlük verməsi, gələcək zabit kadrlarının, eləcə də əsgərlərimizin vətən uğrunda ön cəbhələrə getməsi, olduqca yüksək dərəcədə mənəvi psixoloji ruh yaratmağı ön plana çəkməsi ilə yaxından bağlı olmuşdur. Hamıya məlumdur ki, düşmən üzərində zəfərli qələbəyə çatmaq üçün döyüşçülərin hərbi vətənpərvərlik ruhunda tərbiyə alması vətənə, xalqa sədaqətlə xidmət etməsi və nə üçün vuruşduğunu, qan töküldüyünün səbəbini və onun əhəmiyyətini dərindən duyması. ən mühüm əsgəri hazırlıq tələblərindən biridir. Bax, bu da, şairənin neçə-neçə hərbi marşlar yazmasına səbəb olmuşdur. *("Elm və təhsil" qəzeti, № 19, may-2003).*

Z. Xınalının şeirlərinin əzəli də, axırı da vətəndir, onun varı da, dövləti də vətəndir, vətən sevgisidir – desək yanılmarıq. Şairənin mənzilinin bəzəyi komandanlıq tərəfindən verilmiş fəxri fərmanlar, medallar, ən qiymətli xəzinəsi, saxlancı onun kitabları, hərbi təlim üçün səhra geyimləri, səhra çantaları, uzunboğaz çəkmələri, mont və şinelləridir. Qızıl-bəzək həvəskarı olmadığını Zəminə Xınalı belə ifadə edir: «Qızılın üstündə ilanlar yatar. Mən vətən göylərində qanad açan Qartala bənzəməyi, Qartal gözlü Vətənimi göz bəbəyim kimi qorumağı özümə ən şərəfli peşə seçdiyim üçün mənzilimdə yanan ocağı da «Əsgər ocağı»* adlandırıram. Hətta mənzilim soyuq olanda belə özüm-özümə təsəlli olaraq demişəm ki, Zəminə, sən əsgərsənsə, səngər də sənin evindən

* Məhz buna görə də ömrünün 20 ilini hərbiyə həsr etmiş, Zəminə Xınalı, 2013-cü ildə ehtiyata buraxılarkən «Əsgər ocağı» adlı qəzet təsis etdi (Redaktor - T.A.)

başlanır, əsgər isə üşüməz. Xalq şairi Söhrab Tahir mənə öz həyatından, əsgəri xidmətindən danışanda, mən ondan çox şeylər öyrənmişəm. Əsgər həyatının gündəliyini əsgəri xidmətdə olmayanlar başa düzməzlər. Əsgər həyatı qədər maraqlı – mənalı ömür hər kəsin ömrünə düşən gün deyil. Əsgər ömrünə düşən hər anın özü «qızılı hərflərlə yazılmış» alın yazısıdır».

Elə ona görə də ömrünü-gününü bütövlükdə vətənin müqəddəsliyinə həsr edən şairə «Ömür» adlı şeirində yazır:

***Bir ömür haqqını ödəmək üçün,***
***Vətən keşiyində dayanmışam mən.***
***Zirvəsi qartallı dağlara bənzər,***
***Vətən torpağından güc almışam mən.***

Vətən torpaqlarının azadlığı uğrunda ömür-gün yoldaşını vaxtsız itirmiş Zəminə Xınalının öz dili ilə desək: «Mən tənha qadın ömrü deyil, şərəfli əsgər ömrü yaşayıram» deməklə onun öz peşəsinə vurğunluğu daha aydın görünür. Müstəqil Azərbaycanımızın azadlığı və yenilməzliyi üçün öz marşları-mahnılarıyla hər kəsə örnək ola biləcək bu qadın şairəmiz həyatın enişli-yoxuşlu yollarından qorxmadan, yorulmadan belə söyləyir:

***Ömür şam kimidir əriyib gedər,***
***Heç kimin ömürü getməsin hədər.***
***Azadlıq yolunda çəkmədik nələr?***
***Demərəm heç zaman yorulmuşam mən.***

Günü-gündən çiçəklənən Azərbaycanımızın əsgəri olan

Zəminə Xınalı peşəsinə vurğun olduğu qədər də, Vətəninə vurğunluğunu belə ifadə edir:

***Gözəllər gözəli Azərbaycanım,***
***Sənə qurban olsun ürəyim, canım.***
***Vətən sevgisiylə qaynayar qanım,***
***Ana Vətənimə vurulmuşam mən.***

Təxminən eyni mövzuda olan “Vətən verdi” şeirində şairə yazır:

***Evimin çırağı söndü,***
***Nurunu Vətən verdi.***
***Ocağımın közü söndü,***
***Qorunu Vətən verdi.***

***Könlümün atəşi söndü,***
***Odunu vətən verdi.***
***Həyatda yaşamağa,***
***Yurdumu vətən verdi.***

Və yaxud:

***Vətəni qorumağa,***
***Ordumu Vətən verdi.***

Zəminə Xınalı Vətən, yurd, ordu, xalq, millət, bayraq, torpaq sevgisini, sevgilərin ən alisi, ən ülvisi sanır. Bax elə bu sevgidən ilham alan şairə yazır:

***Vətən ağrısından doğulanların,***
***Bəxtinin günəşi vətən özüdür.***
***Eşqi, məhəbbəti, varı, dövləti,***
***Könlünün şöləsi Vətən özüdür.***

Vətən keşiyində dayanan bu Vətən əsgəri soyuq səngər də görüb, hərbi təlim də. Həyatın çətinliklərinə sinə gərərək Vətən oğullarıyla çiyin-çiyinə əynində hərbi libas daşıyan Vətən qızı – Vətən əsgərindən «bu çətinliklərə, sınaqlara nə vaxtdan hazır olmusunuz?» – deyə soruşanda, o hələ tələbəlik illərində başına gələn bir hadisəni danışmağa başladı:

«Mən heç vaxt qorxunun nə olduğunu bilməmişəm. Sumqayıt Kimya-Texnologiya Texnikumunun II kursunda oxuyurdum. Yay tətili idi, kəndə getmişdim. Gecə saat 11 olardı. Anam evdə yox idi. Atam içəridə – otaqda oturub sabahkı dərs planlarını yazırdı. Rəhmətlik Nigar cijim isə içəridə taxtın üstündə namaz qılırdı. Mən isə çöldə – qapı ağzında bir vedrə südü bişirib iri bir qazana tökmüşdüm. Qazan qaynar olduğundan qulplarından əski ilə tutmuşdum, içəri aparmaq istəyirdim. Birdən həyət tərəfdən iri, tükləri par-par parıldayan və qara qırmızıya çalan bir it çıxdı. Mənim ilk baxışda it hesab elədiyim bu bədheybət məxluqun gözlərindən elə bil ildırım çaxırdı. İt bir addım mənə tərəf gəldi, hiss elədim ki, o mənim üstümə atılmaq istəyir və bu elə doğrudan da belə idi. Heyvan mənim üzərimə atılmaq istəyəndə, mən iki əllə tutduğum iri qazandakı qaynar südü var gücümlə onun açılmış ağzına – başına tökdüm. Elə bu an it dəhşətli bir ulartı qopardı və yönünü çevirib ulaya-ulaya qaçmağa başladı. Deyəsən bu əsil canavar ulartısı idi. Mən indi bilmişdim ki, bu canavar imiş. Bütün bunlar bir anın içərisində baş vermişdi. Nənəm namazını yarımçıq qoyub çölə yüyürdü, atam yazısından ayrılıb «canavar, canavar» – deyə-deyə həyətə çıxdı. Atamgil elə bilirdi ki, canavar məni yaralayıb. Mən isə canavar üstümə atılmaq istəyərkən qaynar südü onun başına tökmüş qorxum da elə bununla getmişdi. Hamı mənə deyirdi ki, nənən namaz

üstə imiş *(Nigar ciyim doğrudan da namaz qılırdı).* Canavarın ulartısına bizə sarı gələn qonşular əllərində yaba, dəhrə canavarın dalınca düşdülər. Canavar isə çoxdan getmişdi. Səhəri gün tezdən kəndə xəbər yayldı ki, bəs həmkəndlimizin atını gecə canavar parçalayıb».

Vətən mövzusu, Vətən torpağının müqəddəsliyi, doğma Azərbaycanımıza olan vətən sevgisi bizim əksər söz adamlarımızın, şairlərmiizin şeirlərinin əsas qolu olmuşdur. Bu yerdə mənim yadıma görkəmli şairimiz Tofiq Bayramın aşağıdakı misraları düşür:

***Vətən mənim bu günüm,***
***Sabahkı toy-düyünüm,***
***Haqqım var ki, öyünüm –***
***Azərbaycan deyəndə.***

Doğma Vətənə, əzəli-əbədi torpağımız Azərbaycana ləyaqətli övlad məhəbbəti Zəminə Xınalının Azərbaycanla, Azərbaycançılıqla bağlı şeirlərində daha geniş surətdə özünü göstərir. Onun «Müqəddəs vətən», «Vətən torpağı», «Ey Vətən», «Azərbaycan», «Vətən nəğməsi», «Vətən sevgisi», «Vətənim», «Vətən ağrısı», «Vətən eşqi», «Vətən-Ana», «Vətən borcu», «Vətən» və onlarca digər şeirləridə Azərbaycana, vətənə olan əsil istək, vətən sevgisinə təşnə olan qeyrətli, dəyanətli bir övlad məhəbbəti tərənnüm olunur:

***Ey ana torpağım! Ey doğma Vətən!***
***Mənim and yerim də, yurd yerim də sən,***
***Vüqarım, fəxrimsən, güvənc yerimsən,***
***Mənim ürəyimdə, həm qəlbimdəsən.***

Şairə üç bənddən ibarət olan bu şeirdə vətənin gözəlliklərini elə bir məhəbbətlə təsvir eləyir ki, oxucu bu üç bənddə sanki başı min bir bəlalar çəkmiş doğma Azərbaycanımızın keçmişini, şərəfli tarixini, ədəbiyyatını, gözəl təbiətini, bugünkü novrağını, ağlasığmaz bir surətlə inkişafını, işıqlı gələcəyini görür:

***Qafqaz dağlarının döşündə özün,***
***Azəri yurdu tək əbədiləşdin,***
***Hər daşın, qayanın döşündən axan,***
***Çağlayan çaylar tək sən nəğmələşdin.***

Müəllif şeirdə sanki Azərbaycanın xəritəsini çəkir, onun təbii gözəlliklərini Azərbaycan insanının fəxrini, vüqarını bədii sözün qüdrəti ilə çox maraqlı şəkildə təqdim eləyir.

Görkəmli Azərbaycan mütəfəkkiri M.F.Axundov yazır: «Ən yüksək əxlaqlı adam yalnız o adam hesab edilə bilər ki, o özünün bütün hərəkət və davranışlarını əsl vətənpərvərliklə uyğunlaşdırsın». Göründüyü kimi Z.Xınalının bütün yaradıcılığı və varlığı məhz bu notlar üzərində köklənmişdir.

Şairənin «Vətən torpağı» şeiri də vətənə sonsuz məhəbətlə, istəkli bir övlad sevgisiylə yazılmışdır:

***Qaynar bulaqların anasısan sən,***
***Çağlayan çayların laylasısan sən,***
***Ulduzun, ayın da aynasısan sən,***
***Gözümün nurusan, Vətən torpağı.***

Müəllif dar ayaqda Vətən uğrunda ölməyi bacaranların hünərini təqdir etməklə yanaşı, yurdun harayına biganə qalanların şərəfsiz sonluqlarını da poetik şəkildə diqqətə çatdırır və şeirin digər bir bəndində yazır:

***Sənin hüzuruna gəlməyənlərə,***
***Dərdini səninlə bölməyənlərə,***
***Sənin uğurunda ölməyənlərə***
***Zindansan, quyusan, Vətən torpağı!***

Dərdlə «dərdləşməyi» yaxşı bacaran, sənət Aləminə dərdin içindən keçib gələn şairənin əzmkarlığı, döyüşkən ruhu qələmə aldığı şeirlərin «canına, qanına» elə hopub ki, buna ancaq qibtə etmək olar.

Şairənin maraqlı şeirlərindən biri də "Vətənə borcum" şeiridir. Həmin şeirdə Zəminə Xınalı yazır:

***Qəlbimin şah damarı,***
***Dağ vüqarlı atamsan.***
***Könlümün arzuları,***
***Şirindilli anamsan.***

***Odlar yurdu vətənim,***
***Şanlı Azərbaycansan.***
***Təkcə sənə borcum var,***
***Sənə borcum var, Vətən!***

Vətənə olan borcunu öz canı, qanı ilə, gözlərinin nuru ilə yaradıcılığının şah əsəri olan vətənpərvərlik mövzulu şeirlərində aydın və mənalı şəkildə təsvir edən şairə yazır:

***Şərəfli əsgər ömrü,***
***Mənə bəxş eyləmisən.***
***Söyləyəndə dərdimi,***
***Səbrlə dinləmisən.***

***Könlüm fəryad edəndə,***
***Harayıma gəlmisən.***
***Təkcə sənə borcum var,***
***Sənə borcum var, Vətən!***

Göydə ulu Tanrı, yerdə doğma Vətənin qoynuna sığınan Vətən qızı vətən uğrunda canını verməyə hər an hazır olduğunu, onun öz dili ilə desək:

***Sənə olan borcumu,***
***Sevgimlə ödəyərəm.***
***Sənin uğrunda mən,***
***Ölümə də gedərəm.***
***Adın Tanrıya yaxın,***
***Sənə səcdə edərəm,***
***Təkcə sənə borcum var,***
***Sənə borcum var, Vətən!***

– deyə belə tərənnüm eləyir.

Əsərlərinin kökü vətənə, elə-obaya bağlı olan Zəminə Xınalı bir qadın kimi «zərif məxluq»un nümayəndəsi olsa da, özü-öz biləklərində kişi gücü olduğunu hiss etdiyindəndir ki, hərb sənətinə də ürəkdən bağlanmışdır. Onu da qeyd edək ki, uzun illər hərb sənətində çalışan Z.Xınalı ilə söhbət edərkən açıq-aydın duyursan ki, o nə rütbə, nə vəzifə uğrunda deyil, vətənə məhəbbət uğrunda canından keçməyə hazır olan Azəri-türk qızıdır. Onun amalı Ali Baş Komandan, ulu öndər H.Əliyevin «Hər bir peşə şərəflidir, ancaq Vətəni qorumaq peşəsi hər bir peşədən üstündür, şərəflidir» – dahi kəlamının ucalığna sığınaraq bu kəlamı üçrəngli bayrağımız

qədər uca tutur.

Xalq şairi Fikrət Qoca yazır: «Zəminə Xınalının tərcümeyi-halını oxuyan başqa xalqın dost nümayəndəsi bizim yenilməz xalq olmağımıza əmin olacaq. Bu xanımın həyatını bilən düşmən xalqın nümayəndəsi belə qadınları olan xalqın düşməni olmaz, qorxar. Çünki belə qadınların sevgilisi, övladı və bütövlükdə xalqı yenilə bilməz. Onlar zəfər üçün yaranıb». *(«Yazıçı» – «Oğuz eli» qəzetinin xüsusi buraxılışı. Mart -2009, №2, səh.4).*

Z.Xınalının «Ey Vətən» adlı iki şeiri vardır. Birinci şeirdə şairə doğma Vətənin – Azərbaycanın tarixinə nəzər salır, başıbəlalı keçmişində baş vermiş haqsızlıqları, tarixi-siyasi hadisələri yada salır. Və bu keşməkeşli tarixdən üzü ağ çıxmış vətəni ilə fəxr elədiyini bir daha vurğulayır.

***Sinən dağlar gördü qəmdən uzaq ol,***
***Tufandan, çiskindən, çəndən uzaq ol,***
***Dağ suyu, çeşməli, qaynar bulaq ol,***
***And yerimsən, yurd yerimsən, ey Vətən!***

Eyni adlı ikinci şeirində isə vətənin gözəlliklərinə, dağına, daşına, torpağına, gülünə, çiçəyinə heyranlığını tərənnüm edir və bunu sanki bir nəğməyə çevirir. Şeir heca vəzninin başqa bir ölçüsündə yazıldığı üçün elə bir nəğmə təsiri bağışlayır və sonra baxıb görürsən ki, bu doğrudan da elə nəğmədir:

***Dolanım dağına, düzünə vətənim,***
***Sən mənim al-əlvan çiçəkli çəmənim,***
***Ömrümə çiçək səp, nur ələ ey Vətən,***
***Səndən doymamışam, mən hələ ey Vətən!***

Bu şeir həm də bədii cəhətdən o qədər gözəl və axıcıdır ki, söz və ifadələr bir-biri arasında sözün əsil mənasında bir ahəngdarlıq yaradır:

***Gecələr çayların oxuyar zümzümə,***
***Şəlalə çağlayar, bənzəyər ömrümə,***
***Sevinc bəxş edirsən, mənim hər günümə***
***Səninlə fəxr edirəm, özüm, ey Vətən»!***

Kitabın əvvəlində dəfələrlə qeyd etmişik ki, vətənpərvərlik mövzusu Z.Xınalının yaradıcılığının əsas qayəsidir. Bütün bunları bildiyinə görədir ki, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Nizami Cəfərov Z.Xınalı yaradıcılığından bəhs edərkən yazır: «Z.Xınalı Azərbaycan poeziyasında artıq öz imzasını, mövzu və maraq dairəsini müəyyənləşdirmiş şairlərdən biridir. O, poeziyamızda daha çox hərbi-vətənpərvərlik mövzusunda yazan daha çox hərbi marşlar müəllifi kimi tananır». *(«Yazıçı» – «Oğuz eli» qəzetinin xüsusi buraxılışı, mart 2009, №2, səh. 6).*

«Vətən qurban olum sənə» adlı digər bir şeirində şairə özünü vətənin oğlu-övladı sanır. Bax elə ona görə də Zəminə Xınalı yazır:

***Nə deyirsiz deyin mənə,***
***Vətən oğul deyir mənə.***
***Bax indi də mən deyirəm,***
***Vətən qurban olum sənə.***

Vətən sevgisiylə, yaşayıb-yaradan, Vətən torpağına vurğun olan şairə toxum kimi, dən kimi torpaqda cücərmək istəyir.

***Qoymadın ki, ölüm-itim,***
***Qoymadın ki, qalım yetim.***
***Toxum kimi torpağında***
***Cücərt məni, göyərt bitim.***

Z.Xınalının hərbi-vətənpərvərlik sahəsindəki həm bədii yaradıcılığı, həm də bu sahədə apardığı ideoloji – ideya-siyasi işi respublikamızın elmi-ədəbi simalarının diqqətindən kənarda qalmır. Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar yazır: «Ordu quruculuğunda gənclərə milli-mənəvi dəyərlərimizin aşılanmasına xüsusi fikir verilməlidir. Çünki ölkəmizin müstəqilliyi, azadlığı məhz həmin bünövrələr üzərində bərpa olunmuşdur. Ədəbiyyatımızın çox mühüm qollarından biri də gənclərimizdə, ordu arasında hərbi-vətənpərvərlik tərbiyəsinin təbliğidir. Həmin missiyanın yerinə yetirilməsində Azərbaycan Yazıçılar Birliyinin üzvü, hərbçi şairə Zəminə Xınalının hərbi məktəblərdə və hərbi hissələrdə Azərbaycan ədəbiyyatını geniş təbliğ etməsi, söz adamları və ziyalılarla müntəzəm görüşlər keçirməsi təqdirəlayiqdir» *(«Yazıçı» – «Oğuz eli» qəzetinin xüsusi buraxılışı. Mart-2009, №2, səh.4).*

Bəli, zəfər sorağında olan Zəminə Xınalı qələbə arzusu ilə yazıb-yaradır. Marşları, mahnıları, poetik nümunələri ilə tarixin yaddaşına həkk olunmuş şairə özünün də xəbəri olmadan bəlkə də taleyin alın yazısına baş əyib Tanrıya şükür etdiyindəndir ki, tarixin qəhrəman qadınları siyahısına daxil olunub. Tanrı hər zaman halal bəndəsini ucaldır. El arasında belə bir məsəl var ki, «Qələmlə dəyirman haramlığı sevməz».

“Başımın üstündə Allah, vücudumda qeyrət, əməlində ülvilik, zəhmətimdə halallıq, qəlbimdə paklıq, ürəyimdə saf-

lıq amalı ilə yaşayıram" söyləyən Zəminə Xınalı taleyin sərt sınaqları ilə üzləşən anlarında başına gələn əhvalatı belə nəql edir: " 1992-ci ilin payız ayları idi. Həyat yoldaşım ön cəbhədə ağır yaralandığından Hərbi hospitalda ağır vəziyyətdə yatırdı. Onun sağalması üçün həkim ən bahalı dərmanlar yazmışdı. Artıq evdə pulumuz da yox idi. Çətin anlarımda qohum-əqrabaların kömək etmək istəmədiklərini görmüşdüm deyə yoldaşımla belə qərara gəldim ki, onun barmağındakı üzüyü və mənim zinət əşyalarımı qonşuluqda yaşayan Ədilə xalaya ikiqat ucuz qiymətə sataq. Onun sağalması üçün qərarımız qəti idi. Elə hospitaldaca o, barmağındakı üzüyü, mən isə sırğa, zəncir, üzük və qolbağımı çıxarıb yaylığa bükdüm. Onunla sağollaşıb tramvayla evə gəldim. Yaman yorulmuşdum. Az da olsa yatmağı qərara aldım. Yuxudan oyandım... Qızılları hara qoyduğumu sanki unutmuşdum. Axtardım, axtardım tapa bilmədim. Oturub uşaq kimi ağladım. Mənim üçün nə qədər çətin də olsa hospitala gedib başıma gələnləri ona danışmağı qərara aldım. Dayanacağa gəldim, tramvaya əyləşdim. Fikirdən başımı pəncərəyə söykəmişdim. Dərin fikirlər içində başımı aşağı dikmişdim. Birdən itirdiyim dəsmal gözümə sataşdı. Gözlərimə inanmadım. Əyilib dəsmalı götürdüm və açanda gördüm ki, bütün qızıllarım içindədir. Özümdən asılı olmayaraq "tapdım, tapdım" deyə qışqırdım. Sürücü mənim səsimə sanki yuxudan oyandı: – Ay bacı, niyə qışqırırsan. Nəyi tapmısan? Başıma gələnləri ona danışdım. Səhər saat 9-da itirdiyimi axşam 9.30-da tapmışdım. Sürücü ağsaqqal bir kişi idi. Başını bulayaraq: "Ay bala, halal mal heç vaxt itməz" – dedi.

Halallığı özünə şərəf sayan Zəminə Xınalı şeirlərinin birində yazır:

***Vətən dərdi, millət dərdi,***
***Çəkənlərə halal olsun,***
***Elin dərdi, həm sərini,***
***Bölənlərə halal olsun.***

El dərdini, yurd dərdini ürəyində yaşatmaqla bərabər, vətən uğrunda ölmək ən yüksək, ən ali rütbədir Z.Xınalı yaradıcılığında:

***Vətən səsi harayına,***
***Gedənlərə halal olsun,***
***Vətən uğru, torpaq uğru,***
***Ölənlərə halal olsun.***

Vətən uğrunda canlarını fəda edənlərin uyuduğu torpaq da, məzar da müqəddəsdir. Onları yaşatmaq, yada salmaq, anmaq elə hər kəsin borcudur:

***Haqq işiylə, ədalətlə,***
***Sevənlərə halal olsun,***
***Yurd dərdini, el dərdini,***
***Bilənlərə halal olsun!***

Z.Xınalının yaradıcılığında canından artıq sevdiyi, başıbəlalı Azərbaycan – şərəfli, şanlı vətən yüksək bir pafosla, həm də sonsuz bir sevinc və istəklə tərənnüm olunur. Ədəbiyyatımızda, poeziyamızda həmişə bir səslənən vətən-ana məfhumları şairənin yaradıcılığında ən yüksək nöqtəsinə çatır. Bu onun Azərbaycana həsr etdiyi bütün lirik şeirlərində öz əksini tapır. Hələ müstəqilliyimizin ilk illərində qələmə aldığı «Azərbaycan» şeirində şairə deyir:

***Ana Vətən! – Azərbaycan***
***Gözün aydın!***
***Qırdın qara zülmətləri,***
***Azad günə çıxa bildin,***
***Ay-ulduzlu bayrağına***
***Sahib durdun.***

Öz azadlıq və müstəqilliyinə sahib çıxan Azərbaycanımız ulu babalarımızın arzu və istəklərini öz dəyanətli oğulları ilə beləcə yerinə yetirmişdir. Şeirin sonrakı hissələrində şairə yenə də Azərbaycanı vəfalı övlad sevgisiylə tərənnüm edir:

***Necə gözəl bir diyarsan,***
***Sən – şəlalə, axan çaysan.***
***Mavi dəniz, həm günəşsən,***
***Yoxdur tayın – bərabərin***
***Yer üzündə Azərbaycan!***

«Vətən nəğməsi» şeirində müəllif yenə də vətənin azadlığı yolunda qanından, canından keçməyə hazır olduğunu bildirir. Azərbaycanın bütün qeyrətli oğul və qızlarını da bu yola dəvət edir:

***Mən sənin uğrunda candan keçərəm,***
***Ömürdən keçərəm, qandan keçərəm,***
***Sən ana, mən övlad verək baş-başa,***
***Biz gəldi gedərik, təki sən yaşa!***

Nə qədər təbii, həm də axıcı ifadələrdir. S.Vurğun ocağından su içmiş Z.Xınalının bu ifadələri bizə ölməz şairimizin «Mən bir uşaq, sən bir ana» ifadələrini xatırladır. Və bu axıcılıq, cəlbedici tərənnüm şeirin sonrakı bəndlərində davam etdirilir.

***Sənin torpağın da, daşın da əziz,***
***Təkcə baharın yox, qışın da əziz,***
***Sənsən əzəl gündən şərəfim-şanım,***
***Mənim şah vüqarlı Azərbaycanım!***

Zaman-zaman başı bəlalar çəkmiş odlar diyarı Azərbaycan uğrunda qana-qanla savaşa atılan vətən övladları heç vaxt unudulmur, heç zaman yaddan çıxmır. Elə bu baxımdan da Z.Xınalı «Anam Azərbaycandır» şeirində yazır:

***Vətən uğrunda ölmək,***
***Həm şərəfdir, həm şandır,***
***Dünyaya örnək olan –***
***Anam Azərbaycandır.***

Hələ 1941-1945-ci illərdə faşist Almaniyası üzərində qələbəni təmin edən Bakının «qara qızılı» olduğunu şairə bu misralarda belə ifadə edir:

*Qara qızıl yataqlı,*
*Cənnət-məkan torpaqlı,*
*Haqq, ədalət soraqlı –*
*Anam Azərbaycandır.*

Bəli, Bakı nefti – xarabalıqları cənnətə döndərən «qara qızıl» Azərbaycanın ən böyük sərvətidir.

Dünyaya car çəkən Azərbaycan muğamını,söz-sənət xəzinəsi olan ən dəyərli milli-mənəvi sərvətimizi şairə belə ifadə edir:

***Muğamı, şikəstəsi,***
***Çayların zümzüməsi,***

***Söz-sənət xəzinəsi –***
***Anam Azərbaycandır.***

Araz çayının həsrət nəğməsinin, yerlərin-göylərin, dağların-daşların, ellərin-obaların, aranın-dağın, igid, mərd oğulların anasıdır – anam Azərbaycan – söyləyən hərbçi şairə yaddaşlara qanlı 20 Yanvar gününü gətirir, müqəddəs «Şəhidlər xiyabanına» üz tutaraq:

***20 yanvar qəm ili,***
***Yas tutub qərənfili,***
***Könlü qəmli-nəğməli –***
***Anam Azərbaycandır.***
***Şəhidlər xiyabanı,***
***Səcdəgah, qibləgahdı,***
***Xalqın qürur məkanı –***
***Anam Azərbaycandır.***

Z.Xınalının həyat yolu və yaradıcılığı haqqında söhbət açarkən biz bir neçə dəfə qeyd etmişik ki, o Qarabağ uğrunda döyüşlərdə həlak olmuş Azərbaycan Ordusu zabitinin xanımıdır və ömür-gün yaddaşının ölümündən sonra həyatını büsbütün Milli Ordumuza həsr etmiş, bunu dəfələrlə öz şeirlərində də vurğulamışdır. Onun «Vətən sevgisi» şeiri də bu mövzudadır və sanki o üzünü zabit paltarlı ömür yoldaşına tutaraq ona belə bir sevgi-vətən sevgisi öyrətdiyinə görə minnətdarlığını bildirir:

***Geyib zabit libasını,***
***Hərbi sevdirdin mənə,***

***Çəkdin yurd ağrısını,***
***Dərdi sevdirdin mənə,***

yaxud:

***Mənə nə gözəl sevgi,***
***Vətən sevgisi verdin,***
***Bu sevgini özün də,***
***Sinəndə gəzdirirdin.***

Vətən sevgisini uca tutan şairə içdiyi əsgəri andına sadiq qalaraq yaradıcılığının şah əsərlərini də hər zaman vətənpərvərlik motivləri üzərində kökləmişdir. Vətən sevgisi məhəbbətin ən alisi, ən ulusudur. Döyüş ruhlu şeirlərilə vətən oğullarını qisasa səsləyən şairə:

***Səsləyir qisas üçün,***
***Hər oğulu, hər əri,***
***Səsləyir zəfər üçün,***
***Cəngavər igidləri.***

yaxud:

***Səngər – vətən qucağı,***
***Oğulları var olsun,***
***Nankor, xain düşmənə***
***Dünya özü dar olsun –***

– deyir.

Doğma torpaqların işğal altında qalmasından nigaran – narahat olan şairə üzünü vətən əsgərlərinə tutaraq:

***İntiqam, qisas deyib,***
***İrəliyə gedin siz,***
***Yurdumu azad edib,***
***Cənnət-məkan edin siz!***

Ana qucağına bənzəyən ana Vətənə ilk beşiyim, son mənzilim vətənim söyləyən Zəminə Xınalı digər bir şeirində yazır:

***Bağları ətirli, gül bənövşəli,***
***Zirvəsi qartallı, yaşıl meşəli.***
***Büllur bulaqlısan, sərin çeşməli,***
***İlk beşiyim, son mənzilim vətənim.***

***Qibləgahım and yerim, duz-çörəyim,***
***Yaman gündə güvənc yerim, gərəyim.***
***Odlar yurdum, hey döyünən ürəyim,***
***İlk beşiyim, son mənzilim vətənim.***

Həyat yollarını, könül arzularını Vətənin qoynunda-qucağında tapan şairənin misralarından qoxuyan Vətənə məhəbbət hissləri, onun poeziyasını daha da dolğunlaşdırır. Bayatılarımızın birində deyildiyi kimi: “Gəzməyə qərib ölkə, ölməyə vətən yaxşı” kəlməsi Zəminə Xınalının yaradıcılığına və həyat tərzinə uyğun olmadığından, o elə gəzməyə də, ölməyə də doğma vətənini görür. Bax elə ona görə də Zəminə Xınalının şeirləri onun tərcümeyi-halıdır desək lap yerinə düşərdi:

Vətən adının ucalığından bəhrələnən Zəminə Xınalı ordumuzu qalib ordu görmək arzusu ilə yazır:

***Bu bahar qələbə, zəfər bayramı,***
***Gözləyin analar, biz gələcəyik.***
***Bahar bayramında, yaz bayramında,***
***Xoş müjdə, qələbə yetirəcəyik.***

Əslində bu misralarla Zəminə Xınalı özünü də xoş müjdə, qələbə yetirənlərin arasında görür və o günə inanır. Şanlı qələbə arzusuyla yazıb-yaradan şairə deyir:

***Hünər meydanında göyə ucalan,***
***Düşmən üzərində qələbə çalan.***
***Savaşda qan tökən, intiqam alan,***
***Şanlı qələbəni gətirən gəlsin.***

Filologiya elmləri doktoru, professor, "Respublika" qəzetinin baş redaktoru Teymur Əhmədov yazır: "Zəminə Xınalı mənim nəzərimdə bir şair olmaqla bərabər, həm də bir döyüşçü təsiri bağışlayır. Onun yaradıcılığında hərbi-vətənpərvərlik mövzusu əsas yer tutur. İndiki zamanda bu bizə çox lazımdır və vacibdir. Düşmənlə üz-üzə dayandığımız indiki məqamda onun əsərləri ən kəsərli silah qədər dəyərlidir. O, Bakıda hərbi məktəbdə çalışsa da, mən həmişə onu görəndə, elə bilirəm ki, o, ön cəbhədən, döyüşdən gəlir. O, mənim təsəvvürümdə Azərbaycanın şanlı tarixinin yaddaşında əbədilik yer tutan qəhrəman qadınlarımızı – Sara Xatunu, Higarı, Həcəri xatırladır. Z.Xınalı həmin qəhrəman qadınlarımızın ənənəsini ləyaqətlə yerinə yetirir". *("Yazıçı – Oğuz eli"qəzetinin xüsusi büraxılışı. Mart, 2009).*

Hərb sənətinə ürəkdən vurulan vətən qızı-vətən əsgəri sabaha ümidlə baxaraq övladlarına yazdığı şeirlərin birində belə deyir:

***Tanrıdan savayı kimimiz var ki,***
***Tanrının qoynuna sığınmışıq biz.***
***Torpağa, bayrağa olan sevgiylə,***
***Vətən keşiyində dayanmışıq biz.***

Və yaxud:

***Əsrlər ötəcək, illər keçəcək,***
***Bizi yaşadacaq tarixin özü.***
***Açıb varaq-varaq öz səhifəsini,***
***Bizdən danışacaq arxivin özü.***

Ana və Vətən. Bu müqəddəs adları ana ürəyinə bənzədən şairə yazır:

***Ana ürəyidir müqəddəs Vətən,***
***Ana ürəyinə toxunmaq olmaz,***
***Qoşa yaranıbsa Ana, həm Vətən,***
***Onları heç zaman ayırmaq olmaz.***

Zaman-zaman Odlar diyarı Azərbaycan yadelli işğalçıların göz dikdikləri zəngin bir ölkə olub. Biz hərb istəmirik. Ancaq hər zaman hərbə hazır olmalıyıq. Qana qanla cavab verməyi bacarmalıyıq söyləyən Z.Xınalı "Müharibə başlayarsa" şeirində yazır:

***Ürəyində Vətən eşqi olanlar,***
***Gedəcəklər döyüşə...***
***Müharibə başlayarsa...***
***Torpaq, bayraq sevgisiylə***
***doğulanlar,***
***Vətən dərdi, həsrətiylə***
***yoğrulanlar,***
***Dərd içində boğulanlar***
***Gedəcəklər döyüşə...***
***Müharibə başlayarsa...***

Vətənə məhəbbət, düşmənə nifrət hissləri ilə şeirlərində döyüşkənlik ruhu açıq-aydın duyuluan şairə yazır:

*Mənim şeirim dünyaya*
*Döyüşməyə gəlmişdir.*
*Vətənimin dərdini,*
*Bölüşməyə gəlmişdir.*

və yaxud:

*Torpağın xoş qoxusu,*
*Anaların nəfəsi.*
*Dağ çayına bənzəyir*
*Əsgərlərin gur səsi.*

Vətən torpaqlarının azadlığı uğrunda yurd yerlərinə dönmək arzusu ilə Z.Xınalı yazır:

*Doğma yurd yerlərinə,*
*Artıq dönmək vaxtıdır.*
*Müqəddəs yurd yerimiz,*
*Bizə şahlıq tacıdır.*

"Torpaq – uğrunda ölən varsa vətəndir!" kəlamlarını uca tutan şairə "Şəhid şərbətini içənlər gərək" şerində yazır:

*Vətənin dar günü, yaman günündə*
*Vətən harayına gedənlər gərək.*
*Savaşda ölümə hazır olanlar,*
*Şəhid şərbəti ni içənlər gərək.*
*Silaha sarılıb, döyüşə gedən,*
*Vətəni qoruyan ərənlər gərək.*
*Tanrı dərgahında müqəddəs adlı,*
*Şəhid şərbətini içənlər gərək.*

Zəminə Xınalı həm əsgər, həm də anadır. O, öz xeyir-duasını şeirlərinin birində belə yazır:

***Halal süd əmmiş oğul,***
***Haqq da sənə tərəfdir.***
***Anan namaz üstədir,***
***Keşik çəkmək gərəkdir.***

və yaxud

***Aç caynağın qartal tək,***
***Yeri məğrur, yeri mərd.***
***Torpağına sahib ol,***
***Geri çəkilsin namərd.***

Ömrünü, yaradıcılığını hərb sənətinə bağlayan şairə əsgərlərimizin sağlamlığı keşiyində dayanan "Hospital" haqqında yazdığı mahnı-marşda belə deyir:

***Anam Azərbaycan! Doğma yurdumun,***
***Vətən övladının keşiyindəsən.***
***Dərdlərə dərmansan, təbib loğmansan,***
***Ömür yollarında nurlu mayaksan,***
***Mərkəzi Hərbi Klinik Hospitalı.***

Tanınmış şair İsmayıl İmanzadə «Yurd sevgisinin çiçək təbəssümü» adlı məqaləsində yazır: «Çağdaş Azərbaycan ədəbiyyatının qadın yazarları arasında özünəməxsus deyim tərziylə seçilən hərbçi şairə Zəminə Xınalı hər yeni şeiri, işıq üzü görən təzə kitablarıyla oxuculara, sənət dostlarına bir dünya sevinc bəxş edir. Zəminə xanımı istedadlı bir qələm sahibi kimi başqalarından fərqləndirən ən önəmli əlamətlərdən biri hərbi-vətənpərvərlik mövzusunda yazdığı şeirlərin ədəbi

yaradıcılığında üstünlük təşkil etməsidir. Şairin bu əzəli-əbədi mövzuda qələmə aldığı əsərlər şübhəsiz ki, təkcə kəmiyyət baxımından deyil, eyni zamanda yüksək poetik keyfiyyətcə də diqqəti cəlb edir. Bir sözlə incə ruhlu müəllifin vətən sevgisi təqdirəlayiqdir.

Unudulmaz yazıçı dostum Fərman Kərimzadə demişkən: «Anasını ürəkdən sevdiyinə görə uşağa sağ ol deməzlər» – yəni ana sevgisi, uşağın canına, qanına, iliyinə, damarlarına hopan bir ilahi istək, övladlıq borcudur. Məhz bu meyarla yanaşanda Zəminə xanımın hərbi-vətənpərvərlik mövzusunda yazdığı şeirlərinin də ayrı bir umacağı, təmənnası yoxdur. Sadə bir ürək sahibinin əbədi-əzəli məhəbbətidir bu şeirlər» *(«Ömür yolu» qəzeti mart-2008-ci il).*

Çox düzgün və yerində deyilmiş ifadələrdir.

Z.Xınalı illər boyu doğma vətəninə, elinə, obasına, bütün həyatını sərf elədiyi Azərbaycan ordusuna canı ilə, qanı ilə bağlıdır və bu birlik onun bütün yaradıcılığından keçən ana xətdir.

Qeyd edək ki, Zəminə Xınalının lirik şeirləri içərisində Azərbaycan təbiətini, onun gözəlliklərini, uca dağlarını, yaşıl meşələrini, dişgöynədən buz kimi soyuq bulaqlarını, o cümlədən vətən gözəllərinin tərənnümünə həsr olunmuş şeirləri də çoxdur. Lakin bu şeirlərin də əksəriyyətində şairə özünün hərbçi missiyasına sadiq qalaraq yenə də vətənpərvərlik motivlərini önə çəkir. Şairənin «Dağlar» şeirində oxuyuruq:

***Nərgiz çiçəkləri gəlin kimidir,***
***Alyanaq ləçəkli, həyalı dağlar,***
***Sənə yaraşıqdır çeşmələr, çaylar,***
***Çəmənli, çiçəkli, laləli dağlar.***

Vətən dağları həmişə qəhrəmanlıq meydanı olub, qəhrəmanların igidlərin, ərənlərin yurd yeri olub. «Qüdrətdən səngərli, qalalı dağlar» əsrlər boyu bu igidləri, ərənləri qoruyub, onları gizlədib, düşmənlərə qarşı, yadellilərə qarşı mübarizələrinə stimul yaradıb. Şairə bu şeirlərdə igid oğullarımızın qəhrəmanlıq ənənələrinə nəzər salır, onları bu günkü vətən oğulları ilə müqayisə edir, elimizin igid oğullarını bu tarixi qəhrəmanlıqlardan örnək götürməyə çağırır:

***Zirvədə qartallar qanad açanda,***
***Sinəndə xınalı kəklik qaçanda,***
***Neçə igidlərin qan yaddaşında,***
***Sıldırım qayadan qalalı dağlar.***

Zəminə Xınalı torpağa, bayrağa, vətənə vurğun olduğu qədər də, saz-söz vurğunudur. Aşıqların dillərində əzbər olan mahnıları, eləcə də «Qaçaq İsmayıl» dastanı hələ uşaqlıq illərində el ağsaq-qallarından, ağbirçək nənələrdən eşitdiklərini şeirə-nəğməyə çevirən şairə vətənpərvərlik mövzusuna aşıq ruhu, xalq ruhu ilə də yaxındır. Aşıq ruhu – xalqın ruhu ilə qaynayıb-qarışmaq özü çox gözəl əlamətdir. Ruhun saflığı pis əməllərdən uzaq olmaq, mərdliyə, vətənpərvərliyə, sədaqətli olmağa ruhlandıran ən böyük amillərdəndir.

Aşıq musiqisi insanın təsir dairəsini o qədər genişləndirir ki, o təkcə bu gündən, keçmişdən yox, hətta gələcək günlərdən də xəbər verir. XVI əsrdə yazıb-yaratmış Dirili Qurbani də bir şair kimi vətənpərvər insan olmuş, döyüş ruhlu əsgərlərlə sazla-sözlə irəli getmiş, Şah İsmayıl Xətainin ordusunda sıravi əsgər, vətənpərvər şair kimi tarixin yaddaşında dərin iz salmışdır. Onun «Bənövşə» şeiri əsrlərin

yaddaşından süzülüb bu günkü günümüzə, ədəbiyyatımıza qədər gəlib çatmışdır. Sanki tarix təkrar olunur, bu gün Zəminə Xınalı da işğal altında qalan vətən torpaqlarının ağrısına dözməyərək, əyninə əsgər libası geyib, həm şair, həm də bir əsgər kimi orduda oxunan nəğmələri ilə vətənə sədaqət andına sadiq qalmaqla yanaşı Dirili Qurbaninin «Bənövşə» şeirinə də nəzirə yazmışdır. Bu poetik nümunədə şairə boynu bükük ömrükəm çiçəklərin ən gözəli ilə özünün nakam taleyi arasında poetik bir oxşarlıq görür:

***Bizim taleyimiz oxşardır desəm,***
***Ellər qınamasın bizi, bənövşə.***
***Mən qara taleli, sənsə ömrükəm,***
***Sındırıblar qəlbimizi bənövşə.***

Yurd itkisinin, əsirlikdə inləyən qız-gəlinin dərdli-ələmli naləsini bir an unutmayan, bunun xalqımızın taleyinə, qismətinə yazılan bir alın yazısı olduğunu vurğulayan şairə sanki doğma yurd yerlərindən didərgin düşmüş soydaşlarımızın dərdini bənövşə dərdi ilə uyğunlaşdığını poetik bir vüsətlə nəzərə çarpdırır:

***Kədər üçün biçilibdir boyumuz,***
***«Vağzalı»sız ötüb keçdi toyumuz,***
***Dərd çəkəndi, qəm böləndi soyumuz,***
***Tanrı verib bəxtimizi, bənövşə.***

Özünü bir anlığa tənhalıqdan ayırıb, çiçək bənövşənin nazını çəkmək, ona sözlə təsəlli olmaq özü də şairənin təbiətə vurğunluğundan irəli gəlir.

Şehli çəmənlərin, ayna bulaqların, gözəlliyindən doyma-

yan şairə ana təbiətin qoynundan qaynayan büllur bulaqların, göz yaşı qədər saf dağ çaylarının şırıltısını, çəmənləri-çiçəkləri ilhamlı şair qəlbi ilə anasına bənzədir, onlardan anasının ətrini duyduğunu, hətta kövrələndə belə:

***Yaman qəribsəyib, kövrəlmişdim mən,***
***Əyilib bulağın gözündən öpdüm.***
***Endim çəmənlərdən çiçək dərməyə***
***Əyilib bulağın gözündən öpdüm,***
***Elə bil anamın üzündən öpdüm.***

– deyir.

Sazlı-sözlü döyüşkən ruhlu ömür yaşayan Z.Xınalı könül tellərini sarı simə bənzədir:

***Yarım gedib, meydanda tək qalmışam,***
***Səcdəgahım Tanrıdan güc almışam.***
***Tarıma çəkilib, könlümün teli,***
***İndi çalacaqdır, «Baş sarıteli».***

***Xınalı Zəminə unutmaz eli,***
***Ürəyindən axır dağların seli,***
***Yaman kövrəkləşib qəlbimin teli,***
***İndi çalacaqdır «Baş sarıteli».***

Aşıq havası «Baş sarıtel» qərb mahalında saz havalarının himni də adlandırıldığından, belə qənaətə gəlmək olar ki, Z.Xınalı elə-obaya bağlı olduğu qədər də soy kökünə, el-adətinə çox yaxındır. Bu yaxınlıq ilk növbədə ailəyə, doğma ocağa bağlılıqdan irəli gəlir. Bəzən doğma ata ocağından gələn ən kiçik bir sovqat da insanı ruhlandırır. Kəndi xatırladan, kənd həyatının nemətlərini bir-birini tarazlayan, bir boyda,

bir biçimdə sevilib əzizlənən ana sovqatı nə qədər əzizdir. Anasının ona hədiyyə etdiyi xalını şeir dili ilə təsvir edən Zəminə Xınalı yazır:

***Xalı üstə gəzər əli,***
***Yaradar ellər gözəli,***
***İpəkmidir? – nurmu?...– əli***
***Anam gözəllər gözəli.***

Təbiətə, elə-obaya bağlılıq, təbiətə vurğunluq şairənin «Dəli ceyran» şeirində poetik bir şəkildə göstərilir. Amansız ovçunun günahsız ceyranı nişana almasına dözməyən Z.Xınalı deyir:

***Xal düşübdür, ürəyinə ceyranın,***
***Əhvalını pozma dağın-aranın,***
***Daşlar əzib, ayağını ceyranın***
***Aman ovçu, vurma dəli ceyranı.***

Dağların-daşların özü də Vətənin bir parçasıdır. Bax elə ona görə Vətən əsgəri, Vətənin keşiyində durur, vətən torpaqlarını göz bəbəyi kimi qoruyur. Mayası dağ suyundan tutulmuş, ətotu-kəkotu ətrindən bəhrələnmiş, dağ çayı kimi kükrəyib-daşan Vətən qızı, vətən əsgəri Z.Xınalı «Dağ çiçəyi» şeirində yazır ki:

***Yanağımda dağ çiçəyi bitmişdi,***
***Şaxta vurdu, xəzan vurdu soldu o.***
***Fələk mənə elə zərbə vurdu ki,***
***Şeir kimi ürəklərə doldu o.***

Vətən həsrətindən qurbət ellərdə can verən qərib soydaşlarımız bir ovuc vətən torpağından dərdlərinə məlhəm edirsə, vətən torpaqlarının keşiyində dayanan vətən əsgəri Z.Xınalı yazır:

***Ana südü, dağ çiçəyi dərmanım,***
***Başı qarlı dağlar olub, gümanım.***
***Şeriyyatçün verilibdir fərmanım,***
***«Sarıtel» laylası gərəkdir mənə.***

Şairənin təbiət gözəllikləri ilə vətən sevgisini birləşdirən, təmiz, səmimi və ülvi insan sevgisi, məhəbbəti ilə vətən məhəbbətini eyni bir kontekstdə verən şeirləri çoxdur. Yazıçı-publisist Qorxmaz Abdulla Z.Xınalının lirikası haqqında danışarkən yazır: «Şeirlərinin bir qismi zirvəsi qartallı, başı ağ çalmalı dağların, gur çeşməli bulaqların, laləli-nərgizli bağların, qalxan qayaların vəsfinə həsr olunub. Zəminə xanımın bahar təravətli təbiət şeirlərindən mərhum H.Arifin möhtəşəm poeziyasının ətri gəlir. «Dağ çiçəyi», «Elə bil», «Dağlar», «Bahar bayramı» və s. əsərləri bu qəbildəndir» *(«Kredo» qəzeti, 13 yanvar 2007-ci il)*. Bu və bunun kimi fikirlər şairənin lirikası haqqında təbii ki, müəyyən təsəvvür yaradır və hesab edirik ki, bütün bu şeirlərin hər biri haqqında ayrı-ayrılıqda danışmağa ehtiyac yoxdur.

* * *

Zəminə Xınalının yaradıcılığında mühüm bir qolu türklüklə, türkçülüklə bağlı şeirlər təşkil edir. Bu isə təbiidir, çünki Z.Xınalı özü dəyanətli, dözümlü bir türk qadınıdır. Türkün keçdiyi böyük həyat yolunu zaman-zaman tarix kitablarından, ədəbi-bədii salnamələrdən daim öyrənən, onu öz şeirlə-

rində tərənnüm eləyən tanınmış bir şairədir. Tarixin müxtəlif dövrlərində Azəri-türk qardaşlığı həmişə özünü yüksək səviyyədə göstərmişdir. Türkün türkdən başqa arxası, köməyi yoxdur – deyiminə söykənən hərbçi şairə öz əsərlərində türk hərbi qüvvələrinin yenilməzliyi haqqında dəfələrlə yazmışdır. Türk dünyasının böyük sərkərdəsi Mustafa Kamal Paşa Atatürkün hələ XX əsrin əvvəllərində dediyi – Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir – sözlərinə əsrin sonlarında ulu öndərimiz Heydər Əliyevin – "Biz bir millət iki dövlətik" kəlamları da qarışaraq tarixin yaddaşında qızılı hərflərlə həkk olundu.

"Azərbaycan-Türkiyə" şeirində Zəminə Xınalı əsrlərin yaşıdı bu qardaşlıq dünyasını belə tərənnüm edir:

***İki dövlət bir millətin övladı,***
***Azərbaycan və Türkiyə qoşadı.***
***Qardaş kimi bu dünyada yaşadı,***
***Yaşa var ol, Azərbaycan-Türkiyə.***

***Əsrlərdən qoşa gəlir səsimiz,***
***Könüllərdə qoşa vurur qəlbimiz.***
***Dünya bilir türk əsridir əsrimiz,***
***Yaşa var ol, Azərbaycan-Türkiyə.***

Azərbaycan-türk birliyinin ucalığından ruhlanan şairə «Türk qanıdır qanımız» şeirində bu birliyi ürəkdən alqışlayır, əsgər oğullarımızı qələbəyə ruhlandırır:

***Durun millət ayağa,***
***Gedək qisas almağa,***

***Könüllü getməliyik***
***Vətəni qorumağa!***

Düşmənə sonsuz nifrət hissini poetik duyğularla əks etdirən şairə sonda türk soyundan olması ilə fəxr edir:

***Vicdanı bayraq tutub,***
***İrəliyə gedək biz.***
***Türk qanıdır qanımız,***
***Kor olsun düşmənimiz.***

Təsadüfi deyildir ki, bəstəkar Gülsüm Abdulla qızı həmin şeirə musiqi bəstələmiş və qəhrəmanlıq ruhunda gözəl bir mahnı yazmışdır.

Şairənin «Türk oğlu türk», «Türk dilimiz», «Türk ulduzları» və s. neçə-neçə şeiri türk dünyasının igid, qəhrəman oğullarına, qorxubilməz türk əsgərlərinə həsr olunmuşdur. «Türk oğlu türk» şeirində:

***Ulu Tanrım nura boya,***
***Türk oğlu türkün yolunu,***
***Yaşıl çinar, dağa bənzət,***
***Türk oğlu türkün boyunu –***

– deyən şairə «Türk dilimiz» şeirində bu dilin şirinliyini, gözəlliyini təbiət gözəllikləri ilə müqayisə edir, dilimizi, dinimizi sonsuz bir məhəbbətlə sevməliyik deyir:

***Çiçək üstə şehə bənzər,***
***Həzin külək, mehə bənzər,***
***Gur çağlayan selə bənzər,***
***Bənzərsizdir türk dilimiz.***

Z.Xınalının bu mövzuda olan şeirləri içərisində «Türk ulduzları» şeirinin xüsusi yeri vardır. Bu şeirin yazılmasının maraqlı bir tarixçəsi var. 2001-ci ildə «Türk ulduzları» eskadrilyasıının yenicə müstəqilliyə qədəm qoymuş Azərbaycanın Ali Hərbi Məktəbləri-nin ilk buraxılışı zamanı təntənəli bayram münasibətilə Bakı səmalarında nümunəvi uçuşları Azəri-türk dünyasının sevincinə səbəb oldu. 70 ildən artıq sovet imperiyasının əsarəti altında olmuş Azərbaycan xalqı bütövlükdə fərəh içərisində idi. Bu müşahidələrin canlı şahidi olan Z.Xınalı bu uçuşlardan vəcdə gələrək «Türk ulduzları» şeirini yazdı:

***Uç göylərdə türk oğlu türk,***<br>
***Tanrı sənə yar olacaq.***<br>
***Yar zülməti, dünya xain***<br>
***Düşmənlərə dar olacaq.***

Öz uçuşları ilə xalqımıza bir daha müqəddəs türk dostluğunu təlqin edən, düşmənin bağrını qan eyləyən şanlı türk pilotlarının göy üzündə qanad açan göyərçinlərə bənzədən şairə eyni zamanda doğma Qarabağımızın da yarasına məlhəm qoyulacağını böyük inamla təsvir edir:

***Sülh məramlı göyərçinsən,***<br>
***Göy üzündə qanad aç sən,***<br>
***Azəri-türk torpağında,***<br>
***Günəş kimi parla, saç sən.***<br>
***Qarabağım əldən gedib,***<br>
***Şəhid ruhu narahatdır,***

***Düşmənləri lərzəyə sal,***
***Qoy bilsin ki, türkün yolu,***
***Nurlu təmiz, işi haqdır.***

Ucalardan –uca ay-ulduzlu türk bayrağına – Məmməd Əmin Rəsulzadənin 1918-ci illərdə söylədiyi "Bir kərə yüksələn bayraq, bir daha enməz" dahi kəlamında deyildiyi kimi, Zəminə Xınalı "Enməz türkün bayrağı" şeirində belə yazır:

***Oddan, alovdan keçər,***
***Canını edər sipər.***
***Döyüşdə öndə gedər,***
***Enməz türkün bayrağı.***

***Misri qılınc əlində,***
***Vətən sözü dilində.***
***Baş əyilər önündə,***
***Enməz türkün bayrağı.***

***Rəngi qandan yoğrulub,***
***Göy üzündə qurulub.***
***Ucalarda tutulub***
***Enməz türkün bayrağı.***

Z.Xınalının 2002-ci ildə Bakıda xidməti vəzifədə olan qeyrətli türk oğlu Zəki Paşa Durlanık haqqında yazdığı «İncə duyğularda yaşayacaqsan» kitabında onun türk mənəviyyatına, türkçülüyə bağlılığı özünü bariz şəkildə göstərir. Şairə eyni adlı şeirini də türk generalına həsr etmişdir:

***Günəş şəfəqilə, günəş nuruyla,***
***Tanrı sevgisiylə dünyaya gəldin.***

*Vaxtsız ölümünlə, son gedişinlə,*
*Azəri-türk xalqın qəlbin göynətdin.*

Bu kitab çap olunandan sonra Türkiyədə də geniş yayıldı və Zəki Paşanın həyat yoldaşı Gülnur xanım Durlanıkdan Z.Xınalıya təşəkkür məktubları gəldi. Sonradan bu kitab Anadolu türkcəsində tərcümə olunaraq Türkiyədə çap olundu.

Ümumiyyətlə, Z.Xınalının adı və əsərləri Türkiyədə də yaxşı tanınır. Onun bir sıra əsərləri, o cümlədən «Vətən sevgisi» kitabı, «Tənha türk məzarı» poeması türk dilinə çevrilmişdir. Bu isə türk hərbçi tədqiqatçılarının da diqqətini cəlb etmiş və bu adamlar şairənin yaradıcılığı haqqında öz fikirlərini bildirmişlər. Hələ 2006-cı ildə Z.Xınalının «Hərbi məktəblərin banisi» kitabının Atatürk mərkəzində təqdimatı zamanı türk-hərbçi-tədqiqatçısı albay *(polkovnik – T.A.)* Mövlud Ayaz belə demişdir: «Hərbi məktəblərin banisi» kitapının har sahifesində Vatan, millet və bayrağ sevgisi kokan, genclerin vatanseverlik duyğularını hitap eden şerefli, dürüst ve tarihi bir vazifenin yerine yetirildiyi, kaynar bir eser olduğunu degerlendiriyorum.

Bu eserin bütün gencler tarafından dikkatlıce dafalarla oxunması gerektigini düşünüyorum.

Bu eserin ortaya çıkarılmasında göz nuru döken büyük emek veren, kalbi vatan sevgisi ile dolu gelecegin zabitlerinin annesi, şerefli türk kızı, bizim kürur kaynağımız, okul marşlarının yazarı Zemine Kınalı hanıma çalışmalarından dolayı tebrik ederim.

Bu duyğu və düşüncələrimle diyorum ki:

- Zemine Kınalı, vatan sevgisi pınarınızdan bütün türk dünyası yararlanmaktadır. Allah yolunuzu ve bahtınızı açık

etsin, sevgi pınarınız hiç kurumasın, saykı ve şukranlarımı sınarım». *(Bakı şəhəri, Atatürk mərkəzində «Hərbi məktəblərin banisi» kitabının təqdimatındakı çıxışından).*

Z.Xınalının türkçülüyü təqdim edən, türk əsgərinin şərəfli obrazını təqdim edən iri həcmli əsərlərindən biri «Tənha türk məzarı» poemasıdır. Poema bir az öncə qeyd etdiyimiz kimi türkcəyə də çevrilmiş və Türkiyədə də geniş yayılmışdır. Əsər Bakı-Şamaxı yolu kənarında dəfn olunmuş naməlum türk əsgərinə, onun qərib məzarına həsr olunmuşdur. Poema sırf tarixi bir əsərdir və 1918-ci ildə bolşevik-erməni-daşnak hissələrinin Bakıda və Azərbaycanın digər bölgələrində apardıqları qırğınların qarşısını almaq üçün Qafqaz-İslam Ordusunun Azərbaycana yürüşünə həsr olunmuşdur.

Qeyd edək ki, Qafqaz-İslam Ordusunun əsasını təşkil edən 5-ci Qafqaz diviziyası Azərbaycana göndərilmək ərəfəsində III Ordu komandanlığına tabe idi. V Qafqaz diviziyası Azərbaycandakı fəaliyyətini Nuru Paşanın rəhbərliyi altında qurmalı və III Ordu ilə bağlılığı da Nuru Paşanın vasitəsilə həyata keçirməli idi. Diviziyanın tərkibində 330 zabit, 7400 əsgər və 1939 heyvan-at var idi. Bununla belə Qafqaz İslam Ordusunun digər korpuslarına Nuru Paşanın qardaşı Ənvər Paşa rəhbərlik edirdi.1918-ci ilin yayından ordu birləşmələri planlı şəkildə hücuma keçərək Gəncə ətrafından başlamış bolşevik maskası altında ermənilərdən və ruslardan təşkil edilmiş hissəni ləğv edərək Bakıya doğru hərəkət edirdilər. Bu zaman Göyçay ətrafında qanlı döyüşlər, Ağsu və Kürdəmir döyüşləri, Salyan döyüşü, Şamaxı və Hacıqabul ərazilərində baş verən şanlı türk ordusunun zəfər yürüşləri tarixə düşdü. Bakı döyüşü və Bakının azad edilməsi isə bu döyüşlərin kulminasiya nöqtəsi oldu. Bu döyüşlərdə türk ordusunun 1130

qəhrəman türk mehmetçiyi şəhid oldu. Şamaxı yolu üzərindəki naməlum türk mehmetçiyi də onlardan biri idi.

Z.Xınalı hələ lap körpəliyindən bu tarixi az da olsa bilirdi. Və özünün dediyi kimi onun gələcəkdə şüurunun və biliklərinin formalaşmasında müstəsna rol oynamış Nigar nənəsi ona bu bilgiləri vermişdi. Ümumiyyətlə uşaqların lap körpəlikdə həyat bilgilərinə yiyələnməsində nənə və babaların böyük rolu olur və bu bilgilər sonrakı həyat tərzində uşağa - belə deyək yeniyetməyə gələcəyin hər hansı bir sənət adamına kömək olur. Elə ona görə də Z.Xınalının Nigar nənəsi ilə bağlı söylədiklərini olduğu kimi burada verməyi məqsədəuyğun sayırıq: «Mən ağlım kəsəndən gözümün qarşısında bir insan görmüşəm. Mənim həyat idealım da, gələcək həyatımın müəyyənləşməsi də, mənim həyatda hər hansı bir *(yaxşı mənada)* mövqe qazanmağımın da səbəbkarı o, insan idi. Bu mənim lap körpəlikdən qəlbimə bir sevgi toxumu səpmiş gələcək həyatımın keşməkeşli yollarında dayanıb, mətanət və dözümlülük məfhumlarını mənə təlqin eləmiş, ağbirçəkli, nur çöhrəli Nigar nənəm idi. Biz ona «Nigar ciji» deyərdik və Nigar cijim məni öz nağılları, sirli-sehirli söhbətləri ilə uzun illərdən bəri qəlbində toplanmış və o vaxtlar mənim başa düşmədiyim folklor materialları ilə məni sanki əsrarəngiz bir aləmə aparar və nağıllarda deyildiyi kimi heç özüm də bilmədən nənəmin danışdığı nağıl qəhrəmanlarının birinə çevrilirdim.

Bu gün mənim bədii yaradıcılığımda qazandığım uğurların çoxusu bəlkə də Nigar cijimin söyləmələrindən, məni uşaq ikən qoynuna alıb, danışdığı o nağıllardan yarıciddi, yarızarafat deyimlərindən irəli gəlir. Ona görə də ulu tanrıma minnətdarlıq hissilə məni bu çətin həyata hazırlamış Nigar

nənəmə Allahdan rəhmətlər diləyirəm. Bir əsr ömür yaşamış Nigar nənəmə, onun nağıla dönən ömrünə hələ o vaxt «Nigar nənəm bir nağıldı» adlı bir şeir həsr etmişdim.

***Nigar nənəm nuraniydi,***
***Nigar nənəm ayüzlüydü,***
***Ağzı yaşmaq, başında da kəlağayı,***
***Namaz qılan, ağzı Quran, dualıydı,***
***Qurbanlıqda ağ qoyundan***
***Qurban kəsib..***
***Qapı-qapı paylayardı.***
***Su daşından su götürüb***
***Samovarı qaynadardı.***
***Xamralını, şirin kömbə bişirərdi.***
***Fətirləri sulayardı.***
***Kölgəlikdə, ağac altda***
***Taxt üstündə bizə noğul paylayardı.***
***Nənəm şirin bir nağıldı,***
***Nənəm əzəl bir dünyaydı,***
***Nənəm həzin bayatıydı.***
***Nənəm başqa həyat idi.***

Uzun qış gecələrində Nigar nənəm türk əsgərlərinin 1918-ci ildə Azərbaycana gəlişiylə bağlı maraqlı söhbətlər edərdi. Onlar olduğu kimi yadımdadır. Nənəm danışardı ki, 1918-ci ildə ermənilərin Bakıda, Qubada, Şamaxıda azərbaycanlılara qarşı soyqırım törətdikləri zamanı Türkiyədən gələn əsgərlər Nuru Paşanın rəhbərliyi ilə Naxçıvan tərəfdən Ənvər Paşanın və Mürsəl Paşanın rəhbərliyi ilə Qazax-Gəncə tərəfdən azərbaycanlıların köməkliyinə gəldilər. Deyilənlərə görə Ənvər Paşa və Mürsəl Paşanın atlı qoşunu Ağbaba

tərəfdən hələ dağlardan qar yenicə əriyən vaxt çox çətinliklə Anaxatır (indiki Xram çayı) çayını keçib, Heyvalıdan aşaraq Qazax mahalının İncə dərəsinə çatmışlar. İncə çayında sel suları çoxaldığından əsgərlərin çayı keçməsi çətin idi. Kəmərli kəndinin camaatı öküz arabalarından körpü düzəldərək, türk əsgərlərinin seldən keçməsinə şərait yaratmışlar. Kəmərli kəndinin ağsaqqalı ləzgi oğlu Məhəmməd və dəllək Məhəmməd türk əsgərlərini duz-çörəklə qarşılayaraq bildiriblər ki, əgər türk əsgərləri köməyə gəlməsəydilər, mənfur ermənilər İncə dərəsini (Kəmərli, Qaymaqlı, Aslanbəyli) kəndlərinin əhalisini yerlə-yeksan edərdilər. Ənvər Paşanın əsgərləri İncə dərəsinə gəldikləri ilk gündən Aslanbəyli kəndindəki Hacı Mahmud Əfəndi türbəsini ziyarət edir və ağır döyüşdə yaralanan əsgərlər Hacı Mahmud Əfəndinin iqamətgahında qalırdılar.

Köməyə gələn türk əsgərlərinin atlarına kənd əhalisi ot-saman ehtiyatı tədarük edirdilər. Türk əsgərlərinə böyük hörmət bəsləyən İncə dərəsinin əhalisi Ənvər Paşanın tapşırığı ilə yaradılan könüllülər dəstəsinə qoşulur və hərbi təlimlərdə yaxından iştirak edirdilər. Aslanbəyli kəndindən Hacı-Qara Kazım oğlu, Hacı Ümidoğlu, Hacıkərim Abdulla oğlu və digərləri də həmin təlimlərdə hazırlanaraq türk əsgərləriylə Gəncə döyüşlərinə atıldılar. Ənvər Paşanın dəstəsi Gəncəyə çatanda, könüllülərdən ibarət dəstə Gəncədə istehkamların qurulmasında yaxından iştirak edir və 1918-ci il may ayında Ənvər Paşa Hacıkərim Abdulla oğlunu döyüşlərdə göstərdiyi şücaətə görə türk ordusunun çavuşu təyin edir. Oğlu Hacıkərimin bu uğurlarını eşidən Zülfü nənə oğlunu evləndirmək qərarına gəlir və Ənvər Paşanın yanına gələrək oğluna düyün quracağını bildirir. Ənvər Paşa öz əsgəri Ha-

cıkərim Abdulla oğlunu yanına çağırtdırır və ona 3 günlük evə getməyə icazə verir. Zülfü nənə Ənvər Paşaya təşəkkür edir və atın cilovundan tutub çevik bir hərəkətlə atın belinə qalxır və oğlu Hacıkərimlə İncə dərəsinə üz tutur. Kəndə çatandan sonra toy eləyib oğluna Nigar Əhməd qızını (Nigar cijimi) gəlin gətirir. Üç gündən sonra Zülfi nənə oğlu Hacıkərimi Gəncəyə türk əsgərlərilə xidmət etdiyi yerə göndərir. Oğlunu aparan arabaya xurcunlarda yuxa, pendir, qovurma, qoz, fındıq, alma, nar yığaraq türk əsgərlərinə oğlundan sovqat göndərir. Hacıkərim Abdulla oğlu hərbi düşərgəyə çatan kimi Ənvər Paşanın yanına gəlir və xidmət yerinə qayıtmağı haqqında məlumat verir. Ənvər Paşa Hacıkərim Abdulla oğlunun böyük ruhla xidmət etdiyini və ən çətin işlərdən çəkinmədiyini görüb onu Şəmkirdə düşməndən müdafiə üçün qurulan istehkamların tikintisinə göndərir. Öz işinin öhdəsindən layiqincə gələn Hacıkərim Abdulla oğlu tapşırılan bütün işləri ürəklə və vicdanla yerinə yetirirdi. Ənvər Paşa Hacıkərimin müvəffəqiyyətli xidmətini nəzərə alaraq ona yenicə ailə qurduğuna görə bir inək (buzovu ilə birlikdə) hədiyyə verir. Bu xəbəri eşidən Zülfi nənə Qazaxdan Gəncəyə, oradan isə Şəmkirə gəlir və inəyi İncə dərəsinə aparır. İnəyin südündən, qatığından bəhrələnən Zülfi nənə qımqıma (el arasında oxunan mahnı) oxuyan zaman belə deyərmiş:

***Ənvər Paşa, türk oğlu,***
***Xilaskar əsgər ordu.***
***Mənim oğlum Hacıkərim***
***Türklərə əsgər oldu.***
***Oğlum Hacıkərimə***
***Nigar adlı qız aldım.***

***Hacıkərim əsgər getdi,***
***Gəlnimlə yalqız qaldım.***

Zülfi nənə inəyi sağıb qatıq çalarmış və qonşu kənddə yaşayan Fatiqə nənəyə də pay göndərərmiş. Fatiqə nənənin də əri erməni – müsəlman davasında vəfat edibmiş.

Yaxşı yadımdadır, 1970-ci illərdə Sovet hakimiyyəti illərində Nigar nənəm müqəddəs Ramazan aylarında Fatiqə qarı ilə birlikdə Qazaxdan Şamaxıya, oradan isə Qusarın Ənix kəndinə türk əsgərlərinin məzarlarını ziyarətə gedərdilər. Həmin məzarları ziyarət edəndə şam yandırardılar, dualar oxuyardılar.

Bir dəfə nənəm ziyarətə gedəndə məni də özü ilə aparmışdı. Onda mən orta məktəbdə altıncı sinifdə oxuyurdum. Biz ora çatanda nənəmdən soruşdum ki, bu, kimlərin qəbridir. *(Onu da qeyd edim ki, Sovet hakimiyyəti illərində türk qəbrləri çox baxımsız vəziyyətdə idi, hətta insanlar buranı ziyarət etməyə belə qorxurdular).* Rəhmətlik Nigar nənəm hətta türk əsgərlərinin adlarını bir-bir sadalamaqdan çəkinmirdi, həmin türk əsgərlərindən bunların adlarını tez-tez çəkərdi: - Hasan, Mahmud, Ənvər, Kılıc, Hakan, Koç və sair.

Hətta nənəm nəql edərdi ki, onun əri Hacıkərim Abdulla oğlunun babası özü də Anadolu türklərindən olduğundan babamın ana babası Keçəpapaq Mustafa və ata babası Abdulla Kılıc olmuşdur.

Ötən illərin acınacaqlı çağlarından kövrələ-kövrələ danışan, Nigar nənəm göz yaşlarını hər zaman bizdən gizlədərdi. Türk ordusunda xidmət etdiyinə görə Hacıkərim Abdulla oğluna Sovet hakimiyyəti qurulandan sonra rus əsgərləri Qazaxdakı Şəkərin Qalası deyilən yerdə işgəncələr veriblər.

Nənəm danışardı ki, babama işgəncə verilən vaxtlarda nənəmin dalınca at, araba göndərirlərmiş ki, guya ki, ərin səni görmək istəyir, yəqin sənə deyiləsi sözü var. Nənəm də tez yır-yığış edərmiş və araba ilə həmin qalaya çatanda babamın ah-nalə içində səsini eşidərmiş. Sən demə babamın əl və ayaq dırnaqlarını rus əsgərləri kəlbətinlə sökərək babama işgəncə verirlərmiş. İki il işgəncəyə məruz qalan babamın ürəyindəki Vətən eşqi heç zaman sönməyib.

1941-1945-ci illərdə, Böyük Vətən müharibəsi illərində alman faşistlərinə qarşı döyüşlərə də könüllü yollanıb. Hətta nənəm söyləyərdi ki, onun əl və ayaq dırnaqları söküldüyündən babamın ayaqları və əlləri şaxtadan qanqrena olduğundan ağır xəstəlik keçirsə də dava qurtarana kimi öz yolundan gönməyib.

Hələ uşaqlıq illərindən bu yana nənəmin söhbətlərindən bəhrələnərək, gördüyüm müqədddəs türk ziyarətgahları, şəhid türk əsgərlərinin şərəfinə «Tənha türk məzarı» poemasını yazdım»:

«Tənha türk məzarı» lirik–epik poemadır. Bir az əvvəl qeyd etdiyimiz kimi əsər Qafqaz İslam Ordusunun Azərbaycana-Bakıya olan azadlıq və zəfər yürüşünə həsr olunmuşdur. Erməni-daşnak birləşmələrinin azərbaycanlılara – türklərə qarşı apardığı amansız soyqırımı XX əsrin başlanğıcından daha geniş vüsət almış, bu işdə bolşevik kartından xüsusi ustalıqla istifadə edən daşnak qüvvələri və onların havadarları Azərbaycanda – Bakıda yaşayan türk soyunun kökünü kəsməyə böyük bir həvəs və hərisliklə başlamışdılar. Türk hərbi hissələrinin və türk ordusunun Bakıya gəlişi onların bu arzusunu da gözündə qoydu. Zəminə Xınalı poemanı çox maraqlı və cəlbedici bir təkhiyə dili ilə başlayır:

***Şamaxı ətrafı yol kənarında,***
***Bir türk əsgərinin məzarı vardır.***
***Bu yoldan ötənlər, keçənlər deyir,***
***Bu məzar tək-tənha, qərib məzardır.***

Və burada şairə özünün əvvəlki söhbətində olduğu kimi mərhum Nigar nənəsinin adını çəkir. Çünki hələ lap körpə ikən Nigar nənə bu məzar haqqında ona ilk bilgiləri vermişdi:

***Hələ uşaq idim Nigar nənəm də,***
***Belə söyləyərdi, belə deyərdi:***

Sonrakı bəndlərdə müəllif öz təkhiyəsini davam etdirərək erməni-daşnak birləşmələrinin Qazax və Gəncədən başlamış Şamaxı-Ağsu ətrafında, Lənkəranda, Qubada, Qarabağda, Bakıda törətdikləri vəhşilikləri poetik bir şəkildə qələmə alır. Təbii ki, o dövrdə bu vəhşiliklərin qabağını Azərbaycana yürüş edən Qafqaz İslam Ordusu və onun əsgərləri ala bilərdilər və aldılar. Bu yürüş zamanı qədərincə türk əsgərləri də şəhid olmuş, onların bir qismi Azərbaycanda dəfn olunmuş, bəzi məzarlar adsız və ünvansız olaraq qalmışdır. Belə məzarlardan biri Şamaxı-Bakı magistral yolunun kənarındakı tənha türk əsgərinin məzarıdır. Müəllif poemada qorxubilməz türk əsgərlərinin şücaəti və qəhrəmanlıqlarını şirin bir dillə, səmimi bir istəklə tərənnüm edir:

***O uzaq elləri çox yaxın bilib,***
***Azəri yurdunun yaman günündə***
***Canıyla-qanıyla yardıma gəlib.***
***Gəlişi kor edib, xain düşməni,***
***Girib gözlərinə ox kimi dəlib.***

Əslində poemada söhbət və qəhrəmanlıq Şamaxı yolu üzərində şəhid olub və adsız dəfn olunmuş türk əsgərindən getsə də müəllif burada ümumiləşmiş bir şəkildə cəsur türk mehmetçiyinin qəhrəmanlıq və vətənsevərliyini qələmə alır:

***Ərzurum, Qars keçib, Murova gəlib,***
***Dumana, çiskinə qırova gəlib,***
***Şəhidlik müqəddəs, uca zirvədir,***
***Canından keçməyə girova gəlib.***

Bəli, bu yolda şəhidlik də var, girov düşmək, əsirlik həyatı da. Lakin torpaq məhəbbəti, doğma türk soyuna sevgi və məhəbbət, vətən və azadlıq yolunda ölüm-dirim savaşı onu ermənilərə qarşı mücadiləyə səsləyir:

***Qana-qan deyirdi qanlı döyüşdə,***
***Bayrağı qaldırıb öndə gedirdi.***

Türk əsgəri, türk mehmetçiyi döyüş bayrağını həmişə ucada tutub, canını verib, amma bayrağı enməyə qoymayıb. Müəllifin təbirincə bizim qəhrəman canından artıq sevdiyi bayrağı göyə qaldıraraq:

***Azəri torpağı azad olunca,***
***Qisas almağına qəlbən and içdi,***
***Torpağa göz dikən Xain düşmənlər,***
***Göyçəyə, İrəvan xanlıqlarına,***
***Qazax mahalının yaylaqlarına***
***Dilican dərəsinə tamah salmışdı.***

Müəllifin təsvirinə görə Azərbaycanın bütün bölgələrində soyqırıma, qətl-qarətlərə başlayan erməni daşnakları türk əsgərlərinin qəhrəmanlıq savaşına tuş gəlir. Qanlı döyüşlərdə məğlub olan erməni birləşmələri qaçmağa başlayır:

***Qorxuya düşərək düşmən ordusu,***
***Geriyə çəkilib hey qaçırdılar,***
***Hayana gəlmişdi, hara gedirdi?***
***Yolların azaraq hey çaşırdılar.***
***Ölənlər öldülər, qalanlar qaldı,***
***Şanlı türk ordusu bir zəfər çaldı.***

Poemada şairə türk ordusunun zəfər dolu, döyüşləri haqqında ürək dolusu danışsa də, sonsuz bir kədərlə həm də türk mehmetçiyinin bu savaşda həlak olduğunu önə gətirir. Son nəfəsində bayrağı öpərək gözlərini əbədi yuman türk əsgəri indi böyük bir elin, obanın oğluna çevrilir:

***Köksündən aldığı ağır yaradan,***
***Torpağa türkün də qanı töküldü,***
***Tanrı dərgahında ulu yaradan,***
***Türkə dayaq oldu düşmənlər öldü,***
***Qanıyla suvardı qara torpağı,***
***O son nəfəsində öpdü bayrağı.***

Poemanın sonlarına yaxın müəllif özünün lirik ricətlərinə üz tutur. Bu tənha məzarda yatan türk oğlunun bütün elin oğlu olduğunu bildirir, o məzarı insanlar bir müqəddəs qibləgah bilir, o məzar işıq saçır, nur saçır, sönməz bir günəş kimi tarixin yaddaşına yazılıb. Bu məzarda yatan türk oğlu Azəri-türk birliyinin rəmzidir:

***Bu məzar tək deyil, əsrin yaddaşı,***
***Silkələr, oyadar hər vətəndaşı,***
***...Bu şəhid məzarı, bu türk məzarı,***
***Günəştək parlayar, çıraq tək yanar,***
***Azadlıq uğrunda tökülən qanı,***
***Səcdəgah yeridir hər bir insanın.***

Poemadan çıxan nəticə budur: Vətən, torpaq uğrunda canından keçən hər bir şəhidimizin məzarı səcdəgah, qibləgahdır, insanların and yeri, ziyarətgahıdır.

«Tənha türk məzarı» poeması Zəminə Xınalının çox dəyərli əsərlərindən biridir. Əsər türk dilinə tərcümə olunmuş, 2007-ci ildə həm türk, həm də Azərbaycan dilində kitab şəklində çap edilmiş, musiqili ədəbi kompozisiya kimi hazırlanaraq türk və Azərbaycan dilində disk şəkildə buraxılmışdır.

Kitaba həm türk, həm də Azərbaycan dilində ön söz yazan akademik Nizami Cəfərov yazır: «Türk əsgərinin obrazı hər bir azərbaycanlı üçün müqəddəsdir.

Azərbaycan torpaqlarında yüzlərlə türk mücahidinin məzarı vardır ki, bu məzarlar hər bir azərbaycanlı üçün bir ziyarətgah, ümumtürk qardaşlığının unudulmaz nişanəsidir. Azərbaycan xalqı türk əsgərinin məzarına bir övliyə məzarı kimi baxmış, tarixin ən mürəkkəb dövrlərində belə onunla fəxr etmişdir.

Zəminə Xınalının «Tənha türk məzarı» lirik poeması da xalqımızın bu müqəddəs hisslərinin ifadəsi olmaqla yanaşı, hərbçi şairənin özünü ifadəsi və fərdi azərbaycanlı sənətkar duyğularının təzahürüdür». *(«Tənha türk məzarı» kitabı, Bakı-2007, səh. 44).*

«Təhna türk məzarı» poeması haqqında Azərbaycan mətbuatında kifayət qədər informasiyalar verilmişdir. Filologiya elmləri namizədi Şakir Albalıyev «Tənha türk məzarı» poeması haqqında danışarkən yazır: «Müəllif bildirmək istəyir ki, bizim yanından ötüb keçdiyimiz bu türk əsgərinin qəbri adi məzar deyil, ötən yüzilliyin qanlı-qadalı olaylarını bilmərrə yaddan çıxarmamağımız üçün görk abidəsi – əsrin yaddaşıdır. Hər birimiz bu məzarın yanından ötüb-keçərkən keçmişimizi xatırlamalı, dostumuzun kim, düşmənlərimizin kim olduğunu dəqiq bilməliyik. Məhz buna görə də əbəs yerə 2-ci misrada vurğulanmır ki, «Silkələr, oyadar hər vətəndaşı». Bəli, bu tənha məzarın lal sükutu hər birimizin içində bir hayqırtı-haray qopardır, hər birimizin yatmış sinirlərimizi tərpədib oyadır – qəflət uyğusundan bizi ayıldır. Bir sözlə «Tənha türk məzarı» türk əsgərinə qoyulmuş mənəvi əbədi yaşarlıq abidəsi kimi dəyərlidir». *(«Kredo» qəzeti, 12 aprel, 2008-ci il).*

Qeyd edək ki, türkçülüyə bağlılıq, türk soyuna, kökünə yaxınlıq Z.Xınalının bütün yaradıcılığında və həyatının bəzi maqamlarında özünü göstərir. Lap əvvəldə danışarkən qeyd etmişdik ki, şairlik Allah vergisi, Tanrı töhfəsidir. Şairlər ruhlara yaxın olur, ruhlarla danışa bilir. Z.Xınalının həyatı da bu töhfələrdən xali deyildir. İstər röyalarda, istərsə də adi həyatında belə məqamlara rast gəlmişdir. Bu məqamları isə şairə yeri gəldikcə özü danışır. 1991-ci ilin payızında başına gələn bir hadisəni o belə xatırlayır: "Payız vaxtı idi. "Vahid" poeziya bağı ətrafında uşaqlarımla gəzinirdim. Kiçik oğlum Ayaz kolyaskada idi. Axşam düşürdü. Birdən böyük oğlum Arzu İçərişəhərin qala divarlarını göstərib soruşdu:

- Ana bu nədir?

- İçərişəhərdir – dedim-Bakı keçmişdə orada yerləşirdi.

Uşaq əl çəkmədi ki, gedək hasarın o tərəfinə baxaq.Elə qala qapısından təzəcə keçmişdik ki, yaşlı bir adam mənə yaxınlaşaraq:

- Ay qızım, mənə kömək elə, mən azmışam, evimi tapa bilmirəm.

Bir qədər aşağıya düşdük və o evin istiqamətini mənə göstərdi. Mən gedə-gedə dönüb ona baxdım, ancaq nədənsə içimdə bir qorxu, təlaş var idi. Həm hava qaranlıqdı, həm də bərk külək əsirdi. Lakin buna baxmayaraq qəlbimdən bir istək gəlirdi ki, ona kömək edəm, onu yarı yolda qoymayam. Bir xeyli gedəndən sonra – çatdıq – deyə bir taxta qapını mənə göstərdi. Mən qapını döydüm. Yaşlı bir qadın qapını açdı, təəccüblə mənə və uşaqlara baxaraq - Nə istəyirsiniz? - dedi.

Mən yana çevrilib dedim ki, bu qoca babanı öz evinə gətirmişəm. Arvad soruşdu:

- Hansı babanı?

Sol tərəfə çevrildim ki, qoca kişini göstərəm. Baxdım ki, heç kəs yoxdur. Amma gəldiyimiz tərəfə baxanda gördüm ki, həmin adam elə bil ki. hərbi şineldə sanki göyə tərəf uçur. Şinelinin də arxasını külək tərpədirdi. Mən onu qadına göstərib bax, bax – o kişini deyirəm. Qadın yenə təəccüblə - Ay bala, hansı kişi? Sən nə danışırsan?

Sözün düzü özüm də məəttəl qalmışdım. Qadın qorxduğumu hiss edib mənə bir stəkan su gətirdi və mən hadisəni olduğu kimi qadına danışdım. Və o:

- Hə, bala o mənim atamdır, atamın ruhudur. Bir dəfə də o başqa bir adamla gəlib bura. Onu 1918-ci ildə ermənilər öldürüb, evindən nigaran gedib. Ona görə də onun ruhu bu-

ralardadı, evində-eşiyində, damında-daşında dolaşır.

Sonra arvad mənə ürək-dirək verdi. Atam hərbçi olub – dedi – Onu işgəncə ilə öldürüblər. Qorxma, onun ruhundan sənə ziyan dəyməz".

Bu hadisəni ona görə xatırlatdıq ki, bəlkə də belə hadisə və məqamlar da Z.Xınalının türklərə həsr olunmuş "Tənha türk məzarı" kitabının yazılmasının səbəblərindən biri olmuşdur.

Z.Xınalının poemaları içərisində «Bir gecə layla çalırdı» əsəri də çox təsirli və maraqlıdır. Poemada Qarabağın axar-baxarlı ellərindən birinin təsviri verilir. Müharibə şəraitində yaşayan insanlar qorxu içərisindədir. Hər tərəfdə nisbi sakitlik olsa da hərə öz işi ilə məşğuldur. Gecə vaxtı gənc ana öz körpə balasını beşikdə qoyub ona şirin layla çalır. Öz həzin laylasıyla balasını uyudan və ona müsəlləh bir əsgər kimi keşik çəkən gənc ana xəyal dünyasıyla baş-başadır. Bir anlığa onun gözləri qarşısında körpəsinin gələcək həyatı canlanır. Xəyallarından sanki bir saray quran ana övladının boya-başa çatacağına, Vətənə layiqli bir övlad olacağına özünü elə inandıra bilmişdi ki, ayağının altına sərilmiş xalını uçan xalçaya bənzədirdi. Xəyal duyğusunda xoşbəxt anlarını, övladının firavan həyatından görəcəyi xoş günləri arzulayarkən ana haradan biləydi ki, başının üstünü alan qara bulud onun bütün arzularını ürəyində qoyacaq. Qara günlərin çaparı kimi ahnalə dolu anlar, saniyələr ananın gözü qarşısında qəfil çaxan ildırım kimi şaqqıldayan mərmi, güllə yağışlarından zərbə almış övladının yaralı quş kimi çırpınacağından xəbərsiz imiş hələ ana:

***Körpənin nazı ilə,***
***Ana hey oynayırdı,***

*Yorulmaq nədir görən,*
*Ana heç bilməyirdi.*

*Xoş həniri, qığıltısı,*
*Ananın ilk sevinciydi,*
*Var-dövlətdən qiymətliydi,*
*Körpəsi ona inciydi.*

*Ana beşik başında,*
*Elə bil keşik çəkir,*
*Yorulub, yata bilmir,*
*Gözləri yolmu çəkir?*

Birdən körpə yuxudan oyanıb, anasından su istəyir, bir anlığa körpəsindən su üçün aralanmış ananı dəhşət bürüyür. Qəflətən atılan mərmidən yer-göy lərzəyə gəlir, top-tüfəng səsi, haray, qışqırıq aləmi bürüyür. Bir anın içərisində hər yan toz-dumana bürünür. Qəfil yağan mərmi yağışları qonşu evləri də darmadağın etmişdir. Haray çəkib qışqıranlar qaçanlara qarışır, qaranlıqda heç kim bir-birini tanımır. Hər kəs öz doğmasını, əzizini axtarır. Birdən su üçün çölə çıxmış ananın yadına körpəsi düşür.Qışqıraraq beşiyə sarı qaçır. Mərmi zərbəsindən ikiyə bölünmüş, toz-dumana bürünmüş otağın ortasındakı beşikdən körpəsini götürən ana onu köksünə sıxır. «Qorxmuş» balasını ovundurmaq istəyir. Fəqət bala sağdırmı? Mərmi qəlpələrindən körpə çoxdan ölmüşdür. Ananı dəhşət bürüyür:

*Az qala dəli olub,*
*Ana özünü itirib,*
*Balasını götürüb,*
*İstədi layla çalsın,*

***Körpəsini şən görsün,***
***Lakin nəfəs gəlmirdi,***
***Körpə daha gülmürdü,***
***Demə qəfil güllələr,***
***Körpəni öldürmüşdü.***

Ana üçün bundan ağır dərdmi olardı? Gözünün qarşısında ciyərparan parçalana, didik-didik ola, buna hansı ana dözər görəsən?

***Ana üçün bu dağdı,***
***Başına daşmı yağdı,***
***Layla çaldığı yerdə,***
***Fələk balasın aldı.***

İstedadllı jurnalist Fariz Çobanoğlu Zəminə Xınalının sözügedən poeması haqqında danışarkən yazır: «Ən əvvəl onu demək istəyirəm ki, Zəminə Xınalı şairlikdən, istedadlı bir söz adamı olmaqdan öncə qayğıkeş, Vətənin, ana torpağın, ailəsinin, elə həm də bütün Azərbaycan övladlarının qayğısını çəkən, onun dərdlərini yaşayan bir anadır. Bu ananı biz bütün cəbhələrdə döyüşən, vuruşan bir əsgər kimi görürük. Bu ana öz balası uğrunda döyüşür. Bu ana ləyaqətli sözün, fikrin keşiyində qəhrəman bir əsgər kimi dayanır.

Zəminə Xınalının yaradıcılığında, onun işıq üzü görmüş bütün əsərlərində dediyim kimi, müqəddəs bir ana obrazı dayanır:

***Bir gecə layla çalırdı,***
***Körpə şirin balasına,***
***Şirin yuxu diləyirdi,***
***Ana ciyərparasına.***

Bu misralar şairənin «Bir gecə layla çalırdı» poemasındandır. Təkcə bu misralar bəs edir ki, ən qəddar, ən hissiz, duyğusuz adamın da qəlbində anaya və onun dünyasına rəhm oyanmış olsun. Üzərində dayandığımız şeirdə nə qədər kədərli olsa da düşmənin rəhmsizliyi göz önündə canlandırılıb. Ermənilər ananın şirin-şirin layla çaldığı həmin o balaca körpəsinə qıyıb, onu məhv ediblər. Ana qana boyanmış körpəsini ağlayır:

***Ağı deyir, ablayır,***
***Ana kömək istəyir,***
***Ana imdad diləyir,***
***Fələk onu görməyir».***

*(«Naxçıvan» qəzeti, 31 yanvar 2009-cu il)*

Bu gün döyüş bölgəsində, mərmi altında yaşayan insanların böyük əksəriyyəti bax bu gənc ana timsalındadır. Lakin hər qaranlıq gecənin işıqlı bir gündüzü var deyiblər. Sonda müəllif bütün insanlara üz tutur:

***Heç bir ana görməsin,***
***Dünyada övlad dağı,***
***Dillərinə gəlməsin,***
***Nə bayatı, nə ağı.***

Poemanın sonunda müəllif bütün əsərlərində olduğu kimi özünün vətənpərvərlik, qəhrəmanlıq və döyüşkənlik ruhuna sadiq qalıb. Şairə sanki gənc ananın başına gələn müsibətləri, qətl-qarətləri görəndən sonra hayqırır, nərə çə-

kir, insanları düşmənə qarşı mübarizəyə, döyüşə, qələbəyə çağırır:

***Durun millət ayağa,***
***Gedək qisas almağa,***
***Üçrəngli bayrağımızı***
***Xankəndinə sancmağa.***

***İntiqam, qisas deyib,***
***İrəliyə gedək biz,***
***Yurdlara sahib olaq,***
***Məhv olsun düşmənimiz.***

Zəminə Xınalının vətənpərvər ruhlu əsərləri içərisində onun mənzum məktubları da var. Bunların içərisində şairənin «Oğlum Arzuya məktub» və «Ayaza məktub» poemaları xüsusi yer tutur. Azərbaycan ədəbiyyatında və poeziyasında mənzum məktublar ayrıca bir bədii forma kimi uzun illər işlənmişdir. XIX əsrdə Qasım bəy Zakirin, S.Ə.Şirvaninin, Mirzə Fətəli Axundovun mənzum məktubları məlumdur. Bu gün də bu ədəbi formadan istər mənzum, istərsə də mənsur formada istifadə edilməkdədir. Z.Xınalı da bu ədəbi formadan istifadə edərək hər ikisi hərbçi olan və özündən uzaqda olan övladlarına ana sevgisindən, ana məhəbbətindən və istəyindən yaranan belə bir məktub-poema yazmışdır.

Əslində bu məktubun hər ikisi başdan ayağa vətənə, doğma torpağa məhəbbət aşılanması hissləri ilə yoğrulmuşdur. Hər iki əsərdəki ana obrazı – Zəminə Xınalı tənhalığa baş əyməyən məğrur bir azərbaycanlı qadınıdır. O, övladlarını vətənpərvərlik ruhunda tərbiyə etmək onun ən ali vəzifəsindən, vətənə olan sədaqətindən doğan bir məhəbbətdir. Qardaş Türkiyə Respublikasında hərbi təhsil alan böyük oğluna

məktub yazmaq istəyən ana «Oğlum Arzuya məktub» adlı bir poema-məktub təqdim edir.

***Salam əziz oğlum,***
***Sabahın xeyir olsun,***
***Gündüzlərin uğurlu,***
***Axşamın xeyir olsun.***

***Ürəyimin arzusu,***
***Mənim Arzu balamsan,***
***Hamı səni çox sevir,***
***Ürəklərdə qalansan.***

Əslində fikirləşirsən ki,lap elə məktublarda olduğu kimi adi sözlər, ifadələr, eyni hisslər və duyğuladır. Amma buradakı axıcılıq və şirinlik oxucunu doğrudan da cəlb edir. Ana övladına nəsihət dolu sözlərində:

***Hələ cavansan oğlum,***
***Arzuların öndədir,***
***Allah səni qorusun,***
***Qismətin xoş gündədir.***

- deyə oğlunun seçdiyi çətin və şərəfli peşəni alqışlayaraq öz xeyir-duasını da verir. Öz doğma balasının vətən, torpaq sevgisinə yaxşı bələd olan ana bu sevginin onun canına, qanına hopduğunu misraların dili ilə belə bildirir:

***Hərb sənəti seçmisən,***
***Yolun uğurlu olsun,***
***Sənin ömür yolunda***
***Taleyin nurlu olsun.***

*Bayraq, torpaq sevgisi,*
*Ruhunda, canındadır,*
*Azərbaycan sevgisi*
*Qeyrətli qanındadır.*

Gözünün nuru, ilk övladına olan sevgisini tanrı payı kimi qəbul edən şairə Ulu Tanrı qarşısında baş əyir:

*Sən mənim ilk nübarım,*
*Sən mənim baharımsan,*
*Ürəkdə arzularım,*
*Tanrıdan xoş payımsan.*

*Şükür olsun Tanrıya*
*Səni mənə pay verib,*
*Tənha qalmayım deyə*
*Ayazı da tay verib.*

*Deyirlər ki, mələklər,*
*Qoşa qanadlı olur.*
*Oğul anaları da*
*Ürəkli-adlı olur.*

Hələ uşaqlıq illərindən atalarının vaxtsız dünyadan köçməsi, körpələrin ürəyində yurd salan ağrıları görə-görə göz yaşlarını gizlədə bilən ananın dili ilə desək:

*Hələ uşaq idin sən,*
*Atan köçdü dünyadan,*
*Nə tez sınağa çəkdi,*
*Ulu Tanrı – Yaradan.*

*On iki yaşındaykən,*
*Qayğılara qarışdın,*
*Çətin, yaman günlərə,*
*Uşaq ikən alışdın.*

- deyə hələ lap uşaqlıq illərindən çətinliklərə sinə gərdiyi bildirilir.

Körpəlikdən ailə qayğılarını çiynində daşıyan oğluna bir güvənc yeri kimi baxır ana:

*Böyük oğul atanı,*
*Əvəz edər deyiblər,*
*Səni görüb-bilənlər,*
*Müdrik bala deyiblər.*

*Ağıl yaşda deyil ki,*
*Başda olur deyiblər,*
*Saxta, soyuq, tufan-qar,*
*Qışda olur deyiblər.*

Gah işə, gah evə tələsən ana el dili ilə desək «bir qarnı ac, bir qarnı tox» övladlarının dözümlü olduğunu, heç kəsdən ağırlıq ummayaraq, olana şükür eyləyib çətinliyə sinə gərərək yalnız oxumağı, əla qiymət almağı qarşısına məqsəd qoyan oğluna:

*Sən ki, ömür yolunda,*
*Min bir əzab çəkmisən,*
*Dərs vaxtı məktəbə də*
*Bəlkə lap ac getmisən.*

*Sənin ağlın, kamalın,*
*Hamını valeh etdi.*
*Bizim yaman günümüz,*
*Elə o gündən bitdi.*

- deyə təskinlik, ürək-dirək verir.

Çətinliklərə baxmayaraq tale ilə barışan övladını ana öz poetik deyimlərilə öyür:

*Gecə-gündüz çalışdın,*
*Şagirdlərlə yarışdın,*
*Əla qiymət alanda,*
*Taleyinlə barışdın.*

*Səkkizinci sinifdən,*
*Məktəblə vidalaşdın*
*Hərbçi olmaq üçün*
*Qərib elə alışdın.*

Qərib və qürbət eldə təhsil alan oğlundan ayrı darıxan ananın nigarançılığı misra-misra muncuq kimi düzülür:

*Sən gedəndə elə bil,*
*Mənzilimiz boşaldı,*
*Sənin kiçik qardaşın,*
*Ayaz yanımda qaldı.*
*Yamanca darıxırdım,*
*Elə sən gedən gündən,*
*Hər saatda, hər anda,*
*Nigaran idim səndən.*

«Oğlum Arzuya məktub» poeması Zəminə Xınalının sırf avtobioqrafik duyğuları, əhval-ruhiyyəsidir. Poemanı oxuduqca məlum olur ki, ana bu məktubu-poemanı oğlundan gələn məktubu oxuyandan sonra yazıb. Məktubu öz gözləri ilə oxuyan, məktubun içərisindəki şəkli görən ana sanki xəyalda – yuxudaymış kimi kişi qeyrətli oğlunun artıq böyüdüyünü görür, qürurlanır.

***İki mininci ildə,***
***İlk məktubu alanda,***
***Şəkil də göndərmişdin,***
***Anan boyuna qurban –***
***Bax bu mənəm demişdin.***
***Kursant libasında sən,***
***Uca boylu olmuşdun.***
***Oxuyub məktubunu,***
***Şəkilindən öpmüşdüm,***
***Oğlum böyüyüb deyə,***
***Bəlkə yuxu görmüşdüm.***

«Tanrıya şükür edən bəndələrdən Tanrının da xoşu gəlir» - deyib babalarımız. Bax elə ona görə də Zəminə Xınalı deyir:

***Tanrım sənə çox şükür,***
***Sənə minnətdaram mən.***

Və yaxud:

***Sənə şükürlər olsun,***
***Sən, ey ulu Yaradan,***
***Bizə dayaq olan da,***
***Sənsən. Ulu Yaradan.***

*Dərgahına sığınıb,*
*Halalığa qovuşduq,*
*Tanrının işığında,*
*Yaman gündən sovuşduq.*

Ulu Tanrının verdiyi paya tapınaraq onu özünə pənah tutan şairə övladlarını da Tanrıya əmanət edir:

*Mənim oğullarımı,*
*Qanadında saxla sən,*
*Möcüzələr yaradan,*
*Ucalt uca bəxtlə sən.*

Övladına ürəyim – canım söyləyən şairə vətəni canından artıq sevən övladının xəbərdar olduğu ilk sevgisini də alqışlayır:

*Sən müqəddəs vətəni,*
*Candan əziz sevirsən,*
*Ürəyində, qəlbində,*
*Bir gözəl də sevirsən.*

*Sənin ilk sevginə də,*
*Sənin ürəyinə də,*
*Eşqin, diləyinə də,*
*Anan qurban ay oğul!*
*Sev, ürəyin sevgiylə,*
*Məhəbbətlə hey dolsun,*
*Ucal vicdan, qəlb ilə,*
*Tanrı özü qorusun.*

Aylar, illər, fəsillər keçir, ömrunun gənclik illərini yavaş-yavaş yola salmağa hazırlaşan ana ötən illərinə öz xəyal dünyasıyla səyahət edir. Özü-özlüyündə danışan kimi bəzən yumorlu anları da yada salır:

***Sənə qurban, ay oğül,***
***Heç olmasa zəng elə,***
***Uşaq vaxtı dəcəldin,***
***Yenə məni dəng elə.***

***İllər quş qanadında,***
***Uçub getdi sürətlə,***
***Sizi belə böyütdüm ,***
***Vətənə məhəbbətlə.***

Vətən babaların əmanətidir. Əsrlər boyu vətən uğrunda savaşlarda neçə-neçə ərlər, ərənlər canlarını fəda veriblər. Torpaq uğrunda ölümdən belə qorxmayan igidlərimizin sırasında Zəminə Xınalının da ömür-gün yoldaşı var. Candan əziz sevdiyi Vətəni övladlarına göz bəbəyi kimi qorumağa əmanət edən bir igidin xanımının da öz tövsiyyələrində belə deməsi çox təbiidir. Vətən sevgisini özünə var-dövlət, tükənməz sərvət hesab edən ana səbrlə, təmkinlə deyir:

***Atan Vətən uğrunda,***
***Canını fəda etdi,***
***Çox sevdiyi vətəni,***
***Bizə əmanət etdi.***

***Torpaq, bayraq sevgisi,***
***Sənin andın, amalın,***

***Mənim var-dövlətimdir,***
***Sənin ağlın, kamalın.***

Qismətdən qaçmaq olmaz –deyərək övladına xoş gün diləyən ana hər iki övladını zabit görmək arzusunda yaşayıb-yaradır:

***Oxu, leytenant ol ki,***
***Çiynində ulduz görüm,***
***Xoşbəxt gününü görsəm,***
***Bil ki, uzanar ömrüm.***

-deyə kiçik oğlunu da böyük oğluna əmanət edən müəllif yazır:

***Ayaz sənə əmanət,***
***Böyük qardaşı sənsən,***
***Azəri-türk xalqının,***
***Zabit balası sənsən.***

Həyatın enişli-yoxuşlu yollarından zirvəyə yol alan şairə xalqının ona və ailəsinə olan hörmət və məhəbbətini duyaraq:

***Bizim ömür yolumuz,***
***Soyuq səngərdən keçdi,***
***Nümunəvi ailə tək,***
***Xalqım da bizi seçdi.***

- deyir. Öz-özünə təsəlli verməyi bacardığı qədər də halal zəhmətin bəhrəsinə şükürlər söyləyən ana:

***Bizim də qismətimiz,***
***Halalliqdan yoğruldu,***

Və yaxud:

***Ulu Tanrıya şükür,***
***Arzularım çin oldu.***

- deyərək yazdığı məktuba cavab gözləyir, elə onun öz diliylə desək:

***Tanrı səni qorusun,***
***Qürbətdə, uzaqdasan,***
***Məktubumu oxuyub,***
***Mənə cavab yazarsan.***

Qeyd etməliyik ki, "Oğlum Arzuya məktub" poeması şairənin öz oğluna olan mənzum məktubu olsa da burada çox dərin ictimai-siyasi məna var. Şairə bu məktubu yazmaqla üzünü təkcə öz övladına tutmur, vətənini, elini, obasını sevən bütün vətən oğullarına müraciət edir, onları xalqı, vətəni sevməyə səsləyir. Bildirir ki, bizim hamımızın canımızdan da artıq sevdiyimiz bir vətənimiz var – Azərbaycanımız var və biz harada oluruqsa-olaq öz doğma vətənimizi, yurdumuzu, dövlətimizi – Azərbaycanımızı sevməliyik. Ulu öndərimiz, ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi – "Fəxr edirəm ki, mən azərbaycanlıyam".

Şairənin bu məzmunda yazdığı ikinci poeması "Oğlum Ayaza" adlanır.Burada da eyni ruh, eyni ideya hakimdir; Torpağa sevgi, anaya, balaya məhəbbət, güclü vətənpərvərlik. Onun Ayaza yazdığı poemadakı hadisələri hələ gənclik illərindən övladlarıyla baş-başa qalan ananın övlad duyğularından ruhlanaraq onların vətən yolunda tutduqları mövqeyi ananın ürəyində çiçək açan arzularının davamı kimi qiymətləndirmək olar. Tarixi yaradanlar da, elə onu yaşadanlar da in-

sanlardır. Ancaq bir ömür payında bu qədər dözümlü olmaq, bu dözümün içərisində şərəfli və çətin peşəyə yiyələnməyin özü də böyük bir qəhrəmanlıqdır. Belə insanları, məhz belə qadınları zəmanə özü yetişdiirir. Haqqında söhbət açdığımız Zəminə xanım da zəmanənin yetirdiyi belə qadınlardandır. Onun kiçik oğluna yazdığı mənzum məktub-poema da hələ bir az kiçik olan və gələcəyin şərəfli Azərbaycan zabiti olan övladına – başqa sözlə bütün əsgər balalarına söylədiyi duyğularıdır. Burada hər şeydən əvvəl ananın doğma balasına olan ana məhəbbəti, ana sevgiisi ön plana çəkilir. Işıqlı mənzilində gözünün nurunu övladına verməyə hazırlaşan ana hər şeydən öncə dünyanın ən böyük xəzinəsini də övladının varlığına bənzədir. Duyğularıyla baş-başa qalan ana, tənhalıqdan cana gələndə ilham pəriləri ilə söhbətləşir. Bu isə şeiriyyata gedən yoldur. Ancaq yolları enişli-yoxuşlu olan ana qayğılardan qorxmur, şərəfli və çətin hərbi peşəsi ilə bərabər ailə qayğılarından da zövq alır. Övladlarını hələ orta məktəbdən hərbi peşəni seçməyə, hərbi məktəblərdə təhsil almağa yönəldir. Kiçik övladının bu müqəddəs peşəni seçməsindən qürur duyan ana ürəkdən sevinir, balasına xüyir-dua verir:

***Adın Ayaz olsa da,***
***Özün soyuq olmadın,***
***Hərb sənətin seçəndə,***
***Heç yolundan qalmadın.***
***İstəyin vətən eşqi,***
***Vətən andın, amalın,***
***Müdriklərə bənzəyər,***
***Sənin ağlın, kamalın.***

Vətən üçün ağıllı, layiqli övlad yetişdirən ana elmli-bilikli övladının yalnız nəvazişini çəkməklə kifayətlənmir, yeri gələndə onu danlamağı da unutmur:

***Nə yaxşı ki, vaxtında,***
***Elmin yolunu seçdin.***
***Uşaqlıq illərindən,***
***Eniş-yoxuşlar keçdin.***
***Kimsə səni anlamaz,***
***Mən anlaram ay oğul***
***Sözümə baxmayanda,***
***Səni danlaram oğul.***

Adətən analar övladlarının qayğısını çəkdiyi qədər də soyuqqanlı olurlar. Həm nəvazişli, həm də soyuqqanlı ananın həyat tərzi, onun yaradıcılığı, çətin peşəsidir. Həm ana, həm də atalıq missiyasını çiyinlərində daşıyan şairə yazır:

***Atasız böyüsən də,***
***Ana öyüdü aldın.***
***Dərslərini oxudun,***
***Ona görə ucaldın.***

İçdiyi andına sadiq olan övladına öyüd-nəsihət dolu misralarında şairə:

***Vətən sevənlər yalnız,***
***Hərb sənətin seçərlər.***
***Bayraq, millət sevənlər,***
***Vətən andı içərlər.***

***Andın şərəfli anddır,***
***Andına sadiq ol sən.***
***Vətənin xidmətində***
***Vətənə layiq ol sən.***

- deyə oğluna vətənə sədaqət ruhu aşılayır.

Vətənə layiqli övlad böyütmək hər bir valideynin arzusudur. Bunun özü də vətənə olan məhəbbətdən, istəkdən, ən əsası isə vətən sevgisindən irəli gəlir. Z. Xınalının öz doğma övladlarına olan ana məhəbbəti şübhəsiz ki, onun özünün də valideynlərindən pərvazlanır. Şairə hər zaman ata-anasına məhəbbətlə, cəmiyyətdə qazandığı nüfuzu ilə, ağsaqqal-ağbirçəklərə hörməti ilə sayılıb seçilən insanlardandır:

***İlahi! Mən nələr çəkirəm görən,***
***Bunları heç duyan, bilən vardımı?***
***Bizə uşaq ikən noğul paylayan.***
***Nurani nənələr görən sağdımı?***

- söyləyən şairə atası Məhəmməd müəllimə təşəkkür dolu şeirlərində belə deyir:

***Təmiz qəlb, saf vicdan verdiyin üçün,***
***Ata vüqarının qurbanı olum.***
***Doğru söz, düzgün yol seçdiyin üçün,***
***Ata ilqarının qurbanı olum.***

Ata-ana məhəbbətini, övlad sevgisini Tanrı sevgisi ilə birləşdirərək yurd istəklərini, vətən məhəbbətini önə gətirən şairə həyatda bir çox çətinliklərlə üzləşsə də, dəbdəbəli həyatdan, xoş güzərandan uzaq olsa da, maneələrə, çətinlik-

lərə sinə gərərək öz nikbin ruhunu həmişə uca tutmuş, ulu Tanrıya şükranlığı ilə canından artıq sevdiyi doğma Azərbaycanımızın bir övladı kimi öz işi, əməlləri ilə onun xidmətindədir.

Z. Xınalının ən maraqlı və diqqətçəkən əsərlərindən biri "Ötən illərimdən xatirələr" poemasıdır. Poema ustad Şəhriyarın anadan olmasının 100 illiyi münasibətilə yazılmışdır. Yüz bənddən ibarət olan poema ustadın "Heydər babaya salam" poemasına nəzirə olaraq qələmə alınmışdır. Azərbaycan poeziyasında "Heydər babaya salam" poeması az qala ayrıca bir ədəbi formaya çevrilmiş və Azərbaycanın onlarca şairi bu əsərə müxtəlif məzmunlu nəzirələr yazmışlar. Zəminə Xınalının "Ötən illərimdən xatirələr" poeması da öz üslubu, heca və qafiyə sistemi baxımından sözlərin, ifadələrin düzgün seçimi və işlənməsi baxımından o qədər gözəl və təsirlidir ki, buradakı axıcılıq, sadə xalq dilindən gələn sözlər oxucunu doğrudan da öz uşaqlığına aparır, əsəri oxuyan hər bir adam elə hesab edir ki, sanki elə bu hadisələr onun özünün gözü qarşısında baş vermişdir.

Klassik əsərlərdə olduğu kimi poemanı başlayarkən şairə ustad Şəhriyarın adını çəkir, sanki ondan xeyir-dua alır:

***Mənim ustad babam, Şəhriyar babam,***
***Ruhunu çağırdım, gör necə şadam,***
***İstədim tutduğum arzuya çatam,***
***Ehtiram edirən dahi ustada,***
***Dahilər dahisi var ol dünyada.***

Z.Xınalının bütün əsərlərində vətənpərvərlik, yurdsevərlik duyğuları özünü göstərir. Əslində "Ötən illərimdən xatirələr" də elə vətənpərvərlik ruhunda yazılmış bir əsərdir.

Çünki şairə burada doğulduğu torpağın əsrarəngiz gözəlliklərini. doğma yurd yerlərinin istisini, soyuğunu, acısını, şirinini, dağını, dərəsini, unudulmaz məkanlarını elə gözəl bədii lövhələrlə təsvir edib ki, oxucu yalnız bu təsirlərin böyük sevgi və istəkdən yaranışına tam əmin olur. Bir vaxtlar orta məktəb divarları arasında səslənən və bəzən də ədəbi yazıların başlığına çevrilən “Hardan başlanır vətən?” sualının cavabını bu əsəri oxuduqdan sonra çox asanlıqla tapmaq olar. Bəli doğulduğun doğma yurd yerindən, ayaq basdığın ata evinin kandarından, suyunu içdiyin, havasını udduğun, torpağı üzərində addımladığın məkandan başlayir Vətən və bunları yada salıb:

***Ötən illər düşdü mənim yadıma,***
***Şəhriyarin ruhu çatdı dadıma,***

- deyərək xəyal qanadlarında Avey dağını, Ağdərəni, Göyəzəni, İncə dərəsini seyr edən şairə ulularımızın, ağbirçək və ağsaqqallarımızın, o cümlədən dünyalar qədər sevdiyi Nigar nənəsinin laylalarına, bayatılarına baş vuraraq unudulmaz adət-ənənələrimizə söykənərək yazıb bu poemanı. Onun öz dili ilə desək:

***Nigar nənəm sübh çağı tez durardı,***
***Dağ suyundan samovar qaynadardı.***
***Şirin çaya mürəbbə də qatardı,***
***Pendir, lavaş büküb dürmək yeyərdik,***
***Bir ağızdan “nənə sağ ol” deyərdik.***

Nənələrimizə bir ağızdan “sağ ol” demək, təşəkkür elımək hamımızın borcudur. Bu isə ailədən başlayan bir

yoldur, bir tərbiyədir. Ata-anaya hörmət hər kəsin borcudur. Hörmət, məhəbbət olan yerdə isə bərəkət-ruzi də olar. Təbiətin sərvəti olan dünyanı gözəlliyi ilə bəzəyən çiçəklər Z.Xınalının dili ilə desək:

***Bağçalardan çiçəkləri yığardıq,***
***Çələng edib saçımıza taxardıq.***

Əslində çiçəklərdən düzələn çələng qızların saçına yaraşdığı qədər də, vətən torpaqlarında bitən çiçəkləri başlarına tac edən çiçək ətirli qızlarımız da vətən torpaqlarına yaraşıqdı. Bu isə yenə də vətənə, torpağa sevgidir, övlad sevgisidir. Əsrlərin yaşıdı olan İncə dərəsi, Aslanbəyli, Qaymaqlı, Kəmərli kəndlərinin igidlər oylağı, aşıqlar yurdu, şairlər vətəni olmağı ilə öyünməyə haqqı olan Zəminə Xınalı yazır:

***Aşıq, şair yurdu olub obam da,***
***İlk seminarın məzunuydu babam da,***
***Müəllimlikdən məmnun idi atam da,***
***Elmin yolu asan deyil, çox çətin,***
***Yurdumuzun ərənləridir mətin.***

Elin-obanın adət-ənənələrini, folklorunu, etnoqrafiyasını yaxşı bilən və onu hər zaman öyrənməyə çalışan Z.Xınalı şeirin başqa bir bəndində yazır:

***Toy günləri qara zurna coşardı,***
***Mağarlardan aşıb-coşub daşardı,***
***Nişanlılar utanardı, çaşardı,***
***Subaylar da oğrun-oğrun baxardı,***
***Payız vaxtı onlar nişan taxardı,***

Yaxud:

***Yorğan-döşək təzə yundan olardı,***
***Qız cehizi maşınlara dolardı,***
***Bəy evi də çoxlu nəmər salardı,***
***Yeddi arvad qurardılar bir hana,***
***Xalılarla bəzənərdi toyxana.***

Görkəmli akademik Budaq Budaqov haqqında söhbət açdığımız poemanı oxuyandan sonra yazir: “Mən Azərbaycan folkloruna, etnoqrafiyasına, adət-ənənəsinə qayğı bəsləyən adamları çox sevirəm. Belə adamlardan biri də Zəminə Xınalıdır. O, Azərbaycan folklorunu nəinki yaxşı bilir, həm də onu poeziyaya gətirir. Deyim ki, ustad Şəhriyarın “Heydərbabaya salam” poeması Azərbaycan poeziyasında yeni bir səhifə açdı və çoxlu Azərbaycan şairləri ona nəzirə yazdılar. Belə nəzirələrdən birini də Z.Xınalı yazdı və mən onu bu poemada bir folklorçu kimi, bir etnoqraf kimi, bir tarixçi kimi gördüm. Z.Xınalının bütün fəaliyyəti, onun əmək fəaliyyəti, ictimai fəaliyyəti, poetik duyğuları – bunlar hamısı bir məqsədə, vətənə qulluq etməyə yönəldilib. Hər bir işdə fəaldır, elə bil ki, onun qəlbində atom mühərriki var, daim hərəkətdədir. Bir yerdə durmur, bütün maneələri keçməyə çalışır. Mənə elə gəlir ki, onun belə çalışqanlığı ona gələcək işlərində böyük uğurlar gətirəcək. Onun şəxsiyyətində Azərbaycan xalqının bir çox müsbət cəhətləri birləşir. Azərbaycan cəmiyyəti belə adamların qədrini bilməli və əməyini vaxtında qiymətləndirməlidir. Ümidvaram ki, bu belə də olacaq. Mən ona uğurlar diləyirəm” *(“Yazıçı”, “Oğuz eli” qəzetinin xüsusi buraxılışı. Mart-2008. səh.5).*

Doğrudan da Z.Xınalı bu poemada sanki rəssam kimi etnoqrafik lövhələr yaratmışdır. İlin bütün fəsillərində həyata keçirilən müxtəlif adət-ənənələrə Azərbaycanın demək olar

ki, bütün bölgələrində təsadüf olunur. Şairə poemada bu adət-ənənələri, qadınlar və uşaqlar arasındakı incəlikləri, mövsümü toy şənliklərini böyük bir ustalıqla qələmə almış, bu hadisə və görüntüləri yada salmaq üçün ayrı-ayrı kənd adamlarının, ağsaqqal və ağbirçəklərin onun özünün uşaqlıq yaddaşında qalan xarakterlərini açmışdır.Təbii ki, ayrı-ayrı şəxsiyyət adları ilə hadisələrdən xəbər tutan oxucu o hadisə və şəxsiyyətləri yenidən yada salır. O illəri yaşayır. Bax şairənun sənətkarlığı da elə burasındadır. Poemanın hər bəndində sanki bir dastan, bir nağıl, böyük bir əhvalat yatır:

***Seyid babam müharibəni görmüşdü,***
***Qardaşı da o davada ölmüşdü,***
***Dul arvadlar Hitleri çox söymüşdü,***
***Hirslənəndə uşaqları döyərdi,***
***Söz düşəndə özlərini öyərdi.***

Əsərin başqa bir bəndində oxuyuruq:

***Nobat üçün dəyirmana gedərdik,***
***Axşamüstü evimizə dönərdik,***
***Ləyənlərdə çoxlu xəmir edərdik.***
***Kündələri süfrə üstə yığardıq,***
***Duvaq üstə nazik yuxa yayardıq.***

Müəllif poemada bəzən uşaqlıq illərinin şıltaqlıqlarını şirin bir dillə yada salır, həzin xatirələrə dalır:

***Ağac altda yığışardıq kölgəyə,***
***Uşaqları biz alardıq dövrəyə,***
***Deyərdik ki, kaş anamız görməyə,***

***Göy soğanı daş üstündə döyərdik,***
***Xamralıyla şirin-şirin yeyərdik.***

El arasında uzun müddət gəzən əfsanə və rəvayətlər həmişə insanlarin –xüsusilə uşaqların diqqət mərkəzuində olur, bəzən onları qorxunc nağlllar kimi danışırlar. Şairə də öz əsərində bu əlamətləri yada salaraq eyni bənddə həm də keçmişlə müasirliyi birləşdirir:

***"Cin dərəsi" cinlər ilə doluydu,***
***Əfsanələr ululardan uluydu,***
***Əkin üçün yararlı yer "Sulu"ydu,***
***Sovet dövrü üzüm bağı saldılar,***
***Sonralar da ot əvəzi çaldılar.***

Yaxud başqa bir bənddə:

***Qoşa qəbir "Dərəlilər" var idi,***
***Yel hərəmdə çox xəstələr var idi,***
***Bu dünyada möcüzələr var idi,***
***Xəstə gələn sağlam döndü evinə,***
***Pir dedilər Aslanbəyli elinə,***

"Ötən illərimdən xatirələr" poeması Zəminə Xınalının yaradıcılıq əqidəsinə tam uyğun gələn bir əsərdir. Çünki bütün yaradıcılığı boyu vətənpərvərlik duyğuları ilə yazıb-yaradan şairənin bu əsəri də sırf vətənsevərlik, yurdsevərlik ruhundadır və xronoloji baxımdan bu əsər son illərdə yazılsa da, oxucuya elə gəlir ki, şairənin hərbi-vətənpərvərlik mövzusunda yazılmış bütün əsərləri bu poemadan sonra yazılmışdır.

* * *

Z.Xınalının poemaları içərisində maraqlı əsərlərdən biri də “Üç qardaş, üç pəhləvan” poemasıdır. Əsər 1998-ci ildə eynu adlı kitab şəklində çap olunmuşdur və şairənin ilk əsərlərindəndir. Poema Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda dünyaya gəlmiş, orada böyüyüb boya-başa çatmış üç pəhləvan qardaşa – həsr olunmuşdur. Şairə burada pəhləvan qardaşlar: Məhəmmədəli, Habil və Qabil pəhləvanların cəsarət və hünərindən, pəhləvanlıq fəaliyyətindən bəhs edir. Bu poemanın yazılmasını Z.Xınalı belə xatırlayır: “1995-ci il idi. Şəhəri gəzməyə çıxmışdıq. “Gənclik” metrosu tərəfdəki parkların birində çoxlu adam yığışmışdı. Oğlum Arzu dedi ki, gedək ora, orda nəsə var, çoxlu adamlar yığışıb. Meydançaya gələrkən gördüm ki, ortalıqda üç nəfər iri bədənli, cüssəli pəhləvan ağır çəki daşlarını qaldırır, müxtəlif akrobatik nömrələr göstərir. Mənim üçün ən qorxulusu və təəccüblüsü o idi ki, pəhləvanlar yerə uzanır, onların qarının, qollarının üstündən “Belorus” markalı traktor, minik maşını keçirdi. Bu mənzərədən mənim ürəyim sıxıldı, getmək istəyəndə mərhum həyat yoldaşım dedi ki, niyə gedirsən, şairlər çox vaxt mövzu axtarırlar. Yaz də, əsl qəhrəmanlıq, cəsarət və vətənpərvərlikdir. Orada öyrənmişdik ki, onların üçü də qardaşdırlar. Özləri də Şərur rayonundan gəlmişlər. Akif müəllimin bu sözlərindən sonra mən həmin poemanı yazdım, elə o pəhləvanların adlarını da əsəri yazandan sonra öyrəndim”.

Z.Xınalı poemanı maraqlı bir girişlə başlamışdır. Şairə ilk öncə nağıllarda, rəvayətlərdə olduğu kimi keçmişlərə üz tutur, xalqın igid, yenilməz oğullarını xatırlayır:

*İgidnamə dastanlar,*
*Rəvayətlər, nağıllar,*
*Əvvəl belə başlardı:*
*Biri vardı, biri yox,*
*Uzaq-uzaq ellərdə,*
*Qəhrəmanlar yaşardı,*
*Öz gücü, qüvvətilə,*
*Tarixlərin daş adlı,*
*Yaddaşında qalardı.*
*Kimisi dağlar yarıb,*
*Vüsalına çatardı,*
*Kimisi şair olub,*
*Yazardı-yaradardı.*

Keçmişə üz tutan şairə bir az sonra bu günümüzə, müasirliyə qayıdır, elin-obanın işərisindən çıxmış igid, qəhrəman vətən oğullarının qeyri-adi gücündən, cəsarətindən söhbət açır:

*Ey oxucum, nə üçün,*
*Keçmişlərdən danışaq?*
*Gəlin hamımız birgə,*
*Od yurdu, odlar yurdu,*
*Azərbaycan xalqının,*
*Üç pəhləvan, üç oğul,*
*İgidindən danışaq.*

Poemanın qəhrəmanları üç qardaşdır. Onların böyüyü Məhəmmədəli pəhləvan bu üç qardaşın ağsaqqalı, belə demək mümkündürsə, bu güc qrupunun rəhbəridir. Bəzi məqamlarda o biri qardaşlar – Habil və Qabil ona ata gözü ilə baxır, on-

dan məsləhət alır, elə pəhləvanlığın sirlərini də ondan öyrəniblər. Məhəmmədəli pəhləvan isə öz qardaşları ilə hər zaman fəxr edir, onların gələcəyinə inanır. Bütün bu ştrixləri müəllif elə gözəl, aydın və anlaşıqlı şəkildə verir ki, oxucu doğrudan da onun səmimiliyinə, sözlərinin bədii siqlətinə inanır. Poemanın axarında bəzən şairə ağır və qorxulu çıxışlar göstərən pəhləvanlara ulu Tanrıdan kömək diləyir, onların gücünün, qüvvətinin tükənməməsini arzulayır:

***Keçir üstünüzdən ağır maşınlar,***
***Sınır bircə-bircə gör neçə daşlar,***
***Ay Allah sən özün kömək eylə ki,***
***Qoy uzun yaşasın bu üç qardaşlar.***

Belə oğullar isə yurdumuzda çoxdur, haqqında söhbət gedən üç pəhləvan isə onların ümumiləşmiş obrazıdır. Poemanın sonuna yaxın müəllif yazır:

***Neçə əsrlərdir, neçə ildir ki,***
***Xalqımın başına gətirilir oyun,***
***Siz düşmən çəpəri, igid irəli,***
***Sonsuz kədərlərə son nöqtə qoyun.***

***Döyüş meydanında siz qalib gəlin,***
***Mərmini-topları gətirin dilə,***
***Qırın qamətini nankor düşmənin,***
***Yalvarıb, diz şöküb gəlsinlər dilə.***

Əsər Azərbaycanın üç cəsur, igid pəhləvan oğlunun ayrı-ayrı həyat epizodlarından danışsa da onu vətənpərvərlik mövzusunda yazılmış ən yaxşı əsərlərdən biri hesab eləmək

olar.

Bütün əsərlərini hərbi-vətənpərvərlik notlarında kökləyən Z.Xınalı bəzi əsərlərində folklor materiallarına da üz tutur. Onun son illərdə hazırladığı

"Qazax folkloru – İncədərəsi folklor materialları üzrə" toplusu bunu bariz şəkildə göstərir. Bu əsərlər içərisində sırf Z.Xınalının folklor materialları əsasında qələmə aldığı "Bənövşə və Qızılgül" əfsanə-poeması və "Qaçaq İsmayıl dastanı" haqqında ayrıca danışmaq istəyirik.

"Bənövşə və Qızılgül" əfsanə-poeması şairənin maraq doğuran bədii əsərlərindən biridir. Başdan-başa folklor materiallarına söykənən bu mənzum dastan alleqorik formada yazılmış epik-lirik bir poemadır. Əsərdə Qızılgül, Bənövşə, Kol və digər alleqorik obrazlar var ki, şairə bu obrazların dili ilə öz fikir və düşüncələrini məharətlə oxucuya çatdırır. Əsərin qələmə alınmasında Z.Xınalı –özünün dediyi kimi yenə də Nigar nənəsinə borcludur. Nənəsinin söz boxçasından bəhrələnən şairə yazır ki:

***Bənövşənin Qızılgülə,***
***Qovuşması mümkün deyil,***
***Bu dastanı, rəvayəti***
***Ağbirçəkli, mələk üzlü,***
***Mənim Nigar nənəm demiş.***
***Mənə belə nəql eyləmiş.***

Həmin rəvayətdə deyilir ki, Qazax mahalında Hürimələk adlı bir qız yaşayırmış. Onun bircə amalı var imiş: yalnız müqəddəs ziyarətgahlara səcdə etmək, el-el, oba-oba gəzib dolaşan bu qız yaz aylarında bənövşə dərməyə dağlar qoy-

nuna qalxarmış, kol dibində bitən boynubükük bənövşənin tez açıb vaxtsız solmasının səbəbini arayır və öyrənir ki, Bənövşə güllər şahı Qızılgülü sevir, ancaq onların danışması mümkün olmadığından onun boynu bükük qalıb. İllərdir ki, müqəddəs yollar yolçusu olan Hürümələk qız olsa da qarıdı – deyə "nənə" dedilər.

Hürümələk nənəyə deyirdilər ki, kim ki,bənövşəni qızılgülün yanında basdırsa onlar qovuşacaqlar. Ancaq onu da unutmaq olmaz ki, bu işin səbəbkarı kim olsa onun ömrü gödələcəkdir. Güllər vurğunu olan bu göyçək nənə Qızılgül eşqindən pərişan, boynubükük bitən Bənövşənin halına yanır. Bəlkə də öz taleyi ilə onun taleyində bir oxşarlıq gördüyündən gül Bənövşənin uğursuz taleyi onu rahat buraxmır. Qurbani babamız demişkən:

***Söylə dərdin bilənlərə,***
***Dərd başına gələnlərə,***
***Hər üzünə gülənlərə,***
***Etibar eyləmək olmaz.***

Qurbani sözünün sehrinə düşən Hürimələk çiçək sevgisinin nəşəsindən ayrıla bilmir. Haqdan gələn səs onun güllərə-çiçəklərə olan sevgisini daha da artırır. Qucağı sevgiyə həsrət qalan Bənövşə kövrək vücudu ilə vüsal günlərini gözləyə-gözləyə şaxtadan, sızaqdan solur. Tənhalıq əlindən kövrəkləşın Hürimələk öz ömrünü güllərə ərməğan etmək qərarına gəlir. Müqəddəs çiçəyin eşqi uğrunda ölməyi özünə şərəf bilən Hqrimələk nənə yaz aylarının birində Bənövşəni Qızılgülün qoynunda əkir. Çiçəklərin ətri bir-birinə qovuşur. Hürimələk nənə öz ömrünü güllərə bağışladığından özü də

haqq dünyasına qovuşur.

Beləliklə əfsanə şəklində yayılmış bu rəvayətə Zəminə Xınalı öz ecazkar qələmi ilə yeni bir rəng forma və məzmun vermiş, maraqlı bir sənət əsəri yaratmışdır. Poemanın başlanğıcında şairə yayılmış bu əfsanəyə öz münasibətini bildirir, poetik duyğuları ilə Bənövşəni vəsf eyləyir:

***Yaz gələndə Bənövşəni,***
***Dəstə-dəstə bağlayırlar,***
***Qıvrım-qıvrım hörüklərdə,***
***Çələng edib darayırlar.***

Bənövşənin gözəlliyini, fağır və yazıq görkəmini yada salan şairə onu Dirili Qurbaninin qələmiilə də vəsf edir,Qurbaninin Bənövşəyə olan sevgisini, istəyini dilə gətirir:

***Qurbani öz pərisini,***
***Bənövşəyə bənzədirdi,***
***Dağ çəkilən sinəsini,***
***Bənövşədən gizlədirdi.***

***Qurbani də, Bənövşə də,***
***Yardan ayrı dözəmmədi,***
***Dağ başında qartallar da,***
***Qanad açıb süzəmmədi.***

Bənövşənin vaxtsız-vədəsiz solmasının səbəblərini açıqlayan müəllif, bu incə təbiət gözəlini insanların sevdiyi qədər də, çöllər, çəmənlər, ağaclar, kolların da onun vurğunu olduğunu qələmə alır. Məlumdur ki, Bənövşə Qızılgülə aşiq

olsa da, Kol onun vurğunu və pərəstişkarıdır. Elə Kolun özü Bənövşəni sevir. Şairə burada dastanlarda olduğu kimi Kol ilə Bənövşənin deyişməsini verir:

***Kol:***
***Gözəlim, gəl sənə yar olum özüm,***
***Gecə də, gündüz də səndədir gözüm.***
***Mənə sığınmısan, mən necə dözüm,***
***Kölgəmdə boynunu bükən, Bənövşə.***

***Bənövşə:***
***Sənə sığınsam da yar deməyəcəm,***
***Ağlına gətirmə heç sevməyəcəm,***
***Ayrılıq hicrinə heç dözməyəcəm,***
***Qızılgül eşqindən bükülmüşəm mən.***

***Kol:***
***Mən səni verməRəm Şah Qızılgülə,***
***Qənim kəsiləcəm gah Qızılgülə,***
***Hönkürüb çəkirsən ah! Qızılgülə,***
***Könlümə qovuşub bitən Bənövşə.***

***Bənövşə:***
***Mənim sevgilimdir, şah Qızılgülüm,***
***O məni sevməsə, sevərəm özüm.***
***Arayar hər yerdə kor olmuş gözüm,***
***Ah-nalə çəkməkdən usanmışam mən.***

Bənövşənin bu ah-naləsini bilən Hurimələk nənə nəhayət ki, öz həyatının sonunu nəzərə alaraq Bənövşəni aparıb

Qızılgülün yanında əkir. Nəhayət Qızılgül Bənövşənin sevgisindən xəbər tutur. Bənövşə ilə Qızılgülün qovuşması zamanı onların da deyişməsi təqdim olunur:

***Qızılgül:***
***Yaxın gəl, yaxın gəl gözəl çiçəyim,***
***Yaxın gəl gözəlim, sevən sənmisən?***
***İllərdir yol gəldin qovuşmaq üçün,***
***Heyif ki, ömrünün sonu gəlmisən.***

***Bənövşə:***
***Sənun həsrətindən boynum büküldü,***
***Küskün taleyimdən əlim üzüldü,***
***Göz yaşım gözümdən axıb süzüldü.***
***Xəbərin olmadı məndən, Qızılgül.***

Maraqlı bir şəkildə qurulmuş deyişmədən məlum olur ki, ömrünün son anlarında Qızılgülə qovuşan Bənövşə saralıb solur, ömrünü başa vurur, lakin son nəfəsdə yenə Qızılgülə üz tutur:

***Sənə ürəyimdə vardı son sözüm,***
***Yenidən dünyaya gələrəm özüm,***
***Səni axtaracaq hər yanda gözüm,***
***Sən mənim ilk eşqim oldun, Qızılgül.***

Poemanın maraqlı cəhətlərindən biri də şairənin burada tarixi şəxsiyyətlərin Dirili Qurbaninin, Seyid Mir Həmzə Nigarinin, Hacı Mahmud Əfəndinin adlarının çəkilməsi, onların obrazlarının yaradılması, ruhlarının danışdırılmasıdır. Şairə

eyni zamanda əsərdə Azərbaycan xalqının adət-ənənələrinin, od, su, yel, torpaq çərşənbələrinin poetik bir şəkildə təsvirini verməklə mərasimlərimizə münasibət göstərmişdir.

Qeyd edək ki,”Bənövşə və Qızılgül” əfsanə-poeması ədəbi-ictimai həyatımızda da yüksək qiymətləndirilmişdir. Görkəmli şairimiz ömrünün-gününün əsas hissəsini təbiət qoynunda keçirmiş Oqtay Rza əsərə münasibət göstərərək “Kredo” qəzetinin 29 sentyabr 2007-ci il sayında yazır: “ Bənövşə və Qızılgül” poeması həzin lirik bir dildə yazılmışdır. Axıcılıq, səlistlik, oynaqlıq, musiqililik var təsvirlərdə. Yeri gəldikcə tərənnüm məqamları – rübai, dastan, bayatı şəklində də verilir... Paralanmış Vətənimizin müqəddəratı ilə təbiət təzadlarının müqayisəsi ictimai-siyasi baxımdan təqdirəlayiq haldır.Aşağıdakı misralara fikir verək:

***Aşıq Qurbaninin məzarı burda,***
***Gecələr Xan Araz laylasındadır,***
***Bənövşə gülünün həsrət qoxusu,***
***Cənubla Şimalın arasındadır.***

Həyatının son anlarında Bənövşə ilə Qızılgülün qarşılaşması, fərəhdən çox kədər yükü yaradır. Ümumiyyətlə Kolun Bənövşəyə, Bənövşənin Qızılgülə eşq bəsləməsi çox maraqlıdır. Bənövşəni qoruduğuna görə Kolun da onu istəməsi təbiidir. Bütün bu maraqlı hallar gətirib söhbəti çıxarır sevən və sevilənlərin ünvanına”. Poemaya geniş şərh verən Oqtay müəllim sonda yazır: “Tanınmış şairə Zəminə Xınalının “Bənövşə və Qızılgül” poemasını (əfsanə-poema) poeziyamızda yenilik adlandıra bilərəm. Çünki folklorda çox az işlənən bu

qədim dastanı-əfsanəni yazılı ədəbiyyata, poeziyaya gətirməklə şairə indiki söz bolluğu dövrünün maraq doğuran yeniliklərindən birini yaratmışdır".

Güllərin qovuşması uğrunda ölümə gedən Hürimələk nənə haqq dünyasında sorğudan-sualdan uzaq olduğu qədər də xoşbəxtdir Behiştdə uyuyan nənənin məzarı müqəddəs bir ziyarətgahdır, sevənlərin səcdəgah yeri, xəstələrin şəfa tapdiği bu yerdə bitən çiçəklərin də ətri heç bir çiçəkdə yoxdur. Xeyirxah insanların xeyirxah əməllərindən bu günkü gənclərimizi hali edən Zəminə Xınalının elə bu dastanı qələmə almasının özü də bir səvab iş, bir xeyirxahlıqdır, yurda bağlılıq, Vətənə, torpağa olan sevgidir. Z.Xınalının Vətənə, elə-obaya olan sevgisi tükənməz olduğundan elə yaradıcılığının ən əsas mövzusu da vətənpərvərlik ideyalarıdır. İnsan nə qədər öz keçmişini sevərsə, gələcəyinin parlaq günləri onun nəsibi olar. Z.Xınalı da keçmişimizdən gələn bu günümüz üçün örnək ola biləcək hər şeyə yüksək qiymət verməyi bacaran bir yazıçı, şairədir. "Bənövşə və Qızılgül" poemasındakı vətənpərvərlik, tarixə və folklora hörmət bütün əsər boyu özünü göstərir və müəllifinə hörmət qazandırır.

Z.Xınalının folklor materiallarına münasibəti onun sonrakı əsərlərində də özünü göstərir. Onun geniş oxucu kütləsinin hörmətini qazanan "Qaçaq Ismayıl dastanı" bu cəhətdən çox maraqlıdır. "Qoçaq Ismayıl dastanı" XIX əsrdə Qazax mahalının Incə dərəsində doğulub boya-başa çatmış Ismayıl Omar oğlunun həyatı, qəhrəmanlığı ilə bağlı bu yerlərin el ağsaqqallarının söhbətləri, onun haqqında söylənən rəvayətlər əsasında qələmə alınmışdır. Z.Xınalı burada da öz missiyasına sadiq qalmış, vətənpərvərlik və qəhrəmanlıq ruhlu bir xalq abidəsi yaratmışdır. Dastanda göstərilir ki,

Ismayılın atası Omar kişi öz əməyi ilə halal çörək qazanan sadə bir kənd adamıdır. Digər həmkəndliləri kimi o da çörəyini torpaqdan çıxarır halal zəhmətilə balalarını böyüdür. Taleyin qəzavü-qədəri heç kəsdən uzaq deyil. Qəfil ölüm onu həyatdan aparandan sonra ailənin bütün qayğıları gənc Ismayılın üzərinə düşür. Ailə həyatı qurmuş olsa da, çox çətinliklə dolandığından, anasının və qohum-əqrabasının razılığı ilə Borçalı mahalına gedir, orada varlı-imkanlı bir ağaya nökər işləyir. İlin tamamında öz zəhmət haqqını ictəyərkən ağa verdiyi şərtə əməl eləmir. Uzun çək-çevirdən və mübahisədən sonra əlbəyaxa olan ağa-nökər savaşması zamanı İsmayıl ağanı öldürür. Dərhal onu həbs edibTiflisə Metex qalasına göndərirlər. Min bir əzabla qaladan qaçan Ismayıl qaçaqçılıq etməyə başlayır. İsmayılın qaçaqçılığı get-gedə şəxsi mənafedən ümumxalq mənafeyinə çevrilir. Onun mübarizəsi təkcə Ibrahim ağaya qarşı deyil, kasıb-kusuba zülm edən zülmkar bəylərə, ağalara ,çar hökumətinə və onun özbaşına məmurlarına qarşı çevrilir. Elin-obanın dəstəyi və köməkliyi ilə uzun müddət mübarizə aparan Qaçaq İsmayıl ona qarşı təzyiqlərin çoxaldığını görüb dağlara, meşələrə çəkilir.

Z.Xınalı bu dastanı o qədər gözəl və təbii işləmişdir ki, oxucuda Qaçaq Ismayıla, onun ailə üzvlərinə, o dövrdə yaşamış – “Qaçağı el saxlayar”- deyə ona dəstək olan insanlara böyük sevgi və məhəbbət yaranır.Şairə yeri gəldikcə dastan yaradıcılığı üslubuna uyğun olaraq müxtəlif şeir parçaları, bayatılar və digər poetik nümunələrdən istifadə etmişdir. Qeyd edək ki, xalqımızın milli-mənəvi dəyərləri içərisində dastan qədər xalq ruhuna, xalq məişətinə, etnoqrafiyasına bağlı olan janr yoxdur. Ta “Kitabi-Dədə Qorqud” dövründən bu günə qədər müxtəlif mövzulu, müxtılif səpkili dastanlar

yaranmış və onlar bu gün də yaranmaqdadır. Şifahi ədəbiyyatın başqa növləri kimi dastan da xalqın həyat şəraiti, günü-güzəranı, yaşam tərzi, xalq içərisindən çıxmış ayrı-ayrı adamların – xalq qəhrəmanlarının başına gələn hadisələrin el dilində bədii təcəssümüdür. Əgər məhəbbət dastanlarında xalqın içərisində geniş şöhrət tapmış ayrı-ayrı aşıqların həyatı bəzən o aşıqların özləri tərəfindən, bəzən də digər yaradıcı aşıq tərəfindən dastanlaşdırılırdısa, qəhrəmanlıq dastanında dastan qəhrəmanının keçdiyi ömür və qəhrəmanlıq yolu el-oba arasında əfsanəyə, nağıla, dastana dönüb yayılır, genişlənir və bu geniş yayılmış dastan-əfsanə bir və ya bir neçə adam tərəfindən toplanır, qələmə alınır, dastan şəklində təqdim olunur. Zəminə Xınalı da "Qaçaq Ismayıl dastanı"-nı bax bu şəkildə toplanmış, qələmə almış və gözəl bir sənət əsəri yaratmışdır.

Filologiya elmləri namizədi, folklorşünas alim Elxan Məmmədli Z.Xınalının 2008-ci ildə çap olunmuş "Qaçaq Ismayıl dastanı" kitabına yazdığı ön sözdə deyir: "Bəlkə də Zəminə Xınalının folklor yaradıcığılığına "Qaçaq Ismayıl" kimi bir qəhrəmanlıq dastanı ilə başlamasında da bir uyğunluq vardır. Belə ki, bütün yaradıcılığı boyu əsərlərinin demək olar ki, böyük bir hissəsini hərbi-vətənpərvərlik, qəhrəmanliq mövzusunda yazan bir şairənin sonda qəhrəmanliq dastanına müraciət eləməsi də təbiidir. Bu mövzu həm də ona görə ona doğmadır ki, hələ uşaqlıq illərindən, özünün dediyi kimi, Xalsa və Nigar nənələrinin ona söylədiyi nağıllar, əhvalatlar içərisində onun ana babası olmuş Qaçaq İsmayıl haqqındakı söyləmələr uzun müddət şairənin ürəyində yaşamışdır. Və bu gün o hadisələrin dastan şəklində qələmə alınması bu mövzunun onun yaradıcılığına daha yaxın olmasından xəbər verir".

Filologiya elmləri doktoru, professor Mahmud Allahmanlı “Qaçaq İsmayıl dastanı” haqqında danışarkən yazır: “Zəminə Xınalı uzun illər xalq arasında əhvalat, hekayə kimi yaşayan, məclislərin bəzəyinə çevrilən Qaçaq İsmayılla bağlı yaranan “Qaçaq İsmayıl dastanı”nı (Bakı, Adiloğlu 2008) toplayıb çap etdirmişdir. Belə bir addımın atılmasını qəhrəmanlıq, xeyirxahlıq və savab iş hesab edirəm. Bu dastan çoxdan toplanıb bütünlükdə Azərbaycan oxucusuna, yazı faktı kimi gələcək nəsillərə ötürülməli idi. Çox xoş ki, bunu Zəminə Xınalı etdi”. *(“Kredo” qəzeti, 8 may 2010-cu il).*

Z.Xınalının hərbi vətənpərvərlik və qəhrəmanlıq ruhunda yaratdığı dastanlardan ikisi haqqında da söhbət açmaq istəyirik. Onlardan biri “Oqtay Xalloğlu”, digəri isə “Pəhləvan Kamil”in dastanıdır.

Hər iki dastanın ümumi süjet xətti yenə də vətənpərvarlik mövzusu, doğma torpağa, yurd yerinə məhəbbət motivləri ilə zəngindir. Müasir dövrümüzü əks etdirən “Oqtay” dastanında əsərin qəhrəmanı olan Oqtay yüksək rütbəli zabit olsa da, elini, obasını, xalqını sevən gözəl bir şairdir. Öz yazdığı şeirlərini həm də aşıq havaları üstündə çalıb oxuyan dəyərli bir el aşığıdır. Dastanda göstərilir ki, Oqtay Xalloğlunun ən gözəl xüsusiyyətlərindən biri də odur ki, o daha çox əsgərlər qarşısında çıxışlar edir, saz çalıb gözəl havalar oxumaqla əsgərlərimizi döyüşə ruhlandırır. Onun şeirlərinin əksəriyyəti sevgi-məhəbbət mövzusunda olsa da, bu mövzuların içərisində vətən, yurd sevgisi də üstünlük təşkil edir.

Dastanın qəhrəmanı Oqtay Xalloğlu bizim müasirimiz, çağdaş günümüzün cəfakeş oğullarından olsa da, həyatdan çox tez və faciəli surətdə köçməsi oxucuda bir təəssüf hissi yaradır. Z.Xınalı bu dastanı qələmə almaqla bir daha özünün

xalq yaradıcılığına, adət-ənənələrimizə, folklor mühitinə bağlı olduğunu göstərmişdir.

“Pəhləvan Kamilin dastanı” da müasir dövrümüzdə yaşamış, Qazax mahalının çox yaxşı tanıdığı, axar-baxarlı İncə dərəsinin qədirbilən oğullarından olmuş Kamil pəhləvana həsr olunmuşdur. İncə dərəsinin dağ havasından pərvazlanan pəhləvan Kamilin ömür yolunu əhatə edən bu dastan da vətənpərvərlik və yurdsevərlik duyğularından yaranmış bir əsərdir. Əsərdə qeyd olunduğu kimi, hələ sovetlər dövründə Incə dərəsinin yaylaqlarını, qədim yurd yerlərini rusların əli ilə etmənilərə ərməğan olunmağına dözə bilməyən pəhləvan Kamil erməniləri qanına qəltan etməklə ürəyinin yanğısını soyutsa da, ömrü boyu rahatlıq tapa bilməyib. Doğma yurd yerləriinə olan məhəbbətindən haqsızlıqlara dözməyən pəhləvan şəhərdə xəstəxanada dörd divar arasında ürəyinin sıxıldığını, havasının çatışmadığını övladlarına bildirir. Ölürəmsə ata yurdumda son nəfəsimi duyum, dünyaya gəldiyim, dünyaya göz açdığım ata oğağını son dəfə görüm deyə ağır vəziyyətdə Incə dərəsinə, Kəmərli kəndinə gəlir. Amansız xəstəlik onu əldən salsa da gözləri doyunca o dağları seyr edir. Təmiz dağ havasını ciyərlərinə çəkir. O dağların gözəlliyini əbədi olaraq ala gözlərinə hopdurur. Əbədiyyət yuxusuna gedərək əbədiyyət mənzilinin ömürlük yolçusuna çevrilir.

Filologiya elmləri doktoru, B.Çobanzadə adına Ukrayna Respublikası mükafatı laureatı, professor Mahmud Allahmanlı “Pəhləvan Kamilin dastanı” kitabına yazdığı ön sözdə deyir: “Z.Xınalının “Pəhləvan Kamilin dastanı”nda bizə daha yaxın olan zamanın hadisələri əks etdirilir. Buradakı adlar, hadisələr hamısı mənə doğmadır. Mənim dünyaya göz aşdığım Kəmərli kəndi ilə bağlı olanlardır. Kəmərli İncə dərəsin-

də sonuncu kənddir... “Pəhləvan Kamilin dastanı” strukturu, bütün komponentləri ilə dastan ənənəsinə hesablanıb. Qəhrəmanın nəzir-niyazla doğuluşu, onun tay-tuşlarından fərqliliyi, gücü və ağlı ilə seçilməsi və s. kimi dastançılıq üçün ənənəvidir. Məhəbbət dastanlarında bu və bunun kimi xüsusiyyətlər nəzərə çarpır. Ancaq məhəbbət dastanları öz mahiyyəti etibarilə başqa düşüncəyə - məhəbbətin aparıcılığı motivinə yüklənir. “Pəhlavan Kamilin dastanı” müasir dastan yaradıcılığının nümunəsidir. Z.Xınalı bu əsərin timsalında öz elinə-obasına özünün yeni bir töhfəsini verib” (“Pəhləvan Kamilin dastanı” kitabına ön söz).

Şairə hər iki dastanda qəhrəmanların özlərinin yazdıqları şeirlərdən istifadə edərək dastanların daha da oxunaqlı olmasına nail olmuşdur.

## ZƏMİNƏ XINALININ DRAMATURGİYASI

Z.Xınalı demək olar ki, ədəbiyyatımızın bütün janrlarında öz qələmini sınamağa çalışır və buna nail olur. Onun hərbi mövzudan başqa lirik bədii lövhələri, təbiət və insan gözəlliyinə, doğma yurdumuzun - Azərbaycanın tədiətinə, ana yurdun əsrarəngiz gözəlliklərinə həsr olunmuş çoxlu şeir və poemaları vardır. Bu şeirlərin əksəriyyətinə aşıqlarımız aşıq havası üstündə mahnılar oxuyurlar. Qeyd etməliyik ki, öz istedad və bacarığını poeziya sahəsində geniş göstərə bilən şairə dramaturgiya və publisistika sahəsində də öz sözünü deyə bilmişdir. Onun son dövr yaradıcılığının mühüm bir hissəsini dramaturgiya fəaliyyəti təşkil edir. Bu cəhətdən şairənin “Ali Baş Komandanım”, “Təki vətən yaşasın”, “Vətən torpağı” pyesləri və uşaqlar üçün yazılmış bir pərdəli kiçik pyeslər

diqqəti cəlb edir. Adları çəkilən bütün bu dramatik əsərlərin hər birində şeirə yenə də öz yaradıcılıq missiyasına sadiq qalaraq hərbi-vətənpərvərlik mövzusunu önə çəkmişdir.

Z.Xınalı öz əsərlərində dövlətə və dövlətçiliyə yüksək qiymət verən bir insan kimi yaradıcılığında Heydər Əliyev ideyalarına sadiq qalmış və əsərlərində bunu yüksək səviyyədə tərənnüm eləmişdir. 1990-cı illərdən başlayaraq müstəqillik yollarında addımlayan müasir Azərbaycan dövlətinin hərbi potensialı onun gözləri qarşısında inkişaf etmişdir. Azərbaycanda müasir standartlara cavab verən Ali Hərbi Məktəbləri yaradan Ulu öndər Heydər Əliyev dəfələrlə hərbi məktəblərə gəlmiş və şairə ümumxalq məhəbbəti qazanmış ümummilli lider kimi yüksək bir titul qazanmış Ulu Öndərin Azərbaycan xalqına, onun balalarına qayğı və məhəbbətinin şahidi olmuşdur. Ona görə də Heydər Əliyev bir tarixi şəxsiyyət və bir bədii obraz kimi şairənin qəlbində iz salmışdır. Və bu təmənnasız sevgi və məhəbbətin nəticəsi olaraq o, 2006-cı ildə Heydər Əliyevə həsr olunmuş “Hərbi məktəblərin banisi” bədii-publisistik kitabını *(bu barədə bir az sonra danışılacaqdır)* və 2009-cu ildə “Ali Baş Komandanım” adlı pyesini yazmışdır.

“Ali Baş Komandanım” pyesi bədii-tarixi ədəbi bir salnamədir. Əsər bütövlükdə Heydər Əliyevin Azərbaycanda Ali Hərbi Məktəblər yaratmaq yolundakı fəaliyyətinə həsr olunmuşdur. Pyes həm nəzm, həm də nəsr dili ilə yazılmışdır. Hərbi məktəblərin yenicə yaradılması zamanlarında insanların - əsgər və zabitlərin, kursantların, valideynlərin Heydər Əliyevə olan böyük sevgisinin şahidi oluruq. Müəllif bütün bu prosesləri böyük sənətkarlır və ustalıqla yaratmışdır. Xüsusilə kursantların, valideynlərin, əsgərlərin dilindən

Ali Baş komandana ünvanlanan şeir parçaları çox dəyərli, ulu öndərə layiqli misralardır. Ulu Öndərin Ali Hərbi Məktəbə gəlişindən ruhlanan kursantlardan biri deyir:

I kursant:

***Səni soraqlayırdı,***
***İllər boyu gözümüz,***
***Gəlişinlə təzədən,***
***Güldü bizim üzümüz.***
***Əzəmətin, vüqarın,***
***Fəxrim, iftixarımdır,***
***Hər mübarək addımın,***
***Əbədi baharımdır.***
***Andım, şərəfim, şanım,***
***Ali Baş Komandanım.***

Yaxud digər bir kursantın:

***Torpağı naxışlayan,***
***Qədəmlərin var olsun.***
***Ulu Tanrım həmişə***
***Sənə arxa, yar olsun.***
***Müstəqil vətənimdə.***
***Rəmzim, simvolum mənim,***
***Sərkərdəm, xilaskarım,***
***Azadlıq yolum mənim,***
***Varlığına güvənir,***
***Anam azərbaycanım.***
***Mənim dünya şöhrətli,***
***Ali Baş Komandanım.***

-sözləri insanların qəlbində olan Heydər Əliyev sevgisini bir daha qabardır.Heydər Əliyev bütün ömrü boyu imkansız, sadə adamlara dayaq olub, onların qayğıları ilə yaşayıb, şəhid qadınlarının yaşam tərzinin yaxşılaşdırılması üçün əlindən gələni edib. Ona görə də əsərin bir yerində şairə şəhid qadını adından deyir:

***Ah-nalə çıxanda göyə,***
***Qayıtdı burdayam deyə.***
***Son qoydu qəmə, qüssəyə,***
***Məlhəmdir hər dərdə Heydər,***
***Dahi müdrik, ulu öndər.***

Əsərdəki bütün səhnələr tarixi salnamədir. Heydər Əliyevin çıxışlarından birində dediyi aşağıdakı sözləri onun dilindən verməklə müəllif öz sevimli obrazını oxuculara daha da sevdirir:

"Heydər Əliyev: - Mən balaca bir evdə, zəhmətkeş ailəsində, bir yaz günü anadan olanda yəqin ki, beş-on, uzağı otuz-qırx nəfər sevinib, indi bəlkə də bir qədər qeyri-təvazökar səsləndi, amma deməliyəm ki, anam məni bütövlükdə Azərbaycanımız üçün dünyaya gətirib. Doğma canım, varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm".

Bu müdrik tarixi sözlərdən sonra bir qadın irəli çıxır və ümumxalq sevgisini belə ifadə edir:

***Yadlara baş əyməyən,***
***Şah vüqarlı dağımsan.***
***Mənim bahar nəfəsli,***

***Varlığım, torpağımsan.***
***Dünyamızı dolaşan,***
***Üçrəngli bayrağımsan,***
***Hamı heyran qalıbdı.***
***Yurdumdakı büsata,***
***Alqış əzəmətinə.***
***Sağ ol, ay Heydər Ata!***
***Var ol, ay Heydər Ata!***

Pyesdə ayrı-ayrı obrazların adından Heydər Əliyevə ünvanlanan şeir parçalarının hər biri ulu öndərə həsr olunmuş bitkin poetik nümunələrdir. Z.Xınalı bu əsərdə digər tarixi şəxsiyyətlər – Müdafiə naziri, Türkiyə Silahlı Qüvvələri Baş komandanı Hüseyn Kıvrikoğlu, Məktəb rəisi və s. obrazlar yaratmışdır ki, bu da pyesin təsir qüvvəsini daha da artırır.

Azərbaycan Yazıçılar Birliyinin katibi, “Şöhrət” ordenli xalq yazıçısı Çingiz Abdullayev həmin əsərin ön sözündə yazır: “Bu gün Z.Xınalının “Ali Baş Komandanım” əsərini yazması çox diqqətəlayiqdir. Çünki o, Heydər Əliyevi ali hərbi məktəblərə gələrkən yaxından görüb, onunla ünsiyyətdə olub. Bax elə əsərin dolğunluğu da bundan irəli gəlir.”Ali Baş Komandanım” pyesi bədii, tarixi-sənədli bir salnamədir. Bu salnamənin bütün səhifələri onun gözləri qarşısında yazılıb və şairə də onu öz gördüyü və bacardığı formada qələmə alıb. Bu əsər sənədli pyesdir. Sənədli pyesi yazmaq, həm də onu şeirlə yaratmaq – bu çox çətindir. Bunu ilk dəfə bizim klassik sənətkarlarımız –Hüseyn Cavid, Səməd Vurğun, Rəsul Rza və digərləri qələmə alıblar. Dahi şəxsiyyət haqqında dram əsəri yazmaqla Zəminə Xınalı Vətənə, xalqa,Heydər Əliyev ideyalarına sadiq olduğunu bir daha sübut edir”. Sonra Ç.Abdul-

layev davam edərək yazır: "Heydər Əliyevin ömür yolu bir məktəbdir. Mən həmişə düşünürəm ki, Heyər Əliyev olmasaydı, bəlkə müasir Azərbaycan da olmazdı. Bu, həqiqətdir. Bu həqiqəti də biz yazmalı və gələcək nəsillərə çatdırmalıyıq. Bunu bu gün ZəminəXınalı "Ali Baş Komandanım" əsərində gələcək nəsillərə çatdırır. Bu baxımdan mən hərbçi şairəmizin bu kitabını bəyənirəm və inanıram ki, o biri kitabları kimi onun bu kitabı da uğur qazanacaq, seviləcək".

Yazıçı-publisist Elçin Kamal "Ali Baş Komandanım" pyesi haqqında danışaraq yazır: "Tam məsuliyyətlə demək olar ki, müəllif bu əsərində Heydər Əliyevin obrazını yarada bilmişdir. Ümumiyyətlə, Z.Xınalı obrazlarla düşünə bilir. Məhz buna görə də səhnədən-səhnəyə Heydər Əliyevin parlaq obrazı gözümüz önündə daha da böyüyür. Z.Xınalı təkcə insan obrazları yaratmır. O, həm də bu əsərində maraqlı bir bayraq obrazı da yaratmışdır:

- Rəngi əcdadlarımızın qanının rəngidir,
- Parçası şəhid dərisidir.
- Parıltısı zəfərlərin işığıdır ,
- Ay-ulduzu hürriyyət və istiqlaldır.
- Yazısı qəhrəmanlıq və şücaətdir.
- Ağacı milli iradədir.
- Baftası şərəf və məsuliyyətdir.
- Bütün bunlar Azərbaycan xalqından sənə əmanətdir".

*("Kredo" qəzeti 18 iyul, 2009")*

Z.Xınalının çox dəyərli dram əsərlərindən biri "Təki vətən yaşasın" pyesidir. Əsər Qarabağ müharibəsinə həsr olunmuşdur. Burada müxtəlif döyüş səhnələri, Azərbaycan əsgərinin dəyanəti, qəhrəmanlığı zəngin bədii boyalarla dinamik bir şəkildə təsvir olunmuşdur. Etiraf etməliyik ki, müasir ədə-

biyyatımızda Qarabağ mövzusunda müəyyən əsərlər yaranmış olsa da, bu sahədə bir boşluq hiss olunmaqdadır. Elə hesab edirik ki, Z.Xınalının bu əsəri həmin boşluğun müəyyən dərəcədə aradan qaldırılmasına kömək edəcəkdir. Əsərdə sakit həyat tərzi keçirən bir azərbaycanlı kəndinin və onun adamlarının firavan həyatı göstərilir. Əsərin əsas qəhrəmanı yeniyetmə bir gəncdir. Hamı kimi o da öz doğma kəndlərini çox sevir, gizlincə ürəyində sevib-sevdiyi Ayselə dərin bir məhəbbət bəsləyir. Həmişə bulaq başına qızlarla bir yerdə gedən və Əhmədin gizli baxışlarına tuş olan Ayseli bu dəfə onların arasında görməyən Əhməd:

***Saçıma sığaldı dağın yelləri,***
***Məndən ayrı düşüb yarın əlləri,***
***Yığıla dünyanın ən gözəlləri,***
***Gözlərim yenə də səni axtarır.***

- deyə bir neçə dəfə bulaq başına gələndən sonra Aysellə görüşür.Gənc qızla oğlan əhd-peyman bağlayırlar. Məsələdən hali olan valideynlər Ayselin anası Sənəmin çətinliklə də olsa razılığını alaraq Ayselə elçi göndərirlər. Ağsaqqal Xıdır kişi başda olmaqla kəndin bir neçə sayılan adamı qız evinə gedib “hə” cavabını alandan sonra el adəti ilə toya hazırlaşmağa başlayırlar. Ancaq hər saatın bir hökmü var deyib atalarımız.

Əsərin birinci pərdəsində baş verən bu hadisələri müəllif çox ustalıqla qələmə almışdır. Belə ki, buradakı elçilik səhnələri bu səhnələr fonunda xalqımızın milli adət-ənənələri, ağsaqqal, ağbirşək sayğılığı o qədər maraqlı və məzmunlu verilmişdir ki, oxucu istər-istəməz müəllifin müşahidələrinə heyran olur və əsəri minnətdarlıq hissilə oxuyur.

Hadisələr o vaxtlara təsadüf edir ki, nankor qonşuları-

mız həyasızcasına əsassız torpaq iddialarına düşmüşdür. Münaqişə get-gedə güclənib müharibə dərəcəsinə çatmışdır. Artıq gənclər arasında səfərbərlik başlamışdır. Əhməd də digər gənclər kimi namərd qonşularımızla mühəribədə vətəni qorumaq üçün könüllü olaraq cəbhəyə yollanır.

Qonşuda yaşayan Qaratel adlı gənc qızın cəbhədən meyiti gələndən sonra Əhmədin düşməndən intiqam almaq hissi daha da güclənir, onun portretini başının üstünə qaldıraraq uca səslə deyir:

***Mənim igid bacım, qəhrəman bacım,***
***Sənin qisasını alacağam mən.***
***Düşmənin bağrını ox kimi dəlib,***
***Bayrağı zirvəyə taxacağam mən.***

Əsərin ən təsirli səhnələrindən biri Əhmədin cəbhəyə yola salınması, ananın ona xeyir-duasıdır:

***Əhməd:***
***Gedirəm xeyir-dua ver,***
***Vətən qalıb darda, ana.***
***Düşmən gəlir üstümüzə***
***Mən gərəyəm yurda, ana.***

***Ana:***
***Sağ ol mənim igidim,***
***Tanrım yar olsun, sənə.***

***Get layiqli oğul ol,***
***Bu yurda, bu vətənə.***
***Çinar boylu aslanım,***
***Tanrın yar olsun sənə,***

***Düşmənlərdən qisas al,***
***Yurdum bəxtiyar olsun.***

Pyesin bu hissəsini oxuyarkən böyük Səməd Vurğunun məşhur “Ananın öyüdü” şeiri yada düşür:

***Get düşmənin qabağında igid tərpən, vüqarla,***
***Tüfəngini təmiz saxla, atını da tumarla***

Yenə də həmin ana, həmin ana sevgisi, ana qayğısı.
Birdən Əhmədin gözləri oğrun-oğrun ona sarı gələn Aysələ sataşır. Aysel onun həlim baxışlarından bir az da ürəklənir, ona yaxınlaşır, həzin bir pıçıltıyla:

***Sağ get, salamat qayıt,***
***Ay Əhməd uğur olsun.***
***Səni sevən kəslərin***
***Qoyma gözləri dolsun.***

-deyə ona uğurlu yol arzulayır. Sevgilisinin onu yola salmasından ruhlanan Əhməd:

***And içirəm Vətənin,***
***Duzuna, çörəyinə,***
***Söz verirəm anama,***
***Sənə bir el qızına.***

***Düşməndən alacağam,***
***Bu yurdun qisasını,***
***Dəyişəcək el-oba,***
***Öz matəm libasını.***

-deyərək döyüşə yola düşür.Sonrakı şəkillərdə dəhşətli döyüş səhnələri, əsgər və zabitlərimizin düşmən qarşısında yenilməzliyi aydın bədii lövhələrlə əks olunur. Döyüşlərin birində isə erməni əsgərinin əsir götürülməsi çox maraqlı səhnələrdəndir.

Müəllif buradakı erməni obrazı ilə ermənilərin ikiüzlü, xəbis və qorxaq xarakterini açıqlayır, oxucuda ona qarşı dərin bir nifrət hissi yaradır. Erməni əsgərini əsir götürən Əhməd:

***De görüm burada nə sülənirsən?***
***Çox qanlar tökmüsən bilirsən ki, sən.***

-deyərkən erməni öz tülkü sifətini işə salır, Əhmədin dizlərini qucaqlayaraq yalvarmağa başlayır:

***Başına pırlanım, öldürmə məni,***
***Buraxın tərk edim sizin vətəni.***
***Bilirəm sizindir bu dağ, bu dərə,***
***Qayıdıb gəlmərəm bir də bu yerə.***

Ermənin bu yaltaqlığından hiddətlənən Əhməd:

***Dayan harsın oğlu, mənə qulaq as,***
***De nəyə gərəkdir, bu ələm, bu yas?***
***Niyə torpağımı odlara yaxdın?***
***Heç məhəl qoydunmu göz yaşlarıma,***
***Qanlı divan tutdun soydaşlarıma.***

- deyə onu vurmaq istəyərkən etməni yenə də dona girir:

***Ara aldatdılar quldurlar məni,***
***Bizə dedilər ki, anlayın, qanın,***
***Tarixi qədimdir Ermənistanın***
***Dedilər bizimdir Laçın, Qarabağ,***
***Kəlbəcər, Qubadlı, Zəngilan, Qazax.***

"Təki vətən yaşasın" pyesində maraqlı məqamlar, diqqətçəkən səhnələr çoxdur. Şairə burada romantik-psixoloji məqamlara da əl atır. Doğma ciyərparasını yuxuda görən anaya Əhmədin başında nə isə bir qəzavü-qədərin olması əyan olur. Əhməd isə növbəti döyüşlərin birində qəhrəmanlıqla həlak olur. Döyüş dostları onun üşrəngli bayrağa bükülmüş cənazəsini doğma kəndlərinə gətirirlər. Əhmədin ölümü onun dostları, valideynləri, doğmaları üçün dəhşətli bir faciə olsa da əsər nikbin bir sonluqla başa çatır. Hər bir Vətən oğlu vətənin azadlığı və müstəqilliyi yolunda canını qurban verməyə hazırdır. Təki vətən yaşasın. Əhmədin anasının buradakı təmkini, özünü möhkəm iradəli tutması əsl azərbaycanlı xanımının dəyanəti, dözümü və əzəmətidir. Onun son sözləri hamı üçün və əsərin özü üçün də leytmotivə çevrilir:

***Son mənzilə gedirsən,***
***Üzün ağ olsun, oğul,***
***Elin, oban, dostların***
***Görüm sağ olsun, oğul!***

***Dağlarda çən yaşasın,***
***Saçlarda dən yaşasın,***
***Ölən, itən biz olaq,***
***Təki vətən yaşasın.***

Zəmin Xınalının Qarabağ mövzusunda yazdığı digər səhnə əsəri “Vətən torpağı” adlanır. Pyesdə erməni işğalından sonra doğma yurd yerlərindən didərgin düşmüş insanların taleyindən, vətən torpağı həsrəti ilə dünyadan köçmüş Durna ananın vətən nisgilindən, Azərbaycan Milli Ordusu əsgərlərinin qələbə əzmindən söhbət açılır. Əsər 2 pərdə 13 şəkildən ibarətdir. Pyesin birinci şəkli orta məktəbi yenicə bitirmiş Rəhim adlı bir gəncin Leninqrada hərbi məktəbə təhsil almaq üçün getməsi ilə başlayır. Qonşular, qohum-əqraba yığışıb Rəhimi Rusiyaya yola salırlar. Leninqradda hərbi təhsilini başa vuran gənc leytenant Rəhim təyinat alıb Qazaxıstanda hərbi fəaliyyətə başlayarkən artıq Qarabağda münaqişələr başlamışdır. Doğma yurdun köməyə ehtiyacını hiss edən Rəhim Azərbaycana qayıdıb artıq savaş meydadına çevrilmiş Qarabağa, onun igid oğullarına köməyə gəlir. Pyesdə Qarabağın bir kəndinin timsalında verilmiş döyüş əməliyyatları, yerli sakinlərin milli ordu hissələrinə köməyi, müharibənin gətirdiyi acı dəhşətlər inandırıcı faktlar, maraqlı bədii tapıntılarla verilir. Əsərdə obrazların daxili-psixoloji məqamları, hadisələr arasındakı gərginlik və dinamika, qanlı döyüş çox təsirlidir. Xüsusilə buradakı poçtalyon qadın obrazı çox maraqlı işlənmişdir. Kənd camaatına həmişə xoş xəbərlər gətirməyə çalışan poçtalyon qadının yenicə ərsəyə gəlmiş yeganə oğlu Seymurun cəbhədə həlak olması xəbərinin ona gətirilməsi çox ağır bir situasiyadır. Bu xəbərin isə ona qonşusu, həmişə Leninqraddan xoş müjdələrini ata-anasına çatdırdığı Rəhimin gətirməsi çox təsirli və ürəkağrıdıcıdır.

Z.Xınalı bütün bu prosesləri hərbi sahədə çalışması ilə bağlı müxtəlif məqamlarda gördüyü, şahidi olduğu üçün belə təsirli səhnələr yarada bilmişdir. Əsərin maraqlı cəhətlərin-

dən biri orasındadır ki, buradakı obrazların hər biri tarixi şəxsiyyətlərdir. Və belə demək mümkünsə sırf tarixi-bədii sənədli bir əsərdir. Bu əsəri oxuyan yurd-yuvasını itirmiş hər bir şəxs özünü oradakı bədii obrazların yerində hiss edə bilər. Doğrudan da pyesdə Zəminə Xınalı geniş bir obrazlar qalareyası yaratmışdır. Buradan bütün surətlərin ümumiləşmiş şəkildə bədii-fərdi xüsusiyyətləri göstərilmişdir. Belə ki, əsərin əsas qəhrəmanı Rəhim vətəni qoruması naminə hər şeyə hazır olan qeyrətli yurd təəssübkeşi, Durna ana vətəni, onun daşını, torpağını, havasını, suyunu sevən yurd sevgisinin daşıyıcısı, Fatma nənə, Məhəmməd kişi, Sərdar kişi saf qəlbli, təmiz ürəkli sadə kənd adamları, Gülbahar qohumcanlı, insanpərvər bir el anası, Rəhman, Ismayıl, Mirvari, Bənövşə və digərləri yeni düşüncə tərzi ilə yaşayan yeni nəslin nümayəndələridir. Təbii ki, belə bir müxtəlif xarakterli obrazlar sistemini yaratmağın özü hər bir müəllifdən xüsusi istedad, bilik və həyat müşahidəsi tələb edir.

Əsərin adının "Vətən torpağı" qoyulması demək olar ki, onun əsas qayəsinin aşılmasına xidmət edir. Doğma yurd-yuvasını itirmiş insanlardan biri olan Durna ana ömrünün sonunda doğulduğu doğma yuvanın torpağını qoxulamadan ölmək istəmir. Balalarına üz tutaraq ürəyim vətən torpağı istəyir-deyir. Çarəsiz qalan övladları Rəhimə üz tuturlar. Birdən Rəhim neçə illər bundan öncə anasının kənddən göndərdiyi dibçəyi yadına calır və bunu anasına da deyir. Dibçəyi yadına salan ana öz əli ilə yığdığı torpaqdan bir ovuc gətirməyi xahiş edir. Vətən torpağının xoş ətrini ciyərlərinə çəkən ana bundan sonra əbədi olaraq gözlərini yumur.

"Vətən torpağı" əsərinə ön söz yazan tanınmış şair Ismayıl Imanzadə qeydlərində göstərir: " Vahid süjet xətti əsasın-

da cərəyan edən hadisələr ardıcıl şəkildə bir-birini əvəz etdikcə sona yaxın əsərin- müəllifin əsas qayəsi üzə çıxır, yurd həsrətinə mətanətlə sinə gərən şəhid oğlunun tabutunu qürur hissi ilə qarşılayan anaların surətini dolğun şəkildə yaratmağa müvəffəq olan müəllif, azərbaycanlı qadınların hər zaman vətənə sədaqətli övladlar böyütməyə qadir olduqlarını bir neçə məqamda önə çəkir. Ömrü boyu ana təbiətin qoynunda yaşayan, el-oba içərisində yaşamağı dünyanın ən böyük xoşbəxtliyi hesab edən Durna ananın sonda bir ovuc vətən torpağının ətrini ciyərlərinə çəkəndən sonra əbədiyyətə qovuşması da elə yurd amalının böyüklüyündən irəli gəlir.

Pyesin son şəklində əsərin baş qəhrəmanı hərbçi zabit Rəhimin itirilmiş Azərbaycan torpaqlarının tezliklə qaytarılacağını əminlik hissilə söyləməsi bir daha sübut edir ki, igid vətən oğulları düşməni məğlub etmək gücündədir və bunu tezliklə reallaşdırmaq üçün bir himə bənddirlər.

Son olaraq deyim ki, "Vətən torpağı" pyesi Qarabağ savaşı mövzusuna həsr olunmuş uğurlu bir bədii əsərdir. İstər məktəblilərin, istərsə də əsgəri çağırış yaşında olan gənclərin vətənpərvərlik ruhunda köklənməsi baxımından "Vətən torpağı" əsəri əvəzsiz rola malikdir. *("Vətən torpağı" kitabı –Bakı-2010, səh.6.)*

Z.Xınalının dram əsərləri içərisində bağça yaşlı uşaqlar üçün yazdığı bir neçə kiçik pyes də vardır. Bunlar "Vətən bizim anamız", "Ağ atlı oğlan" və "Əmirxan əsgər gedir" adlı birpərdəli kiçik pyeslərdir. Bu pyeslərin hər biri kiçik yaşlı uşaqlarda vətənpərvərlik hissinin formalaşmasına xidmət edir. "Vətən bizim anamız" əsərinin kiçik qəhrəmanı Orxan bağçadan evə qayıdarkən anasının yolunu mağazaya döndə-

rir. Özünə qılınc və avtomat aldırır. Atam döyüşdədir, mən də qılıncım və avtomatımla cəbhəyə gedib atama kömək edəcəyəm, mənfur düşməni məğlub edəcəyəm – deyir. Səhəri günü bağçaya da eyni istək və həvəslə gəlir, müəllimləri və dostları Orxanı alqışlayırlar.

"Ağ atlı oğlan" pyesinin qəhrəmanı Azərin valideynləri Qarabağdan didərgin düşmüş insanlardır. Azər Qarabağı görməyib, amma babasının, nənəsinin sözlərindən Qarabağ haqqında eşidib. Özünün sazı var, atasına qılınc da aldırıb, ancaq babasından xahiş edir ki, ona ağ at alsın. O, ağ atlı oğlan kimi bir əlində qılınc, bir əlində saz Qarabağa getmək istəyir. Müəllif bu əsərlər vasitəsi ilə də kiçik yaşlı uşaqlarda hərbi-vətənpərvərlik ruhu yaratmaq istəyir və buna nail olur. "Əmirxan əsgər gedir" kiçik pyesi də belə ruhda köklənmişdir. Balaca Əmirxanın ad günündə ona hərbi libas geydirmiş valideynlərinin sevincini görən Əmirxan – nənə, mən əsgər gedirəm – deyə əsgəri addımlarla irəliləyir, balaca dostlarını öz ardınca aparır. Bunu görən Əmirxanın doğmaları onu alqışlayır, balaca vətən əsgərini təbrik edirlər.

Z.Xınalının adlarını çəkdiyimiz bütün dram əsərlərinin bir qayəsi var: Vətəni sevmək, onu göz bəbəyi kimi qorumaq, düşmənə nifrət. Və bu əsərləri oxuyan hər kəs şairənin sonsuz Vətən, xalq, torpaq sevgisinə qibtə etməyə bilməz. Bax vətənin əsl vətəndaşı olmaq budur. Vətənin torpağına, daşına vurğun olmaq budur. Elə ona görə də Zəminə Xınalıya deyirik Vətən qızı, el qızı eşq olsun sənə! Qələmin həmişə iti, uğurların uca olsun!

## ZƏMİNƏ XINALININ PUBLİSİSTİKASI

Qeyd etdiyimiz kimi Z. Xınalı ədəbi yaradıcılığın bütün sahələrində qələmini sınamışdır. Onun bədii publisistika sahəsində də çoxlu məqalə, oçerk və kitabları vardır. Şairə bir müddət hərbi jurnalist kimi "Azərbaycan ordusu" qəzetində çalışmış, əsgər və kursantlarımızın həyatı, döyüş fəaliyyəti haqqında dəyərli yazılar yazmışdır. Bununla belə onun publisistik fəaliyyətini əks etdirən "Müqəddəs zirvə", "Yarı yolda qalan ömür", "Incə duyğularda yaşayacaqsan", "Hərbi məktəblərin banisi" kitabları da çap edilmişdir. Bu əsərlər içərisində daha çox yayılan və ictimaiyyətin diqqətini qazanan ümummilli liderimiz Heydər Əliyevə həsr edilmiş "Hərbi məktəblərin banisi" kitabıdır.

Azərbaycan müstəqillik qazanandan sonra müstəqilliyin ən birinci atributu olan Milli Ordunun yaradılması vacib şərtlərdən biri idi. Ilk öncə müəyyən pərakəndəlik olsa da, milli ordunun ilk rüşeymləri yarandı. Bu rüşeymləri inkişaf etdirən ulu öndər Heydər Əliyev idi və o Milli Ordumuzun tərkibinin savadlı, hərbi-nəzəri və texniki biliklərə malik hərbçi kadrlarla zənginləşdirmək üçün ali hərbi məktəblərin yaradılmasını vacib sayırdı. Elə ona görə də hakimiyyətə gəldiyi ilk günlərdən yalnız bunlar haqqında düşünürdü. Təbii ki, bu düşüncələr tezliklə öz səmərəsini verdi. 1993-cü ildən başlayaraq bir-birinin ardınca Azərbaycan Ali Hərbi Məktəbi (indi Heydər Əliyev adına), Ali Hərbi Təyyarəçilik və Ali Hərbi Dənizçilik Məktəbləri, Təlim-Tədris Mərkəzi və Hərbi Akademiya yaradıldı. Z.Xınalı "Hərbi məktəblərin banisi"kitabında hərbi məktəblərin yaradılması yolunda ulu öndərin gördüyü işləri əsl publisist qələmi ilə çox dəyərli bir şəkildə təqdim etmişdir.

Iyirminci yüzilliyin yetmişinci illərindən ta yeni əsrin əvvəllərinə kimi Azərbaycan tarixinə şanlı səhifələr yazan, mənsub olduğu xalqın ulu öndərinə çevrilən Heydər Əliyevin müdrik şəxsiyyəti də Z.Xınalının ədəbi-əzəli övlad məhəbbətinin qaynaqlarından biridir. Kitabda ulu öndərimizin böyük şəxsiyyətini bir yurdsevər qələm əhli kimi yüksək dəyərləndirən, bu günkü müstəqil dövlətimiz üçün bacarıqlı hərbi kadrlar yetişdirən ali hərbi məktəblərin həyati əhəmiyyətini önə çəkən şairə yeri gəldikcə arxada qalan qanlı-qadalı illəri də yada salır. Və ümummilli liderimiz Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycanımızın azadlıq amalına sığınaraq sabaha addımlayır. Elə ona görə də şairə bu publisistik qeydlərində söylədiyi sanballı fikirləri ilə ulu öndərimizin şəxsiyyəti və xarakterini, şərəfini, onun bir insan və dövlət başçısı kimi bir sıra məziyyətlərini səciyyələndirir. Bu kəlamlar və ifadələr az qala Heydər Əlıiyev haqqında aforizmlərə çevrilir:

***“Qədirbilən xalqımızın fəxri, vüqarı, müstəqil Azərbaycanımızın şöhrətini göylərə qaldıran, fenomen zəkası, ağlı və müdrikliyi ilə dünyanı heyrətə salan ulu öndərimiz gələcək tariximizin şəxsiyyətidir”.***

***“Heydər Əliyev hər zaman qurdu, yaratdı, yaratdığı ucalıqlar içərisində əbədiləşdi. O, Azərbaycan xalqının ər oğullarının qorxmaz, cəsarətli, mətin yetişməsi üçün kişilik, mərdlik ocaqları yaratdı. Hər bir evdə, hər bir obada atalar, analar oğullarını hərbi geyimdə gördükdə Heydər Əliyevə minnətdar oldular”.***

***“Xalqımızın fəxri, vüqarı, müstəqil azərbaycan dövlətini bütün dünyaya tanıtdıran, xalqımızın, dövlətimi-***

***zin tarixini qoruyub saxlayan vətən-yurd sevənlərə, elm və mədəniyyət xadimlərinə dəyərli qiymət verən, orduda möhkəm nizam-intizam yaradan, yenilməz və təkrarolunmaz sərkərdəmiz Heydər Əliyev oldu. Onun həyat və fəaliyyətinin özü bir məktəbdir. Əqli, iradəsi, əməli, vicdanı saf olan hər kəs Heydər Əliyev ideyalarının davamçısı olmalı, ordu, vətən, xalq üçün çalışmalı, Ali Baş Komandan – hörmətli Prezidentimiz Ilham Əliyevin ətrafında sıx birləşməlidir. O bütövlükdə Azərbaycan xalqının fəxri olmaqla yanaşı, həm də müstəqil Azərbaycan gənclərinin lideridir".***

Kirabda Z.Xınalı Heydər Əliyevin Azərbaycan Ali Hərbi Məktəbinin yaradılması yolunda gördüyü işləri göstərməklə bərabər ulu öndərin dövlətimiz, dövlətçiiiyimiz, ordu haqqında söylədiyi müdrik kəlamları böyük səbr və səmimi bir istəklə toplayaraq ayrıca bir bölmədə vermişdir. Şairə eyni zamanda başqa bir bölmədə hörmətli Prezidentimiz Ilham Əliyevin Azərbaycan ordusu haqqında kəlamlarını da toplamışdır.

Xalq şairi Fikrət Qoca kitaba yazdığı ön sözdə belə deyir: "Müəllif qarşınızdakı kitabda diqqəti bu məsələyə yönəldir və Heydər Əliyevin məhz Azərbaycanda hərbi məktəblərin yaradıcısı olduğunu önə çəkir. Əslində bu proseslər müəllifin gözləri önündə baş vermişdir. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin hərbi qulluqçusu olan Zəminə Xınalı məhz Ulu Öndərimizin hərbi məktəblərə olan atalıq qayğısının şahidi olmuş, bu qayğıya cavab olaraq gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasında öz əməyini əsirgəməmiş, o cümlədən öz övladlarını da Heydər

Əliyev yolunun, Heydər Əliyev məktəbinin davamçısı kimi – hərbçi kimi görmək istəmişdir"*("Hərbi məktəblərin banisi". Bakı – 2006, səh.5).*

Bir sözlə, Z.Xınalının "Hərbi məktəblərin banisi" kitabı Heydər Əliyev haqqında yazılmış ən gözəl əsərlərdən biri kimi şairənin publisistika sahəsindəki nümunəvi qələm təcrübəsi hesab edilə bilər.

Şairənin sırf vətənpərvərlik ruhunda yazdığı "Ömrün bahar çağında" kitabı da bütövlükdə torpaqlarmızın azadlığı uğrunda şəhid olmuş vətən oğullarının əziz xatirəsinə həsr olunmuşdur. Kitab 2001-ci ildə "Hərbi" nəşriyyatda çap olunmuşdur. Gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyə edilməsi baxımından böyük əhəmiyyətə malik olan bu kitaba mərhum yazıçımız Əlibala Hacızadə "Şəhidlərimiz haqqında ağılar" adlı bir ön söz yazmışdır: " Mən istedadlı şair-publisist Zəminə Xınalının indiyə qədər çap olunmuş "Mənim əsgər qardaşım", "Yarı yolda qalan ömür", "Üç qardaş, üç pəhləvan", "Müqəddəs zirvə", "Müqəddəs vətən" kitablarını böyük sevinc və eyni zamanda böyük ürək ağrısıyla oxumuşam və fikrə getmişəm. Ona görə sevinmişəm ki, ədəbiyyatımıza-şeirimizə və piublisistikamiza gələn Zəminə Xınalı kimi sözə hakim, aşıb-daşan bir ilhama malik, təbiətində mübarizlik və kövrəklik kimi bir-birinə zidd xüsusiyyətləri yaşadan bir şair, bir əsgər, bir vəfalı həyat yoldaşı və qayğıkeş bir ana ilə qarşılaşmışam.

Ona görə kövrəlmişəm ki, bu cavan şairənin ömrünün, gününün çiçəklənən, vaxtında taleyinə torpaq uğrunda sevimlisini şəhid vermək kimi şərəfli, həm də kədərli bir tale nəsib olmuşdur. Zəminə Xınalı yaradıcılığını kövrək, şairanə məhəbbət nəğmələrilə torpaqlarımızın qeyrəti və namusu

uğrunda canlarını fəda etmiş mərd oğullarımızın ömür yollarından bəhs edən əsərlər yaratmağa sərf etmişdir. Onun kitablarına daxil olmuş yazıları – oçerk və esseləri, şeirləri həyəcansız, ağlaya-ağlaya oxumamaq mümkün deyil. Oxucularımıza təqdim etdiyi "Ömrün bahar çağında" kitabında Zəminə Xınalı yaradıcılıq prinsiplərinə sadiq qalaraq yenə şəhidlik və şəhidlərimizin haqqında ürək göynədən və göz yaşardan nəğmələr, ağılar oxuyur.

Bunlar, bu nəğmələr, bu ağılar, öz fikir tutumu, reallığı və şairanəliyi ilə müəllifin bu sahədə daha da püxtələşdiyini açıq-aydın nümayiş etdirir. Bu yazılar ağılarla şəhidlərimizin xatirələrində yaşayası və xalqımızın yaddaına əbədi həkk olunması üçün kifayət qədər əsas yer verir. Kitabın qəhrəmanlarının hər biri haqqında Zəminə Xınalı söylədiyi ağı, analarımızın, bacılarımızın, gözü sevgili yollarından çəkilməyən qızlarımızın dilindən söylənən ağılar kimi kədərli və mənalıdır".

"Ömrün bahar çağında" kitabının ən təsirli məqamlarından biri də Z. Xınalının oğlu Arzunun atası mayor Akif Bayramova həsr etdiyi ilk şeirdir:

***Sən vətəni qoruyanda,***
***Ön səngərdə dayananda,***
***Düşməndən qisas alanda,***
***Ata, qurban olum sənə.***

***Məzarına baş əyirəm,***
***Ürəyimdə göynəyirəm,***
***Səni yaman istəyirəm,***
***Ata, qurban olum sənə.***

***Ayrılıqdan həsrət çəkər,***
***Anam göz yaşları tökər,***
***Ürəyimi dərd-qəm sökər,***
***Ata, qurban olum sənə.***

Bu misraların müllifi 12 yaşlı bir oğlanın atasının yoxluğuna ürək ağrıları ilə yazdığı ilk şeiri olsa da dərin məna kəsb edən, sözlərilə uşaqlıqdan müdrikliyə doğru yol alan, atasının şərəfli yolunu davam etdirmək arzusunda olan Arzunun arzularıdır. Vətənə məhəbbət də ilk öncə evdən, ailədən düzgün tərbiyə alan övladlara nəsib olur. Zəminə Xınalının öz yaradıcılığında da, övladlarının tərbiyəsində də ən böyük amalı vətənpərvərlik ruhunu gənclər arasında yaymaqdır.

Əslində, bu sadaladıqlarımıza şairə çoxdan nail olmuşdur. El-el, oba-oba şəhid analarının dərdlərinə şərik olaraq Qazax, Sumqayıt, Şamaxı, Naxçıvan, Bakı. Quba, Kürdəmir, Şəki rayonlarından olan vətən oğullarının şəhidlik zirvəsinə ucalmasını qürur hissi ilə qələmə alan şairə yazır:

***Azəri yurdunun mərd oğulları,***
***Qanıyla suvardı ana torpağı.***
***Əhmədin, Vəlinin, Muxtar, Siracın,***
***Yayıldı ellərə şəhid sorağı.***

Vətən uğrunda canlarından keçən oğullar bir evin deyil, bütövlükdə bir elin oğullarıdır.

***Bu gün örnək olub, doğma vətənin,***
***Qeyrətli, cəngavər mərd oğulları.***

## Zəminə Xınalı

***Soyuq səngərlərdə, ön cəbhələrdə,***
***Milli ordumuzda hərb uğurları.***

Zəminə Xınalı yaradıcılığının əzəli də, axırı da onun milli ordumuzu Qələbə əzmində göstərməsidir.

***Qələbə əzmilə zəfər marşını,***
***Xoş müjdə xəbərin yetirəcəklər.***
***Üç rəngli müqəddəs bayrağımızı,***
***Polad biləklərdə gətirəcəklər.***

Ana və vətən sözü həmişə qoşa çəkilir. Vətən uğrunda bir evdən qoşa oğul – Yusif və Məhəmməd Qazax mahalının Incə dərəsində böyüyüb-başa çatsalar da Vətən uğrunda qoşa göyərçin kimi qanad açıb vətən harayina yollandılar. Şəfiqə ananın qoşa oğul dərdini qələmə alan şairə yazır:

***İki şəhid oğullu sən ey Şəfiqə ana,***
***Sizin təki analar gərək Azərbaycana.***
***Bilirəm ağlayırsan hər zaman yana-yana,***
***Iki oğul dərdinə necə dözürsən, ana?***

Və yaxud :

***Baş əyirəm, qarşısında diz çökürəm qarşısında,***
***Adına dastan yaziram hər iki qardaşın da,***
***Yaman dərdi sən niyə çəkirsən bu yaşında,***
***Iki oğul dərdinə necə dözürsən, ana!***

Şəhid Zeynalov Bəxtiyara ithaf etdiyi şeirində şairə yazır:

*Adını Bəxtiyar qoydular sənin,*
*Bəs niyə bəxtindən yarımadın sən?*
*Elini-obanı sevdiyin üçün*
*Torpağı canından ayırmadın sən.*

Kitabda müəllif hər bir şəhid haqqında ayrıca oçerk yazmış və onların ömür yolundan bəhs etmişdir. Rəhimov Asif Qəzənfər oğluna həsr etdiyi kövrək misralarında o yazır:

*Taleyin sərt sınağı, sənin bəxtinə düşdü,*
*Uşaqlığın analı, həm atasız ötüşdü.*
*Parlayan bəxt ulduzun, çiçəkli yaz günündə,*
*Ana torpaq uğrunda qəflət öncə sönmüşdü.*

Bu kitabda şairının şəhidlərimizə həsr etdiyi ağılar da vardır.

*Əzizim ağlar qalar,*
*Qapısı bağlar qalar,*
*Yarı şəhid olanın*
*Sinəsi dağlar qalar.*

Şairənin Vətən torpaqlarının azadlığı uğrunda şəhid olan əsgərə yazdığı kövrək notlu şeri də çox təsirlidir:

*Taleyim yetişdi, gedirəm daha,*
*Ay anam,ağlama,ağlama məni.*
*Dünyamı dəyişib, köçürəm daha*
*Ay anam,ağlama,ağlama məni.*

Kürdəmir rayonu Xınıslı kəndində dünyaya gələn, əslən Qazax mahalı, İncə dərəsindən olan hələ uşaq ikən atasız böyüyən şəhid Ilqar Həsənqarayev haqda Z.Xınalı yazır:

***Hələ sən uşaq ikən atan köçdü dünyadan,***
***Anan sizi qorudu hər xətadan-bəladan,***
***Alın yazın, qismətin bəlkə elə bu imiş,***
***Uzun ömrün nə üçün qısa yazdı yaradan.***

Zəminə Xınalı şəhidlər haqqında yazdığı əsərlərini mürəkkəblə deyil, ürəyinin qanı ilə yazır desək daha yerinə düşərdi:

***Ürəyimdən bayatını,***
***Ağ varağa köçürmüşəm,***
***Neçə belə qəmli gecə,***
***Ağlar bahar ötürmüşəm.***

Ömrünü hərb sənətinə bağlayan, yaradıcılığını hərbi vətənpərvərlik mövzusuna kökləyən Z.Xınalı yurd dərdinə dözməyən şəhid Barıyev Məzahir Mənəmməd oğlunun 1993-cü ildə Qazax mahalı Fərəhli kəndi uğrunda canını qurban vermiş Vətən oğlunun ölümündən sonra onun həyat yoldaşının da faciəli ölümündən təsirlənərək Fərizənin fədakarlığını təkrar edən el qızını da yada salır:

***Sən vətənin uğrunda,***
***Yarın sənin uğrunda,***
***Ölməyi ən müqəddəs,***
***Şərəfli borc bildiniz,***
***Dillərdə dastan kimi,***
***Danışılan sevgini,***

***Tarixin yaddaşına,***
***Ömürlük həkk etdiniz.***

1972-ci ildə Sumqayıt şəhərində anadan olmuş Şükürov Pərviz Sovet oğlu ali təhsilli zabit idi. Ali Hərbi Ümumqoşun komandirləri məktəbinin məzunu olduqdan sonra Türkiyədə təhsilini davam etdirmişdi. Elə döyüş bölgəsində də "N" sayli hərbi hissədə bölük komandiri təyin edilmişdir. Qızğın döyüşlər ərəfəsində bir göyərçin qanadı qırılmış halda Pərvizin çiyninə qonur. Gənc leytenant onun qana boyanmış qanadlalrını sarıyır və göyərçin uçub bir ağacın budağına qonur. Həmin gün günortadan sonra qızğın döyüşlər başlayır. Pərviz əsgərlərinə tapşırıq verərkən hamının gözü önündə həmin göyərçin qanadı sarıqlı halda yenə Pərvizin çiyninə qonur. Pərvizin əsgərləri komandirin çiyninə qonan göyərçinin şəklini çəkirlər. 1993-cü ildə Füzuli bölgəsinin Yuxarı Kürdmahmudlı kəndi uğrunda şəhid olan Pərvizin həmin şəklini onun döyüş dostları anasına bağışlayırlar. Ürəyinin başında şəhid şəklini saxlayan ana 2001-ci ildə həmin şəkli hərbçi – şairə Zəminə Xınalıya göstərir. Şəhid Pərvizin çiynindəki göyərçinə baxaraq, şairə yazır:

***Şahlıq quşudurmu,***
***Qonub çiyninə***
***Axı bu nə qəmdir,***
***Çöküb gözünə.***
***Allah, dilim qurusun,***
***Ağzım qurusun.***
***Öyrənə bilmərəm***
***şəhid sözünə.***

***Bəlkə bu göyərçin***
***göylər üzündən***
***ölüm xəbərini***
***gətirdi sənə.***
***Vətən torpağını***
***sevdiyin üçün***
***Vaxtsız bir ölümü***
***yetirdi sənə.***

Qazax mahalının Çaylı, Yuxarı Salahlı, Aşağı Salahlı, Qaymaqlı və Kəmərli, Aslanbəyli kəndlərindən olan şəhidlərin çoxusunun valiideynlərini yaxından tanıyan Zəminə Xınalı məktəblərdə keçirilən görüşlər zamanı bu valideynlərin dərdinə şərik olur, valideynlərə də müəllim və şagirdlərə də vətənpərvərlik mövzusunda çap olunmuş kitablarından hədiyyə edir. Aşağı Salahlı kəndindən olan şəhid Hüseynov Nizaminin oxuduğu məktəbə onun adının verildiyini eşidən şairə yazır:

***Doğma ana məktəbin,***
***Adını daşıyır sənin.***
***Gör neçə insanların,***
***Ürəyində,qəlbində***
***Adın yaşayır sənin.***

Zəminə Xınalının yaradıcılığı ilə yaxından tanış olan, onun mahnı və marşlarını ön cəbhələrdə oxuyan əsgər qardaşlar düşmənin canına qorxu salır, işğal altında qalmış torpaqlarımızda babalarımızın səngər məzarlarından boylanan ruhları onları döyüşkənliyə, düşməndən qana-qan - deyə qisas almağa səsləyir. Babalarımızın belə bir məsəli də var ki, “Aslanın erkəyi, dişisi olmaz”. Bax elə ona görə də Zə-

minə Xınalının qəlbindən qələminə süzülən döyüşkən ruhlu şeirlərini dillərində əzbər edən oğullar qanlı köynəyini bayrağa döndərib Vətən torpaqları uğrunda bağırlarından qopan pələng nəriltili gur səslərilə bir ağızdan:

***Biz çəmənlar içində,***
***gül-çiçəklər içində.***
***Vətənin torpağını,***
***Zərif çiçək görürük.***
***Torpaq əziz, müqəddəs***
***olduğundan bəlkə də,***
***Bu torpağın uğrunda***
***Biz döyüşə gedirik.***

Zəminə Xınalı əzmkar Vətən oğullarını torpaqlarımıza yağı ayağı dəyməsin deyə bir ana harayı ilə səsləyir.

Z.Xınalının “Araz” nəşriyyatında 1998-ci ildə çapdan çıxmış “Yarı yolda qalan ömür” kitabı da bütövlükdə şəhidlərimizə həsr olunmuş kitabdır.

Vətən həsrəti, yurd dərdi, torpaq yanğısı hər bir azərbaycanlının sinəsinə çalın-çarpaz dağlar çəkdi. Müqəddəs yurd yerlərimizin səcdəgahımız ziyarətgahlarımızın erməni faşistləri tərəfindən yerlə-yeksan edilməsi Zəminə Xınalını məhvərindən çıxardı. Narahat və nigaran ömür yolunda əsərlərini yalnız intiqama, qisasa kökləyən şairə şəhid oğulların böyüyüb-başa çatdığı kəndlərdə olub, onlara elm, təhsil verən müəllimlərlə, kənd adamlarıyla yaxından söhbətlər edib, sanki şəhidlərin “vətənpərvərlik” tərcümeyi-halını təzədən yazıb. Şairə sanki vətən torpaqlarının müdafiəsi uğrunda canlarını qurban vermiş Vətən oğullarının müqəddəs

adlarını öz yaradıcılığı ilə tarixin daş yaddaşına həkk edib. Anaların göz yaşlarına dözməyən şairə yazır:

***Heç bir ana görməsin,***
***Dünyada övlad dağı,***
***Dillərinə gəlməsin,***
***Nə bayatı, nə ağı.***

Zəminə Xınalı öz peşəsinə vurğunluqla sadiq qalaraq uzaq-uzaq ellərə yol alıb, şəhid ailələrinin bağlı qalmış qapılarını döyüb, neçə-neçə şəhid ailələrini öz gəlişiylə sevindirərək Şərur rayonunun Yengicə, Qorçulu, Alşar, Qarabağlar, Cəlilkənd kəndlərində olub. Şairənin bircə amalı var, şəhid ailələrində olmaqla onları mənən ruhdan düşməyə qoymamaq, dövlət qayğıları ilə əhatə olunan şəhid ailələrinə mənəvi dayaq olmaq.

Şərur rayonunda olarkən Nazim Novruzovun haqqında yazdığı şeirində şairə deyir:

***Ürəyində dünya boyda arzusu,***
***Yarı yolda ömrü qaldı Nazimin.***
***Canını torpağa qurban verəndə,***
***Şəhid kimi adı qaldı Nazimin.***

Cavan ömürlərini Vətən yolunda qurban vermiş vətən oğullarının dilindən şairə yazır:

***Haray çəkər, kömək istər Qarabağ,***
***Köməyinə mən yetməsəm, onu bil,***
***Rahat yatıb oyanmasam yuxudan,***
***Sən mən adda bir oğulun adın sil.***

Dünyaya oğul gətirən analar özlərini necə də xoşbəxt sanarlar. Oğul boyuna baxıb vüqarlanan anaların ürəyindən belə bir duyğu da keçər "Oğul düşmən çəpəridir". Gözəl qızları gözaltı eyləyən analar oğullarının toy günündə qol götürüb oynayarlar. Gəlin süzən çaydan içib dizləri üstündə nəvələrinə, layla çalan analar hardan biləydilər ki, gül üzlü nəvələri ataları savaşa yollananda intizarda qalacaqlar. Belə ailələrin biri ilə tanış olan Zəminə Xınalı şəhid olmuş vətən oğlunun qız balasının nəmli gözlərinin acısını yaşayaraq onun dilindən belə yazıb:

***Mən səni gözlədim,gözləri yaşlı,***
***Sən isə geriyə dönmədin ata!***
***Yolun nə uzaqdır, səfərin dönməz,***
***Adın gur işıqdır, işığın sönməz.***
***Gözlərim yoldadır, qayıt atacan.***

Əsgəri libası geyən hər bir Vətən oğlu ölümlə üzbəüz dayandığını görür, ölümün gözünə dik baxsalar da müharibənin də öz sərt qanunları var. Zəminə Xınalının gözləri önündə cərəyan edən müharibə dəhşətləri, saysız-hesabsızdır:

***Gedirəm qəlbimdə bu hicran nədir?***
***Hardandır alnımda bu ölüm təri,***
***Bəlkə də bu gediş həmişəlikdir,***
***Deyirlər hər gedən qayıtmır geri...***

Müharibə qurbanları, əlilləri, yaralıları Zəminə Xınalı yaradıcılığının əsasını təşkil etdiyindən Vətənimizin əsgər qızı, vətən əsgərlərinin şərəfinə yazdığı "Yarı yolda qalan

ömür" poemasında deyir:

***Qara torpaq, ana torpaq özü də,***
***Dağ çayları, bulaqların gözü də,***
***Gecə yarı ulduzların özü də,***
***Şəhidləri, oğlum deyib ağlayar.***

Və yaxud:

***Baxırsan ki, ağlamaqdan,***
***Dərd çəkməkdən məğrur ata.***
***Xəstə düşüb, yor-yorğanda yata-yata,***
***Qədd əyilib, bel bükülüb,***
***Dözə bilmir, oğul deyib ağlamaqdan,***
***Ümid yeri bircə yerdir,-***
***"Şəhidlərin xiyabanı"-***

Şəhid şəklinə boylanan şairə yazır:

***Vətən üçün candan keçən igidsən,***
***Sən dünyaya igid kimi gəlmisən.***
***Sən dünyadan igid kimi getmisən,***
***Bir Vətəni, bir ananı sevmisən.***

Bu publisistik kitablarda şairə Vətən uğrunda şəhidlik zirvəsinə ucalan Vətən oğullarına üz tutar, onların ruhu qarşısında baş əyir:

***Torpaq üstə bitən güllər, çiçəklər,***
***Nə ot deyil, nə də çiçək deyil ki,***

*Vətən uğru öz canından keçənlər,*
*Hər an yaşar, yaşayacaq şəhidlər.*

Şəhidlərin adı Tanrıya yaxın olduğundan bəlkə də onların adları bu qədər əlçatmazdır və sevimlidir:

*Ölüm ağuşuna atılan əsgər,*
*Müqəddəs ad kimi yaşayacaqsan.*
*Sən uca dağ kimi, qoca dağ kimi,*
*Üç rəngli bayraq tək ucalacaqsan.*

Elə ona görə də əbədiyyətə qovuşan Vətən şəhidlərinin əbədiyaşar olduğunu söyləyən Zəminə Xınalı yazır:

*Yanar məşəllərin parlaq alovu,*
*Şəhidlər qəbrinə nur səpəcəkdir.*
*Adları dillərdə dastana dönən,*
*Şəhidlər heç zaman ölməyəcəkdir.*

Zəminə Xınalının 2001-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinin – mətbəəsində çap olunmuş “20 yanvar ümumxalq matəm günüdür” kitabının ilk səhifəsi Ulu Öndər Heydər Əliyevin kəlamları ilə başlanır. “Biz fəxr edirik ki, azadlIq yolunda özünü qurban etmiş şəhidlərimiz var, onların ruhu bizim qəlbimizdə daim yaşayacaqdır”.

Əsərdə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş sovet ordusunun qoşun hissələri və zirehli texnikasının Bakı şəhərinə, yeridilməsi dinc əhaliyə qarşı divan tutulması, yüzlərlə insanın qətlə yetirilməsi, yaralanması və itkin düşməsi barədə danışılır. Sovet Ordusunun xüsusi təyinatlı

dəstələrinin və daxili qoşunlarının iri kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə müşayiət edilmişdir. Bu dəhşətli faciənin hər anını yaşamış hər bir vətən övladının nə susmağa, nə da paslı qılınc kimi qında yatmağa mənəvi haqqı yox idi. Bu faciə lal dilləri dilləndirməli, yatmış vicdanları oyatmalı idi.

20 yanvar günü Bakı şəhəri öz qara libasını geyindi. Məhəbbət rəmzi olan qərənfillər şəhidlərin ruhu qarşısında baş əydi. O gün xalqın yaddaşında "Qara yanvar" kimi həkk olundu.

Azadlıq uğrunda ayağa qalxanların ürəyinə tuşlanan güllə yağışları Bakının hər tərəfini bürümüşdü. O müdhiş gecənin dəhşətləti ömür boyu heç kəsin yaddaşından silinməyəcək. Əsrlər keçəcək, qərinələr bir-birini əvəz edəcək, lakin insanın insana qarşı törətdiyi o vəhşiliyin ağrısı unudulmayacaqdır.

Tarix boyu öz istiqlaliyyəti, milli varlığı uğrunda mərdliklə mübarizə aparan Azərbaycan xalqı bu yolda çox şəhidlər vermişdir. Zəminə Xınalı həmin günün, həmin gecənin şahidi olduğundan onun publisist yazılarının çox hissəsi Vətənə atılan düşmən güllələrinin ağrılarından doğan duyğularının təzahürüdür.

Yağış əvəzinə qanlar yağdıran «böyük qardaşlarımızın» vəhşiliyinin qurbanı olan İlham və Fərizənin məhəbbətini Zəminə Xınalı belə qələmə almışdır:

***Gənc ailə...***
***Altı ayda nə gördülər?***
***Ilham ilə Fərizə,***
***Qəfil ölüm həsrət qoydu***
***Körpə uşaq üzünə.***

***Vətən deyib!***
***Irəliyə yeriyəndə***
***Güllə dəydi ürəyinə.***
***Məhəbbəti həmin yerdə***
***Daşa döndü.***
***Ilham kimi igid oğul***
***Şəhid oldu...***

Şəhid sevgilisi fəryad edib, nalə çəkə-çəkə ağlayan Fərizənin göz yaşı qarşısında dağlar-daşlar da dilə gəldi. Şairə Fərizənin ölüm səhnəsini belə qələmə alıb:

***Qansız zalım, necə qıydın?***
***Necə əlin vara gəlib***
***Güllə atdın***
***Nəydi bizim günahımız?***
***Bizi niyə ayrı saldın?***
***-Qəfil ölüm...***
***Qulağına pıçıldadı***
***-Sən, Fərizə***
***Sənsə, sevgi şəhidisən.***

Zaman-zaman Odlar diyarı Azərbaycana qarşı təkrar olunan yadellilərin təcavüzünə sinə gərən Vətənimiz:

***Azərbaycan ! Odlar yurdu,***
***Sinəsində köz gəzdirir.***

-deyən Zəminə Xınalı bir vətən əsgəri kimi, Vətənin azadlığı elə bil ülvi qismətdir ki, onun uğrunda ölməyə dəyər söyləyərək yazır ki:

***Şəhid olmuş ölməz ruhlar,***
***Vətən yolu, xalq yolunda.***
***Canlarını qurban vermiş,***
***And yerimiz Vətən uğru***
***Yurd yerimiz Azərbaycan.***

Zəminə Xınalının "Müqəddəs zirvə" kitabı sanki onun ömür yolundakı ən cətin imtahanlardan biri olub. Alın yazısına baş əyib ilk sevgisini qələmə almağı bacaran şairə yazır:

***Baxıram yoluna hər saat, hər gün,***
***Sənə vurulmuşam bircə baxışla.***
***Sənin ürəyinə girdiyim üçün.***
***Sən mayor Bayramov məni bağışla.***

Özünü dünyanın ən bəxtəvər xanımı sanan şairə haradan biləydi ki, qanlı müharibə onun da qapısını döyəcək. Vətən torpaqlarının azadlığı uğrunda savaşa atılan ömür-gün yoldaşından ayrı qalanda: -

***Çaşdırıb fikirlər, xəyallar məni,***
***Telefon zəng çalıb, qapı açmışam.***
***Qapının zəngini eşidən zaman,***
***Susan telefonda tək danışmışam.***

Bəlkə də məhəbbətin gücündən ilham alan şairə ağlına belə gətirməzdi ki, nə vaxtsa yolu dumana-çənə düşəcək. 1992-ci ildən bu yana ən çətin və məşəqqətli günləri başlayacaq. Döyüşə yollanan istəklisinin hərbi mundirinə baxıb qürurlanan şairə yazır:

***Çiynindəki ulduzlar,***
***Qoşa-qoşa parlasın.***
***Düşmən kənardan baxıb,***
***Ürəyində partlasın.***
***Ana-bacı namusu,***
***Qorumağın vaxtıdı.***
***Səngər səni çağırır,***
***Keşik çəkmək vaxtıdır.***

Vətənin ağır günündə Vətən harayına yollanan mayor Bayramovun oğul balaları körpə vaxtlarında atalarını döyüş paltarında görmək istəyəndə Zəminə Xınalı övladlarını ovunduraraq deyərmiş:

***Atasız darıxan uşaqlarım da,***
***Tez-tez soruşardı, atam hardadı?***
***Mən isə fəxrlə deyərdim, bala,***
***Vətən keşiyində Qarabağdadı.***

Qarabağ dərdindən dəli kimi, Şuşa yoxluğuna inana bilməyən mayor Bayramov hərbi xidmət zamanı döyüş bölgəsində ağır yaralanır və MN-nin Hərbi Hospitalına yerləşdirilir. Ölüm ayağında həkimdən son ümid diləyən həyat yoldaşının dilindən müəllif yazır:

***Ölüm də gözəldir, yaşamaq özü,***
***Həyata qayıtmaq ondan gözəldir.***
***Can verir bədənim ölmək istəmir,***
***Ruhum bu dünyada qalmaq istəyir...***

Onun ürəyində olan ən böyük arzulardan biri şanlı qələbəni görmək, övladlarının böyük toyunu görmək idi, lakin

heç birini görmək ona nəsib olmadı...

Zəminə Xınalı həyəcan dolu misralarında yazır:

***Mən dərdinə dərman deyib axtarırdım,***
***Gecə-gündüz Hospitalda***
***Qayğısına mən qalırdım,***
***Sızlayanda dözməyəndə***
***Ondan gizlin ağlayırdım.***

və yaxud

***Gözəl yarım vəfadarım,***
***yanımdaydı...***
***Bu dünyanın sirli-sehri***
***elə bil ki, qolumdaydı...***

Yoxluğuna inana bilməyən şairə dərd əlindən taqəti tükənəndə:

***Elə yaralıyam göyərçin kimi,***
***Qanadım qırılıb, yerdə qalmışam.***

- desə də artıq ailədə analıq missiyasını daşıdığı kimi, atalıq missiyasını da daşımalı olur:

***Çəkirəm taleyin qəm karvanını,***
***Mən öz çiyinimdə, öz gəncliyimdə,***
***Gecələr ağlaram, gündüz gülərəm,***
***Mən öz dərdlərimi qəmlə bölərəm.***

Kədərdən-qəmdən ayrıla bilməyən Zəminə Xınalının ən yaxın dostları mahnıları, marşları oldu. Tanınmış bəstəkarlardan Nailə Mirməmmədlinin bəstəsilə oxunan bu mahnının müəllifi Z.Xınalı olsa da, taleyinə oxşar qadınlar ona həmdəm oldular:

*Gecələrnən üzləşəndə,*
*Gündüzlərnən görüşəndə,*
*Dərdlə-qəmlə bölüşəndə,*
*Sənin məndən nə xəbərin.*

*Ayrı düşüb ayrılmışıq,*
*Yad olmuşuq, yadlaşmışıq*
*Torpaq nədir, daş olmuşuq,*
*Sənin məndən nə xəbərin.*

Ömür-gün yoldaşının vafat etdiyi Hospitalda bir əsgərin də həmin çarpayıda can verdiyinin şahidi olur:

*Sən yatdığın Hospitalda,*
*Sən yatdığın palatada,*
*Can verdiyin çarpayıda,*
*Sənə oxşar uca boylu,*
*Qara gözlü bir əsgər də*
*Can verirdi.*

Bir sözlə Z.Xınalının «Müqəddəs Zirvə» bədii-publisistik qeydləri sırf avtobioqrafik xarakter daşıyır. Bu əsərdəki hadisələr şairənin öz iştirakı ilə baş vermiş, təsvir olunanlar isə onun əzablı-iztirablı daxili-mənəvi duyğularıdır.

## ZƏMİNƏ XINALININ YARADICILIĞINDA SƏNƏTKARLIQ XÜSUSİYYƏTLƏRİ

Çağdaş Azərbaycan poeziyasında xüsusi yeri olan şairə Zəminə Xınalının yaradıcılığında poetik məqamlar, bədii təsvir və ifadə vasitələri, sözdən səmərəli istifadə, hadisələrə və ifadələrə müəllif müdaxiləsi geniş yer tutur. Bu isə şairənin əsərlərinin bədii-estetik dəyərini artırır, bədii-emosionallığını yüksəldir. Şeirlərin, ayrı-ayrı bəndlərdə təqdim olunan söz və ifadələrin məna-məzmun ahənginə xüsusi bir önəm verir. Şairənin yazdığı əsərlərin hər birində müdriklik, zamanla səsləşmə, zamanla ayaqlaşma və bu səsləşmədə poetik duyğular üstünlük təşkil edir. Istər onun bütün yaradıcılığının əsas ana xətti olan hərbi-vətənpərvərlik ruhlu şeirlərində, istərsə də təbiət gözəlliklərinə, əzəli-əbədi məhəbbətin tərənnümünə həsr olunmuş şeirlərində şeir şəkilləri, radif və qafiyə strukturu, mövzuya hakim olmaq bacarığı, sənətkarlıq məsələləri rəngarəngdir. Onun şeirləri forma və məzmun cəhətdən bir-birini tamamlayır. Bu əsərlərin əksəriyyəti heca vəznində yazılmış bayatı, gəraylı və qoşmalardır. Bəzi şeirlər məsnəvi formasında, bəziləri çarpaz qafiyəli şeirlərdir. Şeirlərin hər birində müəllifin poetik duyumları, dərin məna kəsb eləyən məzmun uyarlığı özünü göstərir. Müəllif şeirlərində uzunçuluqdan qaçır, az sözlə daha geniş mənalar ifadə edir. Onun məhəbbəti, doğma yurdumuzun gözəlliklərini tərənnüm eləyən şeirlərinin əksəriyyəti gəraylılardır. Bu gəraylıların demək olar ki, əksəriyyəti üç bənddir və müəllif burada öz məqsədinə, istəyinə nail olur, təqdim edəcəyi mətləbləri tam şəkildə oxucuya çatdıra bilir:

***Uzaq yoldan gələn yarım,***
***Yollarına qurban olum,***
***Aç qolların quca məni,***
***Qollarına qurban olum.***

***Uzun gələr gecə mənə,***
***Özün qıydın necə mənə.***
***Sevgin məndən əsirgəmə,***
***Dillərinə qurban olum.***

Bu misralar "qurban olum" adlı 3 bəndlik gəraylının iki bəndidir. Söz, ifadə sərrastlığı, gözəl qafiyə və rədif ölçü-biçimlidir. Elə bil ki, hər misra xüsusi qəliblərdə hazırlanmışdır. Bu isə müəllifin sözə olan böyük ehtiramından, söz və ifadələrin müxtəlif çalarlarından yerli-yerində istifadə etməyindən irəli gəlir.

Eyni fikirləri müəllifin "Baş sarıtel"çalsın aşıq" gəraylısı haqqında da demək olar:

***Mən öləndə ağlamayın,***
***"Baş sarıtel" çalsın aşıq,***
***Oğullarım yas tutmasın,***
***"Baş sarıtel" çalsın aşıq.***
***Telli sazım sızlayacaq,***
***Yer də, göy də ağlayacaq,***
***Ruhum onda şad olacaq,***
***"Baş sarıtel" çalsın aşıq.***

***Durnaların lələyinə,***
***Çiçəklərin ləçəyinə,***

***Zəminənin taleyinə,***
***“Baş sarıtel” çalsın aşıq.***

Şeir başdan-ayağa poetik siqlətlə yoğrulmuşdur. Axıcılıq, məna gözəlliyi, estetik dəyər o qədər mənalı-məqamlıdır ki, oxucu istər-istəməz dinləyicidə bir az kədər notları yaradan “Baş sarıtel” aşıq havasını xatırlayır. Burada da istər qafiyə və istərsə rədif mənalıdır, başqa sözlə məzmun formayla tam şəkildə uyuşur.

Z.Xınalının hərbi-vətənpərvərlik mövzusunda şeirləri içərisində də gəraylılar vardır. “Göndərin” rədifli gəraylıda şairə yazır:

***Ruhum döyüşə köklənib,***
***Misri qılınc verin mənə,***
***Hoydu mənim dəlilərim,***
***Qıratı göndərin mənə.***

***Oyan millət yurd hayqırır,***
***Düşmən yurdu çalır-çapır,***
***Cıdır düzü dərddən yanır,***
***Elatı göndərin mənə.***

Təqdim olunan bəndlərdəki qəhrəmanlıq ruhu qəfiyələrin bir-birinə uyğun gəlməsi, rədiflərin dəqiqliyi hərbçi şairənin poeziyasındakı poetik məqamların, bədii siqlətinin açıqlamasına xidmət edir. Belə dəqiq və sərrast ifadələr Z.Xınalının qoşmalarında da özünü göstərir. Şairənin yaradıcılığına xronoloji baxımdan nəzər salanda görürük ki, həm bədii cəhətdən, həm forma baxımından, qafiyə və rədif strukturu baxımından bu şeirlərdə böyük irəliləyiş, inkişaf, bədiilik və emosionallıq oxucunun estetik duyğularına təsir edən

məqamlar daha çoxdur. Bu isə onunla bağlıdır ki, Z.Xınalı yaza-yaza oxuyur, bir an belə mütaliədən qalmır, şeirdan-şeirə, kitabdan-kitaba püxtələşir, yeni-yeni yaradıcılıq nümunələri ortaya qoyur.

Z.Xınalı sözə poetik nizam verməyi, onun leksik-semantik məqamlarından ustalıqla istifadə etməyi bacaran sənətkardır. O, öz poeziyasında məcazın müxtəlif növlərindən istifadə etmişdir. Bədii ədəbiyyatda sadə məcazların ən geniş yayılan növlərindən biri epitetlərdir. Buna çox vaxt bədii təyin də deyirlər. Bədii əsərdə, xüsusilə şeirdə mənanı qüvvətləndirmək, hansısa bir fikri daha qabarıq və emosional vermək üçün həmin sözə qüvvətləndirici, yaxud təyinedici bir söz də artırırlar ki, buna epitet deyirlər. Z.Xınalının şeirlərində belə məqamlar çoxdur. "şıltaq könlüm", "qara torpaq", "qarlı dağlar", "dəli ceyran", "qəmli bahar", "zülmət gecələr", "hürkək baxış" ifadələri çox yerli-yerində işlənmiş epitetlərdir. Şairənin öz şeirlərində təqdim etdiyi «hünər meydanı», «mətin addımlar» «durna qatarı», «uca zirvə», «müqəddəs torpaq» «qaynar bulaq», «çağlayan çay», «acı ruzgar», «xoş müjdə» və s. epitet və təyinlər verilən şeirlərdəki bədii-emosionallığı qat-qat artırır, şeirin məzmununa gözəl forma uyarlığı gətirir və beləliklə əsəri daha da təsirli edir.

Poeziyada ən çox işlənən təsvir vasitələrindən biri təşbehlərdir. Buna bədii ədəbiyyatda çox vaxt bənzətmə deyirlər. Bənzətmənin əsasında müqayisə durur. Yəni bir əşya oxşar xüsusiyyətlərinə görə digər əşyaya bənzədilir. Bənzətmədə bəzən «kimi», «tək» ədatlarından istafəda edilsə də bəzi hallarda bu sözlər işlənməyə də bilir. Məsələn, "Əsgər addımları" şeirində oxuyuruq:

***Durna qatarına, durna səsinə,***
***Bənzəyir əsgərin mətin addımı,***
***Elin qüvvəsinə, selin gücünə,***
***Bənzəyir əsgərin mətin addımı.***

Burada müəllif Azərbaycan ordusunun şanı, şöhrəti olan Azərbaycan əsgərinin səf-səf düzülüşünü durna qatarına, addımlarını, səsini isə durna qatarından gələn səslərə bənzətmişdir. Bu isə şeirin məna çalarlarını bir neçə dəfə artırır. Hətta eyni bənddə şairə bir neçə məcaz nümunəsi yaradır. Eyni zamanda əsgər addımlarının səsi-sədası selin gücünə bənzədilməklə həm də mübaliğə yaradılmışdır. Yaxud digər bir şeirdə:

***Elə bil od yağdı mavi göylərdən,***
***Mərmilər töküldü torpağa dən-dən,***
***Qırmızı qan rəngli tər çiçəklərdən,***
***Torpaqdan kəfən də biçdi şəhidlər.***

Bu bircə bənddəki ifadələr başdan-başa məcazlar, xüsusilə təşbehlərlə doludur. Torpağın üzərinə tökülən mərmilər bir yandan torpağa səpilən dənə, digər tərəfdən isə göydən yağan oda, ildırıma, şimşəyə bənzədilir. Eyni zamanda torpağa gömülən şəhidlər sanki torpaqdan kəfəni də özləri biçirlər.

Bədii ədəbiyyatda işlənən məcazların biri təkrirdir. Təkrir zamanı hər hansı söz və ya ifadə iki və daha artıq səviyyədə təkrar olunur. Həmin söz və ifadənin təkrarı fikri daha da qüvvətləndirir. Məsələn şairənin “Layla çal” şeirində oxuyuruq:

***Layla çal, ay ana, mənə layla çal,***
***Elə kövrəlmişəm ağlamaq üçün.***

Burada "layla çal" ifadəsinin iki dəfə deyilməsi təkrirdir və bu mənanı daha da qüvvətli, tutumlu edir. Başqa bir şeirə fikir verək:

***Qarabağım od içində,***
***Ağla, gözüm, ağla dedim:***
***Ürəyimi köz eyləyib,***
***Dağla, dağla, dağla dedim.***

Burada da "ağla", "dağla" sözlərinin təkrarı fikrimizi təsdiq edir. Z.Xınalının şeirlərində belə məqamlar çoxdur. "Qarabağı unutmayın" şeirində oxuyuruq:

***Ana vətən – Azərbaycan,***
***Torpağına qurban olum.***
***Tarixlərdən gəlir səsin,***
***Haraylayır igid nəslin,***
***Qarabağı unutmayın,***
***Unutmayın Qarabağı!***

Bu şeirin bütün bəndləri başdan ayağa təkrirlərdən ibarətdir.

Z.Xınalının şeirlərində işlənmiş məcazlardan biri də metaforadır. Onun digər mənası köçürmə deməkdir. Bir əşyanın xüsusiyyətləri digər bir əşyanın üzərinə köçürülür. Bu isə yenə də bədiiliyə, bədii-emosionallığa xidmət edir:

***Yorğanım od olub, yastığımsa daş,***
***Vətən dara düşüb, eşit vətəndaş!***

Burada vətənin dara düşməsindən narahat olan şairə odu, alovu yorğanın üzərinə, daşı isə yastığın üzərinə köçü-

rüb. Başqa sözlə yata bilmədiyinə görə yorğanı oda, yastığı daşa oxşadıb. “Ey Vətən” adlı şeirə nəzər salaq:

***Gecələr çayların oxuyar zümzümə,***
***Şəlalə çağlayar-bənzəyər ömrümə,***
***Sevinc bəxş edirsən mənim hər günümə,***
***Səninlə fəxr edirəm, özüm ey Vətən.***

Şeirdə müəllif metaforanın-köçürmənin çox gözəl nümunəsini yaradıb. Insanların oxuma xüsusiyyətini çayların səsi üzərinə, çağlayan şəlaləni isə məhsuldarlığına görə özünün üzərinə köçürmüşdür. Yəni mənim ömrüm şəlalə kimi çağlayar, yeni-yeni əsərlərin yaranması şəlaləli çayların bol sularına bənzədilir.

Bir sözlə öz gözəl şeirləri ilə könülləri riqqətə gətirən hərbçi şairə Zəminə Xınalının yaradıcılığında bədii təsvir və ifadə vasitələrinin hansı növünə istəsən rast gələ bilərsən. Bu isə şairənin sənətkarlıq xüsusiyyətlərindən, şeirə, poeziyaya, onun qaydalarına, qanunlarına bələdliyindən irəli gəlir.

Bundan əlavə şairənin şeirlərində, poema və dram əsərlərində bol-bol atalar sözləri və məsəllərə rast gəlmək olar. Onun şeirlərində elə misra və beytlər var ki. onlar bəlkə də ayrı-ayrılıqda aforizmlərə çevrilə bilər. Məsələn:

***“Dağ boyda dərdim var, vüqarım uca”***

***“Sənin uğrunda ölməyənlərə***
***Zindansan, quyusanvətən torpağı”***

***“Ilk beşiyim, son mənzilim vətənim”***

***“Bu məzar tək deyil, əsrin yaddaşı,***

***Silkələr, oyadar hər vətəndaşı”***

***“Bu şəhid məzarı, bu türk məzarı,***
***Günəş tək parlayar, çıraq tək yanar”***

***“Bir ömür payını yaşamaq üçün***
***Bir tale yükünü çəkəsən gərək”***

***“Döyüşdə türk oğlu aslan, şir olar***
***Azəri türklərlə daim bir olar”***

***“Qisas qiyamətə qalmaz”***

***“Qana qan deyibdi qanlı döyüşdə”***

***“Zirvəsi qartallı dağlara bənzər,***
***Vətən torpağından güc almışam mən”***

***“Ömür şam kimidir əriyib gedər***
***Heç kəsin ömrü getməsin hədər”.***

***“Azadlıq yolunda çəkmədik nələr”***

Belə misra, beyt və bəndlərin sayının istənilən qədər artırmaq olar. Təbii ki, bu misra və beytlərin hər birində şairə Zəminə Xınalının cəfakeş ürəyinin döyüntüləri, həyəcan və çırpıntıları hiss olunur. Bu həyəcan və çırpıntılar vətənin azadlıq və istiqlalının, doğma torpağın zaman-zaman təcavüz və işğallara məruz qalan ata-baba yurdlarımızım birlik və bütövlük amalını görənə qədər, vətən şəhidlərinin günahsız qanlarının yerdə qalmayacağını görən günə qədər öz oxucusunu düşmənlərə qarşı mübarizəyə, mücadiləyə, qisasa, qiyama səsləyəcəkdir.

## MÜASİRLƏRİ ZƏMİNƏ XINALI HAQQINDA

Əziz oxucu! Zəminə Xınalının keşməkeşli ömür yoluna, vətənə, torpağa, xalqa və doğma ədəbiyyatımıza sevgi və məhəbbətlə yoğrulmuş yaradıcılığına həsr olunmuş bu kitabı oxuduqca yəqin ki, az da olsa onu tanıdın. Onun doğma vətənimizə sədaqətlə döyünən ürəyinin səsini avazını eşitdin və bildin ki, bəli Azərbaycan ədəbiyyatında belə bir vətənpərvər şairə, Azərbaycan ordusunda belə bir cəngəvər ruhlu əsgər, Azərbaycan qadınları içərisində belə bir cəfakeş ana, şəhid olmuş ömür-gün yoldaşının ideyalarını həyata keçirən bir qadın – həyat yoldaşı var.

Bütün bunlar bugünkü həyatımıza, bugünkü gəncliyimizə bir örnək deyilmi?

Z.Xınalının ömür və yaradıcılıq yolu daim onun müasirlərinin, qələm dostlarının, şair və publisistlərin diqqət mərkəzində olub. Şairə həsr olunmuş bədii, publisistik yazılarla bərabər ona, onun xarakterinə, yaradıcılığına 20-dən çox müəllif müxtəllif şeirlər ithaf etmişlər. Tanınmış şairlər Ramik Muxtar, Rüstəm Bağır, Sabir Arazlı, Fəridə Ləman, Vahid Hacıyev və digərləri Z.Xınalıya həsr etdikləri şeirlərində onun vətənpərvərliyini, vətən, yurd sevgisini ön plana çəkmişlər.

Z.Xınalıya həsr olunmuş ən dəyərli əsərlərdən biri əslən Qarabağ bölgəsindən olan şair Sabir Arazlı Özgünün "Əsgər libaslı qadın" poemasıdır. Poema lirik səpgidə yazılmış bir əsərdir. Müəllif burada lirik ricətlərlə Z.Xınalının xarakterini poetik bir şəkildə açmağa çalışmışdır. Məsələ burasındadır ki, şair özünün dediyi kimi bu poemanı yazarkən Zəminə

xanımı şəxsən tanımırdı. Yalnız mətbuat səhifələrində, televiziya ekranlarından yaradıcılığına bələd olduğu şairənin lirik-romantik obrazını yaratmışdır.

Müəllif ilk öncə Zəminə adının ayrı-ayrı məna çalarlarını araşdırmış, uşaqlır və ilk gənclik illərini yada salmış, uşaqlıqda şıltaq bir qızcığaz olan Zəminənin artıq zaminlik həddinə çatdığını, hər şeyə, hər məsələyə zəmanət verə bilmək məqamında olduğunu misraların dili ilə təqdim etmişdir. Müəllif poemada Z.Xınalını Azərbaycan xalqının qəhrəmanlıq tarixində silinməz izlər qoyan qəhrəman qadınlarla müqayisə etmiş Tomrisin, Mehrican Xatunun, Tuti Bikənin, Möminə Xatunun, Sara Xatunun, Heyran xanımın, Kəminənin və digərlərinin tarixdə qoyduğu izləri sadalamışdır. Bu xatırlatmadan sonra şair yazır:

***Bu diyarın Taclı bəyim,***
***Salatını,***
***Gültəkini var.***
***Və bir də bu cərgədə***
***Zəminə Xınalı sıralanar,***
***Zəminə Xınalı.***
***Məğrur, qürurlu, Azərbaycan qadını!***
***Haqlıyam ki, mən yazam,***
***bu adlarla yanaşı,***
***o döyüşkən, şir cüssəli,***
***Aslan dəyənətli insanın adını,***
***Əsgər libaslı bir mələkdir,***
***Zəminə Xınalı.***
***Ilahinin qismətinə inanır o,***
***Bu qismətlə ovunur o.***

***Ağ atlı Ali Baş Komandanın,***
***hünərinə,***
***Bir də ki,***
***Azərbaycan Ordusuna güvənir o.***
***Gün gələcək:***
***Bu mələyin Ayaz-Arzu qanadları,***
***Yığılacaq, açılacaq,***
***Qarabağın qalasına – Şuşamıza***
***Qalibiyyət bayrağımız***
***Ərənlərin əllərilə sancılacaq.***

Tanınmış şair Ramik Muxtar Z.Xınalıya həsr etdiyi “Döyüşçü qız” adlı nəğmə-şeirində yazır:

***Geydi əsgər paltarını Vətən qızı,***
***Xonça tutdu qərənfillər alqırmızı,***
***Ayla Günəş nur çilədi yollarına,***
***Rəbbim Allah özün qoru, bu nər qızı.***

***Qəzəb odu alovlandı ürəyində,***
***Şir gücü var bu gözəlin biləyində,***
***Təbəssümü bir məlhəmdir əsgərlərə,***
***O səsləyir igidləri zəfərlərə.***

Bəstəkar Nəriman Məmmədovun bəstəsi ilə nəğməyə çevrilmiş bu misralarda şair qəhrəmanının düşmənə nifrətini, Vətənə məhəbbətini yüksək səviyyədə vermişdir.

Eyni mövzuda digər bir şeiri isə mərhum şairimiz Rüstəm Bağır qələmə almışdır. Əməkdar incəsənət xadimi, bəstəkar Hikmət Mirməmmədli “Əsgər libasında qadına alqış” adlı bu

şeirə maraqlı bir musuqi də yazmışdır. Z.Xınalını zərif çiçəklərə, güllərə bənzədən şair, həm də əsgər libasında olan bu qadını alqışlayır:

***Şairlər yurdunda göz açmısan sən,***
***Səni böyüdən anaya min əhsən.***
***Vurğun bulağından bəhrələnmisən,***
***Sevənlər qəlbində özün fərəhsən,***
***Namusla yaşanan adına alqış,***
***Əsgər libasında qadına alqış.***

Şeirin ikinci bəndini şair elə qurmuşdur ki, hər misranın baş hərflərini alt-alta düzəndə ZƏMİNƏ sözü alınır:

***Z**ərif çiçəklərə, güllərə taysan,*
***Ə**ngin üfüqlərdən boylanan aysan.*
***M**arşların səslənir əsgər dilində,*
***İ**lhamın çağlayır nəğmə selində,*
***N**amusla yaşanan adına alqış,*
***Ə**sgər libasında adına alqış.*

Z.Xınalıya müasirlərinin həsr etdiyi digər bir şeir şairə Fəridə Ləmanın “Ay Zəminə Xınalı” adlı şeiridir. Burada da F.Ləman Z.Xınalının şəxsiyyət və şair kimi, hərbçi kimi sevə-sevə tərənnüm eləyir:

***Hərbi marşlar yazmısan,***
***Ad alıb, san salmısan.***
***Vətən deyən hayımsan,***
***Qızdan qızıl payımsan,***

***Xınalı qız Xınalı.***
***Ay Zəminə Xınalı.***

Z.Xınalının doğulub boya-başa çatdığı Incə dərəsinin yetirmələrindən biri olan şair-publisist Vahid Hacıyev də ona həsr etdiyi şeiri böyük ürəklə, istəklə yaşmış, şərəfli bir ömür sürən şairənin doğma ata yurdunda nə qədər böyük məhəbbətlə sevildiyini istəkli kəlmələrlə belə dilə gətirir:

***İnsan üçün bir şərəfdir,***
***Bil ki, ömrün mənalısı.***
***Bax beləcə ömür sürdün,***
***Ay elimin Xınalısı.***
***Dözümlüdür məhəbbətin,***
***Təmiz adın, ləyaqətin.***
***Dağ vüqarlı şux qamətin,***
***Ay elimin Xınalısı.***

Z.Xınalının şəxsiyyəti və yaradıcılığının açılmasına kifayət qədər önəm verən şeirin digər misralarına nəzər salaq:

***Necə gözəl hərb libasın,***
***Paqonların zər zibası,***
***Kömək olsun el duası,***
***Ay elimin Xınalısı.***

Şair haqlı olaraq onu elin, obanın balası, yetirməsi Xınalı qızı hesab edir.

Gənc şairə Pərvanə Nizammədinin Z.Xınalıya həsr etdiyi “Sən ocaq daşısan” adlı şeir də çox maraqlı və orijinal səslənir:

***Öncə Vətən deyən ay vətən qızı,***
***Geyindin əyninə əsgər libası,***

-deyən şairə Zəminə Xınalını vətən sevgisinin ucalığına görə yurd yerinə hopan ocaq daşına bənzədir və bu ocaq daşından pərvazlanan ocaq tüstüsü düşmənləri kor edəcəkdir. Ancaq sənin çatdığın bu ocağın həniri həmişə közərəcək və hər zaman nəsillər səni şərəflə, fəxrlə yad edəcəklər:

***Sən ocaq daşısan, sən yurd yerisən,***
***Durnalar lələyin tökəcək orda,***
***Yad daş Qarabağda binə tutammaz,***
***Sevgin qasırğa tək sökəcək orda.***

***Eşq olsun çatdığın yanar ocağa,***
***Tüstüsü düşməni kor edəcəkdir.***
***Bir dəfə qiy vursan qartallar kimi,***
***Səsin nadanları kar edəcəkdir.***

Şairə Mərcan Şahbuzlu "Qəlbimə əzizsən" şeirində Z.Xınalıya olan sonsuz sevgisini ürəyindən gələn ən şirin kəlmələrlə belə tərənnüm edir:

***Yolundan dönməzsən çox qürurlusan,***
***Qəlbi işıqlısan, qəlbi nurlusan,***
***Həyatda həmişə sən uğurlusan,***
***Sinəsi kükrəyən coşqun dənizsən,***
***Sən mənim qəlbimə doğma, əzizsən.***

Öz qızının uğurlarından sevinən Məhəmməd Hacıkərimoğlu *(Z.Xınalının atası- T.A.)* da böyük fərəh hissilə Z.Xınalıya

şeir həsr etmiş, onun eldə-obada, doğulduğu İncə dərəsində sevilən bir insan olduğunu önə gətirmişdir. Bu sevinci oxucularla bölüşən M. Hacıkərimoğlu yazır:

***Ay Xınalım, həm şairsən,***
***Həm cəngavər əsil sən.***
***Tomris ana, Nüşabəsən deyəsən.***
***İncəlisən- el-obanın***
***Müqəddəslər nəslisən.***
***Həyatının hər anında***
***Vəsf edirsən vətəni,***
***Qədirbilən nəsillərin***
***Heç unutmazlar səni.***

Şəmkir rayonunda yaşayan Maarif Əliyev də Z.Xınalıya həsr etdiyi şeirdə yazır:

***Əynində mundiri qeyrətə bir bax,***
***Baxışı alovlu mənalı bacım.***
***Əyilməz qəddi var, qüdrətə bir bax,***
***Nə gözəl təxəllüs “Xınalı” bacım.***
***Tanıdır aləmə mahalı sözlə,***
***Mübarək qədəmi səyalı üzlə,***
***Vətənə tac olar, həyalı üzlə,***
***Şirin dilli, cəngi dühalı bacım.***

Azərbaycan ordusu içərisində şeiri, poeziyanı yüksək qiymətləndirən, bəzən isə bədii yaradıcılıqla məşğul olan əsgər və zabitlər çoxdur. Onların da bəziləri Azərbaycan ordusunun sıravi əsgəri şairə Zəminə Xınalıya müəyyən

şeirlər həsr etmişlər. Onlardan biri – Qarabağ müharibəsi veteranı polkovnik-leytenant Şakir Səlimov "Sadiqsən vətənə" şeirində Z.Xınalını vətənə layiq bir əsgər kimi xarakterizə edərək onu kişi qeyrətli cəngavər qadınlara bənzədir, başının Murov tək, Qoşqar tək uca olduğunu vurğulayır:

***Bilirəm yüksəkdir hər şeydən sənə,***
***Vətəntək müqəddəs əqlin, qürurun,***
***Sadiqsən vətənə, şəhid ərinə,***
***Dayanmısan keşiyində bu yurdun.***

***Vətəni qoruyur iki nər oğlun,***
***Ucadır Murov tək, Qoşqar tək başın.***
***Igid əsgərləri Vətən yolunda,***
***Döyüşə səsləyir qələbə marşın.***

***Tomris tək cəngavər igid qadınsan,***
***Kişi qeyrətinə heyranam bacı,***
***Fəxr et hünərinlə, fəxr et öyün sən,***
***Anadır, Vətəndir başının tacı.***

Uzun müddət hərbi sahədə çalışmış, keçmiş hərbçi, baş gizir, Azərbaycan Yazıçılar Birliyinin və Dirili Qurbani məclisinin üzvü, əslən Qarabağ mahalından olan şair Rafiq Mirzə də həmkarı, Dirili Qurbani Məclisinin üzvü Z.Xınalıya həsr etdiyi şeirində onun elin-obanın dərdinə, sərinə yanan, heç kəsdən köməyini əsirgəməyən elin, obanın, millətin şairi adlandırır:

***Ömür boyu xəyallarla yaşayan,***
***Vətən üçün əməlinlə yaşa, yan***

***El yükünü öz çiynində daşıyan,***
***Sənsən, ay Xınalı elin şairi.***
***Azəri yurdumun gözəl şairi.***

Şair təqdim elədiyi bəndlərdə Z.Xınalını elin anası, bacısı, məsləkdaşı, məsləhətdaşı adlandırır. Bəzən nadan adamları da öz yerində oturdan şairəyə deyir:

***Düşmənə düşməndir, dosta mehriban***
***El yolunda ürəyini yandıran,***
***Nakəsə, nadana mətləb qandıran,***
***Sənsən, ay Xınalı elin şairi,***
***Azəri yurdumun gözəl şairi.***

Z.Xınalının "Mənim əsgər qardaşım" kitabını oxuyandan sonra şairəyə rəğbətini bildirən Azərbaycan ordusunun zabiti Vaqif Nəhmətov yazır:

***Qadın olsanız da çox məğrursunuz,***
***Belə qızı olan Vətən basılmaz.***
***Bu haqda özünüz eşitmisiniz,***
***"Aslanın erkəyi, dişisi olmaz".***

***Qələmin bir silah, misran qılınc tək,***
***Düşmənin bağrını yarır, bəs necə?***
***Az qalıb, Xınalı! Düşmən ilan tək***
***Sürünər, yalvarar, görərsən necə?***

Sumqayıtda yaşayan Xaqani Abdinov da Azərbaycan ordusunun bu əsgər qızına şeir həsr etmişdir. Şeirin bir parçasına diqqət edək:

*Günahkar deyilsən, anan qız doğub,*
*Səni vətən dərdi yamanca boğub.*
*O, ürək yoldaşın əbədi uyub,*
*Sənə dayaq olsun Tanrım, Xınalı.*

*Səndə mn kişinin qeyrəti varmış,*
*Qəlbində ilk eşqin sevdası varmış.*
*Könlünün dərd-qəmi, həsrəti varmış,*
*Həsrətə gərirsən sinə, Xınalı*

Bəzən heç peşəkar şair olmayan insanlar da bu məğrur Azərbaycan qadınına öz ürək sözlərini həsr edirlər. Bakıdakı 161 saylı məktəbin direktoru Əli Kazımov yazır:

*Şeirləri Vətən üçün ağlayan,*
*Hər birisi gur çeşmə tək çağlayan.*
*İgidləri öz elinə bağlayan.*
*Bu məhəbbət tükənməsin, Xınalı,*
*Əsgər bacım, ay Zəminə Xınalı!*

*Xınalısan əzəl başdan-binadan,*
*Seçilməzsən vətəndəki sonadan.*
*Doğulmusan vətən adlı anadan,*
*Arzuların başa çatsın, Xınalı,*
*Əsgər bacım, ay Zəminə Xınalı!*

Bu adamların çoxu bəlkə də heç Z.Xınalını yaxından görməyib, yaxından tanımır. Amma onun odlu-alovlu poeziyası bu insanları riqqətə gətirir. Neftçaladan Rəfael Ərəstunoğlu da yazır:

***Mərdanə deyibdir, sözünü hər an,***
***Həcər qeyrətlidir, vardır vüqarı.***
***Keçib əsgər kimi çox sınaqlardan***
***Yaranıb həvəslə ordu marşları.***
***Zəminə Xınalı əsgər-şairə,***
***Sinəsi kəlamlar, söz xəzinəsi.***
***İlhamı çağlayıb dönüb şeirə,***
***Marşların avazı qəlbinin səsi.***

Bundan əlavə bir sıra şairlərimiz – Naxçıvandan Xədicə Dönməz. Qazaxdan Bəxtiyar Rüstəmoğlu, Şamaxıdan Faiz Üzgün, Sevdagül Maqsud qızı və digərləri Zəminə Xınalıya müxtəlif şeirlər həsr etmişlər. O şeirlərin hər birində Zəminə Xınalı gözəl şairə, cəfakeş ana, sədaqətli əsgər kimi tərənnüm olunur, müasirləri tərəfindən sevilir və təqdir olunur.

* * *

***Vətən sevgisi vətənpərvərlik duyğuları ilə yaşayıb yaradan hərbçi şairə Z.Xınalı hərbi marşlar müəllifi kimi tarixin yaddaşına həkk olundu. Vaxt gələcək ki, mənim yazıb oxucularımıza ərməğan etdiyim bu kitab zaman-zaman hərb tarixi araşdırıcılarının stolüstü kitabına çevriləcək. Müstəqil Azərbaycanın vətən əsgəri, vətən qızı haqqında bir tədqiqatçı kimi bu kitaba sərf etdiyim ömrümü, vaxtımı ən dəyərli vaxt hesab edərək vətən borcundan az da olsa çıxdığımı hesab edir və bundan böyük qürur duyuram.***

***Vətən keşiyində dayanan hər bir vətən övladı ilə fəxr etmək hər bir azərbaycanlının borcudur.***

## ZƏMİNƏ XINALI

1964-cü il martın 21-də Qazax rayonunun Aslanbəyli kəndində doğulmuşdur. Kənddə orta məktəbi bitirdikdən sonra Sumqayıt Kimya Texnologiya Texnikumunun analitik kimya fakultəsində təhsil almışdır (1981-1984). Əmək fəaliyyətinə Sumqayıt Kimya İstehsalat Birliyində laborant kimi başlamışdır (1984-1986). Sonralar Bakıdakı 25 saylı texniki peşə məktəbində istehsalat təlim ustası (1986-1990), 240 saylı orta məktəbdə əmək və rəsm müəllimi (1990-1996) işləmişdir. Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində təhsilini davam etdirmiş, hərbi jurnalistika fakültəsini bitirmişdir (1996-1998). Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində uzun müddət Qadınlar Şurasının sədri, eyni zamanda “Azərbaycan ordusu” qəzetində ştatdankənar müxbir işləmişdir (1996-2001). Hazırda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbin hərbi qulluqçusudur. 2007-ci ildən Qazax Müəllimlər İnsitutunun filologiya fakültəsinin məzunudur.

Ədəbi fəaliyyətinə XX əsrin 80-ci illərindən başlamışdır. Azərbaycanda fəaliyyət göstərən Ali hərbi məktəbləri – H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin, Azərbaycan Ali Hərbi Təyyarəiçilik Məktəbinin, Dünya Azərbaycanlılarının Həmrəylik marşının və Azərbaycan Sülhməramlı Qüvvələrinin Sülh marşının sülh marşının sözlərinin müəllifidir. Hərbi vətənpərvərlik mövzusunda 30-dan çox mahnı mətninin sözlərini yazmışdır. “Təki Vətən yaşasın” adlı mənzum pyesi, “Ali Baş Komandanım” adlı sənədli pyesi əsasında radio-tamaşa hazırlanaraq radionun qızıl fonduna daxil edilmişdir. Zəminə Xınalının 15-dən çox kompakt disk və audio-kasseti

kütləvi şəkildə çap olunmuşdur. "Azərbaycan Silahlı qüvvələrinin 90 illiyi" yubiley medalı, "Qüsursuz Xidmətə görə" medalı, "Azərbaycan silahlı qüvvələrinin 95 illiyi" yubiley medalı ilə təltif edilmişdir. 24 kitabı çap olunmuşdur. Zəminə Xınalının müəllifi olduğu kitablar aşağıdakılardır:

1. "Mənim Əsgər qardaşım" – 1997
2. "Yarı yolda qalan ömür" –1998
3. "Üç qardaş, üç pəhləvan" –1998
4. "Müqəddəs zirvə"–2000
5. "Ömrün bahar çağında"– 2001
6. "20 Yanvar – ümumxalq matəm günüdür"– 2001
7. "Tanrı sevgisiylə döyünən ürək"–2002
8. "İncə duyğularla yaşayacaqsan"–2002
9. "Hər şeydən əzəl Vətəndir"–2002
10. "Müqəddəs Vətən" –2002
11. "Sarıtel laylası"–2005
12. "Qarabağı unutma"–2005
13. "Hərbi Məktəblərin banisi–2006
14. "Tənha türk məzarı–2007
15. "Vətən sevgisi"–2007
16. "Təki Vətən yaşasın"–2008
17. "Qaçaq İsmayıl dastanı" – 2008
18. "Vətən bizim anamızdır"–2009
19. "Ağ atlı oğlan"–2009
20. "Əmirxan əsgər gedir"–2009
21. "Vətən torpağı" –2010
22. "Ali Baş Komandan"–2010
23. "Pəhləvan Kamilin dastanı" – 2010
24. "Ömür yarpaqları" – 2011

## Zəminə Xınalının təltif olunduğu fəxri diplomlar

1. Məmməd Araz–2002
2. “Məshəti”–2004
3. “İnam Şərəf”–2004
4. “Vətən” –2007
5. “Mübariz qadın” –2007
6. “Vətən naminə” –2007
7. “Qızıl qələm” –2008
8. “Vicdanlı qələm” – 2008
9. “Müqəddəs qələm” –2009
10. “Əsrin ziyalısı” –2009
11. “Qaratel” –2010
12. “Onur Belgesi” – Türkiyə-Eski şəhər – 2010
13. “Sülh səfiri” – 2008

## Z.Xınalının təltif olunduğu medallar

1. “Silahlı Qüvvələrin 90 illik yubileyi” medalı– 2008
2. “Qüsursuz xidmətə görə” medalı–2009
3. “Silahlı Qüvvələrin 95 illiyi” yubiley medalı

## Z.Xınalının diskləri və kassetləri

1. “Dağ boyda dərdim var” – 1999
2. “Qarabağı unutma” –2000
3. “H.Əliyev adına AAHM Məktəb marşı” –2000
4. AAHDM-nin Məktəb marşı–2000
5. “Sarıtel laylası” –2000

6. “Vətən müqəddəsdir” – 2001
7. “Tənha türk məzarı” –2001
8. “Layla çal, ay ana” –2002
9. “Əsgər libasında qadına alqış”–2002
10. Dünya Azərbaycanlılarının həmrəylik marşı –2003
11. AAHTM-nin məktəb marşı–2004
12. “Şəhriyar” – 2005
13. “Ötən illərimdən xatirələr” –2007
14. “Ali Baş Komandanım” –2008
15. “Təki Vətən var olsun” mənzum pyes–2008
16. “Hərənin bir ömrü var” – 2012

# MÜNDƏRİCAT

Hərbi məktəblərin banisi ........ 4
20 Yanvar ümumxalq matəm günüdür ........ 127
***Zəminə Xınalıya həsr olunmuş bədii əsərlər*** ........ 142
Mundir altında ürək ........ 143
Zəminə Xınalıya ithaf olunmuş şeirlər ........ 150
Qizim Zəminə Xınalıya ........ 151
Şairə bacım Zəminə Xınalıya ........ 151
Silahlı qüvvələr günü azərbaycan
tv-də çıxış edən hərbiçi-şairə Zəminə Xınalıya ........ 152
Doğma əzizsən ........ 153
Hərbçi şairə Zəminə Xınalıya ........ 153
Ay elimin Xınalısı ........ 154
Sən ocaq daşısan ........ 155
Zəminə Xınalıya ........ 156
Zəminə Xınalıya ........ 157
Xınalı gözəl ........ 157
Ad günü münasibətilə ........ 159
Xınalı bacım ........ 160
Hərbçi-şairə Zəminə Xınalıya ........ 161
Hərbçi-şairə Zəminə Xınalıya ........ 162
Döyüşçü qız ........ 163
Hərbçi-şairə zəminə xınalıya ........ 164
Cəfakeş ana, gözəl şairə ........ 165
Zəminə Xınalıya ........ 165
Anamsan-bacımsan ........ 166
Arzunun anasına ithafi ........ 167
Ayazın anasına ithafı ........ 168

Zirehli gözəlsən........169
Zəminə Xınalıya........169
Zəminə Xınalıya........171
Ay Zəminə Xınalı........171
Xınalı........172
Xoş günləri görəsən........173
Hərbçi-şairə zəminə xınalıya........173
Xınalı........175
Elin şairi........176
Zirehli gözəl........176
Ellər alqışlayar qəhrəmanını........177
Zəminə Xınalının yaradıcılığında
Hərbi vətənpərvərlik........180
Vətəndaşlıq poeziyası – vətən sevgisi........181
Zəminə Xınalının dramaturgiyası........317
Zəminə Xınalının publisistikası........332
Zəminə Xınalının yaradıcılığında........354
Sənətkarlıq xüsusiyyətləri........354
Müasirləri Zəminə Xınalı haqqında........362
Zəminə Xınalı........373

Qeyd üçün